بسم الله الرحمن الرحيم

**Fxslxgghpxn-Ncplhkxn-Ncpxl**

قَالَ رَسُول الله (صلّى الله عليه وَ آله):

**اِنِّي تَارِكٌ فِيكُمُ الثَّقَلَيْنِ: كِتَابَ الله، وَ عِتْرَتِي اَهْلَ بَيْتِي، مَا اِنْ تَمَسَّكْتُمْ بِهِمَا لَنْ تَضِلُّوا اَبَدًا، وَاِنَّهُمَا لَنْ يَفْتَرِقَا حَتّٰى يَرِدَا عَلَيَّ الْحَوْضَ.**

Pcbncj |edyclfcnx C;ncl ¡ fwdwnlwavwn… **ÅPcrxrcjck lck sxbxk hnhk`bvh x;x hy`n mc vcdcngx clhkcj rudwf 'evxncl… Hgghp`k ;xhjhf` mc Xjncjxl ughk Cpgx-fedjxl. Ukghnh shn`gv`y`k`b mhojh rcvcn pe] mhoj dugwkwbw hblhbs`k`b mc ukghn å:umscnß pumwbwkwk dhk`kvh lckc 'cgxf ]hj`k[hdh rcvcn fxn-fxnxkvck hdn`glhbghn.Í**

(صحيح مسلم، ج۷، ص۱۲۲، سنن دارمي، ج۲، ص۴۳۲، مسند احمد، ج۳، ص۱۴، ۱۷، ۲۶، ۵۹، ج۴، ص۳۶۶، ۳۷۱، ج۵، ص ۱۸۲، مستدرك حاكم، ج۳، ص۱۰۹، ۱۴۸، ۵۳۳، و....)

# ƏL-BƏYAN Fİ TƏFSİRİL-QUR`AN

**(X:XK{X  {XGV)**

**(3)**

# ƏL-BƏYAN Fİ TƏFSİRİL-QUR`AN

**(X:XK{X {XGV)**

***Ayətullahul-üzma Seyyid Əbul-Qasim Xoi (r.ə)***

Mütərcim: İsmail Əhmədov

***“Ümumdünya Əhli-beyt ¢” cəmiyyəti***

**(5)**

البیان فی تفسیر القرآن- ج2/ آذری لاتین
آیة الله العظمی سید ابو القاسم خوئی
مترجم: اسماعیل احمد اف


Kitabın adı: ___ “Əl-Bəyan fi təfsiril-Qur`an" (2-ci cild)
Müəllif:_______ Ayətullahul-üzma Seyyid Əbul-Qasim Xoi
Mütərcim:_____ İsmail Əhmədov
Hazırlayan:____ “Ümumdünya Əhli-beyt ¢” cəmiyyətinin
_____________ tərcümə idarəsi, mədəni-maarif şö`bəsi
Sair həmkarlar: Redaktor: İftixar Məhəmmədov
Kompüterə yığan: Ramiz Hüseynzadə
Orijinal ilə uyğunlaşdırma və yekun baxış: İftixar Məhəmmədov
Texniki redaktor və səhifələyən: M. Əlizadə
Cildi hazırlayan: Hüseyn Səmədi
Nəşr edən: ____ “Ümumdünya Əhli-beyt ¢” cəmiyyəti
Çap növbəsi: __ Birinci
Çap tarixi:_____ 2006
Tiraj:__________ **3000**
Çapxana:______ Leyla
Elektron poçtu: www.ahl-ul-bait.org
İSBN:_________ 964-529-028-7



***Kitabın çap və sair hüquqlari “Ümumdünya Əhli-beyt ¢” cəmiyyətinə məxsusdur.***



Ünvan: İran, Tehran, poçt qutusu 14155-7368
Telefon: (++9821) 88907289
Faks: 88893061

***Bismillahir-rəhmanir-rəhim***

***“Ümumdünya Əhli-Beyt ¢ cəmiyyətindən***

Şübhəsiz, Əhli-Beyt ¢ məktəbinin nəfis inci xəzinələrindən olan və ardıcıllarının vasitəsilə qorunub saxlanılan mədəni-maarif mirası islami maarifin müxtəlif yönlərində olan hərtərəfli bir məktəbdir. Bu məktəb qeyd olunan zülal çeşməsindən mümkün qədər su içməyə qabiliyyəti olan iste`dadlı insanları tərbiyə etmiş, İslam ümmətinə bu məktəbin yolunu gedən böyük alimlər və dahi şəxsiyyətlər təqdim etmişdir. Bu böyük alimlər də mütəmadi olaraq əsrlər boyu – həm islam cəmiyyətinin daxilində, həm də xaricində – müxtəlif ideologiyalar və məzhəblər müqabilində düzgün mövqe seçərək, onlara ən dolğun və qənaətbəxş cavablar vermişlər.

“Ümumdünya Əhli-Beyt ¢” cəmiyyəti öhdəsinə aldığı bu məs`uliyyətli vəzifəni yerinə yetirmək və İslamla müxalif olan müxtəlif firqə və məzhəb başçıları tərəfindən risalət hüdudları və onun həqiqətlərinə qarşı yönələn ardıcıl hücumlar qarşısında onu müdafiə etmək üçün Əhli-Beyt ¢ və bu haqq məktəbin davamçılarının üslubunu davam etdirmək əzmindədir.

Bu xüsusda Əhli-Beyt ¢ məktəbi alimlərinin dəyərli kitablarında mövcud olan təcrübələr öz növbəsində misilsizdir. Çünki onlar əql və bürhan əsasında olan dərin elmi üsullara arxalanır və boş təəssübkeşlikdən və nəfsani istəklərdən uzaqdır, onun dinləyiciləri mütəxəssis alimlər və mütəfəkkirlərdir ki, onlara sağlam fitrətin qəbul etdiyi və əqlin bəyəndiyi bir tərzdə xitab edir.

“Ümumdünya Əhli-Beyt ¢” cəmiyyəti həqiqət aşiqləri üçün bu məktəb alimlərinin, yaxud bu şərəfli məktəbin ardıcılı olmaq və Allahın ne`mət verdiyi şəxslərin yazdığı müasir zəngin elm və

mə`rifət xəzinəsini onlara təqdim etmək üçün yeni bir mərhələni qarşıya qoymuşdur. Bundan əlavə, qədim şiə alimlərinin də bu məqsədlə yazdığı nəfis əsərlər onların ixtiyarına verilir ki, haqq axtaranlar üçün bir hədiyyə olmuş, "Ümumdünya Əhli-Beyt ¢" cəmiyyətinin bəşərin əqli səviyyəsinin yüksələrək təkamülə çatdığı, ruhun çox sür`ətlə inkişaf etdiyi bir əsrdə bütün dünyaya təqdim etmək istədiyi həqiqətlərə yol açılmış olsun.

Əziz oxuculardan xahiş edirik ki, özlərinin dəyərli tənqid və təkliflərini yazıb bizə göndərsinlər. Eləcə də, bütün alimləri, müəllif və mütərcimləri, mədəni-maarif mərkəzlərini də`vət edirik ki, əsl İslam mədəniyyətinin yayılmasında öz köməklərini əsirgəməsinlər.

Allah-taaladan aciz surətdə istəyirik ki, bu azacıq işi bizdən qəbul etsin, bizi Özünün xüsusi nəzərləri sayəsində və yer üzündəki höccətinin – İmam Məhdi ™-ın himayəsində qərar versin!

Bu dəyərli kitabın müəllifi Ayətullahül-üzma Seyyid Əbül-Qasim Xoi (rəhmətullahi əleyh)-in ulu ruhuna dua edir, onu Azərbaycan dilinə tərcümə edən İsmail Əhmədov cənablarına, eləcə də kitabın çapa hazırlanmasında zəhmət çəkən bütün şəxslərə, xüsusilə tərcümə bölməsinin əməkdaşlarına dərin minnətdarlığımızı bildiririk.

***"Ümumdünya Əhli-Beyt ¢" cəmiyyətinin mədəni-maarif şö`bəsi***

## *MÜƏLLİFDƏN*

﴿هَـــذَا بَيَانٌ لِّلنَّاسِ وَهُدًى وَمَوْعِظَةٌ لِّلْمُتَّقِينَ﴾

***Bismillahir-Rəhmanir-Rəhim***

Hələ kiçik yaşlarımdan Qur᾽an oxumağa və onun sirləri ilə tanış olmağa yüksək maraq göstərirdim. Hər bir həqiqi müsəlman, hətta hər bir həqiqətsevər insan Qur᾽anı oxuyub dərk etməyə və onun dərin sirlərindən agah olmağa sə᾽y etməlidir. Çünki Qur᾽an bəşəriyyəti haqqa hidayət edən və onların xoşbəxt həyatını tə᾽min edən səmavi kitabların ən sonuncusu və kamilidir. Qur᾽an hər şeyi açıq-aşkar bəyan edən, hamı üçün xeyirli olan ilahi nur mənbəyidir. Qur᾽an lüğət alimləri üçün ən böyük söz mənbəyi, qrammatika alimləri üçün aşkar izahlar toplusu, fiqh alimləri üçün ən canlı şahid, filosofların axtardığı maarif, xətiblər üçün fəsahətli bəyan tərzləri, əxlaq alimləri üçün isə ən gözəl etik mənbə və dərslikdir.

Bir sözlə Qur᾽an, alimlərin bütün sahələrdə apardıqları təhqiqatların tükənməz elm və bilik xəzinəsidir.

İctimai və siyasi elmlər, həyat və məişət qanunları, bəşəriyyətin ictimai idarəetmə üsulları və s. Qur᾽anda hamının başa düşə biləcəyi bir tərzdə bəyan edilmişdir. Bir çox dini elmlər məhz bu səmavi kitabdan bəhrələnmiş və zaman keçdikcə vahid məktəb kimi formalaşmağa başlamışdır. Qur᾽an dünyaya hakim olan bir çox qanunları kəşf etmiş və insanlar üçün sirr olaraq qalan bir çox məsələlərin üzərindən zülmət pərdəsini qaldırmışdır.

Bu müqəddəs kitab, mövcud olan həqiqi din üçün əbədi mö᾽cüzə və mükəmməl qanunlar məcmusudur. Bütün bunların mənim uşaq ikən Qur᾽ana həvəs göstərməyimdə və onun sirləri ilə tanış olmağımda çox tə᾽siri olmuşdur. Mən müntəzəm olaraq Qur᾽anın açılmayan sirlərinə yol tapmağa sə᾽y edir və buna nail

olduqda özümdə Qur᾽ana qarşı oyanan yüksək rəğbətin daha da artdığını hiss edirdim.

Beləliklə də, müxtəlif təfsir kitablarını araşdırır və orada, haqqında söhbət açılan mövzulara diqqət yetirirdim. Mütaliə zamanı Qur᾽anın nə qədər fəsahətli və hikmətli olmasının, Allah-taalanın mütləq və tükənməz elminin və insanların onu dərk etməkdə necə də aciz qaldıqlarının şahidi olurdum. Belə bir qənaətə gəlirdim ki, insan özünü Allah-taalanın elm və qüdrəti qarşısında nə qədər kiçik və aciz hesab etsə də, o, təsəvvür etdiyindən daha aciz və daha gücsüzdür. Qur᾽an təfsirini mütaliə etdikcə onun əzəməti mənim nəzərimdə daha da ucalır, insanın bilik və məharəti isə bir o qədər kiçilir və dəyərsizləşirdi.

Yazılmış təfsir kitablarını mütaliə edərkən belə bir qənaətə gəldim ki, təfsir alimlərinin Qur᾽an ayələrindən əldə etdikləri cüz᾽i mə᾽lumatlar yalnız onun açılmayan sirlərinin bir hissəsini təşkil edir. Onlar əldə etdikləri mə᾽lumatları bir yerə toplayaraq kitab halına salmış və müxtəlif ünvanlar altında ona təfsir adını vermişlər. İlk baxışda bu təfsirlər Qur᾽anın açılmayan sirlərinin hamısını aşkara çıxarmalı və toxunulmayan mövzuları təfsir halında izah etməli idilər. Amma bu qeyri-mümkündür. Çünki insan kimi əql və şüur baxımından naqis olan bir varlığın elmi hər şeyi əhatə edən kamil bir varlığı tamamilə dərk etməsi və onun ayələrini ətraflı şəkildə yozması qeyri-mümkündür.

Amma necə olursa-olsun, biz bu yolda böyük zəhmətlər çəkən və ömürlərinin sonunadək Qur᾽an ayələri ətrafında araşdırmalar aparan təfsir alimlərinin gördükləri işləri qiymətləndirməli və onları lazımınca dəyərləndirməliyik.

Çünki onlar bu müvəffəqiyyətə, qəlblərinə saçan Qur᾽an nuru ilə nail olmuş və bu yolda əllərindən gələni əsirgəməmişlər. Ümumiyyətlə, adi insanlardan Qur᾽anın mükəmməl və nöqsansız təfsir yazmasını gözləmək düzgün təvəqqö deyildir.

Lakin onlardan bə᾽zilərinin böyük və bəlkə də bağışlanmaz bir nöqsanı vardır. O da bə᾽zi alimlərin Qur᾽anın əzəmət və böyüklüyündən xəbərsiz olduqları halda, ayələrini öz ixtisaslarına uyğun olaraq tərcümə etmələridir. Məsələn, dilçi alimlər Qur᾽anı

yalnız lüğət və qrammatik qanunlar əsasında, filosoflar fəlsəfi qanun və terminlərə uyğun şəkildə və bə᾽ziləri də yeni elmi üsullarla təfsir etməyə çalışmışlar. Onlar belə güman etmişlər ki, Qur᾽an məhz bu nöqteyi-nəzərdən nazil olmuşdur. Bütün bunlarla yanaşı, təfsir kitablarında bə᾽zən başqa bir üslubla da qarşılaşırıq. O da bə᾽zi alimlərin Qur᾽anı öz şəxsi rə᾽yləri və heç bir e᾽tibarı olmayan şəxslərin söylədikləri rəvayətlərə əsaslanaraq təfsir yazmalarıdır.

Qeyd etmək lazımdır ki, mövcud təfsirlərin əksəriyyətində müəyyən nöqsan və çatışmazlıqlar vardır. Buna görə də hər bir alim təfsirə başlamazdan qabaq öz şəxsi rə᾽y və nəzərlərini kənara qoymalı, Qur᾽anın həqiqi mə᾽nasına yol tapıb, ixtisar və yersiz əlavələrə yol vermədən təfsir etməlidir. Başqa sözlə desək, Qur᾽an müfəssirin şəxsi rə᾽yi ilə deyil, Qur᾽anın öz zahiri ayələri ilə təfsir olunmalıdır.

Sözün əsl mə᾽nasında həqiqi müfəssir o kəsdir ki, fəlsəfə bəhslərindən agah, əxlaqi dəyərlərə yiyələnmiş və fiqhin dərinliklərinə yol tapmış olsun. O, yaşadığı cəmiyyəti yaxşıca tanımalı və orada baş verən prosesləri bir sosioloq kimi araşdırmağa qadir olduqdan sonra Qur᾽anı təfsir etməlidir. Qur᾽anda işarə olunan digər elmlərə gəldikdə də, bu üsuldan istifadə etməli və Qur᾽anı həmin elmin tələbatını ödəyəcəyi qaydada təfsir etməlidir. Bəli, hər bir müfəssir ilk növbədə Qur᾽anın bütün elm və fəsillərindən agah olmalı, bu barədə lazım olan mə᾽lumatları əldə etdikdən sonra Qur᾽anı təfsir etməyə başlamalıdır. Belə olduqda, o neçə cilddən ibarət olan Qur᾽an təfsirinin elmi, əxlaqi, sosioloji, fiqhi və s. ensiklopediyasını tə᾽lif edə bilər.

Bütün bunları nəzərə alaraq belə qərara gəldim ki, Qur᾽anın bütün gözəlliklərini bəyan edə biləcək bir təfsir yazım. Bu müqəddəs işdə Allah-taaladan mərhəmət və kömək etməsini, bütün səhv və batil təfəkkürdən məni qorumasını diləyirəm.

* * *

Bu təfsirdə qrammatik qanunlara və ədəbi mövzulara işarə etməyəcək, əvəzində isə Qur᾽anın müxtəlif mə᾽nalarına toxunan

mövzular haqqında söhbət açacağıq. Çünki Şeyx Tusi «Tibyan»da, Təbərsi «Məcməul-bəyan»da, Zəməxşəri «Kəşşaf»da qrammatik və ədəbi mövzular ətrafında geniş məˈlumatlar vermiş və nəzərə çarpan bütün çətinlikləri qismən də olsa, aradan qaldırmışlar və biz yalnız onların toxunmadıqları mövzulara işarə edəcək və müxtəsər şəkildə təfsir edəcəyik. Burada, siz əziz oxucuların diqqətini bir neçə məsələyə cəlb etmək istəyirəm:

a) İstinad etdiyimiz mövzular bunlardan ibarətdir:

***1. Qurˈanın zahiri ayələri;***

***2. Qurˈanın hamıya bəlli olan açıq-aşkar ayələri;***

***3. Sənəd baxımından möˈtəbər olan mütəvatir hədis və rəvayətlər;***

***4. Əhli-beyt (ə) tərəfindən nəql olunmuş hədislər;***

***5. Sağlam fitri əql. Çünki əql xarici və batini dəlil hesab olunur.***

Belə ki, Peyğəmbər (s) və onun pak Əhli-beyti bizim üçün zahiri (xarici) dəlil hesab olunur.

b) Adətən təfsir etmək istədiyimiz ayəni digər ayələrin məfhumu ilə izah etməyə çalışacağıq. Bir sözlə, Qurˈanı dərk etmək üçün ilk növbədə onun özündən və eyni zamanda təfsir etdiyimiz ayələrə dəlalət edən hədis və rəvayətlərdən – sübut və dəlil kimi – istifadə etmişik.

Müqəddimədə təfsirin özü ilə bilavasitə bağlı olan mətləblərə işarə edilmişdir. Bu məˈlumatlar, təfsir elmində hələ toxunulmayan məsələlərin açılmasında və müfəssirin təfsir sahəsində istifadə etdiyi üsullardan agah olmasında xeyirli ola bilər. Biz bu kimi məsələləri təfsirə başlamazdan əvvəl araşdırır və adını «Qurˈan təfsirinə giriş» qoyuruq.

Burada Qurˈanın eˈcazı, dəyişikliyə yol verilməzliyi, əbədi olaraq vahid formada qalaraq qorunacağı və bu kimi mətləblər ətraflı izah edilmişdir. Bu kitabı yazıb başa çatdırmaqda Allah-taaladan müvəffəqiyyət istəyir və həmçinin Ondan bu kiçik işimi Qurˈana xidmət kimi qəbul etməsini diləyirəm.

# *ON İKİNCİ FƏSİL*

# *QUR͗ANDA NƏSX*

*1. Nəsxin mə͗nası;*
*2. Şər͗i hökmlərdəki nəsx;*
*3. Tövrat və İncildə nəsx;*
*4. İslam və Qur͗anda nəsx;*
*5. Qur͗andakı 36 ayənin nəsx olunmasına dair irəli sürülmüş nəzəriyyələrin araşdırılması.*

## *NƏSXİN MƏ᾽NASI*

Bir çox təfsir və Qur᾽an elmlərinə dair tə᾽lif olunmuş kitablarda Qur᾽andakı bə᾽zi ayələr haqda «nəsx olunmuş ayələr» adı altında ayrıca fəsil ayrılmışdır. Əbu Bəkr Nuhas özünün «Ən-nasix vəl mənsux» adlı kitabında nəsx olunmuş ayələrin sayını 138 olduğunu qeyd etmişdir.

Kitabın bu fəslində nəsxin nə olduğunu və ayələrdən bə᾽zilərinin nəsx olunduğuna dair irəli sürülmüş müxtəlif nəzəriyyələri araşdıracağıq və beləliklə də Qur᾽an ayələrində nəsxə yol verilmədiyini aşkara çıxaracağıq.

Nəsx nəzəriyyəsi irəli sürülməklə qanunvericilik xarakteri daşıyan bir çox ayələr getdikcə öz əhəmiyyətini itirmiş, amma sonra tükənməz elm mənbəyi olan bu ilahi ne᾽mət, öz əzəmət və şan-şöhrətini özünə qaytara bilmişdir. Ümid edirik haqqında söhbət açdığımız mətləb müsbət nəticələr verərək azacıq da olsa əhəmiyyət kəsb etmiş olsun.

Biz burada nəsx olunan ayələrin yalnız otuz altısı haqda söhbət açacağıq. Əgər bu ayələrdə nəsxə yol verilmədiyini isbat edə bilsək, digər ayələrin də nəsx olunmadığını asanlıqla sübuta yetirə bilərik.

### *NƏSXİN LÜĞƏVİ MƏ᾽NASI*

Nəsxin lüğəvi mə᾽nası yazılı mətnin üzərindən köçürmək, olduğu kimi yazmaqdır. «İntisax» və «istinsax» kəlmələri də məhz bu kökdən götürülmüşdür. Nəsx lüğətdə «dəyişmək», «nəql etmək» mə᾽nalarında da işlənmişdir. Belə ki, el arasında işlənən atalar sözündə deyilir: «Tənasəxəl məvarisu vədduhuru». Yə᾽ni zaman və var-dövlət dəyişilmişdir. Bütün bunlarla yanaşı biz nəsxin lüğətdə «məhv olub aradan getmək» mə᾽nasında işləndiyinin də şahidi oluruq. Başqa bir atalar məsəlində deyilir:

«Nəsəxtişşəmsuz-zillə» – yə᾽ni gün kölgəni aradan apardı. Nəsx, Peyğəmbərin (s) səhabələrinin zamanında və sonrakı dövrlərdə də məhz bu mə᾽nada işlənmişdir. Onlar adətən külliyat

və ümumi bir məfhumdan ayrılan və ya istisna olan hər bir şeyə «nasix» (aradan aparan) deyərdilər. Çünki sonradan yaranmış əlavə və istisnalar əvvəlki hökmləri ya əvəz etmiş və ya aradan aparmışdır.

### *NƏSXİN İSTİLAHİ MƏʾNALARI*

Din alimləri və Qurʾan elmləri mütəxəssisləri bu ifadədən lüğəvi məʾnada istifadə etmişlər. Nəsxin təʾrifində deyilir: Nəsx hər hansı sabit bir şərʾi hökmün dövr və zamanı dəyişilməklə yeni hökmlə əvəz olunmasına deyilir. Təʾrifdə «sabit» ifadəsindən istifadə etməkdən məqsəd budur ki, əgər sadir olunan hökm sabit olmazsa və mövzu dəyişilməklə əvəz olunarsa artıq nəsx adlandırılmır. Məsələn, Ramazan ayı başa çatdıqdan sonra əgər bu ayda oruc tutulmasının vacibliyi aradan götürülərsə, artıq biz bunu nəsx adlandıra bilmərik. Çünki orucun vacibliyi həmişəlik deyil, yalnız Ramazan ayına aiddir. Belə ki, Ramazan ayı sona çatdıqdan sonra orucun vacibliyinə dair sadir olunmuş hökmün vacibliyi də əvəz olunur. Həmçinin vaxtı keçdikdən sonra var-dövlətə aid olan malikiyyət də nəsx adlandırılmır. Çünki bütün hallarda əvəz olunan hökmün özü deyil, mövzu və şəraitidir və mövzu dəyişilməklə hökmün aradan götürülməsi nə nəsx adlanır, nə də şəriət alimləri arasında fikir ayrılığına və ixtilafa səbəb olur.

***İzah:*** Nəsxin mahiyyətinin nədən ibarət olduğunu daha da aydınlaşdırmaq üçün oxucunun nəzərini verdiyimiz izahata cəlb edirik.

Şəriət və İslam qanunları tərəfindən verilən hər bir hökm və hər hansı bir həqiqi qanunvericilik orqanı tərəfindən qüvvəyə minən hər bir qanun sübut və isbat baxımından iki mərhələdən ibarətdir:

1. Hökmün reallaşmasında olan sübut mərhələsi;

Buradan həmin qanunvericilik mərhələsi nəzərdə tutulur. Bu mərhələdə hökm və qanun ümumi şəkildə hər hansı bir mətləb nəzərdə tutulmadan qüvvəyə minir. Məsələn, şərabın haram olduğuna dair hökm verilir. Belə bir qanunvericiliyin məʾnası bundan ibarətdir ki, hər zaman və hər yerdə şərab olsa ondan

istifadə (alıb-satmaq, içmək, hədiyyə etmək və s.) haram və yolverilməzdir.

Nəsx olunmadan belə bir hökmün aradan götürlməsi qeyri-mümkündür. Çünki bu qanunvericilikdə nə zahiri, nə də batini mətləb nəzərdə tutulur.

2. Hökmün zahiri isbat mərhələsi:

Bu mərhələdə ilk növbədə sadir olunmuş hökmün xaricdə qüvvəyə minməsi nəzərdə tutulur. Və hökm bu mərhələyə yalnız o zaman çata bilər, başqa sözlə desək, yalnız elə bir şəraitdə qüvvəyə minə bilər ki, nəzərdə tutulan mətləb xaricdə həyata keçmiş olsun. Məsələn, şərab meydana gəldiyi gündən onun haramlığına dair qəti hökm sadir olundu. Yə҆ni nə qədər ki, şərab mövcuddur, onun haramlığına dair sadir olunmuş hökm də qüvvədə olacaqdır. Lakin mövzu aradan götürüldükdə (yə҆ni xaricdə mövcud olmadıqda) hətta əgər şərab sirkəyə çevrilsə belə haramlığına dair sadir olunmuş hökm də qüvvədən düşəcəkdir. Amma diqqət yetirmək lazımdır ki, belə bir hökmün qüvvədən düşməsinin nəsxlə heç bir əlaqəsi yoxdur. Artıq bizə nəsxin və mövzunun əvəz olunmasının nə olduğu bəlli oldu. Haqqında söhbət açmaq istədiyimiz mövzu Qur҆an mütəxəssisləri arasında ixtilafa səbəb olmuş nəsx məsələsidir. Belə ki, qüvvədə olan sabit hökm, xaricdə mövzunun olmasına baxmayaraq (zəmanənin tələbatını ödəmədiyi üçün) ya aradan götürülür və ya tam ayrı bir hökm ilə əvəz olunur.

***İLAHİ HÖKMLƏRİN NƏSXİ***

Ötən fəsillərdə nəsxin lüğəvi və istilahi mə҆naları ilə tanış olduq. Görəsən nəsx özünün həmin bu mə҆nasında ilahi hökmlərə yol tapa bilərmi? Yə҆ni hər hansı bir hökm başqa bir hökmü nəsx edərək aradan apara bilərmi?

İslam dünyasının görkəmli alim və mütəxəssisləri hamılıqla nəsxin mümkünlüyünə (yə҆ni ilahi hökmlərdən bə҆zilərinin, digər hökmlərlə əvəz olunmasına) dair öz fikir və mülahizələrini irəli sürmüşlər. Lakin məsihi və yəhudi alimləri bu nəzəriyyə ilə müxalifət edərək ilahi hökmlərin nəsx olunmasını qeyri-mümkün

hesab edirlər. Bu barədə onlar heç bir əsası olmayan yalnız bir dəlilə istinad etmişlər.

### *NƏSXİN QEYRİ-MÜMKÜNLÜYÜ*

Nəsx nəzəriyyəsi ilə müxalif olanlar nəsxin qeyri-mümkünlüyü haqda deyirlər: Hökmlərin nəsx olunması bu iki haldan xaric deyildir: Ya qüvvəyə minmiş qanuna lazımınca riayət olunmamış və ya qanunverici qüvvə bunun nə ilə nəticələnəcəyini bilmədiyi üçün bir sıra çətinliklərlə qarşılaşmış və məcburiyyət qarşısında onu digər hökmlərlə nəsx etməli olmuşdur. Lakin verilən hər iki ehtimal həqiqi qanunvericiliyə, yə`ni Allaha aid olduğu üçün qəbul edilməsi qeyri-mümkündür.

***İzah:*** Qanunvericilik məsələsi elmi, hər şeyi əhatə edən adil və həkim olan Allaha aiddir. Onun bütün hökmləri zəmanənin tələbatına uyğun və eyni zamanda dərin hikmətə əsaslanır. Çünki qeyri-məntiqi və zəmanənin tələbatına uyğun olmayan qanunlar ilahi hikmət və ədalət prinsipləri ilə tamamilə ziddiyyət təşkil edir. Demək, verilmiş birinci hökm zəmanənin tələbatı ilə tamamilə uyğun və dərin hikmətə əsaslanmışdır. Və əgər qanunverici mə`lumatsızlıq və ya zəmanənin tələbatını nəzərə almadan səhvə yol verərək zəmanə və şəraitə tamamilə ziddiyyətli hökmlər verərsə və nəticədə bunun necə pis nəticələr verdiyi aşkara çıxarsa, əvvəlki hökm nəsx olmuş olur. Və belə olduqda başqa bir irad nəzərə çarpır. O da nəsxin Allahın cəhl və mə`lumatsızılığından irəli gəldiyindən ibarətdir. Nəticədə belə bir qənaətə gələcəyik ki, nəsx ya qanunvericinin zəmanənin tələbatına zidd hökm verməsindən və ya zaman və şəraitə olan mə`lumatsızlığından irəli gəlir. Halbuki, Allah bütün eyb və nöqsanlardan uzaq və bu kimi xüsusiyyətlərdən pak və münəzzəhdir.

***Cavab:*** Qanunverici (Allah) tərəfindən verilən bə`zi hökmlər heç də həmişə icra xarakteri daşımır. Yə`ni, bu kimi hökmlər bə`zən insanları imtahan və ya üzərlərinə düşən vəzifələri tam şəkildə bəyan etmək məqsədi ilə verilir. Belə olan bir halda nəsx heç bir mənfi məfhum kəsb edə bilmir. Çünki hər iki hökm (yə`ni hökmün qanunverici tərəfindən verilməsi və sonradan onun digər

hökmlə nəsx olunması) zəmanənin tələbatına uyğun və səbəbsiz olaraq verilməmişdir.

Demək, belə bir nəsxin həyata keçməsi nə ilahi hikməti ilə müxalifdir, nə də Onun cəhlindən irəli gəlir və belə olduqda belə xüsusiyyətlərin Allah üçün qeyri-mümkün olması da heç bir məfhum kəsb etməyəcəkdir.

Bə᾽zən də tələbatı nəzərə alaraq müəyyən işlər üçün qanun qəbul edir və bir müddət keçdikdən sonra onlar həmin qanunverici tərəfindən nəsx olunur. Lakin bu heç də o demək deyildir ki, qüvvədə olan ilk qanun həmişəlik olaraq qəbul olunmuş, amma sonralar ehtiyac və tələbatı nəzərə alaraq qanunverici tərəfindən daha mükəmməl bəndlərlə əvəz olunmuşdur. Belə bir şeyi qəbul etməklə böyük bir səhvə yol vermiş olardıq. Allah hökmü verdiyi ilk gündən onun qısa müddətli (müvəqqəti) olduğunu bilmiş və müddət başa çatdıqdan sonra onu yeni hökmlə əvəz etmişdir. Və belə bir şəraitdə nəsx heç bir mənfi xarakter daşımır və belə bir cərəyan Allahın elm və hikməti ilə ziddiyyətlik təşkil etmir. Belə bir nəticəyə gəlirik ki, «şər᾽i nəsx» deyildikdə, qısa müddətli qüvvədə olacaq və bu müddət başa çatdıqdan sonra nəsx olunan hökmləri nəzərdə tutmalıyıq. Nəsxin belə bir şəraitdə həyata keçməsi tamamilə normal bir haldır. Çünki zaman və şəraitin ilahi hikmət və qanunlara tə᾽sir göstərməsi inkarolunmaz bir həqiqətdir. Belə ki, bə᾽zən zaman və şərait dəyişildikdə qanunlar yenidən əvəz olunur və yeni qanun və hökmlər qüvvəyə minir. Məsələn bir zamanlar «bazar ertəsi» Allah-taala tərəfindən həzrət Musa (ə)-ın davamçıları (yəhudilər) üçün bayram (istirahət) günü tə᾽yin olunur. Əsrlər, illər keçir və İslam dini zühur edir. Şərait və zaman nəzərə alınaraq cümə günü müsəlmanlar üçün bayram və istirahət günü kimi tə᾽yin olunur. Və sonralar zaman və şərait nəzərə alınaraq namaz, oruc, həcc və dinin digər zəruri hökmlərində də müəyyən dəyişikliklər aparılır. Demək, dövrün (zamanın) əvəz olunması şər᾽i qanunların tə᾽yin və ya əvəz olunmasında ən başlıca me᾽yar hesab olunur. Zaman müəyyən dövr baxımından müəyyən xüsusiyyətlərə malik olduğu kimi, çəkəcəyi müddət

baxımından da özünəməxsus xüsusiyyətlərə malik ola bilər. Belə ki, müəyyən dövrdə adi hala çevrilmiş hər hansı bir iş və ya qüvvədə olan qanun zaman və şərait dəyişilməklə yeni-yeni qanun və adət-ən᾿ənələrlə əvəz olunur.

***TÖVRAT VƏ İNCİLDƏ NƏSX***

Yəhudi və məsihilərin ilahi qanunlarda nəsxə yol verilmədiyinə dair gətirdikləri dəlillər artıq bizə mə᾿lum oldu. Lakin bir qədər əvvəl qeyd etdik ki, ilahi qanunların nəsx olunması mümkün və adi bir haldır. Çünki nəsx hər hansı bir hökmün müəyyən dövrdə qüvvədə olmasından və ehtiyacı ödəmədikdə isə digər qanunlarla əvəz olunmasından savayı bir şey deyildir. Lakin daha təəccüb doğuran şey yəhudi və məsihilərin nəxsin ilahi qanunlarda qeyri-mümkünlüyünü iddia etmələridir. Halbuki, biz Tövrat və İncilin fəsillərinin bir çoxunun nəsx olunduğunun şahidi oluruq. Sizi onlardan bir neçəsi ilə tanış edirik:

1. «Allah-taala Musa və Haruna xitab edərək buyurur: Bəni-Qəhatın sayı qədər, Bəni-Lavi qəbilələrindən və onların ata-babaları ilə qohumluq əlaqəsi olan qəbilələrdən yaşı otuzdan-əlliyə qədər olan şəxslər orduya daxil olub orada hamılıqla lazımı işlər görsünlər».[1] Lakin 8-ci fəslin 23 və 24-cü bəndlərində hökmün nəsx olunduğu və orduya 25 yaşlı cavanların daxil olunması göstərilir. Orada deyilir: Allah-taala Musaya xitab edərək buyurur: Bəni-Lavinin qanununa əsasən, 25 yaşlı cavanlar daxil olmalı və orada xidmət etməlidirlər. 2332-ci bəndlərdə, hökmün ikinci dəfə nəsx olunduğu və orduya daxil olan şəxslərin iyirmi yaşdan ibarət olması göstərilir:

“Bəni-Lavinin iyirmi beş yaşına çatmış hər bir cavanı orduya üzv olub Allahın evində xidmət etdi...”

2. “Əgər sizlərdən biriniz Allah yolunda nəzir edə və ya and içərsə, ona əməl etməli və əhdinə xilaf çıxmamalıdır.”[2]

---

[1] Tövrat, 4-cü fəsil, 2-3-cü bəndlər.

[2] Tövrat, 30-cu fəsil.

Lakin Matveyin İncilində (5-ci fəsil, 33-cü bəndlər) and hökmünün nəsx olunduğu göstərilir. Orada deyilir: «And içməyiniz haqda verilən hökmü eşitmisiniz. Allaha içdiyiniz andlara hökmən əməl edin! Lakin mən sizə deyirəm: Heç vaxt and içməyin!»

3. Tövratda (21-ci fəsil, 23 və 24-cü bəndlərdə) qisas hökmü haqda deyilir: «Əgər başqasına zərər yetirərsənsə onun əvəzini ödəməlisən». Gözə-göz, dişə-diş, buruna-burun, ələ-əl, yaraya-yara və basılmış dağ əvəzinə dağ basılmalıdır.»

Yenə də Matveyin İncilində (5-ci fəsil, 28-29-cu bənd) qisas hökmünün nəsx olunduğu göstərilir. Orada deyilir: "Tövratda gözə-göz, dişə-diş qisas olaraq alılndığını eşitmisiniz. Lakin mən sizə zülm edənlərə qarşı müqavimət etməməyinizi əmr edirəm. Sağ üzünüzə sillə vurarlarsa, sol üzünüzü çevirin. Sizinlə dava edərkən əbanızın yaxasından yapışarlarsa əbanızı ona verin."

4. "Sizinlə bağlayacağım əhd-peymana əməl etməli və özünüzdən sonra onu öz övladlarınıza irs qoymalısınız. Bağlayacağım əhd-peyman kişilərinizin xətnə olunmasıdır." [1]

Bu hökm həzrət Musa (ə)-ın şəriətində də təsdiq olunmuşdur.[2]

Yenə də 12-ci fəsildə (2 və 3-cü bəndlər) deyilir:

«Bəni-İsrailə de ki: Oğlan uşağı doğan qadın yeddi gün heyz olduğu üçün nəcis hesab olunur və səkkizinci gün uşaq xətnə olunmalıdır».

Bu hökmün də kitabın 15-ci fəslində (24-30-cu bəndlər) [Peyğəmbərlərin gördükləri işlər, Polosin yazdığı məktublar] nəsx olunduğunun şahidi oluruq.

«Oğlan uşaqlarının xətnə olunması yəhudi və məsihi dininin davamçılarının üzərindən götürülür...»

5. Tövratda qadınlara təlaq verilməsi haqda deyilir:

"Evləndiyiniz qadınlarda xoşagəlməz rəftar və ya xüsusiyyət gördükdə onlara təlaq verib evinizdən çıxarın. Qadın ikinci dəfə ərə gedib ondan da boşanarsa üçüncü dəfə ərə gedə bilər. Və əgər

---

[1] Tövrat, 17-ci fəsil, 10-cu bənd. Allahın həzrət Ibrahim ilə söhbəti.

[2] 12-ci fəsil, 48-49-cu bənd.

onun üçüncü əri ölərsə yenidən birinci əri ilə ailə qura bilməz.”[1] Lakin İncil bu hökmü nəsx edərək təlaq verilməsini haram edir.

«Deyilir ki, zövcəsi ilə razılığa gələ bilməyənlər onlara təlaq verə bilərlər. Lakin mən sizə bu hökmü verirəm: Zinadan başqa kim öz zövcəsinə təlaq verərsə, onun zina etməsinə səbəb olur. Və özü başqa bir təlaq verilmiş qadınla evlənərsə yenə də zina etmiş olur.»

Təlağın haramlığına Markosun İncilində də (16-cı fəsil, 17-ci bənd və 10-cu fəsil, 11-12-ci bənd) rast gəlmək olur.

Bu barədə ətraflı məˈlumat əldə etmək istəyənlər «İzharul-həqq» və «Əlhuda ila dinil Mustəfa» adlı kitablara da müraciət edə bilərlər.

### *İSLAMDA NƏSX*

Müsəlmanlar arasında nəsx barəsində heç bir ixtilaf nəzərə çarpmır. Çünki keçmiş din və ehkamlar məhz İslam dini tərəfindən nəsx olub aradan getmişdir. Hətta onun özündə belə bəˈzi hökmlər nəsx olaraq yeni qanunlarla əvəz olunmuşdur.

Məsələn: Qurˈan müsəlmanların üzlərini ona tərəf tutub namaz qıldıqları ilk qiblənin nəsx olunduğunu bəyan edir. Və bu hökm hər bir müsəlman tərəfindən arada heç bir ixtilaf olmadan qəbul olunur və sual doğuran məsələlərdən biri də budur ki, görəsən Qurˈanda nəsx olunan bəˈzi ayələr (hökm və qanunlar) Qurˈanın öz ayələri ilə, ya Peyğəmbər (s) buyurduqları, ya müsəlman icması tərəfindən və ya əql və təfəkkür yolu ilə nəsx olunmuşdurmu? Bu olduqca geniş və çoxşaxəli məsələ olduğu üçün müqəddimə olaraq nəsxin neçə hissədən ibarət oluduğu haqda müxtəsər məˈlumat vermək yerinə düşərdi.

#### *1. Tilavətlərdəki nəsx:*

Deyilir: Ayələrdən bəˈziləri hal-hazırkı Qurˈan nüsxələrində mövcud olmasa və oxunmasa da, şərˈi hökm olaraq müsəlmanlar tərəfindən icra olunur. Onlardan biri də «Rəcm» (daşqalaq) ayəsidir.

---

[1] Tövrat, 24-cü fəsil, 1-3-cü fəsillər.

***Cavab:*** Nəsxin bu növünə «Tilavətdəki nəsx deyilir». Burada hökmün özü deyil, ayənin oxunuşu nəsx olunmuşdur. Lakin təhrif haqda söhbət açarkən bu mətləbə işarə etdik ki, tilavətlərin (oxunuşun) nəsx olunduğunu qəbul etmək, onun təhrif olunduğunu qəbul etmək deməkdir və bunu isə sübuta yetirəcək heç bir dəlil yoxdur. Bu barədə nəql olunmuş rəvayətlərə gəldikdə isə, onlar «vahid xəbər» formasında nəql olunmuşdur. Bu kimi mühüm mətləblər isə «vahid xəbər» formasında nəql olunmuş rəvayətlərlə isbat olunmur. Çünki müsəlman icması bu barədə eyni nəzər və əqidəyə malikdir. Qur᾽anın özü vahid xəbərlə sabit olmadığı kimi, onun nəsx olunmasını da vahid xəbərlə sübuta yetirmək qeyri-mümkündür.

Onu da qeyd edək ki, böyük əhəmiyyət kəsb edən hər bir mətləb tez bir zamanda cəmiyyətdə yayılıb bir çoxlarını özünə cəlb edir. Belə bir xəbər bir çoxları tərəfindən nəql olunur və zaman keçdikcə mütəvatirlik mərhələsinə çatır. Deməli, mühüm bir hadisənin vahid xəbər formasında nəql olunması onun əsla baş vermədiyinə dəlalət edir. Və bu barədə mə᾽lumat verən şəxs nəql etdiyi rəvayətdə ya səhvə və ya yalan və iftiraya yol vermiş olur. Çünki əgər həqiqətən əhəmiyyət kəsb etmiş olsaydı, bir çoxları tərəfindən nəql olunar və mütəvatirlik mərhələsinə çatardı.

Belə bir halda vahid xəbər halında nəql olunmuş rəcm ayəsini Qur᾽an ayələrindən biri kimi qəbul edib tilavətinin nəsx, lakin icra olunduğunu necə iddia etmək olar?

Bəli, bir qədər əvvəl qeyd etdik ki, Ömər yazılı nüsxə gətirib onun Qur᾽anın rəcm ayələrindən biri olduğunu iddia etmiş, lakin özündən başqa heç bir şahidi olmadığı üçün onu yığılmaqda olan Qur᾽anın orijinal nüsxəsinə əlavə etməmişlər. Sonralar rəcm ayəsi tilavəti nəsx, lakin hökmü icra olunan ayə kimi qələmə verilmişdir.

2. Hökm və tilavətlərin nəsxi:

Bə᾽ziləri belə bir iddia irəli sürürlər ki, Qur᾽an ayələrindən bir neçəsi müxtəlif səbəblər üzündən bə᾽zi ayələrlə nəsx olunmuş və hal-hazırda nə onların oxunuşu, nə də digər şər᾽i hökmlər kimi

icrasına əməl olunur. Yəʾni, onların həm tilavəti, həm də icrası nəsx olunmuşdur.

Bu nəzəriyyənin tərəfdarları «təhrif»ə dair haqqında söhbət açdığımız ayrıca fəsildə Aişədən nəql olunmuş 10-cu rəvayətə istinad edirlər.

Lakin nəsxin birinci fəslinə tutulan irad və nöqsanlar sözsüz ki, belə bir əsassız nəzəriyyəyə də şamil olunur. Belə ki, Aişədən nəql olunmuş rəvayət bizə vahid xəbər halında gəlib çatmışdır. Halbuki, Qurʾanın möʾtəbərliyinə və ona dair olan hər hansı bir mətləb vahid xəbər halında nəql olunmuş rəvayətlərlə sübuta yetirilmir.

3. Hökmlərdəki nəsx:

Mübahisə doğuran məsələlərdən biri də ayələrdən bəʾzilərinin nəsx olunaraq digər şərʾi hökmlər kimi icra olunmaması (və ya icrasının qadağan olunduğu) lakin tilavət zamanı digər ayələr kimi oxunmasıdır. Alim və müfəssirlərin əksəriyyəti nəsxin bu növünü qəbul etmiş və Əbu Cəʾfər Nəhas, Hafis Müzəffər Farsi kimi bəʾzi görkəmli alimlər bu barədə ayrıca kitablar təʾlif etmişlər. Və eyni zamanda təhqiqatçıların və Qurʾan mütəxəssislərinin bir çoxu bu nəzəriyyəni qətiyyətlə rədd edərək Qurʾan ayələrindən heç birinin nəsx olunmadığını isbat etməyə cəhd etmişlər.

Lakin diqqət yetirmək lazımdır ki, alim və təhqiqatçılar arasında ayələrin bəʾzilərinin nəsx olunub-olunmaması haqda fikir ayrılığı olsa da, keçmiş dinlərin, hətta İslam dininin zühur etdiyi dövrlərdə qüvvədə olan qanun və hökmlərin nəsx olunduqları haqda bir-birləri ilə əsla müxalif deyildirlər.

### *NƏSX*

Daha dəqiq nəzəriyyə əldə etmək üçün müəyyən izahatlar verməyi özümüzə zəruri hesab edirik:

Qurʾandakı daimi hökmlər aşağıdakı hallarda nəsx oluna bilər.

1. Qurʾanın daimi hökmləri Peyğəmbər (s) və məʾsum İmamlar (ə) tərəfindən nəql olunmuş mütəvatir hədis və rəvayətlərlə nəsx olunmuş olsun. Belə bir nəsxin əqli və nəql

olunmuş rəvayətlər baxımından heç bir nöqsanı yoxdur. Və əgər sabit olunarsa, tə`xirə salınmadan icra olunmalıdır, yox əgər sünnə və nəql olunmuş mütəvatir rəvayətlərdə həmçinin icmada öz əksini tapmazsa nəsx hesab olunmur, çünki nəsx vahid xəbər halında nəql olunmuş rəvaytlərlə sabit olunmur.

2. Mövzu baxımından tamamilə eyni olan ayələr;

3. Zahiri baxımdan deyil, daşıdığı mə`na baxımından nəsx olunmuş ayələrlə ziddiyyət təşkil edən ayələr:

Araşdırmalar göstərir ki, Qur`anda bu kimi nəsx hallarına rast gəlmək olmur. Ona görə ki, Qur`an bu kimi ixtilaf və ziddiyyətləri özündən dəf edir. Belə ki, Nisa surəsinin 82-ci ayəsində buyurulur:

أَفَلاَ يَتَدَبَّرُونَ الْقُرْآنَ وَلَوْ كَانَ مِنْ عِندِ غَيْرِ اللّهِ لَوَجَدُواْ فِيهِ اخْتِلاَفًا كَثِيرًا

***«Onlar Qur`an barəsində [onun Allah kəlamı olması haqqında] düşünməzlərmi? Əgər o, Allahdan qeyrisi tərəfindən olsaydı, əlbəttə onda çoxlu ziddiyyət (ixtilaf, uyğunsuzluq) tapılardı.»***

Alim və müfəssirlərin bir çoxu ayələrin həqiqi (batini) mə`nalarına lazımı diqqət yetirmədikləri üçün belə bir qənaətə gəlmişlər ki, Qur`anın bə`zi ayələrində müəyyən ixtilaf və ziddiyyət mövcuddur. Bu qənaətə gəlməklə, sonradan nazil olunmuş ayələrin ilk dövrlərdə nazil olmuş ayələri nəsx etdiyini təsəvvür etmişlər. Belə bir yanlış qənaətə gəlməklə alimlərin bə`ziləri, hətta ümumiyyət və xüsusi, məhdud və qeyri-məhdud xarakteri daşıyan və bir-birlərini təfsir edən iki ayə arasında ixtilaf və ziddiyyətin mövcud olduğuna dair müxtəlif fikir və mülahizələr irəli sürmüşlər.

Əlbəttə, belə bir qənaətə gəlməyin əsas səbəbi nəsx sözünün lüğəvi mə`nasını lazımınca araşdırmamaq və səhlənkarlıq üzündən baş verir.

Belə isə nəsx nəzəriyyəsinin tərəfdarlarının irəli sürdükləri fərziyyələrə son qoymaq üçün bu kimi ayələri diqqətlə araşdırmalı və şəriət hökmlərinin sübuta yetirilməsində istifadə olunmalıdır.

### *NƏSX EDƏN VƏ NƏSX OLUNMUŞ AYƏLƏRİN ARAŞDIRILMASI*

Nəsxin mahiyyəti və nədən ibarət olduğu bizə mə᾽lum olduqdan sonra nəsx olunduğu iddia olunan ayələr haqda söhbət açmaq və onları ayrı-ayrılıqda araşdırmağı özümüzə lazım bilib, bu haqda yeni fəsil ayırdıq. Biz burada nəsx olunmadığı bəlli olan ayələr deyil, mə᾽na və məfhum baxımından sual doğuran və nəsx olunduğu ehtimal olunan ayələr haqda söhbət açacağıq.

### *1. KİTAB ƏHLİNİN ƏFV OLUNDUĞUNU BƏYAN EDƏN AYƏNİN NƏSXİ*

وَدَّ كَثِيرٌ مِّنْ أَهْلِ الْكِتَابِ لَوْ يَرُدُّونَكُم مِّن بَعْدِ إِيمَانِكُمْ كُفَّاراً حَسَدًا مِّنْ عِندِ أَنفُسِهِم مِّن بَعْدِ مَا تَبَيَّنَ لَهُمُ الْحَقُّ فَاعْفُواْ وَاصْفَحُواْ حَتَّى يَأْتِيَ اللّهُ بِأَمْرِهِ إِنَّ اللّهَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ

***«[Ey mö᾽minlər!] Kitab əhlindən bir çoxu, həqiqət onlara bəlli olduqdan sonra belə, təbiətlərində həsəd (paxıllıq) üzündən sizi, iman gətirmiş olduğunuz halda yenidən küfrə sövq etmək istərlər. Allahın əmri gəlincəyə qədər (hələlik) həmin şəxsləri əfv edin və onları qınamayın [onlardan üz çevirməyin]. Şübhəsiz ki, Allah hər şeyə qadirdir.»*** (Bəqərə-109).

İbni Abbas, Qətadə və Sudeydən nəql olunmuş rəvayətə görə bu ayə Tövbə surəsinin 29-cu ayəsilə nəsx olunmuşdur. Orada deyilir:

قَاتِلُواْ الَّذِينَ لاَ يُؤْمِنُونَ بِاللّهِ وَلاَ بِالْيَوْمِ الآخِرِ وَلاَ يُحَرِّمُونَ مَا حَرَّمَ اللّهُ وَرَسُولُهُ وَلاَ يَدِينُونَ دِينَ الْحَقِّ مِنَ الَّذِينَ أُوتُواْ الْكِتَابَ حَتَّى يُعْطُواْ الْجِزْيَةَ عَن يَدٍ وَهُمْ صَاغِرُونَ

***«Kitab əhlindən Allaha və qiyamət gününə iman gətirməyən, Allahın və Peyğəmbərin haram buyurduqlarını haram bilməyən və haqq dini [İslamı] qəbul etməyənlərə zəlil vəziyyətə düşüb öz əlləri ilə cizyə verincəyə qədər vuruşun.»***

***Müəllif:*** Qeyd olunan ayənin nəsx olunduğunu qəbul edəriksə, iki əsassız fərziyyəni qəbul etməliyik:

1. İlk növbədə müvəqqəti hökmün vaxtı sona çatdıqdan sonra onu nəsx adlandırmalıyıq (yə᾽ni nəsx olunmuş ayələr sırasına daxil etməliyik). Halbuki, nəsx yalnız daimi hökmlərin əvəz olunmasına deyilir. Çünki hökm e᾽lan olunduğu zaman onun [qüvvədə olunduğu] müddətdə işarə olunarsa, artıq o daimi deyil

(müvəqqəti və qeyri-sabit olaraq qəbul ediləcəkdir). Tə᾽yin olunmuş müddət başa çatdıqdan sonra isə öz qüvvəsini itirir.

Hər hansı bir sabit və müvəqqəti hökmün müddətinin bəlli olmasının isə nəsx ilə heç bir əlaqəsi yoxdur. Çünki nəsx deyildikdə biz müvəqqəti hökmün qüvvədə olduğu müddətin sona çatdığını bəyan etmək deyil, daimi hökmlərin [zaman və şərait tələb etdiyi təqdirdə] başqa hökmlərlə əvəz olunmasını nəzərdə tutmalıyıq.

Fəxri Razinin fikrincə, müvəqqəti hökmün qüvvədə qaldığı müddətin ayə və rəvayətlə bəyan olunması nəsx olunmuş ayələr qəbilindəndir. Lakin bu tamamilə yanlış və heç bir elmi əsası olmayan nəzəriyyədir. Verilmiş ilk hökmün daimi olduğu bəyan edildikdə belə, nəsx heç bir mə᾽na və məfhum kəsb etməyəcəkdir. Nəsx yalnız daimi və müvəqqəti hökmün müddəti bəyan və müəyyən olunduqda öz tə᾽sirini göstərə bilər. Yə᾽ni, yeni hökm sadir olmaqla verilmiş ilk və müvəqqəti hökmün müddəti başa çatdığı bildirilir. Digər tərəfdən isə sonradan nazil olmuş ayələrin [ilk ayələri] nəsxedici xarakter daşıdığını qəbul ediriksə, cihad hökmünün kitab əhlinə də şamil olduğunu qəbul etməliyik. Belə ki, ilk növbədə onlar İslama və təkallahlığa də᾽vət olunmalı, qəbul etmədikdə isə cihad hökmü verilməlidir. Lakin cihad hökmü yalnız üç halda verilə bilər:

1. Müsəlmanlara qarşı müharibə e᾽lan etmiş olsunlar; Qur᾽ani-Kərimdə bu haqda buyurulur:

وَقَاتِلُواْ فِي سَبِيلِ اللّهِ الَّذِينَ يُقَاتِلُونَكُمْ وَلاَ تَعْتَدُواْ إِنَّ اللّهَ لاَ يُحِبِّ الْمُعْتَدِينَ

***«[Ey mö᾽minlər!] Sizinlə vuruşanlarla siz də Allah yolunda vuruşun, lakin həddi aşmayın. Allah həddi aşanları sevməz!»*** (Bəqərə-190).

2. Müsəlmanlar arasında fitnə, ictimai və fərdi qarşıdurma yaratmış olsunlar;

وَالْفِتْنَةُ أَشَدُّ مِنَ الْقَتْلِ

***«[Müşriklərin] fitnə[si] qətldən daha şiddətlidir.»*** (Bəqərə-191).

3. Cizyə verməkdən boyun qaçırmış olsunlar.

***«Öz əlləri ilə cizyə verməyincəyə qədər vuruşun.» (Tövbə-29).***

Cihad hökmü kitab əhlinə qarşı yalnız bu üç halda verilə bilər. Göründüyü kimi sonradan nəsx olunsun deyə onların küfr etmələrinə görə cihad hökmü verilməmişdir.

Demək qeyd olunan ayələrdə nəsx hökmü verilməmişdir. Hər iki ayənin hökmü sabit və dəyişilməzdir və onlar bir-birlərini nəinki nəsx etmir, əksinə olaraq təfsir və izah edir. Hər iki ayənin məfhumu bundan ibarətdir ki, kitab əhli ilə sülh və əmin-amanlıq şəraitində yaşamalı (birinci ayədə deyildiyi kimi) və yalnız yuxarıda qeyd olunan zəruri hallarda cihad hökmü verilməlidir (necə ki, ikinci ayədə buna dair qəti hökm verilir).

Bunu da qeyd etmək lazımdır ki,

حَتَّى يَأْتِيَ اللّهُ بِأَمْرِهِ

***«Hətta yəʾtiyəllahu bi əmrihi – yəʾni, Allahın əmri gələnə qədər...»*** nəsx olunmuş əfv ayəsindəki (əmr) kəlməsi ki, göstəriş və fərman kimi məʾnalandırmaqla ayədən belə bir məʾna əldə etmişlər ki, cihad hökmü verilməyincə kitab əhli əfv olunmalı və onlarla sülh və əmin-amanlıqda yaşanmalıdır. Bu səbəbdən də nəsx nəzəriyyəsinin tərəfdarları belə bir qənaətə gəlmişlər ki, cihad hökmü verilməklə Bəqərə surəsinin 109-cu «əfv» ayəsi nəsx olunmuş və öz qüvvəsini itirmişdir.

Lakin belə bir nəzəriyyənin həqiqət olduğunu fərz etsək də belə, onu heç də nəsx ilə əlaqələndirməməliyik. Çünki hökmün müvəqqəti olduğu elə ilk ayədən bəlli olur.

Ayədəki «əmr» kəlməsi isə heç də «göstəriş» və «fərman» məʾnasını daşımır. Buradan əsas məqsəd «təqdir» və «aqibət»dir. Belə olduqda ayədən belə bir məʾna əldə edəcəyik. «Kitab əhli ilə sülh və əmin-amanlıq şəraitində yaşayın və onlarla xoş rəftar edin. İslam zəfər çalacağı günə qədər (ilahi təqdir həyata keçənədək). Sizinlə düşmənçilik etdikləri zaman bütün pisliklərinə qarşı dözümlü olub əfv edin. O gün artıq onlar sizə qarşı düşmənçilik edə bilməzlər. Nəhayət siz onların qərəzli niyyətlərindən asudə xatir olaraq əmin-amanlıqda qalacaqsınız.

Demək «əmr» ayədə «fərman» və «göstəriş» məʾnalarında deyil, «təqdir» və «aqibət» məʾnasını daşıyır. Ona görə ki, əvvəla

bu kəlmə «göstəriş» və «fərmandan» daha çox ayədə istifadə olunan «ityan – gətirmək, yerinə yetirmək» ifadəsi ilə münasibdir.

Digər tərəfdən isə ayənin sonunda

اِنَّ اللهَ عَلَي كُلِّ شَيْءٍ قَدِير

***«Həqiqətən Allah hər şeyə qadirdir!»*** Allah-taala bu kimi ifadələrlə vəsf olunur. Və mə`lum məsələdir ki, «bacarığı» (qadir olmağı), əmr edib, hökm sadir etməkdən daha çox müsəlmanları qalib, düşmənlərini məğlub etməklə əlaqələndirmək olar.

Bütün bu dəlillərə istinad edərək deyə bilərik ki, ayədəki «əmr» kəlməsi «fərman» və «göstəriş» mə`nasında deyil, əvəz olunmaz ilahi təqdir və aqibət mə`nasında işlənmişdir. Beləliklə, ayənin nəsx olunma nəzəriyyəsi öz e`tibarını itirir.

### *2. QİBLƏ AYƏSİNİN NƏSXİ*

وَلِلّهِ الْمَشْرِقُ وَالْمَغْرِبُ فَأَيْنَمَا تُوَلُّواْ فَثَمَّ وَجْهُ اللّهِ إِنَّ اللّهَ وَاسِعٌ

***«[Şərq, də qərb də Allahındır. Hansı tərəfə yönəlsəniz [üz tutsanız] Allah oradadır. Şübhəsiz ki, Allahın mərhəməti genişdir və O, hər şeyi biləndir!»*** (Bəqərə-115).

İbni Abbas, Əkrəmə, Əbul Aliyə, Həsən Bəsri, Qətadə, Sudey və Zeyd ibni Əsləm kimi məşhur təfsir alimləri bu ayənin nəsx olunduğuna dair bir-birindən bir qədər fərqli fikir və mülahizələr irəli sürmüşlər. İbni Abbas bu ayəni Bəqərə surəsinin 150-ci ayəsindəki bu cümlə ilə

وَحَيْثُ مَا كُنتُمْ فَوَلُّواْ وُجُوهَكُمْ شَطْرَهُ

***«[Ey müsəlmanlar!] harada olsanız, üzünüzü o tərəfə döndərin...»*** ayəsi ilə, Qətadə isə həmən ayədəki başqa bir cümlə ilə nəsx olunduğunu hesab etmişdir.

فَوَلِّ وَجْهَكَ شَطْرَ الْمَسْجِدِ الْحَرَامِ

***«[Ya Məhəmməd!] haradan [səfərə] çıxsan [namaz vaxtı] üzünü Məscidul-harama tərəf çevir.»***

Onlar ayənin nəsx olunduğunu belə bəyan edirlər. Ayənin məzmunundan belə mə`lum olur ki, müsəlmanlar İslam zühur etdiyi ilk illərdə namaz qılarkən üzlərini istədikləri tərəfə tutur və beləliklə gündəlik ibadətlərini yerinə yetirmiş olurdular. Lakin Peyğəmbər (s), Beytul-müqəddəsi qiblə olaraq tə`yin edir və

müsəlmanlara ona tərəf namaz qılmalarını əmr edir. Növbəti ayələr nazil olmaqla Peyğəmbərin (s) üzünü Beytul-müqəddəsdən çevirib Məscidul-harama [Kə᾽bə evinə] tərəf tutması əmr olunur. Beləliklə, yə᾽ni, ayə nazil olmaqla [ilk qiblə hökmü] nəsx olunur.

***Müəllif: «Fəəynəma tuvəllu fəsəmmə vəchullah – hansı tərəfə yönəlsəniz [üz tutsanız] Allah oradadır»*** ayəsinin nəsx olunduğu haqda irəli sürülmüş nəzəriyyəni bir neçə səbəbdən əsassız hesab etmək olar.

Əvvəla ona görə ki, Peyğəmbərin (s) Beytul-müqəddəsə tərəf üz tutub namaz qılması şəxsi istək üzündən deyil, Allah-taala tərəfindən tə᾽yin olunmuşdur.

Bəqərə surəsinin 143-cü ayəsində bu haqda deyilir:

وَمَا جَعَلْنَا الْقِبْلَةَ الَّتِي كُنتَ عَلَيْهَا إِلاَّ لِنَعْلَمَ مَن يَتَّبِعُ الرَّسُولَ مِمَّن يَنقَلِبُ عَلَى عَقِبَيْهِ

***«[Ya Məhəmməd!] İndi yönəldiyin qibləni [Kə᾽bəni] sənə tabe olanlarla üz çevirənləri bir-birindən ayırd etmək üçün [qiblə] tə᾽yin etdik.»***

Digər tərəfdən isə «hansı tərəfə yönəlsəniz» ayəsinin nəsx olunması üçün qiblə hökmünün heç bir dəxli yoxdur. Ayənin verdiyi hökm sabit və dəyişilməzdir və onun nəsx olunmasına da heç bir əsas yoxdur. Belə ki, Allah-taala «la məkan» bir varlıq olduğu üçün Onun müəyyən yer və iqamətgahı yoxdur. O, hər yerdə və hər tərəfdədir. İnsan hara üz tutarsa Allah-taala da oradadır.

Məhz bu ayəyə istinad edərək Əhli-beyt (ə) qibləyə dair bir neçə hökm sadir etmişdir.

1. Səfərdə olan şəxs müstəhəb namazlarını istədiyi tərəfə qıla bilər;

2. Əgər səhv üzündən vacib namazlar şərq ilə qərb arasında qılınarsa, düzgün hesab olunur;

3. Qur᾽andakı səcdə ayələri oxunarkən istənilən tərəfə səcdə etmək olar;

4. Qiblənin istiqamətini müəyyən edə bilməyən şəxs istədiyi səmtə namaz qıla bilər.

Buradan belə bir nəticəyə gəlirik ki, ***«Əynəma tuvəllu – hansı tərəfə yönəlsəniz»*** ayəsi ümumiyyət xarakteri daşıyır. Yə᾽ni, insan

bütün işlərində hara üz tutarsa, Allah-taalaya tərəf yönəlmiş olur. Bu ümumi hökm gündəlik vacib namazlara da əlavə olunmuşdur. Alimlərin bə᾽zilərinin fikrincə, hətta müstəhəb namazlar da belə – əgər minik üzərində (yə᾽ni hərəkət olunmadan) qılınmazsa (qılınarsa) – həmən hökmə əməl edərək qibləyə tərəf yönəlməlidir.

Deməк, ***«Əynəma tuvəllu – hansı tərəfə yönəlsəniz»*** ayəsi nəsx olunmamışdir, əksinə olaraq sonrakı ayələrə müəyyən əlavələr olunmuşdur.

Ayənin nəsx olunmasını isə iki halda qəbul etmək olar:

1) Ayə, Peyğəmbərə (s) üzünü Kə᾽bəyə tərəf tutmasına dair nazil olunmuş ayədən əvvəl nazil olduqda; Halbuki, bunu isbat edəcək heç bir əsas və dəlil yoxdur.

2) Ayə yalnız vacib namazlar barəsində nazil olmuş olsun. Lakin bu hökm yalnız vacib namazlara deyil, digər müstəhəb namazlara da şamil olunur. Qeyd etmək lazımdır ki, bir çox əhli-sünnə mənbələrindən bu mətləbə dəfələrlə işarə olunmuşdur. Məsələn, Təbəri öz təfsirində yazır:

Ayə, müstəhəb namaz və dualar, səfərdə ikən qibləyə doğru hərəkət etməyən müsafir (yəni, səfərdə olan şəxs) və ya səhv üzündən qibləyə tərəf qılınmayan namazlar barəsində nazil olmuşdur.

***Nəticə:*** Deyilənlərdən belə mə᾽lum olur ki, ayənin nəsx olunmasına dair irəli sürülən iddia tamamilə batil və əsassızdır.

Qeyd edək ki, ayənin nəsx olunmasına dair onlarla hədis və rəvayət nəql olunmuşdur.

Bə᾽zən ümumi xarakter daşıyan hər hansı bir ayənin nəsx olunmasından müəyyən mətləb nəzərdə tutulur. Və belə olduqda hər hansı bir mövzunun (hökmün) nəsx olunması tamamilə adi hal daşıyacaqdır. Bəlkə də İbni Abbas nəsx deyildikdə məhz bu mətləbi nəzərdə tutmuşdur.

### *3. QİSAS AYƏSİNİN NƏSXİ*

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ كُتِبَ عَلَيْكُمُ الْقِصَاصُ فِي الْقَتْلَى الْحُرُّ بِالْحُرِّ وَالْعَبْدُ بِالْعَبْدِ وَالأُنثَى بِالأُنثَى

***«Ey iman gətirənlər! [Qəsdən] öldürülən şəxsdən ötrü sizin üçün qisas almaq hökmü qərara alındı [vacib oldu]. Azad şəxsi***

***azad şəxsin, qulu qulun, qadını qadının əvəzinə [öldürə bilərsiniz].» (Bəqərə-138).***

Deyilənlərə görə, bu ayə Maidə surəsinin 45-ci ayəsi ilə nəsx olunmuşdur. Orada deyilir:

وَكَتَبْنَا عَلَيْهِمْ فِيهَا أَنَّ النَّفْسَ بِالنَّفْسِ وَالْعَيْنَ بِالْعَيْنِ وَالأَنفَ بِالأَنفِ وَالأُذُنَ بِالأُذُنِ وَالسِّنَّ بِالسِّنِّ

***«Biz Tövratda İsrail oğullarına yazıb hökm etdik ki, canın qisası can, gözün qisası göz, burununki burun, qulağınki qulaq, dişinki dişdir...»***

Nəsx nəzəriyyəsinin tərəfdarları ayənin izahında deyirlər: «Qisas hökmünü verən ilk ayədə hökmün bərabər və eyni səviyyədə icra olunması bildirilir. Qadının qisası olaraq qadını, kişinin qisası olaraq kişini, qulun qisası olaraq qulu. Lakin Maidə surəsinin 45-ci ayəsində bu hökmün tamamilə əvəz olunduğunun, daha dəqiq desək, nəsx olunduğunun şahidi oluruq.»

Əhli-sünnə alimlərinin bə᾿ziləri belə bir mətləbə istinad edərək deyirlər: Kişinin vərəsəsinə diyənin yarısı ödənilmədən qadının qisası olaraq kişini öldürmək olar. Lakin Həsən Bəsri və Əta bu hökmə müxalif olduqlarını bildirmişlər. Məşhur fiqh alimlərindən biri olan Ləys bu barədə öz nəzərini belə bəyan etmişdir: "Kişi öz qadını istisna olmaqla, başqa bir qadını qətlə yetirərsə qisas olaraq qətlə yetirilir." Lakin imamiyyə (şiə) alimlərinin nəzərlərinə əsasən, qətlə yetirilmiş qadının sahibi qatilin qisas olunmasında və ya ondan diyə almaqda tam ixtiyar sahibidir. Amma, əgər qisas olunarsa kişinin diyəsinin yarısı onun vərəsəsinə verilməlidir.

Əhli-sünnə alimlərinin əksəriyyəti belə bir fikirdədirlər ki, azad bir şəxs qisas olaraq qulun müqabilində öldürlməməlidir. Şiə alimlərinin nöqteyi-nəzərindən bu məsələ icmai şəkildə qəbul edilir. Lakin Əbu Hənifə, Suri ibni Əbi-Leyla, Davud və başqaları bu nəzəriyyəyə qarşı müxalif olduqlarını bildirmişlər. Onlar bu barədə öz nəzərlərini belə bəyan etmişlər: Azad bir şəxs başqa birisinin ixtiyarında olan qulun qisası olaraq öldürülə bilər. Hətta əhli-sünnə alimlərinin bə᾿ziləri belə bir fikirdədirlər ki, azad bir şəxs kölənin qisası olaraq öldürülə bilər, hətta əgər kölə onun ixtiyarında olmuş olsa da.

***Cavab:*** Əvvəla qisas hökmünü verən ilk ayənin mə᾽na və məfhum baxımından nəsx ilə heç bir əlaqəsi yoxdur və ayədə verilən hökm sabit və dəyişilməzdir.

İkinci ayəyə gəldikdə isə, qeyd etmək lazımdır ki, o, mə᾽na və məfhum baxımından tamamilə fərqlidir və ilk ayəni nəsx edəsi heç bir xüsusiyyətə malik deyildir. Göründüyü kimi, bu ayədə qisas hökmünün şərt və xüsusiyyətləri bəyan edilir, yəni bir tərəfdən qisasın qanuni hökm olduğu, digər tərəfdən isə qisasın hansı şəraitlərdə və necə həyata keçirilməsi bildirilir. Belə ki, qətl, yaralanma və cəzalandırılma hallarında biz müxtəlif cəza tədbirlərini müşahidə edirik və bütün bu hallarda cəza üsullarından lazımı qaydada istifadə olunmalı və kimsənin haqqı tapdalanmamalıdır.

Demək, ayədən iki mühüm nəticə əldə edirik: Onlardan biri qisasın qanuni hökm olması, digəri isə qisasın törədilmiş cinayətə müvafiq olaraq həyata keçirilməsidir.

Deməli, bu ayə qisas hökmünü bəyan edən ilk ayəni daha geniş surətdə şərh və izah edir. Başqa bir yerdə qisas hökmü belə bəyan edilir:

فَمَنِ اعْتَدَى عَلَيْكُمْ فَاعْتَدُواْ عَلَيْهِ بِمِثْلِ مَا اعْتَدَى عَلَيْكُمْ

***«Sizə qarşı həddini aşanlarla siz də həmin ölçüdə həddi aşın [cavab verin].»*** (Bəqərə-194).

Belə isə biz ilk qisas hökmünün Maidə surəsinin 45-ci ayəsi ilə nəsx olunduğu həqiqət və nəticədə azad bir şəxs qulun və kişini qadının qisası olaraq öldürülməsinin qanuni olduğunu qəbul etmək üçün heç bir dəlilə istinad edə bilmərik.

### *QULUN İNTİQAMININ ALINMASI ÜÇÜN AZAD BİR ŞƏXSİN ÖLDÜRÜLMƏSİ*

Haqqında söhbət açdığımız ayədə azad bir şəxsin qulun intiqamı müqabilində öldürülməsi qeyri-qanuni bildirilir. Belə ki, azad insan başqa bir azad şəxsin, kölə isə qulun müqabilində qisas olunmalıdır. Ayənin digər ayələr və nəql olunmuş rəvayətlərlə nəsx olunmadığı haqda ətraflı söhbət açdıq.

Bütün bunlarla yanaşı, biz Əli (ə)-ın Peyğəmbərdən (s) nəql etdiyi rəvayəti də ayəni nəsxedəsi hökm kimi qəbul edə bilmərik.

Rəvayətdə deyilir: «Müsəlmanların qanı (qisası) bir-birləri ilə bərabərdir.» Bu rəvayəti mö᾽təbər qəbul etsək də belə, yenə də bizə ayənin nəsx olunduğunu istinad etmək imkanı vermir. Çünki rəvayətin məzmunu ümumi xarakter daşıyır və biz buradan heç bir nəticə əldə edə bilmirik. Ayədə isə intiqam olunması şəxslərin xüsusiyyəti (azad və ya qul olması) cinsi və s. açıq-aşkar göstərilir və şübhə doğurası heç bir sual qoymur.

Səmrənin Peyğəmbərdən (s) nəql etdiyi «qulunu qətlə yetirən hər bir şəxsi [intiqam olaraq] öldürürük» rəvayətə gəldikdə isə, qeyd etmək lazımdır ki, bu zəif və istinad olunmayan rəvayətlər silsiləsinə daxildir. Əbu Bəkr ibni Ərəbidən həmin rəvayət haqda bu sözləri deyir: «Bə᾽ziləri araşdırma aparmadan Səmrənin Peyğəmbərdən (s) nəql etdiyi hədisə istinad edərək azad bir şəxsi öz qulunun qisası olaraq öldürülməsini qanuni hesab edir. Halbuki, bu hədis zəifdir və heç bir e᾽tibarı yoxdur.

***Müəllif:*** Səmrədən nəql olunmuş hədis mö᾽təbər olmamaqla yanaşı, məzmunu digər rəvayətlərlə ziddiyyət təşkil edir. Belə ki, Əmr ibni Şueyb atasından və o da öz atasından nəql etdiyi hədisdə deyir: «Bir şəxs bilərəkdən öz qulunu qətlə yetirir. Peyğəmbər (s) ondan qisas almayıb cəza məqsədi ilə bir neçə şallaq zərbəsi, bir illik sürgün və beytul-maldan payına düşən şeylərdən məhrum olunmasını əmr edir.» Başqa bir yerdə İbni Abbas Peyğəmbərdən (s) nəql etdiyi hədisdə deyir: «Azad bir şəxs köləlikdə olan qulun qisası olaraq öldürülməlidir.»

Bu rəvayəti Cabir, Əmrdən və o da Əli (ə)-dan nəql edir: Yenə də Əmr ibni Şueyb atasından və o da öz atasından nəql edir ki, «Əbu Bəkr və Ömər köləlikdə olan qulun qisası olaraq azad bir şəxsi öldürməzdilər».

Bir qədər əvvəl qeyd etdik ki, Əhli-beyt tərəfindən bu məzmunda onlarla hədis və rəvayət nəql olunmuşdur. Və onların Peyğəmbərdən (s) sonra ən mö᾽təbər mənbə olduqlarını nəzərə alaraq deyə bilərik ki, azad bir şəxs köləlikdə olan qulun qisası olaraq öldürülə bilməz. Beləliklə ayənin nəsx olunduğu və azad bir şəxsin, qulun qisası olaraq öldürülməsinə dair mövcud olan əsassız fərziyyələrə son qoymuş oluruq.

***KİŞİNİN QADININ QİSASI OLARAQ ÖLDÜRÜLMƏSİ (QADIN ÖLDÜRMÜŞ KİŞİNİN QİSASI)***

Ayədə qətlə yetirilmiş qadının qisası olaraq kişinin öldürülməsinin qadağan olunduğunu heç də nəsx kimi qəbul etmək olmaz. Hökm qüvvədə qalır və öz əhəmiyyətini itirmir. İstər sünni, istərsə də şiə alimləri belə bir əqidəyə əsaslanırlar. Hətta Həsən Bəsri və Əta bu əqidə ilə müvafiq olduqlarını bildirmişlər. Lakin əhli-sünnə alimlərinin böyük bir hissəsi bu ayənin nəsx olunduğuna istinad edirlər.

***İzah:*** Qisas ayəsinin ***«[Qəsdən] öldürülən şəxsdən ötrü sizə qisas almaq hökmü qərara alındı [vacib oldu].*** Bəqərə-178). Zahiri mə᾽nasından hökmün icrasının vacib olduğu bəlli olur. Eyni zamanda «əfv» ayəsində «qətlə yetirilmiş şəxsə yaxın olanlar» (ata-ana, bacı-qardaş və digər qohumlar) qatili əfv etməyə sövq olunurlar. Deməк, qisas hökmünün icrası yalnız o zaman vacib ola bilər ki, qətlə yetirilmiş şəxsin yaxın adamları bunu tələb etmiş olsunlar. Buradan belə bir nəticəyə gəlirik ki, əgər qətlə yetirilmiş şəxsin yaxın adamları qatilin qisas olunmasını tələb edərlərsə, qatil hökmə tabe olaraq özünü qanun qarşısında təslim etməlidir. Lakin qatilin təslim olmağı yalnız o zaman vacib ola bilər ki, kişi kişini, ya qadın kişini və ya qadını qətlə yetirmiş olsun. Amma əgər kişi qadını qətlə yetirərsə, ona qisas tələb edən şəxslərə dərhal təslim olmağı heç də vacib deyildir. O gördüyü işdən boyun qaçıraraq diyəsinin yarısını ala bilər. (Yə᾽ni əgər qətlə yetirilmiş qadının yaxınları qatilin qisas olunmasını [öldürülməsini] istərlərsə, diyəsinin yarısını ödəməlidirlər.) Yalnız belə bir halda qazi qisas hökmünü verə bilər. Bu hökmün nəsx olması heç də ayənin məzmunu ilə ziddiyyət təşkil etmir. Çünki ayədə qadın müqabilində kişi deyil, məhz qadının qisas olunduğu göstərilir və bir qədər əvvəl qeyd etdik ki, əgər kişi qətlə yetirdiyi qadının müqabilində qisas olunarsa, hökm icra olunmazdan əvvəl diyəsinin yarısını qadının yaxın adamlarından almalıdır. Və belə olan bir halda kişi tək qadının qətlinin müqabilində deyil, onun qan bahasının və öz diyəsinin yarısının ödənilməsi ilə mühakimə

olunur. Bunun isə, ayənin məzmunu ilə ziddiyyət təşkil etdiyi üçün, heç də nəsxə səbəb olduğunu hesab etmək olmaz.

Bəli, ayəni yalnız o zaman nəsx olunmuş hesab etmək olar ki, əhli-sünnə alimlərinin nəzərlərinə əsasən, qadını qətlə yetirmiş kişi, diyəsinin yarısı ödənilmədən qisas olunmuş olsun. Belə ki, bir hökm ayənin məzmunu ilə tamamilə ziddiyyət təşkil edir. Və belə bir nəzəriyyəyə əsaslanan hər bir şəxsin ayənin nəsx olunmasını qəbul etməsi də tam adi haldır.

Lakin bu nəzəriyyənin sübutu əsaslı dəlillərə istinad olunmadığı üçün olduqca çətindir. Çünki nəzəriyyə tərəfdarları bə՚zən qisas hökmünə dəlalət edən, lakin kişi və qadın haqda heç bir söhbət açmayan ümumi xarakter daşıyan ikinci ayəyə və bə՚zən də Peyğəmbərdən (s) nəql olunmuş ***«Müsəlmanların qanı (qisası) bir-birləri ilə bərabərdir»*** hədisinə istinad edirlər. Və bir qədər əvvəl qeyd etdik ki, bütün bunları ayənin nəsx olunduğuna dəlalət edəcək dəlil hesab edə bilmərik. Bə՚zən bu məzmunda nəql olunmuş digər rəvayətlərə də istinad olunur.

Qətadə, Səid ibni Museyyibdən nəql etdiyi rəvayətdə deyir: «Səna əhalisindən bir neçə nəfər şəxs bir qadını qətlə yetirməkdə ittiham olunaraq xəlifə Ömərin verdiyi fərmana əsasən, hamılıqla e՚dam olunur.»

Ləys, Həkəmdən nəql edir ki, Əli və Abdulladan qisas barəsində soruşduqda deyərdilər: “Bilərəkdən qadını qətlə yetirmiş şəxs (kişi) qisas olunmalıdır.”

Zəhra, Əbu Bəkr ibni Məhəmməddən o da atası Əmr ibni Həzmdən nəql edərək deyir: Peyğəmbər (s) buyurdu: “Qətlə yetirilmiş qadının qisası olaraq qətlə yetirən şəxs e՚dam olunmalıdır.”

Lakin bütün bu rəvayətləri bir neçə səbəbə görə əsassız hesab etmək olar.

1) Qur՚anla müxalif olan nəql olunmuş hər bir hədis və rəvayət mö՚təbər olsa belə, öz e՚tibarını itirir.

2) Rəvayətlər vahid xəbər halında nəql olunmuşdur və mə՚lum olduğu kimi, Qur՚an vahid xəbərlə sübuta yetirilmir.

3) Bu rəvayətlər Ətanın, Şə`bənin və Həsən Bəsrinin Əli (ə)-dan nəql etdikləri, həmçinin mə`sum imamlardan bu məzmunda nəql olunmuş bir çox rəvayətlərlə ziddiyyət təşkil edir. Belə ki, nəql olunmuş rəvayətlərdən birində deyilir: Əli (ə), qadını qətlə yetirmiş şəxsi mühakimə edərkən buyurur: "Qadının yaxın adamları əgər kişinin e`dam olunmasını istərlərsə, diyəsinin yarısını ona verməlidirlər, yox əgər onu əfv etmək istərlərsə, diyəsinin yarısını ondan almaqla kifayətlənməlidirlər."

4) Əvvəla, birinci rəvayət mursəl olaraq və ravilərin kim olunduğu göstərilmədən nəql olunmuşdur. Çünki İbni Museyb Ömərin xilafət dövründən iki yüz il sonra dünyaya gəlir. Və belə bir halda onu görmədən hədisi arada heç bir vasitə olmadan nəql edə bilməzdi.

Digər tərəfdən isə, Ömərin verdiyi hökmü bəyan etməklə, heç də bunu dəlil hesab etmək olmaz. Nəql olunmuş ikinci rəvayət də mursəl olaraq bizlərə gəlib çatmışdır. Üçüncü rəvayət isə mö`təbər hədislər sırasına daxildir.

***Nəticə: «Ey iman gətirənlər! [Qəsdən] öldürülən şəxsdən ötrü sizin üçün qisas almaq hökmü qərara alındı [vacib olundu]...»*** ayəsinin nəsx olunmadığı artıq bizə sübut oldu. Ayənin nəsx olunduğuna dair irəli sürülən fərziyyələri yalnız bə`zi fiqh alimlərinin yetkin nəticəyə gəlmədən verdikləri fətvalardan müşahidə etmək olar. Və onlarla kifayətlənərək ilahi qanunlara göz yummaq heç də məntiqi olmazdı. Təəccüb doğuran burasıdır ki, vahid xəbərlə nəsxin e`tibarsız olduğunu qəbul edən şəxslər bu kimi hallarda fətva verməkdən çəkinmirlər.

### *4. VƏSİYYƏT AYƏSİNİN NƏSXİ*

كُتِبَ عَلَيْكُمْ إِذَا حَضَرَ أَحَدَكُمُ الْمَوْتُ إِن تَرَكَ خَيْرًا الْوَصِيَّةُ لِلْوَالِدَيْنِ وَالأقْرَبِينَ بِالْمَعْرُوفِ حَقًّا عَلَى الْمُتَّقِينَ

***«Sizin hər birinizi ölüm haqlayan zaman qoyub gedəcəyiniz maldan valideynlərinizə, yaxın qohumlarınıza verilməsi üçüçn ədalət üzrə [malın üçdə birindən çox olmamaq şərtilə] vəsiyyət etməyiniz zəruridir. Bu, müttəqilərə vacibdir.»*** (Bəqərə-180).

Yuxarıda qeyd olunan ayənin nəsx olunmasına dair iki müxtəlif nəzəriyyə irəli sürülmüşdür:

1. İrs (vərəsəlik) ayəsi ilə nəsx olunması;

Bəzilərinin fikrincə, Bəqərə surəsinin 180-cı ayəsi "İrs" ayəsi ilə nəsx olunmuşdur. Çünki İslamın zühur etdiyi ilk illərdə irs qanunları bir qədər fərqli xarakter daşıyırdı. Bu qanunlara əsasən, valideynin bütün var-dövləti övlada çatmalı və valideyn bir başqasına nə isə vermək istədikdə bunu vəsiyyət edərək həyata keçirə bilərdi. Və bu ayə həmən vəsiyyət hökmünə aiddir. Lakin sonralar "İrs" ayələri nazil olmaqla vərəsəlik kimi istifadə olunan ilk vəsiyyət qanunları nəsx olundu.

***Cavab:*** Bu nəzəriyyəni bir neçə səbəbdən əsassız hesab etmək olar.

a) Rəvayət Səhihi-Buxaridə nəql olunsa da, vahid xəbər formasında nəql olunmuşdur. Vahid xəbərlə isə Qur`anın heç bir hökmü nəsx olunmur.

b) Buradan belə mə`lum olur ki, "İrs" ayəsi bu ayədən sonra nazil olmuşdur.

Lakin nəsx nəzəriyyəsinin tərəfdarları belə bir fərziyyəni sübuta yetirə bilmirlər. Lakin ilk növbədə bu məsələni qətiyyətlə iddia edən Hənəfi məzhəbinin davamçıları sübuta yetirməlidirlər.

v) Vəsiyyət ayəsindən belə bir nəticəyə gəlmək olur ki, hər bir şəxs vəfat etməzdən əvvəl öz qohum-əqrəbasına vəsiyyət edə bilər. Və qətiyyətlə demək olar ki, bu hökm əsla nəsx olunmamışdır. Çünki mərhumun övladı olduğu təqdirdə, onlar (qohum-əqrəba) vərəsəlik hüququndan məhrum olurlar. Və əgər onlar barəsində də vəsiyyət olunarsa, vəsiyyətdə göstərilən miqdarı özlərinə götürməlidirlər. Demək, hökm nəsx olmayıb və yenə də qüvvədə qalır. Ata-anaya olunan vəsiyyətlər də nəsx olunmadan, bu hökmə əsasən, tamamilə qanuni və əsaslıdır.

ğ) Bütün bunlarla yanaşı qeyd etmək lazımdır ki, vərəsələr paylarına düşən şeyləri yalnız vəsiyyət icra olunandan sonra əldə edə bilərlər. Yə`ni, əgər mərhumun borcu olarsa, ilk növbədə onun borcları ödənilməli və yalnız bundan sonra yerdə qalan var-dövlət vərəsələr arasında bölünməlidir. Ayənin özündə bu haqda deyilir:

***«İrs, vəsiyyət icra olunduqdan sonra bölünür.»*** Belə bir nəticəyə gəlirik ki, “İrs” ayəsi vəsiyyət hökmünü nəsx etmir, əksinə onun icrasına tə᾽kid və knu təsdiq edir.

### *PEYĞƏMBƏRİN (S) BUYURDUQLARI İLƏ ŞƏR᾽İ HÖKMLƏRİN NƏSX OLMA HALLARI*

Bə᾽ziləri Peyğəmbərdən (s) nəql olunmuş hədisə istinad edərək vəsiyyət hökmünün nəsx olunduğunu iddia edirlər. Hədisdə deyilir: «Varislərə heç bir vəsiyyət olunmur.»

Lakin bu hədisi də bir neçə səbəblər üzündən qeyri-mö᾽təbər hesab edirik:

1. Hədisin mö᾽təbərliyi sübuta yetirilməmişdir. Belə ki, Buxari və Müslüm kimi görkəmli ravilər bu hədisi öz kitablarında nəql etməmişlər. Həmçinin «Əl-mənar» adlı təfsirin müəllifi də hədisin mö᾽təbər olmasına şübhə ilə yanaşmışdır.

2. Əhli-beyt tərəfindən bu məzmunda nəql olunmuş bir çox rəvayətlərlə ziddiyyətlik təşkil edir. Çünki bu rəvayətlərdə vəsiyyətin vərəsə üçün qanuni olduğu bildirilmir. Belə ki, Məhəmməd ibni Müslüm, İmam Baqir (ə)-dan varislərə vəsiyyət olunmasının nə dərəcədə düzgün olub-olmaması haqda soruşduqda, bunun Qur᾽an ayəsi ilə tamamilə müvafiq olduğunu bildirir və sonra bu ayəni tilavət edir:

إِن تَرَكَ خَيْرًا الْوَصِيَّةُ لِلْوَالِدَيْنِ وَالأَقْرَبِينَ

***«Qoyub gedəcəyiniz maldan valideynlərinizə, yaxın qohumlarınıza verilməsi üçün ədalət üzrə [malın üçdə birindən çox olmamaq şərtilə] vəsiyyət etməyiniz zəruridir.»*** (Bəqərə-180).

Bu məzmunda digər rəvayətlər də nəql olunmuşdur.

3. Rəvayət vahid xəbər halında nəql olunmuşdur. Bu kimi rəvayətlər isə müsəlman icması dairəsində heç bir e᾽tibara malik deyildir.

4. Rəvayətin vahid xəbər halında nəql olunduğunu və digər rəvayətlərlə ziddiyyət təşkil etdiyini nəzərə almasaq da belə, ayənin nəsx olunduğuna dair heç bir fərziyyə irəli sürə bilmərik. Çünki rəvayətin dəlalət etdiyi mətləb və məfhumla ayənin məzmunu arasında heç bir ixtilaf nəzərə çarpmır.

Lakin bu rəvayət ayənin ümumi məfhumunu qeyd halına salaraq oraya bir çox istisnalar əlavə edə bilər. Ata-anaya olunan vəsiyyətləri elə bir tərzdə bəyan edə bilərik ki, onlar vərəsəlik hüququndan məhrum olsunlar və eyni qaydada öz vəsiyyətini [qohum-əqrəbalarından] o kəslərə edə bilər ki, vərəsəlik hüququna malik olmamış olsunlar.

Nəticə:

Deyilənlərdən belə mə᾽lum olur ki, əvvəlki ayələr nəsx olunmadığı kimi, vəsiyyət ayəsi də nəsx olunmamışdır. Bir sözlə, digər ayələrə şamil olunan hökm və dəlillər bu ayəyə də şamil olunur. Bir də diqqət yetirmək lazımdır ki, ayədə «kitabət» deyildikdə, sözün lüğəvi mə᾽nasını (yazmaq) deyil, istilahi (zərurət, vacib) mə᾽nasını nəzərdə tutmaq lazımdır. Məsələn, Ən᾽am surəsinin 12-ci ayəsində deyilir:

كَتَبَ عَلَى نَفْسِهِ الرَّحْمَةَ

***«O, Özünə [bəndələrinə qarşı] mehriban olmağı vacib etmişdir.»***

Demək vəsiyyət ayəsindən məqsəd, vəsiyyətin ata-anaya və qohum-əqrəbaya olunmasının zəruriliyini bəyan etməkdir. Lakin imamlar tərəfindən nəql olunmuş rəvayətlər, fiqh alimlərinin icması tərəfindən verilən fətvalar və müsəlman ümmətinin hal-hazırkı adət və ən᾽ənələri bu hökmün vacib olmadığını sübuta yetirir.

Belə bir şəraiti (vəsiyyət olunmamasını) nəzərə alaraq, ayənin məzmunundan belə mə᾽lum olur ki, yaxşı olar ki, insan hələ sağ ikən ata-anasına, qohum-əqrəbasına vəsiyyət etsin. Bir daha qeyd edirik ki, ayədə «kitabət» deyildikdə zərurət və icbar deyil, mütləq qanunvericilik nəzərdə tutulur.

### *5. ORUCLUQ AYƏSİNİN NƏSXİ*

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ كُتِبَ عَلَيْكُمُ الصِّيَامُ كَمَا كُتِبَ عَلَى الَّذِينَ مِن قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ

***«Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib olduğu kimi, sizə də vacib edildi. Bəlkə, [bunun vasitəsilə] siz pis əməllərdən çəkinəsiniz.»*** (Bəqərə-183).

Nəsx nəzəriyyəsinin tərəfdarları bu ayənin nəsx olunduğunu belə izah edirlər: Bu ayəyə istinad edərək belə bir nəticəyə gəlmək olar ki, müsəlmanlar keçmiş ümmətlər kimi oruc tutmuş və onların oruclarına aid olan şər՝i hökmlərə əməl etmişlər. Onların orucluğa aid olan qanun və adət-ən՝ənələri bundan ibarət idi ki, əgər bir şəxs iftar açmazdan əvvəl (axşam yeməyini yeməzdən) əvvəl yatsaydı, oyandıqdan sonra artıq bir şey yeyə bilməzdi. Və əgər bir şəxs günortadan sonra yatsaydı, yeyib-içmək, qadınla yaxınlıq etmək ona haram olmalı idi. Bəqərə surəsinin 187-ci ayəsi nazil olduqdan sonra bu hökm nəsx olundu.

أُحِلَّ لَكُمْ لَيْلَةَ الصِّيَامِ الرَّفَثُ إِلَى نِسَآئِكُمْ

***«Oruc gecəsi qadınlarınızla yaxınlaşmaq sizə halal edildi...***

وَكُلُواْ وَاشْرَبُواْ حَتَّى يَتَبَيَّنَ لَكُمُ الْخَيْطُ الأَبْيَضُ

***Allahın sizə halal etdiyini onlardan istəyin: sübhün ağ sapı qara sapdan fərqlənincəyə qədər yeyib-için,***

أُحِلَّ لَكُمْ لَيْلَةَ الصِّيَامِ الرَّفَثُ إِلَى نِسَآئِكُمْ

***Sonra gecəyə qədər orucunuzu tamamlayın.»*** (Bəqərə-187).

Əhli-sünnə alimləri ayənin nəsx olunmasına dair yetkin nəzəriyyəyə istinad edirlər. Lakin onun hansı ayə tərəfindən nəsx olunması haqda müxtəlif nəzəriyyələr irəli sürmüşlər. Bə՝ziləri onun məhz bu ayə ilə nəsx olunduğuna işarə etmiş və müsəlmanların keçmiş ümmətlər kimi oruc tutduqlarını, lakin sonralar bu ayə nazil olmaqla orucluq hökmünün nəsx olunduğunu demişlər.

Əbu Aliyə və Əta həmin nəzəriyyəni qəbul etmişlər. Əbu Cə՝fər Nəhas, bu nəzəriyyənin Səriyə tərəfindən irəli sürüldüyünü bildirmişdir.

***Müəllif:***

Ayə heç də nəsx olunmamışdır. Belə ki, ayənin nəsx olunması üçün iki mühüm mətləb sübuta yetirilməlidir:

1. Nəsxin şərtlərindən biri budur ki, ilk ayə ikinci ayədən əvvəl nəql olsun. Lakin nəsx nəzəriyyəsinin tərəfdarları bu mətləbi sübuta yetirə bilmirlər.

2. Müsəlmanların tutduqları oruc, keçmiş ümmətlərin tutduqları orucla tamamilə eyni qaydada müqayisə və bir-birinə

oxşadılmış olsun. Lakin ayədən məqsəd orucun necəliyini deyil, onun zəruriliyini bəyan etməkdir. Yə`ni, keçmiş oruc keçmiş ümmətlərə vacib olduğu kimi, sizə də vacib olundu.

Demək, ayə keçmiş ümmətlərin tutduqları orucların müsəlmanların tutduqları orucla tamamilə oxşar olduğuna əsla dəlalət etmir.

Əgər hər iki oruc hökmünün oxşarlığı haqqında, söhbət açdığımız ayə ilə deyil, digər dəlillər ilə əldə olunduğunu fərz etsək, ikinci ayə ilk ayəni (oruc hökmünü) deyil, Qur`andan əldə olunmayan hökmü nəsx edəcəkdir. Bu isə nəzərdə tutduğumuz mətləbdən xaricdir və nəsx ilə heç bir əlaqəsi yoxdur.

### *6. FİDYƏ AYƏSİNİN NƏSXİ*

وَعَلَى الَّذِينَ يُطِيقُونَهُ فِدْيَةٌ طَعَامُ مِسْكِينٍ فَمَن تَطَوَّعَ خَيْرًا فَهُوَ خَيْرٌ لَّهُ

***«Oruc tutmağa taqəti olmayanlar isə [hər günün əvəzində] bir yoxsulu doyuracaq qədər fidyə verməlidirlər. Hər kəs könüllü xeyir iş görərsə [həm oruc tutub, həm fidyə verərsə] bu onun üçün daha yaxşı olar.»*** (Bəqərə-184).

Ayənin növbəti ayə ilə nəsx olunduğunu bildirirlər.

فَمَن شَهِدَ مِنكُمُ الشَّهْرَ فَلْيَصُمْهُ

***«Ramazan ayına yetişən şəxslər bu ayı oruc tutmalıdırlar.» (Bəqərə-186).***

***Müəllif:***

Əgər birinci ayədəki «taqət» kəlməsini «imkan» və «qüdrət», «qadir» kimi mə`nalandırırıqsa, ayənin nəsx olunduğu göz qabağında olacaqdır. Belə olduqda, biz ayədən belə bir mə`na əldə edəcəyik:

***“İnsan oruc tutmağa qadir olarsa, yenə də oruc tutmaya bilər» və bunun əvəzinə o, yoxsullara fidyə verməlidir.”***

Birinci ayədə belə bir mə`nanı nəzərə almaqla verilən hökm ikinci ayə ilə nəsx olunur. Belə ki, Ramazan ayına yetişən şəxslər bu ayda oruc tutmalıdır. Belə bir halda yoxsullara verilən fidyə Ramazan ayının orucluq hökmünü əvəz edə bilməz.

Lakin göründüyü kimi, ayədəki «taqət» kəlməsi özünün tam «qüdrət» «imkan» və «qadir» mə`nalarında işlənilməmişdir. Buradan məqsəd «sonsuz məşəqqət» və «çətinlikdir». «Lisanul

ərəb»də deyilir: «Taqət» sonsuz məşəqqət və son həddə qədər olunan səy və çalışqanlıq mə`nasını daşıyır. Yə`ni, insanın bütün çətinlik və məşəqqətlərə sinə gərərək hər hansı bir işin öhdəsindən gəlməsinə «tuq» deyilir.

İbni Əsir və Rağib belə bir mə`na ilə müvafiq olduqlarını bildirmişlər.

«Taqət» kəlməsinin «imkan», «qüdrət» mə`nalarını daşıdığını fərz etsək, ondan götürülən «itaqə» və «yətiqunə» kəlmələri (genişləndirmək) və (vüs`ət halını) tapmaq mə`nalarını verəcəkdir.

Demək, mövzu olduqca məhdud və icra dairəsi olduqca az olmuş və sonradan başqa birisi tərəfindən genişləndirilmiş və vüs`ət halını tapmışdır. Və bunun sonsuz sə`y və məşəqqət olmadan həyata keçməsi qeyri-mümkündür.

Seyyid Məhəmməd Rəşid Rza öz müəllimindən nəql edərək deyir: «itaquş-şəy» ifadəsindən yalnız o zaman istifadə olunur ki, insan hər hansı bir işi yerinə yetirməyə taqəti olmasın və bu işin başa çatması üçün sonsuz çətinlik və məşəqqətlərə sinə gərmiş olsun.

***Nəticə:***

Dediklərimizdən belə bir nəticəyə gəlirik ki, Allah-taala Ramazan ayının orucunu hamıya ümumi şəkildə vacib etmiş, sonra xəstə və səfərdə olanlar ümumiyyət xarakteri daşıyan bu hökmdən istisna olunaraq xəstəlikləri sağaldıqdan və səfərləri sona çatdıqdan sonra [qəza olaraq] oruclarını tutmalarına əmr olunmuşlar. Daha sonra ayədə başqa bir istisnaya işarə olunduğunun şahidi oluruq. O da xəstə və səfərdə olanlar deyil, oruc tutmaq onlar üçün olduqca çətin və məşəqqətli olan kəslərə olunan istisnadır. Susuzluğa taqəti olmayan qoca kişi və qadınları, xəstəliyi daimi və gələn orucluğa qədər sağalmayan xəstələri buna misal çəkmək olar. Bu ayə nazil olmaqla sonradan tutulan qəza orucları onların üzərindən götürülüb və (müəyyən miqdarda) fidyə vermələri tə`yin olunur.

Ramazan ayında mö`minlərə orucun vacib olduğunu, xəstə və səfərdə olan şəxslərə qəzasını sonradan tutmalarını əmr edən

ayədən belə mə᾽lum olur ki, fidyənin verilməsi yalnız o kəslərə vacibdir ki, oruc tutmaq onlar üçün çətin, dözülməz və məşəqqətlidir.

Ayəyə verilən belə bir izahla yenə də iddia etmək olarmı ki, (Vələlləzinə yutiqunə – oruc tutmağa taqəti olmayanlar...) ayəsindən məqsəd insanın ixtiyari olaraq oruc tutmasını və fidyə verməsini seçməkdir?

Təfsirini verdiyimiz ayə barəsində Əhli-beyt tərəfindən kifayət qədər hədis və rəvayət nəql olmuşdur və bu rəvayətlərdə ayənin həmən mə᾽nada təfsir olunduğu təsdiq olunur.

Demək, ayə nəsx olunmamış və verdiyi hökm qüvvədə olaraq qalmaqdadır. Diqqət yetirmək lazımdır ki, ayənin verdiyi hökm, Ramazan ayının orucu və qəzası vacib olan şəxslərə verdiyi hökmlərlə tamamilə fərqlidir. Yə᾽ni ayənin hökmü o kəslərə dəlalət edir ki, Ramazan ayında oruc tutmaq onlara vacib deyildir. Oruc ayəsi isə digər iki qrupa (Ramazan ayının və ya qəzasının orucunu) vacib olduğunu bəyan edir. Demək bu iki ayə verdiyi hökm və mövzu baxımından bir-biri ilə tamamilə fərqlidir və belə olduğu bir halda ayənin birinin digəri ilə nəsx olunduğu haqda söhbət açmağa belə dəyməz.

Bütün bu dediklərimiz məşhur qiraət üsullarına əsaslanırdı. Amma İbni Abbas, Aişə, Əkrəmə İbni Musəyyib öz qiraətlərində «yutiqunə» kəlməsini təf᾽il babının məchul formasında «yutəvvəqun» kimi oxumuşlar və bu məsələdə heç bir ixtilaf nəzərə çarpmır. Malik və Rəbiənin verdikləri fətvalara əsasən, əgər qoca kişi və qadın oruclarını yeyərlərsə, onlara heç bir şey vacib olmur. Belə bir nəticəyə gəlirik ki, ayə nəsx olmuşdur. Lakin biz ayənin verdiyi hökmü əldə əsas tutaraq müxtəlif şəxslərin verdikləri fətvalara və irəli sürdükləri nəzəriyyələrə istinad etməməliyik.

## *7. CİHAD AYƏSİNİN NƏSXİ*

وَلاَ تُقَاتِلُوهُمْ عِندَ الْمَسْجِدِ الْحَرَامِ حَتَّى يُقَاتِلُوكُمْ فِيهِ فَإِن قَاتَلُوكُمْ فَاقْتُلُوهُمْ كَذَلِكَ جَزَاء الْكَافِرِينَ

***«Onlar sizinlə Məscidul-haram yanında vuruşmayınca, siz də onlarla vuruşmayın! Əgər [orada] sizinlə vuruşsalar, siz də onları öldürün. Kafirlərin cəzası ancaq budur!»*** (Bəqərə-191).

Əbu Cəˈfər Nəhas və nəsx nəzəriyyəsinin bir çox tərəfdarları bu ayənin nəsx olunduğuna dair öz fikir və mülahizələrini irəli sürmüşlər. Çünki ayə Məscidul-haramın yaxınlığında müşriklərlə müharibə etməyin haram olduğunu bildirir. Halbuki, onlarla harada olursa olsun, hətta Məscidul-haramın içində belə vuruşmağın heç bir haramlığı yoxdur. Deyilənlərə görə Qətadə də ayənin nəsx olunduğuna əmin olmuşdur.

***Müəllif:***

Bu ayə də digər ayələr kimi nəsx olunmamış və verdiyi hökm hələ də qüvvədədir. Əgər nəsx olunsaydı, hökmən bu ayəyə də dəlalət edərdi.

فَاقْتُلُواْ الْمُشْرِكِينَ حَيْثُ وَجَدتُّمُوهُمْ

***«Müşrikləri harada görsəniz, öldürün.»*** (Tövbə-5).

Lakin bu ayə heç də cihad hökmünü bəyan edən ayənin (Bəqərə surəsinin 191-ci ayəsinin) nəsx olunmasına dəlalət edə bilməz. Çünki bu ayə qan tökülməsinin yalnız müəyyən bir yerdə, yəˈni, Məscidül-haramda haram olduğunu bildirir və göründüyü kimi istina xarakteri daşıyır. İkinci ayədə isə, «ümumiyyət xarakteri» daşıyan bir hökmün verildiyini müşahidə edirik. Necə ki, ayədə deyilir (Müşrikləri harada görsəniz öldürün). Və məˈlum olduğu kimi ümumiyyət xarakteri daşıyan bir hökm, hər hansı bir müəyyən məsələyə dəlalət edən hökmü nəsx etməyə qadir deyildir. Əksinə olaraq, müəyyən hökmlər ümumiyyət xarakteri daşıyan hökmləri təfsir və izah edir.

Hər iki ayənin ümumi məfhumunu nəzərdən keçirərək belə bir məˈna əldə edirik. (Müşriklər harada olurlarsa olsunlar, onlarla vuruşun və harada görsəniz öldürün. Məscidul-haramın isə əzəmət və ehtiramını qoruyub saxlayın. Sizinlə orada vuruşmayınca, vuruşmayın. Yox əgər həddi aşaraq onun

yaxınlığında belə sizə həmlə edərlərsə, özünüzü müdafiə edin və onlarla mübarizə aparın).

Verilən izahları nəzərə alaraq deyə bilərik ki, cihad hökmünü verən ayənin nəsx olunması qeyri-məntiqi və əsassızdır. Çünki hər iki ayənin məfhum və məzmununda ziddiyyət nəzərə çarpmır.

Bə᾽zən ayənin nəsx olunmasına dair bu məzmunda nəql olunmuş rəvayətə istinad olunur. Rəvayətdə deyilir: «Peyğəmbər (s), Kə᾽bənin pərdəsindən asılmış ağır cinayət törədən İbni Xətlin qətlinə fərman verdi.»

Lakin bu rəvayətlə ayənin nəsx olunduğu sübuta yetmir. Əvvəla ona görə ki, rəvayət vahid xəbər halında nəql olunmuşdur. Vahid xəbərlə isə ayənin nəsx olunduğu sübuta yetirilmir. Digər tərəfdən isə rəvayət ayənin nəsx olunmasına əsla dəlalət etmir. Çünki əhli-sünnə alimləri Peyğəmbərdən (s) nəql edirlər ki, «Məscidul-haramda bir şəxsin qətlə yetirilməsi məndən əvvəl kimsəyə icazə verilmirdi. Mənim özümə də yalnız Fəth (Məkkənin fəthi) günü bir saat ərzində bu şəxsin qətlə yetirilməsinə icazə verildi.

Rəvayətdən belə mə᾽lum olur ki, bu yalnız Peyğəmbərə (s) xas bir hərəkət olmuş və ayənin nəsx olunması ilə heç bir əlaqəsi yoxdur. Belə bir əsassız məntiqə isə yalnız bə᾽zi fəqihlərin şəxsi rə᾽yləri əsasında verdikləri fətvalarla əsaslanmaq olar. Halbuki, bizim istinad edəcəyimiz yeganə mənbə müxtəlif şəxslərin verdikləri fətvalar deyil, həqiqəti bəyan edən Qur᾽an ayələridir.

### *8. HARAM [MÜQƏDDƏS] AYLARDA MÜHARİBƏNİN HARAM OLDUĞUNU BƏYAN EDƏN AYƏNİN NƏSXİ*

يَسْأَلُونَكَ عَنِ الشَّهْرِ الْحَرَامِ قِتَالٍ فِيهِ قُلْ قِتَالٌ فِيهِ كَبِيرٌ

***«[Ya Məhəmməd!] Haram olan ayda vuruşmaq haqqında səndən soruşanlara söylə: O ayda vuruşmaq böyük günahdır...» (Bəqərə-217).***

Əbu Cə᾽fər Nəhas deyir: Əta istisna olmaqla, əhli-sünnə alimlərinin bir çoxu belə bir fikirdədirlər ki, ayə nəsx olunmuş və haram aylarda müşriklərlə müharibə etmək halal və mubahdır (yə᾽ni icazə verilir). Ətanın fikrincə ayə nəsx olunmamışdır və möhkəm ayələr icrasına daxildir. Və haram aylarda müşriklərlə

müharibə etmək ayənin verdiyi hökmə əsasən, haram və yolverilməzdir.

Amma şiə alimlərinin fikrincə, ayə nəsx olunmamış və nəql olunmuş rəvayətlərə, verilən fətvalara əsasən, ayənin verdiyi hökm qüvvədə qalmaqdadır. Belə ki, «Təfsiri-tibyan» və «Cəvahirul-kəlam» kitablarında bu nəzəriyyə haqda ətraflı mə`lumatlar verilmişdir.

***Müəllif:***

Bizim fikrimizcə, haqq şiə alimləri tərəfindədir və ayənin nəsx olunduğuna dair irəli sürülmüş nəzəriyyələr bir neçə səbəbdən zəif və əsassızdır.

1. Əgər nəsx nəzəriyyəsinin tərəfdarları Nəhas dediyi kimi bu ayəyə ***“Müşrikləri harada görsəniz öldürün”***[1] istinad etsəydilər təəccüb doğurar və bir o qədər inandırıcı olmazdı. Çünki ayə müşriklərlə müharibənin haram aylar başa çatdıqdan sonra e`lan olunduğunu qətiyyətlə bəyan edir. Həmən ayədə bu haqda buyurulur:

فَإِذَا انسَلَخَ الأَشْهُرُ الْحُرُمُ فَاقْتُلُواْ الْمُشْرِكِينَ حَيْثُ وَجَدتُّمُوهُمْ

***«Haram aylar [onlara möhlət verilmiş, Zilhiccə, Məhərrəm, Səfər və Rəbiuləvvəl ayları] çıxınca müşrikləri harda görsəniz öldürün.» (Tövbə-5).***

Belə bir qəti hökm verildiyi bir halda haram aylarda müşriklərə qarşı müharibə etməyi və ayənin nəsx olunduğunu qəbul etmək nə dərəcədə düzgün olardı?!

2. Əgər nəsx nəzəriyyəsinin tərəfdarları “Səyf” ayəsinin nəzərdə tutulduğuna istinad edirlərsə (“Səyf” ayəsi budur: ***«Müşriklər hamılıqla sizinlə vuruşduqları kimi, siz də hamılıqla onlarla vuruşun.)***[2]**,** bilmədikləri ayə «mütləq» xarakter daşıyır və mə`lum olduğu kimi «mütləq» xarakteri daşıyan ayələr məzmun baxımından qeyri-müəyyən və qeydli ayələri nəsx etmir. Xüsusilə elə bir şəraitdə ki, qeydli ayələrdə verilən hökmlər zaman baxımından mütləq ayələrdən bir qədər sonra verilmiş olsun.

---

[1] Tövbə-5

[2] Tövbə-36

3. Və əgər İbni Abbasdan və Qətadən nəql olunan hədisə istinad edərək bu ayənin "Səyf" ayəsi ilə nəsx olunduğunu iddia edərlərsə bilmədidirlər ki, əldə etdikləri nəticə bir neçə səbəb üzündən batil və əsassızdır.

1. Nəsx vahid xəbərlə sabit olunmur (sübuta yetirilmir);

2. Rəvayət, mə᾽sum tərəfindən nəql olunmuşdur və bəlkə də İbni Abbasın və Qətadənin şəxsi ictihadları olmuş və əməli olaraq həyata keçirilmişdir;

3. Bu rəvayət İbrahim ibni Şərikdən nəql olunmuş başqa bir rəvayətlə ziddiyyət təşkil edir. O deyir: «Əhməd ibni Abdulla ibni Yusif, Əbi Əzhərdən, o da Cabirdən Peyğəmbərdən (s) bu hədisi nəql edir. «Haram aylar düşmən müharibəyə başlamayınca onlarla vuruşmamalıyıq.»

4. Əgər Peyğəmbərin (s) haram aylarda (Şəvval, Ziqə᾽də və Zilhiccə) Hunəyndə, Bəni-Həvazin və Taifdə Bəni-Səqiflə müharibə etməsinə istinad edərlərsə bilməlidirlər ki, onların istinad etdikləri bu dəlil bə᾽zi səbəblər üzündən əsassızdır.

1. Qur᾽anın nəsxi vahid xəbər halında nəql olunmuş rəvayətlərlə sabit olunmur;

2. Müharibənin hansı şəraitdə baş verdiyi bizlərə bir qədər mə᾽lum deyildir. Bəlkə də Peyğəmbər (s) zərurət üzündən verilən ümumi hökmdən istifadə edərək müsəlmanlara cihad hökmünü vermişdir. Və belə bir halda rəvayətin, ayəni nəsx edəcəyinə heç də istinad etmək olmaz.

### *9. ƏHLİ KİTAB QADINLARI İLƏ EVLƏNMƏYİ BƏYAN EDƏN AYƏLƏRİN NƏSXİ*

وَلاَ تَنكِحُواْ الْمُشْرِكَاتِ حَتَّى يُؤْمِنَّ

***«Allaha şərik qərar verən qadınlar imana gəlməyincə onlarla evlənməyin.» (Bəqərə-221).***

Bə᾽zilərinin irəli sürdükləri nəzəriyyəyə əsasən, bu ayə ehsan ayəsi ilə nəsx olunmuşdur.

وَالْمُحْصَنَاتُ مِنَ الَّذِينَ أُوتُواْ الْكِتَابَ مِن قَبْلِكُمْ إِذَا آتَيْتُمُوهُنَّ أُجُورَهُنَّ

***«Mö᾽minlərin, həmçinin sizdən əvvəl kitab verilmişlərin [yəhudilərin və xaçpərəstlərin] azad və ismətli [özlərini zinadan və nəfslərini haram şeylərdən qoruyan] qadınları mehrlərinizi***

***verdiyiniz, unlar namuslu olub zina etmədikləri və aşna saxlamadıqları təqdirdə [evlənmək üçün] sizə halaldır.» (Maidə-5).***

İbni Abbas, Malik ibni Ənəs, Süfyan və Əbdürrəhman ibni Əmr Əuzai belə bir fikirdədirlər ki, Bəqərə surəsinin 221-ci ayəsi bu ayə ilə nəsx olunmuşdur. Lakin Abdulla ibni Əmr onların əksinə olaraq Tövbə surəsinin 5-ci ayəsinin qeyd olunan ilk ayə ilə nəsx olunduğuna dair fikir irəli sürmüşdür. Beləliklə müsəlmanların əhli-kitab qadınları ilə evlənməsini haram etmişdir.

***Müəllif:***

Bu bir həqiqətdir ki, ayə nə nəsx olmuş, nə də öz qanunvericilik xüsusiyyətini itirmişdir. Əgər evlənmənin haram olduğunu bəyan edən birinci ayədə müşrik qadınlar deyildikdə, bütpərəst qadınlar nəzərdə tutulursa – belə ki, ayənin zahiri məʾnası bu mətləbə işarə edir – bunun haram olması ikinci ayədə əhli-kitab qadınları ilə evlənməyə icazə verilməsi ilə heç bir ziddiyyət təşkil etmir. Və belə bir halda ayələr bir-birini nəsx etməyəcəkdir. Və əgər nəsx nəzəriyyəsinin tərəfdarlarının dedikləri kimi müşrik qadınlar dedikdə, istər bütpərəst, istərsə də əhli-kitab qadınları nəzərdə tutularsa birinci ayə «ümumi», ikinci ayə isə «xüsusi» xarakter daşıyacaqdır. Və həmişə olduğu kimi xüsusi (müəyyən) hökm ümumiyyət xarakteri daşıyan başqa bir hökmü nəsx deyil, əksinə olaraq onu xüsusiləşdirir. Çünki belə bir məʾnaya əsasən, birinci ayə (ümumi hökm) istər müşrik, istərsə də əhli-kitab qadınlarına da şamil olunur. İkinci ayə isə yalnız əhli-kitab qadınlarına aid olmaqla ümumi hökm verən birinci ayəyə əlavə olunacaqdır. Və nəticədə hər iki ayənin [ümumi] məʾnası bundan ibarət olacaqdır. Müsəlmanların bütpərəst qadınlarla evlənməsi haram [birinci ayə], əhli-kitab qadınlarla isə halaldır [ikinci ayə].

Göründüyü kimi əvvəlki ayələrdə olduğu kimi nəsxə səbəb olası hər iki ayənin məʾna və məfhumunda ziddiyyət nəzərə çarpmır.

Lakin sual doğuran məsələlərdən biri də əhli-kitab qadınları ilə müvəqqəti evlənmə məsələsidir. Şiə alimləri əhli-kitab

qadınları ilə müvəqqəti evlənməyi düzgün və halal hesab edirlər. Belə bir əqidəyə əsaslanmağın əsas səbəbi ayədə istifadə olunan və müvəqqəti evlənməni bəyan edən (vəlmuhsinat) və əhli-kitab qadınları ilə daimi evlənmənin haram olduğunu bəyan edən nəql olmuş bir çox hədis və rəvayətlərdir.

Bu əqidənin müqabilində şiə alimlərinin bir qismi əhli-kitab qadınları ilə daimi evlənmənin halal olduğuna dair öz fikir və mülahizələrini irəli sürmüşlər. Həsən və Əli Babəveyhi, həmçinin Məhəmməd ibni Babəveyhi buna misal çəkmək olar. Onlar əhli-kitab qadınları ilə daimi evlənməni halal hesab etməklə bu məsələyə dair yaranmış bütün nöqsanları aradan götürmüşlər. Və biz gələcək fəsillərdə bu məsələyə dair ətraflı söhbət açacağıq.

### *10. ƏQİDƏ AZADLIĞI AYƏSİNİN NƏSXİ*

لاَ إِكْرَاهَ فِي الدِّينِ قَد تَّبَيَّنَ الرُّشْدُ مِنَ الْغَيِّ

***«Dində məcburiyyət [zorakılıq] yoxdur. Artıq doğruluq [iman] azğınlıqdan [küfrdən] aydın fərqlənir.» (Bəqərə-256).***

Lakin bə᾿zilərinin fikrincə, bu ayə cihad hökmünü verən Tövbə surəsinin 73-cü ayəsi ilə nəsx olunmuşdur. Belə ki, bu ayə cihad hökmü verilməklə zorakılığın dində vacib olduğuna əmr olunur.

يَا أَيُّهَا النَّبِيُّ جَاهِدِ الْكُفَّارَ وَالْمُنَافِقِينَ

***«[Ya Peyğəmbər!] Kafirlərə və münafiqlərə qarşı vuruş [kafirləri qılıncla, münafiqləri isə dəlil-sübutla, sözlə məhv et!]»***

Alimlərin başqa bir qismi isə belə bir fikirdədirlər ki, birinci ayə nəsx olunmamış, sadəcə olaraq ikinci ayə ilə istisna olunaraq yalnız əhli-kitaba aid olunmuşdur. Çünki bir qədər əvvəl qeyd etdik ki, əhli-kitabla yalnız o zaman müharibə etmək olar ki, onlar küfr edərək hətta öz dinlərindən belə çıxmış olsunlar və bunun üçün də əsaslı səbəblər olmalıdır.

***Müəllif:***

Biz isə belə bir fikirdəyik ki, bu ayə möhkəm ayələr sırasına daxildir və onun verdiyi hökm nə istisna olmuş, nə də başqa bir ayə ilə nəsx olunmuşdur.

***İzah:***

«İkrah» «kərəh» sözündən götürülmüşdür və lüğətdə iki məˈna verdiyi göstərilir.

1. «Xoşlamamaq», «xoşa gəlməmək;»

Bəqərə surəsinin 216-cı ayəsində məhz bu məˈnada işlənmişdir.

وَعَسَى أَن تَكْرَهُواْ شَيْئًا وَهُوَ خَيْرٌ لَّكُمْ

***«Bəˈzən xoşlamadığınız bir şey sizin üçün xeyirli olur.»***

2. «İcbar», «zəhmət», «qeyri-ixtiyari iş».

Məsələn, Əhqaf surəsinin 15-ci ayəsində deyilir:

حَمَلَتْهُ أُمُّهُ كُرْهًا وَوَضَعَتْهُ كُرْهًا

***«Anası onu [doqquz ay bətnində] zəhmətlə gəzdirmiş, əziyyətlə doğmuşdur.»***

Ananın hamilə olub uşağı dünyaya gətirməsinə onun razılığı olsa da, icbari və onun ixtiyarından xaric olan bir işdir. Göründüyü kimi «kərihə» burada – icbar və qeyri-ixtiyari iş məˈnasında işlənmişdir.

Haqqında söhbət açdığımız ayənin nəsx olunduğunu o zaman qəbul edə bilərik ki, «kərihə» bu ayədə də «xoşlamamaq» məˈnasında işlənmiş olsun. Və belə olduqda ayədən belə bir məˈna əldə edəcəyik. Dinin [İslamın] qəbul olunması gərək razılıq və könüllülük əsasında həyata keçsin. Lakin cihad ayəsi nazil olmaqla ayə nəsx olunmuş və onlara qarşı cihad hökmü verilmişdir: «Dini qəbul etməyincə və buna razı olmasalar da belə, onlarla vuruşun və dini qəbul etməyi onlara məcbur edin.» Lakin bir neçə əsaslı səbəblər üzündən biz «ikrah» sözünü bu ayədə «icbar və xoşlamamaq» məˈnalarında işlədə bilmərik.

1. Ayəni belə bir məˈnada təfsir etməyə heç bir əsaslı dəlil yoxdur. Belə ki, hər hansı bir kəlmənin verdiyi məˈnalara dəlalət edəcək səbəb və dəlil olmalıdır.

2. Ayədə din deyildikdə həm onun əsasları, həm də şaxələri nəzərdə tutulur və sonradan işarə olunan küfr və imanı (ğəyy-ruşd) yalnız dinin əsaslarına dəlalət etdiyinə dəlil hesab edə bilmərik. Çünki hidayət və zəlalət yollarının aşkar olması dini hökm və üsullara əməl etməkdə heç də təˈsirsiz deyildir. Əksinə olaraq onların arasında möhkəm və qırılmaz əlaqə bərqərardır.

Digər tərəfdən bilirik ki, İslam dininin şaxələrini təşkil edən bə`zi məsələlərdə elə ilk gündən təbii olaraq icbari qanunlar tərtib olunmuşdur. Məsələn, borcu olan şəxs icbari olaraq borcunu qaytarmalı, qadın hökmən ərinə itaət etməli, oğru hökmən oğurluqdan əl çəkməlidir və s.

Bütün bunları nəzərə alaraq İslam dinində heç bir məcburiyyətin olmadığını iddia etmək olarmı?!

3. Əgər ikrahı «məcburiyyət» və «xoşlamamaq» kimi təfsir ediriksə, ayənin ikinci yarısı ilə yə`ni, (təbəyyənə) ***«Artıq doğruluq [iman] azğınlıqdan [küfrdən] aydın fərqlənir»*** cümləsi ilə bir o qədər də uyğun gəlməyəcəkdir. Və belə bir halda ayəni bu kimi ifadələrlə təfsir etməliyik. Dinin haq olmasını aşkar edən dəlillər insanın qəlbində özünə qarşı meyl, istək və razılıq hissi yaradır. Dinə qarşı insanda belə bir müsbət təəssürat yaranmaqla onu öz razılığı ilə qəbul edir. Və belə şəraitdə insanların dini qəbul etmələrində heç bir zorakılıq və məcburiyyətə ehtiyac qalmır.

Əgər ayə belə təfsir olunarsa, onun cihad ayəsi ilə nəsx olunmasına dair irəli irəli sürülmüş nəzəriyyə tamamilə əsassız və qeyri-məntiqi qəbul ediləcəkdir. Çünki İslam dini zühur etdiyi ilk gündən onun haqq olmasını sübuta yetirən dəlillər möhkəm və məntiqi olmuşdur. Və zaman keçdikcə o öz mövqeyini qoruyub saxlayır və mübarizə meydanına əsaslı dəlillərə arxalanaraq, uğurla qədəm qoyur. İman və küfrün bir-birindən fərqlənməsi isə illər və əsirlər keçməsinə baxmayaraq, bütün dövrün insanları üçün zəruri məsələlərdən biri olmuşdur. İnsanlar bu məsələyə daim ehtiyac duymuş və gələcəkdə bu ehtiyac hissi daha da güclənəcəkdir.

Bütün bunları nəzərə alaraq necə təsəvvür etmək olar ki, İslamın zühur etdiyi ilk illərdə insanlar bu müqəddəs dini heç bir məcburiyyət olmadan asanlıqla qəbul edir, cihad hökmü verilməklə isə bütün bunlar nəsx olur və dinin qəbul olunması məcburi xarakter daşımağa başlayır?! Halbuki, küfrlə imanı bir-birindən fərqləndirən və dinin həqqaniyyətini aşkar edən amillər sonrakı dövrlərdə daha çox və daha məntiqi olmuşdur. Əgər iman (hidayət) və küfr (zəlalət) yolunun aşkar olunması (fərqlənməsi)

azadlıq üçün dəlil və dinin qəbul olunması üçün meyl və rəğbət hissi olsaydı, cihad hökmünün verilməsinə heç bir lüzum olmazdı. Halbuki, cihad İslam dinində sabit və qəti hökmlərdən biri hesab olunur.

Bu səbəbdən də deməliyik ki, «ikrah» kəlməsi ayədə meyl və rəğbət hissinin müqabilində «xoşa gəlməmək», «xoşlamamaq» məʾnasında deyil, «icbar» məʾnasında işlənmişdir. Və bu bir halda ayə belə bir məʾna daşıyacaqdır:

Allahın dini ikrah və məcburiyyətə əsaslanmır. İstər üsuliddində (əqidəvi məsələlərdə), istərsə də füruiddində (şərʾi hökmlərdə) müəmma və çətinlik nəzərə çarpmır. Din olduqca asan və sadədir. O hər bir insanın fitrət və təbiətində dərin kök salmışdır.

Allah-taala, insanları dinin göstərişlərindən agah etmək üçün peyğəmbərlər və onlarla birlikdə səmavi kitablar göndərmişdir. Beləliklə insan kor-koranə təqliddən əl çəkib ixtiyarında olan sübut və dəlillərlə öz müqəddəratını həll etmiş olur. Düzgün nəticəyə gələrək haqq yolu seçir və beləliklə əbədi səadətə qovuşur. Şeytani vəsvəsələrə uyaraq haqq yoldan üz çevirdikdə isə həlakət və bədbəxtçiliyə düçar olur. Allah-taala başqa bir ayədə bu həqiqəti bəyan edərək buyurur:

إِنَّا هَدَيْنَاهُ السَّبِيلَ إِمَّا شَاكِرًا وَإِمَّا كَفُورًا

***«Biz ona haqq yolu göstərdik. İstər [neʾmətlərimizə] minnətdar olsun, istər nankor [bu onun öz işidir].» (Dəhr-3).***

Allah öz dinini qəbul etməyi kimsəyə vadar etməmişdir. O, haqq yolunu insanlara göstərməklə onları tam ixtiyar sahibi etmişdir. Azad yaradılmış hər bir insan haqq yolunu seçməklə həm özünü əbədi səadətə qovuşdurar, həm də haqdan üz çevirərək həlakət və bədbəxtçiliyə düçar edə bilər. Bir sözlə təzyiq və məcburiyyət olmadan ixtiyari olaraq öz həyat yolunu seçə bilər.

Halbuki, elm və qüdrəti hər şeyi əhatə edən Allah, insanları dini qəbul edib Onun göstərişlərinə tabe olmağa vadar və onları ixtiyari olaraq gördükləri bütün işlərdən məhrum edə bilərdi. Lakin O, öz bəndələrinə sonsuz məhəbbət göstərməklə onlara hansı yolu seçməkdə tam ixtiyar vermişdir. Onlar da ya haqq yolu

seçməklə əbədi səadətə qovuşur, ya da haqdan üz çevirərək özlərini fəlakət və uçuruma sürükləyirlər.

Demək ***«La ikrahə fiddin qədtəbəyyənərruşdu minəl-ğəyy – Dində məcburiyyət [zorakılıq] yoxdur. Artıq doğruluq [iman] azğınlıqdan [küfrdən] aydın fərqlənir»*** ayəsinin əsas məzmunu bundan ibarətdir: «Dində məcburiyyət yoxdur. Çünki həm hidayət, həm də uçurum və bədbəxtçiliyə aparan yollar bəşəriyyətə bəyan olunmuşdur.

***1.***

وَلَوْ شَاء اللّهُ لَجَعَلَكُمْ أُمَّةً وَاحِدَةً وَلَـكِن لِّيَبْلُوَكُمْ فِي مَآ آتَاكُم فَاسْتَبِقُوا الخَيْرَاتِ إِلَى الله مَرْجِعُكُمْ جَمِيعًا فَيُنَبِّئُكُم بِمَا كُنتُمْ فِيهِ تَخْتَلِفُونَ

***«Əgər Allah istəsəydi, sizi [eyni şəriətə tabe] vahid bir ümmət edərdi. Lakin [bu müxtəliflik] Allahın verdikləri ilə sizi imtahan etməsi üçündür. Elə isə yaxşı işlər görməkdə bir-birinizi ötməyə çalışın [bir-birinizlə yarışın]. Hamınızın axır dönüşü Allahadır. Allah aranızda ixtilaf doğuran məsələlər barəsində sizə xəbər verəcəkdir.» (Maidə-48).***

قُلْ فَلِلّهِ الْحُجَّةُ الْبَالِغَةُ فَلَوْ شَاء لَهَدَاكُمْ أَجْمَعِينَ

***2. «De ki: Tutarlı dəlil yalnız Allaha məxsusdur. Əgər o istəsəydi, sizin hamınızı doğru yola yönəldərdi.» (Ən՚am-149).***

وَقَالَ الَّذِينَ أَشْرَكُواْ لَوْ شَاء اللّهُ مَا عَبَدْنَا مِن دُونِهِ مِن شَيْءٍ نَّحْنُ وَلا آبَاؤُنَا وَلاَ حَرَّمْنَا مِن دُونِهِ مِن شَيْءٍ كَذَلِكَ فَعَلَ الَّذِينَ مِن قَبْلِهِمْ فَهَلْ عَلَى الرُّسُلِ إِلاَّ الْبَلاغُ الْمُبِينُ

***3. «Müşriklər nadanlıqları üzündən və istehza məqsədi ilə dedilər: Əgər Allah istəsəydi, nə biz, nə də atalarımız Ondan başqa bir şeyə tapınmaz, Onsuz [Allahın razılığı, hökmü olmadan] heç bir şeyi haram etməzdik. Onlardan qabaqkılar da belə etmişdilər. Peyğəmbərin vəzifəsi isə yalnız açıq-aşkar bir təbliğdir. [Peyğəmbər heç kəsi zorla bir işə vadar etməz. Onun borcu ancaq Allahın hökmlərini insanlara təbliğ etmək, insanların borcu isə Allahın onlara verdiyi ağıl və iradə ilə haqqı batildən ayırmaq, yaxşı işlər görüb savab qazanmaqdır.» (Nəhl-35).***

## *11. ZİNAYA DAİR VERİLƏN ŞƏHADƏT AYƏLƏRİNİN NƏSXİ*

وَاللاَّتِي يَأْتِينَ الْفَاحِشَةَ مِن نِّسَآئِكُمْ فَاسْتَشْهِدُواْ عَلَيْهِنَّ أَرْبَعةً مِّنكُمْ فَإِن شَهِدُواْ فَأَمْسِكُوهُنَّ فِي الْبُيُوتِ حَتَّىَ يَتَوَفَّاهُنَّ الْمَوْتُ أَوْ يَجْعَلَ اللّهُ لَهُنَّ سَبِيلاً وَاللَّذَانَ يَأْتِيَانِهَا مِنكُمْ فَآذُوهُمَا فَإِن تَابَا وَأَصْلَحَا فَأَعْرِضُواْ عَنْهُمَا إِنَّ اللّهَ كَانَ تَوَّابًا رَّحِيمًا

***«Qadınlarınızdan zina edənlərə qarşı öz aranızdan [möʾminlərdən] dörd şahid tutun! Əgər onlar [bu işə] şəhadət verərlərsə, həmin qadınları ölənə qədər, yaxud Allah onlar üçün bir yol açanadək evlərdə həbs edin! İçərinizdən belə qəbih iş görənlərin hər ikisinə əziyyət verin. Əgər tövbə edib özlərini düzəltsələr, onları incitməkdən vaz keçin! Əlbəttə, Allah tövbələri qəbul edən və [bəndələrini] bağışlayandır.» (Nisa 15-16).***

Əkrəmə və İbad ibni Samit kimi müfəssirlər, Həsən Bəsrinin «Rəqqaiş»dən nəql etdiyi rəvayətə istinad edərək ayənin nəsx olunduğuna dair fikir irəli sürmüşlər. Onların fikrincə, yuxarıda qeyd olunan birinci ayə (15-ci), ikinci (16-cı) ayə və ikinci ayədə başqa bir cəza hökmü ilə nəsx olunmuşdur. Belə ki, əgər subay kişi və qadınlar bir-birləri ilə zina edərlərsə, yüz şallaq zərbəsi və bir illik sürgünlə cəzalandırılmalı, evli kişi və qadınlar zina etdikdə isə yüz şallaq zərbəsindən sonra daş-qalaq olunaraq öldürülməlidirlər.

Qətadə və Məhəmməd ibni Cabir birinci ayənin evlilərə, ikinci ayənin subaylara aid olduğunu və hər iki ayənin şallaq və daşqalaq hökmü ilə nəsx olunduğuna işarə etmişdir.

İbni Abbas, Mucahid və Nəhasın davamçıları isə belə bir fikirdədirlər ki, birinci ayə qadınlara (istər subay olsun, istərsə də evli), ikinci ayə isə ümumilikdə kişilərə aid olmuş və sonradan hər ikisi şallaq və daşqalaq hökmü ilə nəsx olunmuşdur.

Əbu Bəkr Cəccas deyir: Müsəlmanlar arasında bu kimi ayənin nəsx olunmasına dair heç bir ixtilaf və fikir ayrılığı mövcud deyildir.

***Müəllif:***

Ayələrin heç biri nəsx olunmamışdır və onlar öz qüvvəsində qalmaqdadır. O ki, qaldı ayədə sual doğuran bəʾzi ifadələrə, qeyd etmək lazımdır ki, «fahişə» lüğətdə görülən hər bir nalayiq və

xoşagəlməz (pozğunluq xüsusiyyəti daşıyan) işlərə deyilir. Bu kimi işlər bə`zən iki qadın (buna musahiqə deyilir), bə`zən iki kişi (buna ləvat deyilir) bə`zən də kişi ilə qadın arasında baş verir və belə bir qeyri-qanuni əlaqə «zina» adlanır. Və fahişə sözü ərəb dilinin istər lüğət, istərsə də terminologiyasında «zina» mə`nasını daşımır. O ki, qaldı ayənin nəsx olunmasına, bu iki mühüm mətləbdən asılıdır.

1. Zinakar qadınları ev dustağı etmək, zinanın qarşısını almaq məqsədilə deyil, cəzalandırmaq məqsədilə olmalıdır:

2. Ayənin zahiri mə`nasından belə mə`lum olur ki, zinakar qadınları ev dustağı etməkdən əsas məqsəd onların yenidən zinaya qurşanmalarının və ictimai pozğunluqların qarşısını almaqdır.

Şübhəsiz ki, nalayiq və pozğunçuluğun qarşısını almaq, sağlam ictimaiyyətin və cəmiyyət üzvlərinin can sağlamlığının, namus və qeyrətinin keşiyində durmaq hər bir vətəndaşın insanlıq borcudur. Bə`zi alimlərin fikrincə, bu iş bir o qədər də əhəmiyyət kəsb etməsə də vacib və zəruridir. Bu ayədə də göründüyü kimi insanlara cəmiyyətdə yaranmış pozğunçuluğun qarşısını almağa və pozğun qadınları ev dustağı etməyə əmr olunur. Beləliklə, yaranmış çətinliklər aradan götürülmüş və ictimai sabitlik bərqərar olunmuşdur.

Demək, şallaq və daşqalaq kimi cəza üsullarını onlar üçün qabaqcadan tə`yin olunmuş nicat yolu hesab etmək olmazdı. Və tamamilə qənaətbəxş şəraitdə yaşayan hər bir düşüncəli qadın şallaq və daşqalaq olunmasına təbii ki, heç vaxt razı olmaz və belə bir ağır cəza üsulu onların nicat tapması üçün heç də tə`sirli olmazdı. Bəs nicat yolu deyildikdə nə nəzərdə tutulur? Bir qədər əvvəl qeyd etdik ki, «fahişə» deyildikdə həm kişilərin bir-birləri ilə cinsi yaxınlığı (ləvat), həm qadınların bir-biri ilə cinsi yaxınlığı (musahiqə), həm kişi və qadınların bir-birləri ilə qeyri-qanuni cinsi yaxınlığı nəzərdə tutula bilər.

Bütün bunları nəzərə alaraq deyə bilərik ki, zina etmiş qadını [müəyyən müddət] ev dustağı etməkdə məqsəd onun tutduğu işdən peşman olub, sidq ürəkdən tövbə edib islah olunmasıdır.

Belə ki, bu müddət ərzində onun əvvəlki nalayiq işlərindən əl çəkib sözün həqiqi məʾnasında islah olunduğuna yəqinlik hasil etmək lazımdır. Və qadının nicat tapması deyildikdə, məhz belə bir tərbiyə olunma üsulu nəzərdə tutulur.

Göründüyü kimi ayənin verdiyi hökm qüvvədə qalmışdır və onun nəsx olunmasına dair hər hansı bir fərziyyə irəli sürmək tamamilə əsassızdır.

Şallaq və daşqalaq hökmü isə nalayiq və pozğunçuluq ilə məşğul olan bəʾzi əxlaqsız şəxslərin islah olunmaları üçün qüvvəyə minmişdir və onun birinci ayəni nəsx etmək üçün heç bir əlaqəsi yoxdur. Başqa sözlə desək, birinci hökmün verilməsindən əsas məqsəd ictimai pozğunçuluğun qarşısını almaq və bunun təkrar olunmasına yol verməmək, ikinci hökmün verilməsindən isə günahkarları cəzalandırmaq və ibrət olsun deyə başqalarında qorxu hissi yaratmaqdır. Göründüyü kimi bu iki hökmün arasında bir-birini nəsx etməyə səbəb olası heç bir ziddiyyət nəzərə çarpmır. Lakin əgər qadın şallaq zərbələri və daşqalaq nəticəsində ölərsə, onun ev dustağı etmək hökmü istər-istəməz aradan götürülmüş olur. Çünki qadın ölməklə mövzu tamamilə əvəz olunmuş olur. Və bu hökm indinin özündə də nəsx olunmadan qüvvədə qalmaqdadır.

İkinci ayənin nəsx olunması da iki halda mümkündür:

1. «Yəʾtiyaniha» feʾlindəki əvəzlik zinaya dəlalət etmiş olsun. Yəʾni, əgər kişi zina etmiş olarsa...

2. «Fəazuhuma» – əziyyət edin deyildikdə isə, təhqir edib nalayiq sözlər demək nəzərdə tutulur. Belə olduqda, yəʾni ümumi məfhumu bundan ibarət olacaqdır. «Əgər kişilər zina edərlərsə təhqir edib nalayiq sözlər deməklə, cəza məqsədi ilə ruhi işgəncə vermək lazımdır.»

Belə bir məʾnanı nəzərə alaraq demək lazımdır ki, zinakar kişilərin cəzalandırılmalarına dair verilmiş hökm nəsx və onun yerinə şallaq və daşqalaq hökmü təʾyin olunmuşdur.

Lakin «Yəʾtiyaniha» feʾlində əvəzlik nə «zina»ya dəlalət edir, nə də əziyyət və işgəncədən məqsəd söymək və nalayiq sözlər deməkdir. Əvvəla ona görə ki, bu məʾnaya dəlalət edəcək heç bir

dəlil yoxdur. Digər tərəfdən isə burada ayənin zahiri mə᾽nası ilə heç bir bağlılıq nəzərə çarpmır.

***Açıqlama:***

Cəm əlaməti olan ikinci şəxs əvəzliyindən bu ayədə üç dəfə istifadə olunmuşdur və bu əvəzliklərin hər biri eyni mə᾽na daşıyır. Mə᾽lum olduğu kimi, ilk iki əvəzlik yalnız kişilərə dəlalət edir və ikilik bildirən bu əvəzliyi həm kişiyə, həm də qadına aid etmək bir o qədər düzgün olmazdı. Və ikinci ayədə istifadə olunan «əlləzani – iki nəfər şəxs» kəlməsində həm kişi, həm də qadına dəlalət etmir. Belə olduğu bir halda buradan zinanın nəzərdə tutulduğuna dair heç bir fikir irəli sürmək olmaz.

İfadənin bəlağətli olması üçün isə «ikilik əlaməti olan şəxs əvəzliyindən həm kişi, həm də qadın üçün istifadə etmək bir o qədər də münasib olmazdı. Belə bir halda cəm əlaməti bildirən şəxs əvəzliyindən istifadə etmək daha məqsədəuyğun olardı.

Deməк, ikinci ayədəki ikilik bildirən şəxs əvəzliyi iki kişiyə dəlalət edir. Və «fahişə» deyildikdə kişi ilə qadının qeyri-qanuni cinsi əlaqəsi, yə᾽ni, «zina» deyil, iki kişinin bir-biri ilə cinsi yaxınlığı, yə᾽ni, «ləvat» nəzərdə tutulur.

Dediklərimizdən belə mə᾽lum olur ki, ayədən məqsəd zina deyil, kişilərin bir-biri ilə cinsi yaxınlığı, yə᾽ni, «ləvat»dır. Və belə bir halda ayə nə özündən əvvəlki ilə, nə də zinakarlar üçün müəyyən olunmuş şallaq və daşqalaq hökmü ilə nəsx oluna bilər.

Bir sözlə ayənin nəsx olunduğunu qəbul edənlər ya elmi və əməli nəticə verməyən vahid xəbər halında nəql olmuş rəvayətlərə istinad etməli, ya da kor-koranə heç bir məntiqi dəlilə əsaslanmadan başqalarına təqlid etməlidirlər.

***HALAL QADINLAR HAQDA NAZİL OLMUŞ AYƏNİN NƏSXİ***

وَأُحِلَّ لَكُم مَّا وَرَاء ذَلِكُمْ

***«Bunlardan başqaları isə namusla [iffətlə] zinakarlığa yol verməndən, mallarınızı sərf edərək evlənmək üçün sizə halal edildi.» (Nisa-24).***

Diqət yetirmək lazımdır ki, bu iddianın sübutu və qeyd olunan ayənin nəsx edilməsi üçün məhdud mə᾽nalı sonrakı ayəni

ümumi məʾna daşıyan əvvəlki ayə üçün «məhdudlaşdırıcı» deyil, nəsxedici hesab etməyimizdən asılıdır. Çünki belə olmadıqda bu ayə nəsx edilmiş deyil, müəyyən qeydlərlə məhdudlaşdırılmış hesab ediləcəkdir.

Lakin bizim fikrimizcə məhdud məʾnalı ayələr ümumiyyət xarakteri daşıyan ayələr və ümumi qanunlar nəsxə deyil, müəyyən istisnalara səbəb ola bilər. Və bu da qüvvəyə mindiyi andan əvvəl və ya sonra gəlməsindən asılı deyildir.

Başqa sözlə desək, məhdud məʾnalı ayələr ümumi məʾna daşıyan ayələri nəsx deyil, məhdudlaşdıra bilər. Bu səbəbdən də alimlər ümumi məʾna daşıyan ayələrin məhdudlaşdırılmasında vahid xəbər halında nəql olunmuş hədis və rəvayətlərlə kifayətlənir və onlara istinad edirlər. Halbuki, məhdud məʾna daşıyan ayələr nəsxedici xüsusiyyətə malik olsaydı, vahid xəbərlə kifayətlənmək olmazdı. Çünki Qurʾanın nəsx olunmasının vahid xəbərlə sübuta yetirilmədiyini dəfələrlə qeyd etmişik.

Bunlarla yanaşı qeyd etmək lazımdır ki, ayədə ümumi məʾna daşıdığını sübuta yetirəcək heç bir ifadədən istifadə olunmamışdır. Belə bir qənatə də yalnız xarici amillərlə gəlmək olar. Və belə olduqda əgər ayəni məhdudlaşdıra biləcək başqa bir dəlil olsaydı, belə bir qənaətə gəlməli olardıq ki, ayə ümumiyyət xarakteri deyil, məhdud məʾna daşımaqla müəyyən zaman və məkana dəlalət edir.

### *13. MÜTʾƏ AYƏSİNİN NƏSXİ*

فَمَا اسْتَمْتَعْتُم بِهِ مِنْهُنَّ فَآتُوهُنَّ أُجُورَهُنَّ فَرِيضَةً

***«İstifadə [yaxınlıq] etdiyiniz qadınların mehriyyələrini lazımı qaydada verin.» (Nisa-24).***

Nəsx tərəfdarlarının irəli sürdükləri nəzər sahibləri olan sünni alimlərinin fikrincə mütʾənin halal olduğunu bəyan edən bu ayə sonralar nəsx və qadınlarla müvəqqəti evlənmə haram olmuşdur.

Lakin şiə alimlərinin fikrincə, hökm qüvvədə qalmış və başqa bir ayə və ya [Peyğəmbər (s) tərəfindən] nəql olunmuş hədislə, daha dəqiq desək, verdiyi hökmlə nəsx olunmamışdır.

Tarixə nəzər saldıqda bunun şahidi oluruq ki, əshab və tabeinlərin bə᾽ziləri müt᾽ənin halal olduğunu hesab etmişlər. İbni Həzn bu barədə deyir: Peyğəmbərdən (s) sonra İbni Məs᾽ud, Müaviyə, Əbu Səid, İbni Abbas, Üməyyət ibni Xələfin oğlanları Sələmə və Mə᾽bəd, Cabir, Əmr ibni Həris və başqaları müt᾽əni hələ də halal hesab edirdilər. Sonra deyir: Cabir nəql edir ki, Peyğəmbərin (s) əshabı və ona yaxın olan hər bir şəxs Ömərin xəlifə olduğu son illərə qədər müt᾽əni halal hesab edirdi.

Tabeinlərdən olan Tavus, Səid ibni Cubeyr və Əta kimi Məkkənin tanınmış fiqh alimləri də müt᾽əni halal hesab edirdilər. Şeyxul-İslam Mərcinani, müt᾽ənin halallığına dair verilmiş hökmü Malik ibni Ənəs (əhli-sünnə məzhəblərinin birinin banisi) ilə əlaqələndirmişdir. O, müt᾽ənin halal olması haqda deyir: Hökmün nəsx olunması sabit olunmayınca qüvvədə qalacaqdır.

İbni Kəsir deyir: Əhməd ibni Hənbəl zərurət üzündən müvəqqəti evlənməni (müt᾽əni) halal hesab etmişdir.

Məkkənin tanınmış fiqh alimlərindən biri olan İbni Cərih yetmiş qadınla müvəqqəti olaraq müt᾽ə etmişdir.

1. «Əl-hidayə fi-şərhil bidayə» 375-ci səh. Kitabı şərh edən şeyx Məhəmməd, hökmün Malik ibni Ənəs tərəfindən verildiyini təsdiq etmişdir. Lakin İbni Humam «Fəthul-Qədir» adlı kitabda bu fərziyyəni qətiyyətlə rədd etmişdir. Əbdül-Baqi Maliki Zərçani «Əbil Ziya»nın xülasəsini şərh etdikdə deyir: Müt᾽ə müvəqqəti evlənmə olduğu üçün kişinin məqsədi, qadına ya onun özü və ya qadının ixtiyar sahibi (ata-baba, qardaş) tərəfindən qadına başa salınmalı və tə᾽yin olunmuş vaxtın müddəti əvvəlcədən ona bildirilməlidir. Və əgər müddət əqd zamanı müəyyən olunmasa, lakin bunu nəzərdə tutmuş olarlarsa – qadın bunu bilsə belə heç bir nöqsanı yoxdur. Malik sonra deyir: Bu, səfərdə olan hər bir şəxsin seçdiyi ən münasib evlənmək üsuludur. (3-cü cild, 190-cı səh.)

2. İbni Kəsirin təfsiri, 1-ci cild, 474-cü səh.

3. Əbil Ziya Zərqanin xülasəsinə yazılmış şərh, 8-ci cild, 76-səh.

***Cavab:***

Ayənin nəsx olunması bu iki halda mümkündür:

1) Sübut olunmalıdır ki, ayədə yaxınlıq deyildikdə, qadınlarla müvəqqəti (müt῾ə) yaxınlıq nəzərdə tutulur.

2. Sübut olunmalıdır ki, müt῾ə sonralar haram olunmuşdur.

B***irinci mətlə***b***:***

İstər sünni, istərsə də şiə alimləri ayədə «yaxınlıq« ifadəsinin müvəqqəti yaxınlığa dəlalət etdiyini nəzərdə tuturlar. Və burada heç bir ixtilaflı məsələ nəzərə çarpmır.

Qurtubi deyir: Bütün alimlər bu fikirdədirlər ki, yaxınlıq deyildikdə, ayədə İslamın zühur etdiyi ilk illərdə mövcud olan müvəqqəti evlənmə nəzərdə tutulur. Hətta İbni Abbas, Ubey və İbni Cabir ayəni belə qiraət etmişlər.

***(Fəməs-təmtə῾tum bihi minhunnə ila əcəlin musəmma fə῾tuhunnə ucurəhunnə).***[1] yə῾ni, onların fikrincə «ila əcəlin musəmma» ifadəsi də ayənin bir hissəsini təşkil etmişdir. Bu da yaxınlığın müvəqqəti və müt῾ə hökmünə aid olmasına açıq-aşkar dəlalət edir.

Bu məzmunda nəql olunmuş hədis və rəvayətləri, alim və mütəfəkkirlərin irəli sürdükləri nəzəriyyələri nəzərə alaraq deyə bilərik ki, Həsən Bəsrinin bu barədə irəli sürdüyü nəzəriyyə tamamilə əsassızdır. O deyir: Bu ayə müvəqqəti deyil, daimi evlənməyə dəlalət edir. Onun fikrincə, ümumiyyətlə müvəqqəti evlənmə barəsində heç bir ayə nazil olmamışdır. O hətta İbni Abbasın və Cubeyrin də bu fikirdə olduqlarını iddia etmişdir. Halbuki, nəql olunmuş digər rəvayətlərdə İbni Abbasın bu ayə ilə müvəqqəti evlənməyə istinad etdiyi göstərilir.

Müvəqqəti evlənmə barəsində nəql olmuş bir çox hədis və rəvayətlər bir daha belə bir qənaətə gəlməyə imkan verir ki, müt῾ə hökmü İslamın zühur etdiyi ilk illərdən qüvvədə olmuş və ayədə yaxınlıq deyildikdə müvəqqəti evlənmə nəzərdə tutulmuşdur.

***İkinci mətlə***b***:***

Sual doğuran məsələlərdən biri də budur ki, görəsən müt ə hökmü qüvvədən salınaraq digər hökm ilə nəsx olunmuş və ya qüvvədə qalmışdır? Bizim fikrimizcə, müt ə hökmünün nəsx olunmasına dair irəli sürülmüş nəzəriyyə tamamilə zəif və əsassızdır

[1] Qurtubinin təfsiri, 5-ci cild, 130-cu səh.

və bu barədə heç bir məntiqi dəlil və sübuta istinad etmək mümkün deyildir.

## *İRƏLİ SÜRÜLƏN NƏZƏRİYYƏLƏR VƏ CAVABLAR*

### *TƏLAQ AYƏSİ İLƏ MÜTʾƏ HÖKMÜNÜN NƏSXİ*

يَا أَيُّهَا النَّبِيُّ إِذَا طَلَّقْتُمُ النِّسَاء فَطَلِّقُوهُنَّ لِعِدَّتِهِنَّ

***«[Ya Peyğəmbər!] övrətlərini boşadığın zaman onları gözləmə müddətlərində [heyzdən pak olduqdan sonra] boşayın.» (Təlaq-1).***

Ayəyə istinad edərək mütʾə hökmünün nəsx olunduğunu hesab edir və mütʾə tərəfdarı olduğu bir halda bu nəzəriyyənin ilk dəfə İbni Abbas tərəfindən irəli sürüldüyünü iddia etmişlər.

***Cavab:***

Əgər mütʾə ayəsinin, təlaq ayəsi ilə nəsx olunma zərurəti təlaq verilmiş qadınlara verilmiş iddənin vacibliyindən irəli gəlsəydi, müvəqqəti evlənmək üçün saxlanınlan iddə təlaq iddəsindən az olduğu hər iki hökm bir-birindən tamamilə fərqlənərdi. Yalnız belə bir halda deyə bilərik ki, təlaq iddəsi ilə əlaqəsi olduğu üçün nəsx olunmuşdur. İrəli sürülən dəlilə veriləcək dəlil artıq bəllidir. Çünki nə bu və nə də digər ayələr qadınların iddə müddətinin eyni olmasına dəlalət etmir və bunun eyni olmasına evlilik dövründə saxlanılan iddə müddətinin digər iddələrdən az olmasına – onu nəsx etməsinə – dəlil hesab edə bilmərik.

Bəʾzən də mütʾə ayəsinin, təlaq ayəsi ilə nəsx olunmasını qadınlara aid olan təlaq hökmünün qüvvəyə minməsinə dəlil gətirilir. Halbuki, mütʾədə qadınlara təlaq verilmir, gətirilən növbəti dəlilin cavabında deyə bilərik ki, ayədə təlaq hökmü verilsə də, müvəqqəti evlənmədə mövcud olmayan təlaq hökmünü nəsx edəcək heç bir xüsusiyyətə malik deyildir.

«Təfsirul-mənarın» müəllifi bəʾzi müfəssirlərdən nəql etdiyi hədis və rəvayətlərdə şiə məzhəbinin iddəyə heç bir əhəmiyyət vermədiklərinə işarə edir.

İlahi! Sənin şahid olmağın kifayət edər ki, bütün bunlar şiə məzhəbinə qarşı uydurulmuş əsassız yalan və iftiralardır!

İddənin əhəmiyyətsiz olduğuna dair şiə alimlərindən bir nəfər də olsun belə, fikir irəli sürmədiyi bir halda, bunu bütün məzhəbə şamil etmək nə qədər də haqq və ədalətdən kənardır!

Lakin haqq öz yerini tapacaq və bu nəzəriyyələrin nə qədər əsassız olduğu hamıya bəlli olacaqdır.

### *MÜTʾƏ AYƏSİNİN İRS AYƏSİ İLƏ NƏSXİ*

İrəli sürülmüş nəzəriyyələrdən biri də mütʾə ayəsinin irs ayəsi ilə nəsx olunması ilə əlaqədardır.

Ayədə deyilir:

وَلَكُمْ نِصْفُ مَا تَرَكَ أَزْوَاجُكُمْ

***«Ey kişilər! Əgər [vəfat etmiş] arvadlarınızın uşağı yoxdursa, onların vəsiyyəti yerinə yetirildikdən sonra və ya borcu ödənildikdən sonra qoyub getdikləri malın yarısı sizindir.»***

Mutʾə ayəsinin bu ayə ilə nəsx olunduğu haqda deyilir: «Ayə, irs ayəsi olduğu üçün kişi ilə qadın arasında olan vərəsəlik hüququnu sabit və eyni zamanda müvəqqəti evlənmə də kişi ilə qadının vərəsəlik hüququna malik olmadıqlarını bəyan edir. Demək müvəqqəti evlənmədə [daimi evlənmədə olduğu kimi] ər və qadın arasında olan səmimi münasibətlər müşahidə olunmur. Və əgər belə bir səmimi münasibət nəzərə çarpsaydı, irs ayəsinə əsasən, vərəsəlik hüququna malik olardılar. Belə nəticəyə gəlirik ki, irs ayəsi, mütʾə ayəsini nəsx etməmiş və hökm hal hazırda da qüvvədə qalmaqdadır.

Səid ibni Musəyb, Salim ibni Abdullah və Qasim ibni Əbil Bəsr ilə əlaqələndirilən mütʾə ayəsinin irs ayəsi ilə nəsx olunma nəzəriyyəsi bundan ibarətdir.

### *2. MÜTʾƏ AYƏSİNİN İRS [VƏRƏSƏLİK] AYƏSİ İLƏ NƏSXİ*

Mütʾə ayəsinin nəsx olunmasına dair verilən ikinci ehtimal onun irs [vərəsəlik] ayəsi ilə nəsx olmasıdır. Nisa surəsinin 12-ci ayəsində deyilir:

(Vələkum ma tərəkə əzvacəkum).

***«Ey kişilər! Əgər [vəfat etmiş] arvadlarınızın uşağı yoxdursa, onların vəsiyyəti yerinə yetirildikdən sonra və ya borcu ödənildikdən sonra qoyub getdikləri malın yarısı sizindir.»***

Müt᾽ə ayəsinin yuxarıda qeyd olunan ayə ilə nəsx olunması haqda deyilir:

Ayə, nəxs ayəsi olduğu üçün ərlə arvad arasında vərəsəlik hüquqlarını tə᾽yin edir. Müvəqqəti evlənmədə isə nə kişi, nə də qadın vərəsəlik hüququna malik olmurlar. Bu səbəbdən də müvəqqəti evlənmədə ər və arvad arasında normal əlaqə bərqərar olunmur. Əgər belə bir əlaqə bərqərar olunmuş olsaydı, vərəsəlik ayəsinə əsasən, vərəsəlik huququna malik olardılar. Bütün bunları nəzərə alıb deməliyik ki, irs ayəsi, müt᾽ə ayəsini nəsx etmiş və nəticədə hökm əvəz olmuşdur.

Bu nəzəriyyənin Səid ibni Musəyb və Salim ibni Abdulla və Qasim ibni Əbu Bəkr tərəfindən irəli sürüldüyü göstərilir.

***Cavab:***

Ərlə arvadın vərəsəlik hüququndan məhrum olmaları tək müvəqqəti evlənməyə (müt᾽əyə) aid deyildir. Belə ki, digər hallarda da ərlə arvad vərəsəlik hüququndan məhrum ola bilərlər və müvəqqəti evlənmənin onlardan biri olması heç də qeyri-adi hal deyildir. Məsələn ər və ya arvaddan bir kafir və ya biri digərinin qatili olarsa, onlar heç bir vərəsəlik hüququna malik olmazlar. Belə bir nəticəyə gəlmək olar ki, ərlə arvad yalnız daimi evlənmədə vərəsəlik hüququna malik olurlar.

### *3. PEYĞƏMBƏRDƏN (S) NƏQL OLUNMUŞ RƏVAYƏTLƏ MÜT᾽Ə AYƏSİNİN NƏSXİ*

Müt᾽ə ayəsinin nəsx olunmasına dair verilən üçüncü ehtimal Peyğəmbərdən (s) nəql olunmuş rəvayətdir. Əhli-sünnə rəvayətlərində deyilir: Əli (ə) İbni Abbasa e᾽tiraz edərək deyir: Açıq-aşkar yolunu azmısan. Çünki Peyğəmbərin (s) Xeybər döyüşündə haram etdiyi müt᾽ə və əhliləşdirilmiş ulağ ətini yeməyi halal hesab edirsən.

Rəbi᾽ ibni Siyrə atasından nəql etdiyi rəvayətdə deyir: «Günlərin bir günündə Peyğəmbər (s) Kə᾽bənin qapısı ağzında durub orada olanlara müraciət edərək buyurdu: Camaat! Mən sizə

müvəqqəti evlənməyə icazə vermişdim, Allah-taala bunu sizə haram edir və sizə əmr edir ki, onlara talaq verin, amma verdiklərinizi geri almayın.

Səlmə atasından nəql etdiyi rəvayətdə deyir: Peyğəmbər (s), Ovtas döyüşündə üç gün müsəlmanlara müvəqqəti evlənməyə icazə verdi. Lakin sonra bunu onlara yasaq etdi.

***Cavab:***

Bu rəvayətləri bir neçə səbəbdən müt᾽ə ayəsini nəsx etməkdə əsassız hesab edə bilərik:

1) Əvvəlki fəsillərdə Qur᾽anın vahid xəbərlə isbat olunmadığına dəfələrlə işarə etdik;

2) Bu rəvayətlər Əhli-beyt (ə) tərəfindən müt᾽ənin halal olduğuna dair nəql olunmuş bir neçə mütəvatir rəvayətlərlə ziddiyyət təşkil edir;

3) Peyğəmbərin (s) həyatının yalnız müəyyən dövründə [müt᾽ənin] haram olması ayənin nəsx olunması üçün kifayət etmir. Çünki bəlkə də «müt᾽ə» ayəsi nazil olmazdan əvvəl İslamda müvəqqəti evlənmə olmuşdur. Belə ki, əhli-sünnə rəvayətlərinin bir çoxunda göstərilir ki, «müt᾽ə» ayəsi Peyğəmbərin (s) ömrünün son illərində nazil olmuşdur və bu hökm Ömərin xilafəti dövründə bir neçə il qüvvədə olmuş və sonralar xəlifənin özü tərəfindən yasaq edilmişdir.

Deməк, bu rəvayətlərin əksinə nəql olunmuş hər bir rəvayət batil və əsassızdır.

Mətləbi daha da işıqlandırmaq üçün bu məzmunda nəql olunmuş bir neçə başqa rəvayətə işarə edirik:

1. Əbu Zubeyr nəql etdiyi rəvayətdə deyir: Cabir ibni Abdullahdan bu sözləri eşitdim: Peyğəmbərin (s) zamanında və Əbu Bəkrin xilafəti dövründə bir ovuc xurma və ya unla qadınlarla bir neçə günlük müt᾽ə edərdik. Ömər özünün xilafəti dövründə, Əmr ibni Hərisin əhvalatından sonra müt᾽əni yasaq etdi.[1]

2. Əbu Nəzrə deyir: Cabir ibni Abdullahın yanında idik. Bu zaman otağa bir şəxs daxil olub dedi: Elə indicə Abdullah ibni

---

[1] “Səhihi-Müslüm”, “müt᾽ə” fəsli, 4-cü cild, 141-ci səh.

Abbas və Abdullah ibni Cubeyr həcc mütʾəsi və qadınlarla müvəqqəti evlənmə barədə bir-birləri ilə mübahisə edirdilər. Cabir cavab verərək dedi: Bəli, biz hər ikimiz Peyğəmbərin (s) zamanında qadınlarla mütʾə edərdik, Ömər xilafətə keçdikdən sonra bunu yasaq etdi və biz ondan sonra onun yanına qayıtmadıq.[1]

3. Əbu Nəzr başqa bir rəvayətdə Cabirdən nəql edərək deyir: Peyğəmbərin (s) zamanında iki mütʾə növü (həcc mütʾəsi və adi mütʾə) var idi və biz o zamanlar onlara əməl edirdik. Lakin Ömər xilafətə keçdikdən sonra bunu yasaq etdi və biz də onun qadağalarına tabe olmalı olduq.[2]

4. Əbu Nəzr yenə də Cabir ibni Abdullahdan nəql edərək deyir: Biz Peyğəməbrin (s) zamanında həcc və adi mütʾəyə əməl edərdik. Ömər xilafətə keçdikdən sonra bunu bizə yasaq etdi və biz də ona tabe olduq.

5. Əbu Nəzr deyir: Cabirə dedim: Abdullah ibni Zubeyr mütʾənin yasaq, İbni Abbas isə bunun halal olduğunu deyir. Cabir dedi: Xəbəri öz sahibinə çatdırın, bəli, biz Peyğəmbərin (s) zamanında və Əbu Bəkrin xilafəti dövründə mütʾə edərdik. Lakin Ömər xilafətə çatdıqdan sonra öz xütbələrinin birində dedi: Camaat! Peyğəmbər həmən Peyğəmbərdir, Qurʾan da həmən Qurʾan. Lakin Peyğəmbərin (s) zamanında olan mütʾəni (həcc və adi mütʾəni) mən sizə yasaq edirəm. Hər kim buna əməl edərsə, daşqalaq olunaraq cəzalandırılacaqdır.

6. Əta nəql etdiyi rəvayətdə deyir: Cabir ibni Abdullah ümrə ziyarətindən qayıtmışdı. Görmək üçün evinə getdik. Camaat ona müxtəlif mövzular haqqında sual verir, o da təmkinlə onların hər birinə ayrı-ayrılıqda cavab verirdi. Söhbət mütʾəyə gəldikdə Cabir dedi: Bəli! Biz Peyğəmbərin (s) zamanında və Əbu Bəkrin xilafəti dövründə buna əməl edirdik, lakin Ömər bunu bizə yasaq etdi.

Bu rəvayəti Əhməd ibni Hənbəl də özünün «Musnəd» adlı kitabında nəql etmişdir. O, rəvayətin sonuna bu cümləni əlavə

---

[1] "Səhihi-Müslüm", "mütʾə" fəsli, 4-cü cild, 141-ci səh.

[2] "Musnədi-Əhməd ibni Hənbəl", 3-cü cild, 325-ci səh.

etmişdir: «Hətta iza kanə fi axiri xilafəti Ömər» – yə`ni, nəhayət Ömərin xilafətinin sonu gəlib çatdı.

7. Əmran ibni Hüseyn nəql etdiyi rəvayətdə deyir: Müt`ə hökmü Qur`anda nazil olmuş, Peyğəmbərin (s) zamanında ona əməl olunmuş və bu hökm başqa bir ayə ilə nəsx olunmamışdır. Peyğəmbər (s) bunu ömrünün sonunadək müsəlmanlara yasaq etməmişdir.

Fəxri Razi də bu rəvayəti Mut`ə ayəsinin təfsirini verərkən nəql etdikdən sonra deyir: Sonralar buna dair istədiyi kimi fətva verdi.

8. Abdullah ibni Məs`ud nəql etdiyi rəvayətdə deyir: Peyğəmbərlə (s) getdiyimiz döyüşlərin birində qadınlarımız bizimlə deyildilər. Peyğəmbərin (s) yanına gəlib dedik: Ya Rəsulullah! İcazə verirsinizmi özümüzü əxtə edək? Peyğəmbər (s) bunu bizə qadağan edib, paltarlarımızdan onlara mehriyyə verməklə [ətraf məntəqələrdə yaşayan] qadınlarla müvəqqəti olaraq evlənməyə icazə verdi. İbni Məs`ud sonra bu ayəni oxudu:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تُحَرِّمُواْ طَيِّبَاتِ مَا أَحَلَّ اللّهُ لَكُمْ وَلاَ تَعْتَدُواْ إِنَّ اللّهَ لاَ يُحِبُّ الْمُعْتَدِينَ

***«Ey iman gətirənlər! Allahın sizə halal buyurduğu pak ne`mətləri [özünüzə] haram etməyin və həddi də aşmayın. Doğrudan da Allah həddi aşanları sevməz.» (Maidə-81).***

Diqqət yetirmək lazımdır ki, İbni Məs`udun bu ayəyə istinad etməsi bir daha buna dələlət edir ki, müt`ənin haramlığına dair Allah və Onun Peyğəmbəri tərəfindən heç bir hökm verilməmişdir. Deməк, belə bir hökm Peyğəmbərdən (s) sonrakı xəlifələr tərəfindən verilmişdir.

9. Şə`bi deyir: Həkəm ibni Əyniyyədən müt`ə ayəsinin nəsx olub-olmadığı haqda soruşdum. Cavab verdi: Xeyr! Nəsx olmamışdır. Həkəm əlavə edərək deyir: Əli (ə) buyurur: ***«Ömər müt`əni haram etməsəydi, «bədbəxt» və səfeh şəxslərdən savayı kimsə zina etməzdi.»***

Əli (ə)-dan nəql olunmuş bu rəvayəti Qurtubi də öz təfsirində Əta və İbni Abbasdan nəql etmişdir.

***Müəllif:***

Bəlkə də «bədbəxt» [və səfeh] deyildikdə Əbu Hüreyrədən nəql olunmuş rəvayətdə ona verilən təfsirdir. O, Peyğəmbərdən (s) nəql etdiyi hədisdə deyir: Cəhənnəmə yalnız bədbəxt və səfehlər daxil olarlar. Peyğəmbərdən (s) onların kim olduqlarını soruşduqda buyurdu: Onlar o kəslərdirlər ki, nə Allaha itaət edər, nə də günahlarından çəkinər.[1]

Əta deyir: İbni Abbasdan bu sözləri eşitdim: Allah Ömərə rəhm etsin. Mütʾə, Məhəmmədin (s) ümməti üçün bir neʾmət idi. Əgər Ömər camaata bunu yasaq etməsəydi, bəʾziləri istisna olmaqla kimsə zina etməzdi.[2]

Mütʾə hökmünün Qurʾan ayələri ilə nəsx olunmadığı haqda əhli-sünnə mənbələrində nəql olunmuş rəvayətlərin bir qismi ilə tanış oldunuz.

### *MÜTʾƏNİN HARAMLIĞINA DAİR NƏQL OLUNMUŞ RƏVAYƏTLƏRİN TƏHLİLİ*

Mütʾənin haram olduğuna istinad edənlər bu məzmunda nəql olunmuş rəvayətlərin üç hissədən ibarət olduğuna əsaslanırlar:

1. İstinad etdikləri rəvayətlərdən biri Bəy ibni Sirədən nəql olunmuş – «Peyğəmbər (s) Kəʾbənin qapısı ağzında durub camaata xitab edərək buyurdu: Ey camaat! Mütʾə mənim dinimdə qiyamət gününədək sizə haram edildi» – hədisidir.
2. Əli (ə)-ın, Peyğəmbərdən (s) mütʾənin haramlığına dair nəql etdiyi hədis;
3. Bu rəvayətlərdən biri də Sələmət ibni Zevʾdən nəql olunmuşdur.

İndi isə onların hər biri haqda: İbni Sirədən nəql olunmuş rəvayət bir çox mənbələrdə olsa da, vahid xəbər halında və yalnız bir nəfərdən nəql olunmuşdur. Vahid xəbərlə isə Qurʾanın isbat olunmadığına dəfələrlə işarə etmişik.

Bütün bunlarla yanaşı rəvayətin uydurma və əsassız olduğu göz qabağındadır. Çünki necə ola bilər ki, Peyğəmbərin (s) Kəʾbə

---

[1] "Müsnədi-Əhməd ibni Hənbəl, 2-cü cild, 349-cu səh.

[2] "Əhkamul-Qurʾan, Cəssas, 2-cild, 147-ci səh.

yaxınlığında verdiyi yasaq hökmünü İbni Sirədən savayı başqa birisi nə eşitmiş, nə də nəql etmişdir?!

Görəsən Peyğəmbərin (s) bütün buyruqlarını bir-birinə nəql edən və onları başqalarına çatdıran ənsar və mühacir o zaman harada idilər?!

Əgər bu rəvayət mö᾽təbər olmuşsa, bəs nə üçün Ömər müt᾽əni yasaq etdikdə bu rəvayətə istinad etməmiş və bunun öz şəxsi rə᾽yi olduğunu bildirmişdir?! Bütün bunlarla yanaşı, İbni Siyrənin özünün nəql etdiyi rəvayətlər arasında ziddiyyət olduğu üçün bir-birini təkzib edir. Belə ki, nəql etdiyi rəvayətlərdən birində müt᾽ə hökmünün yasaq olduğunu «həccətül-vidada», başqa birisində isə Məkkənin fəthində verildiyini göstərir.

Əli (ə)-dan müt᾽ənin haramlığına dair nəql olunmuş rəvayətə gəldikdə isə, qətiyyətlə deyə bilərik ki, bu rəvayət də uydurulmuş digər rəvayətlər sırasına daxildir. Çünki hər bir müsəlman bu həqiqəti çox yaxşı dərk edir ki, Məkkə fəth olunarkən müt᾽ə hökmü hələ də qüvvədə qalmaqda idi. Deməк, Əli (ə)-ın Məkkənin fəthindən əvvəl baş vermiş Xeybər döyüşündə İbni Abbasa müt᾽ənin haramlığı haqda bir şey deməsi sadəcə olaraq qeyri-mümkündür.

Bu səbəbdən də əhli-sünnə alimlərinin bə᾽ziləri belə bir fərziyyə irəli sürmüşlər ki, bəlkə də Xeybər döyüşündə Əli (ə)-dan nəql olunmuş rəvayət müt᾽ə hökmünə deyil, yalnız əhliləşdirilmiş ulağ ətinin yeyilməsinin haramlığına aiddir. Müntəqi və Beyhəqinin «Sünən» adlı kitabında bu rəvayətin nəql olunduğunu əsas götürərək İbni Əyniyyə də bu barədə həmən fərziyyəni irəli sürmüşdür. Lakin bu fərziyyəni iki səbəbdən əsassız hesab etmək olar:

1. Belə bir ehtimal ərəb dili qarammatikası ilə tamamilə ziddiyyət təşkil edir. İnkaredici əlamət forması bu rəvayətdə yalnız bir dəfə o da rəvayətin əvvəlində qeyd olunur. «Zəməni Xeybər» cümləsi də onun zaman və məkanını inkar etsə də, haram olunan həmən iki şey, yə᾽ni, müt᾽ə və əhliləşdirilmiş ulağ ətinin yeyilməsi nəzərdə tutulur. Demək, onların hər ikisi həmən zaman və həmən məkanda yasaq olunmuşdur. Çünki əgər bir şəxs

(Əkrəmtu Zəydən və Əmrən yovməl-cumuə) dedikdə, təbii ki, onların hər birinə «Zeyd və Əmr» eyni gündə, yə`ni, cümə günü ehtiram etdiyini bildirmək istəyir. Və əgər yalnız Əmrə cümə günü ehtiram etdiyini bildirmək istəyirsə, belə olduqda (Əkrəmtu Zəydən və əkrəmtu Əmrən yovməl-cumuəti – Zeydə ehtiram etdim və Əmrə də cümə günü ehtiram etdim) deməlidir. Yə`ni, cümlə belə bir mə`na daşıdıqda (Əkrəmtu) kəlməsi iki dəfə işlənməlidir. Haqqında söhbət açıdığmız rəvayətdə isə inkar forması yalnız bir dəfə işlənmişdir.

Bu səbəbdən də deyə bilərik ki, qarammatik qanunlara əsasən, zaman şəkilçisi işləndiyi üçün hər iki mətləbə dəlalət edir. Lakin bu kimi rəvayətlərin yalan və uydurmadan savayı bir şey olmadığı kimsəyə gizli deyildir.

2. Buxarinin, Müslümün və Əhməd ibni Hənbəlin Əli (ə)-dan nəql etdikləri rəvayət də bu rəvayətlə tam ziddiyyət təşkil edir. Rəvayətdə deyilir: (Nəha Rəsulullah (səlləllahu ələyhi və alih) ən mut`ətinnisai yovmə xəybərin və ən luhumil humuril ənsiyyəti – Peyğəmbər [Allahın salam və salavatı ona və onun yaxınlarına olsun!] Xeybər günü bizə qadınlarla müt`ə etməyi və əhliləşdirilmiş ulağ ətini yeməyi yasaq etdi).

Bununla yanaşı Beyhəqi kitabının «Müt`ə» fəslində müt`ənin haramlığına dair Abdullah ibni Ömərdən rəvayət nəql edir.

Göründüyü kimi verilən ehtimal ilə bu rəvayət arasında heç bir bağlılıq yoxdur və hökmün verilməsi yalnız Xeybər döyüşünə dəlalət edir. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, müt`ənin haramlığına dair verilən hökm Xeybər günündə olmamış, əhliləşdirilmiş ulağ ətinin haramlığına dair sadir olan hökm həmən gün verilmişdir.

Sələmə ibni Əkvə`nin atasından – Peyğəmbərin (s) Əutas günü yalnız üç gün müsəlmanlara müt`ə etməyə icazə verdiyinə dair nəql etdiyi rəvayətə gəldikdə isə deməliyik ki, bu rəvayət də vahid xəbər halında nəql olmuşdur və Qur`anın vahid xəbərlə isbat olunması əsla düzgün deyildir.

Əgər doğrudan da Peyğəmbər (s) müt`əni haram etmişsə, nə üçün əshab və mühacirlər bundan xəbərsiz qalmışlar və nə üçün

Əbu Bəkr özünün xilafəti dövründə və Ömər xilafətinin son illərinədək buna icazə vermişlər?!

Bir qədər əvvəl İbni Həzmin, ənsar və mühacirlərin bəʾzilərinin mütʾənin halal olduğuna dair nəql etdikləri hədis və rəvayətlərə işarə etdik. Burada da biz o rəvayətlərdən bəʾziləri haqda söhbət açacağıq.

İbni Cərir özünün «Təzhibul asar» adlı kitabında Süleyman ibni Yəsardan, o da Əbil Xəsimənin qızı Ümmi Abdullahdan nəql etdiyi rəvayətdə deyilir: Günlərin bir günündə bir yolçu onun [Ümmi Abdullahın] evinə gəlib deyir: Təklik məni lap zara gətirib, yaxınlıq etmək üçün mənə bir qadın tap! Ümmi Abdullah deyir: Mən ona kiminlə olmağını məsləhət gördüm. Onlar da şərtləşib bir neçə adil şəxsi buna şahid tutdular. Bir qədər sonra həmin qadından ayrılıb getdi. Ömər bu əhvalatdan xəbərdar olub məni yanına çağırdı və dedi: Filan qadın barədə mənə gəlib çatan sözlər düzdürmü?

Dedim: Bəli.

Ömər dedi: Əgər həmən şəxs yenidən Mədinəyə qayıdarsa, mənə xəbər ver!

Həmən kişi yenidən Mədinəyə qayıtdıqda Ömərə xəbər verdim. Ömər onu yanına çağırıb dedi: Nə üçün bu işi gördün? Şəxs cavab verdi: "Peyğəmbərin (s) zamanında mütʾə edərdik və o bunu bizə yasaq etməzdi və o Həzrətin (s) ömrünün son gününədək bu belə davam etdi. Ondan sonra Əbu Bəkr xəlifə oldu və o da ömrünün sonunadək bunu bizə yasaq etmədi. Əbu Bəkrdən sonra isə sənin xilafət dövrün başlandı və mən bu günədək mütʾə edərdim və sənin bunu yasaq etdiyini görməmişdim." Ömər dedi: "And olsun Allaha! Əgər əvvəllər bunu yasaq etmiş olsaydım, daşqalaq olunmağını əmr edərdim." Bundan sonra belə mütʾənin haram olduğunu hamıya eʾlan etdi. O təʾkidlə deyərdi: "Mütʾənin haram olduğunu hamıya bildirin ki, qanuni evlənmə ilə zinakarlığı bir-birindən ayırmaq olsun."

İbni Cərir öz kitabında Əbu Yəʾladan və Əbu Davud özünün «Nasix» adlı kitabında Əli (ə)-dan nəql etdiyi rəvayətdə deyir: "Əgər Ömər mütʾəni haram etməsəydi, fasid və səfehlərdən

savayı heç kim zina etməzdi.” Hər iki rəvayət müt᾽ənin əvvəllər yasaq olunmadığına, yalnız Ömərin xilafət dövründə yasaq olunduğuna dəlalət edir.

1. Hər iki rəvayətdə Əli (ə) və Ümmi Əbdüllah adlı bir səhabə müt᾽ənin Peyğəmbərin (s) zamanında və ondan sonra da Ömərin xilafət dövrünədək haram olmadığına şəhadət verdikləri göstərilir.

2. Birinci rəvayətdə göstərilir ki, bir neçə adil şəxs (heç bir irad tutmadan və onu bundan çəkindirmədən) Şamdan olan bir yolçunun müt᾽ə etdiyinə şəhadət vermişlər. Buradan belə mə᾽lum olur ki, müt᾽ə onların nəzərində, daha dəqiq desək, əqidələrinə əsasən, qanuni və adi bir məsələ olmuşdur.

3. Ömərin özü Şamlı yolçunun – «Peyğəmbər (s) bizə müt᾽əni yasaq etməmişdir» deməsini təkzib etməmiş, əksinə onu təsdiq etmişdir.

4. Ömərin «Əgər əvvəllər yasaq etmiş olsaydım, daşqalaq olmağını əmr edərdim» deməsi, bir daha buna dəlalət edir ki, əhvalat baş verməzdən əvvəl müt᾽ənin yasaqlığına dair camaata heç bir rəsmi mə᾽lumat verilməmişdir. Yalnız bu əhvalatdan sonra Ömər müt᾽ənin yasaq olunmasına dair hökm sadir edir və bu hamıya rəsmi olaraq bildirilir.

5. Ömərin – «Müt᾽ənin haram olduğunu hamıya bildirin ki, qanuni evlənmək ilə zinakarlığı bir-birindən ayırmaq olsun» deməsi də o zaman müt᾽əyə müsəlmanlar tərəfindən əməl olunmasına dəlalət edir. Xəlifə isə yasaq hökmünü sadir etməklə müt᾽əni, zinakarlıqdan ayırmaq və müsəlmanları bu yolla müt᾽əyə əməl etməkdən çəkindirmək istəmişdir.

Bəlkə də bu cərəyan birbaşa və ya qeyri-müstəqim olaraq müt᾽ənin yasaq olunmasında öz tə᾽sirini göstərmişdir. Çünki rəvayətdə müsəlmanların müt᾽əyə əməl etdikləri bəlli olduğu bir halda Ömərin Şamlı yolçunun gördüyü işi yasaq etməsi və bu xəbərin xəlifənin qulağına çatması açıq-aşkar buna dəlalət edir ki, bu cərəyan gizli olaraq baş vermiş və ravilər bundan ya xəbərsiz qalmış, ya da özləri bilərəkdən bunu gizli saxlamışlar. Bunun nəticəsində bizə bir şey gəlib çatmamışdır.

Bu rəvayətin Sələmə ibni Əkvədən müt᾽ənin haramlığına dair nəql olunmuş rəvayətlə nə zaman və necə haram olunması baxımından ziddiyyət təşkil etməklə yanaşı və bir qədər əvvəl tutulan iradlarla bərabər, bir neçə başqa əsaslı nöqsanı da vardır. O da bundan ibarətdir ki, Sələmənin nəql etdiyi rəvayət müt᾽ə ayəsinin nəsx olunmasını qəbul edən şəxslərin irəli sürdükləri fərziyyələrdə özünü əks etdirir. Çünki «İnkaredici» kəlmənin bu rəvayətdə məchul halda işlənildiyinə ehtimal verilir və bu inkar formasından məqsəd Ömərin Peyğəmbərdən (s) sonra verdiyi yasaq hökmüdür. Yə᾽ni, rəvayətin əvvəlindəki [müt᾽əyə] icazə Peyğəmbərdən (s), yasaq hökmü isə Ömər tərəfindən verilmişdir. Belə olduqda rəvayətdən əldə etdiyimiz mə᾽na bundan ibarət olacaqdır: «Peyğəmbər (s) müt᾽əni müsəlmanlara icazə vermiş, Ömər isə bunu onlara yasaq etmişdir. Belə bir qənaətə gəlirik ki, müt᾽ə hökmünü Peyğəmbər (s) ömrünün sonunadək müsəlman ümmətinə yasaq etməmişdir. Əgər yasaq hökmü verilmişsə, bu, xəlifə Ömər tərəfindən verilmiş və onun özü buna e᾽tiraf edərək demişdir:

(Mut᾽ətani kanəta əla əhdi rəsulillah və ənə ənha ənhuma və uaqibu ələyhima – Peyğəmbərin (s) zamanında mövcud olan iki müt᾽əni mən sizə yasaq edirəm və ona əməl edən hər bir şəxsi cəzalandıracağam.)

Əgər belə bir qadağa Peyğəmbər (s) tərəfindən olsaydı, Ömər (ənha ənhuma – o iki şeyi yasaq edirəm) demək əvəzinə, (Nəhənnəbi ənhuma – Peyğəmbər (s) o iki şeyi sizə yasaq etmişdir) deməli idi.

### *MÜT᾽Ə AYƏSİNİN ALİMLƏR İCMASI TƏRƏFİNDƏN NƏSX OLUNMASI*

Bəlkə də bə᾽ziləri müt᾽ə ayəsinin digər Qur᾽an ayələri və bu məzmunda nəql olunmuş bir çox rəvayətlərlə isbat olunduğunu güman edirlər. Lakin bu hökm müsəlman icma alimləri tərəfindən nəsx olunmuşdur.

***Cavab:***

Hər hansı bir məsələ ətrafında mə᾽sumun rə᾽yini bilmədən icmanın verdiyi hökm heç bir e᾽tibar kəsb etməyəcəkdir. Bir qədər

əvvəl bizə mə᾽lum oldu ki, Peyğəmbərin (s) həyatında və ondan sonra Ömərin xilafətinədək müt᾽ənin haramlığına dair heç bir hökm sadir olunmamışdır.

Səhvə yol verməmələri tamamilə təbii olan bə᾽zilərinin verdikləri fətvaları əsas tutaraq Qur᾽an ayələrini və Peyğəmbər (s) sünnətini kənara qoymaq nə dərəcədə düzgün olardı? Əgər bu, düzgün üsul olarsa, Qur᾽an və mütəvatir hədis və rəvayətlərlə sabit olunan digər şəriət hökmlərini də nəsx etmək tamamilə mümkün olacaqdır.

Belə bir məntiqə əsaslanaraq asanlıqla deyə bilərik ki, şəriətin namaz, oruc, həcc və bu kimi vacib hökmləri alimlər icması tərəfindən nəsx olunmuşdur. Halbuki, heç bir müsəlman bunu qəbul etməyə hazır deyildir.

Bunu da qeyd etmək lazımdır ki, müt᾽ənin haramlığına dair icma hər hansı bir hökm sadir etməkdə heç bir səlahiyyətə malik deyildir. Çünki səhabələrdən bir çoxu, xüsusilə Əhli-beyt ilə həmrə᾽y olanlar – o Əhli-beyt ki, Allah onları bütün eyb və nöqsanlardan, günah və çatışmazlıqlardan uzaq etmişdir – müt᾽ənin haram olmasına dair verilmiş hökmə qarşı öz e᾽tirazlarını bildirmişlər.

Demək, müt᾽ənin haramlığına dair Ömərin buna dair verdiyi hökmdən başqa heç bir dəlil qalmır və hamıya mə᾽lumdur ki, Qur᾽an və Peyğəmbərin (s) sünnətinə tabe olmaq, başqalarının verdiyi hökmlərə tabe olmaqdan daha əsaslı və daha məntiqidir.

Tarixə nəzər saldıqda bunun şahidi oluruq ki, Ömərin oğlu Abdullah həcc müt᾽əsinə icazə verdiyi zaman bə᾽ziləri ona e᾽tiraz edərək deyir: Atan bunu haram etdiyi bir halda sən onu halal edərək atana qarşımı çıxmaq istəyirsən?

Abdullah onların cavabında deyir: Vay sizin halınıza, Allahdan qorxmursunuzmu? Peyğəmbərə (s) tabe olmağınız lazımdır, yoxsa Ömərə?![1]

***Nəticə:***

Dediklərimizdən belə nəticəyə gəlmək olur ki, müt᾽ə hökmü nəsx olmamış və hələ də qüvvədə qalmaqdadır və Qur᾽anın bu

[1] "Müsnədi-Əhməd ibni Hənbəl", 2-ci cild, 95-ci səh.

kimi zəif və əsassız dəlillərlə nəsx olunması sadəcə qeyri-mümkündür.

***MÜT᾿ƏDƏ DAŞQALAQ***

Nəql olunmuş bir çox mö᾿təbər rəvayətlərdə Ömərin cəza məqsədi ilə müvəqqəti evlənənlərə qarşı daşqalaq hökmü verdiyi göstərilir. Bir qədər əvvəl biz onlardan bir neçəsinə işarə etdik. Burada da onlardan bir neçəsi haqda söhbət açmağı daha məqsədəuyğun hesab edirik.

1) Cabir deyir: Peyğəmbərin (s) zamanında müt᾿ə edərdik. Ömər xəlifə olduqdan sonra minbərə çıxıb oxuduğu xütbələrin birində dedi: Allah istədiyi hər bir şeyi Peyğəmbər (s) halal etmişdir. Qur᾿anı da müəyyən hədəf üçün nazil etmişdir. «Ümrə həccini» – Allahın tə᾿yin etdiyi qanunlar əsasında yerinə yetirin və qadınlarla daimi olaraq evlənin. Kimin müt᾿ə etdiyi haqda mənə bir xəbər verilərsə daşqalaq olunmasına əmr edəcəyəm.[1]

2) Şafei, Malikdən, o da İbni Şəhabdan və o da Urvədən nəql etdiyi rəvayətdə deyir: Həkimin qızı Xəulə, Ömər ibni Xəttabın [xəlifənin] yanına gəlib deyir: "Uməyyə oğlu Rəbiə cavan bir qadınla müt᾿ə etdi və həmən qadın ondan hamilə oldu." Ömər bu sözləri eşitdikdə çox qəzəblənərək otaqdan bayıra çıxıb dedi: "Əgər belə bir evlənməni əvvəllər yasaq etmiş olsaydım, Rəbiəni daşqalaq etdirərdim."[2]

3) Nafe deyir: Abdullah ibni Ömərdən müt᾿ə barəsində soruşdum. O, qətiyyətlə bunun haram olmadığını bildirdi. Sonra əlavə edərək dedi: Bilin ki, əgər Ömər birinin müt᾿ə etdiyini eşitmiş olsaydı, həmən şəxsin daşqalaq olunmasına əmr edərdi.[3]

Abdulla ibni Zubeyr bu barədə xəlifə Ömərin verdiyi hökmə istinad edərək müt᾿ənin haram olduğunu hesab etmişdir. İbni Abbas onun belə bir mövqe tutduğunu görüb deyir: "Sən olduqca sadəlövh və səfeh bir adamsan. Çünki halal olan bir şeyi özünə haram etmisən. And olsun Allaha, biz Peyğəmbərin (s) zamanında

---

[1] ""Səhihi-Müslüm"", 4-cü cild, 36-cı səh «Umrə ziyarətində Müt᾿ə» fəsli.

[2] "Beyhəqinin sünəni", 1-ci cild, 206-cı səh, "Müt᾿ə" fəsli.

[3] Beyhəqinin sünəni, 1-ci cild, 206-cı səh. Müt᾿ə fəsli.

mütʾə edərdik və o Həzrət də bunu bizə qadağan etməzdi.” İbni Zubeyr dedi: “Əgər edə bilərsənsə indi də buna əməl et. And olsun Allaha! Əgər mütʾə etmiş olsan, səni daşqalaq etdirəcəyəm.”[1] İbni Zubeyrin verdiyi hökm insanı heyrətə gətirir. Çünki öz əməllərində Qurʾan və Peyğəmbər sünnəsinə əsaslanan bir müsəlmanı, xəlifə ilə müxalif olduğu üçün daşqalağa məhkum etmək necə mümkün ola bilərdi?

Fərz edək ki, həmin şəxs ictihad edərək mütʾə etmiş, lakin öz ictihadında səhvə yol vermişdir. Belə olduqda da daşqalaq hökmü düzgün olmayacaqdır. Çünki təʾyin olunmuş hədd və cəzalar şübhə ilə götürülər. (Yəʾni, bilmədən belə bir iş tutubsa, onun haqqında həmin cəza növünü tətbiq etmək düzgün deyildir.)

Biz burada ictihadı fərz etsək də buna heç bir ehtiyac yoxdur. Çünki mütʾə şübhə doğurmayan qəti məsələlərdən biridir və qeyd etdiyimiz kimi nəsx olunmasına dair heç bir dəlil və sübut yoxdur.

Əgər diqqət yetirsək görəcəyik ki, mütʾəyə dair Ömərin və Əbu Hənifənin verdikləri fətvalar arasında böyük fərq vardır. Belə ki, o [Əbu Hənifə] bir çox hallarda hökmün qüvvədən düşdüyünü bildirmiş və icra olunmasını təʾxirə salmışdır.

Məsələn, o deyir: Əgər bir şəxs ona məhrəm olan qadınlarla və ya başqa bir qadınla qeyri-qanuni olaraq evlənib və onunla yaxınlıq edərsə və ya hər hansı bir iş üçün əcrini verərək işlətdiyi qadınla yaxınlıq edərsə, bütün bu hallarda cəza hökmü onun üzərindən götürülmüş olur.

Əbu Hənifə bu kimi şəraitlərdə cəza hökmünün götürüldüyünü hesab edir və verdiyi hökmə belə istinad edir: “Məhrəm və ya başqa birisi ilə evlənməyə gəldikdə, evlənmə qeyri-qanuni və batil olsa da, müşahidə olunur və evli olduqları bir halda onlara qarşı heç bir cəza tədbiri görülməməlidir. Haqqı ödənilən qadın barədə də bunu demək kifayətdir ki, verilən məbləğ əslində onun mehriyyəsi hesab olunur. Belə ki, Allah-taala Qurʾani-Kərimdə mehriyyəni ücrət (əcr) adlandırır.”[2]

---

[1] “Səhihi-Müslüm”, 5-ci cild, 133-cü səh «Müt`ə» fəsli.

[2] Əhkamul-Qurʾan, Cəssas, 146-cı səh.

### *MÜTʾƏ BARƏDƏ YANLIŞ TƏSƏVVÜRLƏR*

Mütʾə hökmünün heç bir Qurʾan ayəsi, rəvayət, Peyğəmbərin (s) sünnəsi və icma tərəfindən nəsx olmadığı və hökmün hal hazırda qüvvədə qaldığı sübuta yetirilir.

Bu səbəbdən də bəʾzi qərəzli şəxslər müxtəlif vasitələrə əl ataraq Ömərin Qurʾan ayələrinin və Peyğəmbər (s) sünnəsi ilə ziddiyyət təşkil edən verdiyi hökmü məʾnalandıraraq bəraət qazandırmağa cəhd göstərmişlər.

Biz burada nəsx mövzusunu dəyişərək tutulan əsassız mövzular haqda söhbət açmaq istəyirik. «Təfsirul-mənar»ın müəllifi öz kitabında yazır: «Mütʾə – qadın isməti və [daimi] evlənmə ilə ziddiyyət təşkil edir [xələl gətirir]. Çünki bu kimi evlənmədə kişinin cinsi ehtiyacını [şəhvətini] ödəməkdən və zinadan savayı başqa heç bir məqsədi [hədəfi] olmur. Və beləliklə sözün əsl məʾnasında qadının iffət və həyasına xələl gəlir. Çünki ücrət [pul] alaraq hər gün özünü yad kişilərin ixtiyarında qoyan qadının, təbii ki, iffət və şəxsiyyəti sual altına düşmüş olur. Belə bir qadın [şair təxəyyülünün] nümunəsinə çevrilir.

(Kurətun huzifət bisəvaliğəti fətələqqəfəha riclun min riclin – O [qadın] çovqanda atılan topa bənzər və birindən başqa birisinin əlinə düşər).

O həmçinin belə güman etmişdir ki, müvəqqəti evlənmə "Muʾminun" surəsinin 5-7-ci ayələri ilə ziddiyyət təşkil edir:

وَالَّذِينَ هُمْ لِفُرُوجِهِمْ حَافِظُونَ إِلَّا عَلَى أَزْوَاجِهِمْ أوْ مَا مَلَكَتْ أَيْمَانُهُمْ فَإِنَّهُمْ غَيْرُ مَلُومِينَ فَمَنِ ابْتَغَى وَرَاء ذَلِكَ فَأُوْلَئِكَ هُمُ الْعَادُونَ

***"O kəslər ki, ayıb yerlərini [zinadan] qoruyub saxlayarlar. Ancaq zövcələri və cariyələri istisna olmaqla onlar [zövcələri və cariyələri ilə görəcəkləri bu işdən ötrü] qınanmazlar. Bundan artığını istəyənlər [halaldan harama adlayaraq] həddi aşanlardır. [Allahın əmrini pozanlardır].»***

Müəllif sonra yazır: Ömərin mütʾəni haram etməsi heç də onun öz şəxsi rəyʾi ilə olmamışdır. Əgər o belə bir qərara gəlmişsə, bu barədə hökmən Peyğəmbərdən (s) hədis və rəvayət eşitmişdir. Və əgər o mütʾəni öz şəxsi rəyʾi əsasında yasaq etmişsə, onun

bundan əsas məqsədi hökmü əvvəlcədən qanuniləşdirmək deyil, birinci qadağanı e᾽lan etmək və ya onu icra etmək olmuşdur.

Müəllif bunu deməklə kitabının əvvəlində dediklərini ya unutmuş, ya da qulaq ardına vurmuşdur. Çünki o, kitabının ilk fəsillərində Ömərin ictihad edərək müt᾽ənin haram olmasına dair hökm verməsinə və səhabənin onun çıxardığı hökmlə həmrəy olduqlarına işarə edir.[1]

***Müəllif:***

Bu yanlış təsəvvürün cavabında deyirik:

1. Müvəqqəti evlənmənin qadın ismətinə xələl gətirməsinə gəldikdə deməliyik ki, müəllif müvəqqəti həyat yoldaşının qeyri-qanuni olduğunu təsəvvür etmişdir. Bu səbəbdən də müt᾽əni zina adlandırmışdır. Bir qədər əvvəl bu fərziyyənin əsassız olduğuna işarə edərkən qeyd etdik ki, müvəqqəti evlənmə də tamamilə qanuni və əsaslıdır. Lakin bağlanılan əhd-peyman hər şeydə olduğu kimi burada da [evlənmədə də] bə᾽zən daimi olur, bə᾽zən də ehtiyacların ödənilməsi və günahlardan çəkinmək üçün müvəqqəti.

2. Müəllifin «Müvəqqəti evlənmənin [daimi olmayan] həyat yoldaşlarının ismət və ayıb yerlərini qorumaqla tamamilə ziddiyyət təşkil edir» deməsi ilə iddiasının əsassız olduğu bir daha bəlli olur. Çünki müvəqqəti həyat yoldaşlarının da, daimi həyat yoldaşı kimi qanuni olduğu sübuta yetirildikdən sonra artıq belə bir iradın tutulması tamamilə əsassızdır.

3. Müəllifin müt᾽ə olunmuş qadını icarə olunmuş qadına və çovqan topuna bənzətməsinə gəldikdə isə, deməliyik ki, əgər belə bir irad əsaslı olarsa, Peyğəmbərin (s) zamanına da şamil olmalıdır. Çünki hamıya mə᾽lumdur ki, Peyğəmbərin (s) zamanında müt᾽ə hökmü qüvvədə olmuş və müsəlmanlar tərəfindən buna əməl olunmuşdur. Belə ki, əgər hər hansı bir iş nalayiq və xoşagəlməz olarsa bu müəyyən dövrə deyil, bütün zamanlara şamil olmalıdır.

---

[1] Təfsirul-mənar, 13-16-cı səh.

Təəccüb doğuran budur ki, müəllifin yalnız həqiqəti bəyan etməsi və məsələyə məzhəb təəssübü hissi ilə yanaşılmamasını iddia etməsidir.

Lakin bu bir həqiqətdir ki, onu buna vadar edən məhz məzhəbi təəssüb hissi olmuşdur. Belə ki, o, Qur᾿anın, Peyğəmbərin (s) sünnəsinin və icmanın verdiyi qəti hökmü rədd edərək buna tənqid gözü ilə baxır.

Bunu da əlavə etmək lazımdır ki, müəllif qadının müvəqqəti evlənmədə bir kişidən başqa birisinə getməsinə təhqir gözü ilə baxaraq bunu yolverilməz hesab edir. Və belə bir məntiqə əsasən, qadının təlaq verərək başqa birisi ilə əqd bağlamasını və kənizlərin alqı-satqısına da gərək təhqir gözü ilə baxaraq, bunu da yolverilməz hesab edək. Halbuki, müsəlmanlar bu kimi məsələlərə heç bir irad tutmamışdır. Lakin görünür «Təfsirul-mənarın» müəllifi bu kimi iradların tutulmasında başqalarından istisna olmuşdur. Çünki o, müt᾿əni halal hesab etmədiyi kimi, köləliyə də [kölə saxlamağa] mənfi gözlə baxır. Onun fikrincə, kölə saxlamağın [cəmiyyətə] bir sıra mənfi tə᾿siri vardır və İslam alimləri bu məsələyə göz yumaraq onun mənfi tə᾿sirlərini bəyan etməmişlər. Müəllifin bütün İslam alimlərinin nəzəri ilə müxalif olan iddialarından biri də budur ki, əgər daimi evlənmədə əvvəlcədən təlaq nəzərdə tutularsa, belə bir nikah qeyri-şər`i və batildir.

4. Daha da təəccüb doğuran burasıdır ki, Ömər müt᾿ənin yasaq olunmasını öz şəxsi rə᾿yi olduğunu e᾿tiraf etdiyi bir halda, müəllif bunu müxtəlif yollarla yozmağa cəhd göstərir və hökmün xəlifənin şəxsi rə᾿yi olmadığını sübuta yetirməyə cəhd edir. Halbuki, belə bir yozumun heç bir əsası yoxdur. Çünki xəlifənin bu ictihadı Peyğəmbərin (s) buyruqları ilə tam ziddiyyət təşkil etmişdir. Yə᾿ni, öz şəxsi ictihadı ilə Peyğəmbərin (s) buyruqlarından yasaq hökmünü çıxarmış və onu e᾿lan etmiş, ya da [kimlər tərəfindənsə] müt᾿ənin yasaq olunmasına dair hədis və rəvayət nəql olunmuşdur. Hər halda bu, üç [və eyni zamanda batil] haldan xaric deyildir. Yasaq hökmünə dair Peyğəmbərdən

(s) nəql olunmuş rəvayətə gəldikdə isə, biz bunu iki səbəbə görə batil etməliyik.

Bir tərəfdən ona görə ki, Ömərin yasaq hökmünün öz şəxsi rə᾿yi olduğunu bəyan edən bir çox rəvayətlərin zahiri mə᾿nası ilə uyğun gəlmir.

Digər tərəfdən isə «müt᾿ə hökmü Ömərin xilafətinin son illərinədək qüvvədə olmuş, lakin sonralar xəlifə tərəfindən yasaq olunmuşdur» və bu məzmunda nəql olunmuş bir çox rəvayətlərin məzmunu ilə ziddiyyət təşkil edir.

Doğrusu Ömər, Əbu Bəkrin xilafət dövründə harda idi ki, Peyğəmbərdən (s) müt᾿ənin yasaqlığı haqda nəql olunmuş bu rəvayəti ortaya çıxarmadı?! Bütün bunlarla yanaşı bunu da qeyd etmək lazımdır ki, Ömərin nəql etdiyi rəvayət «vahid xəbər» halında nəql olmuşdur və bildiyimiz kimi, Qur᾿anın nəsx olunması vahid xəbərlə sübuta yetirilmir. Ömərin ictihadının Peyğəmbərin (s) yasaq hökmündən qaynaqlandığını iddia etmək də bir neçə səbəbdən əsassız hesab olunur:

1. Əvvəla ona görə ki, bu iddia əshabın bir çoxunun müt᾿ə hökmünün Peyğəmbərin (s) həyatının sonunadək qüvvədə olduğunu təsdiq etməsi ilə ziddiyyət təşkil edir.

2. Bütün bunlarla yanaşı hər iki ehtimal xəlifənin «Peyğəmbərin zamanında halal olan hər iki müt᾿əni mən sizə yasaq edirəm, kim buna əməl edərsə, bundan sonra cəzalandırılacaqdır!» deməsi ilə də tamamilə ziddiyyət təşkil edir. Buradan belə bir qənaətə gəlmək olur ki, müt᾿ənin yasaq olunmasının Peyğəmbərdən (s) bu məzmunda nəql olunmuş rəvayət və onun buyruqlarından çıxarılan nəticə [ictihad] ilə heç bir bağlılığı yoxdur.

Demək xəlifənin verdiyi yasaq hökmünü Qur᾿an və Peyğəmbərin (s) sünnəsi ilə müxalif olan şəxsi ictihaddan savayı bir şey adlandırmaq olmaz. Belə bir ictihad isə batil və istinad olunmazdır.

Bu səbəbdən də əhli-sünnə həcc müt᾿əsinin və müvəqqəti evlənmənin yasaq olunmasında xəlifə Ömərin ictihadına göz yumaraq verdiyi hökmə tabe olmuşlar. Halbuki, müsəlmanlar

Peyğəmbərin (s) buyruqlarına tabe olmalı, o Həzrətin sünnəsinə və verdiyi hər bir hökmə müxalif olan ictihad və şəxsi rə᾽yləri kənara qoymalıdırlar.

"Əhzab" surəsinin 36-cı ayəsində bu haqda buyurulur:

وَمَا كَانَ لِمُؤْمِنٍ وَلَا مُؤْمِنَةٍ إِذَا قَضَى اللَّهُ وَرَسُولُهُ أَمْرًا أَن يَكُونَ لَهُمُ الْخِيَرَةُ مِنْ أَمْرِهِمْ

***Allah və Peyğəmbəri bir işə hökm etdiyi zaman heç bir mö᾽min kişiyə və qadına öz işlərində başqa yol seçmək [ayrı cür hərəkət etmək] yaraşmaz.»***

Peyğəmbərdən (s) nəql olunmuş rəvayətdə buyurulur: ***«Mən Allahın halal etdiyi şeylərdən savayı nə bir şeyi halal etdim, nə də Onun haram etdiklərindən savayı bir şeyi haram etdim.»*** (Təbəqat, İbni Sə᾽d, 4-cü cild, 12-ci səh.)

Başqa bir yerdə buyurur: ***«And olsun Allaha! Mənim ağzımdan haqdan savayı bir şey xaric olmur.»***[1]

Bu bir həqiqətdir ki, Peyğəmbərin (s) Allah tərəfindən buyurduğu hər bir kəlam haqdan savayı bir şey deyildir. Lakin Fazil Qumi bu həqiqətə göz yumaraq xəlifəni üzürlü hesab edərək deyir: Belə bir müxalifəti Ömərə irad tutmaq olmaz. Çünki ictihad məsələsində müctəhidin başqa bir müctəhid ilə müxalif olması tam adi bir haldır.[2] Amədi deyir: Bizim alimlər Peyğəmbərin (s), ayə olmayan məsələlər haqda ictihad edib-etməməsi barədə müxtəlif fikirlər irəli sürmüşlər. Əhməd ibni Hənbəl və Qazi Əbu Yusifin fikrincə Peyğəmbər bu kimi hallarda öz ictihadına əməl edərdi. Şafei də öz kitabında bu barədə qəti fikir irəli sürmədən bu fərziyyəni təstiq edir. Şafeinin, Qazi Əbdül Cabbar və Əbdül Həsən Bəsrinin tərəfdarlarının bə᾽ziləri də bu fikirdə olmuşlar. Amədi sonra əlavə edərək deyir: Mənim fikrimcə bu nəzəriyyə tamamilə düzgündür. Çünki Peyğəmbərin (s) ictihad etməsinin də əqli baxımdan heç bir nöqsanı yoxdur. Bizə gəlib çatan rəvayətlərdə də ictihadın bu növü sabit olunmuşdur. Peyğəmbərin (s) ictihadını qəbul edən şəxslər onun ictihadda səhvə yol verib-verməməsi barədə müxtəlif fikirlər irəli sürmüşlər. Onlardan bə᾽ziləri Peyğəmbərin (s) öz ictihadlarında səhvə yol verməsini

---

[1] Əttar, 1-ci cild, 66-cı səh.

[2] «Təcrid»in şərhi, İmamət fəsli.

qeyri-mümkün hesab edirlər. Lakin onların əksəriyyəti, yəʾni, Hədis, Hənbəli, Cəbai və Möʾtəzilə məzhəbinin tərəfdarları Peyğəmbərin (s) öz ictihadlarında səhvə yol verdiyinin mümkün olduğunu hesab etmişlər. Bu şərtlə ki, o yol verdiyi səhvləri təkrar etməmişdir. Amədi axırda deyir: Mənim fikrimcə haqq onlarladır.[1]

### *NƏTİCƏ*

Dediklərimizdən belə qənaətə gəlmək olur ki, mütʾə ayəsi (daha dəqiq desək, mütʾə hökmü) nəsx olunmadan öz qüvvəsində qalmaqdadır. Və bəʾzilərinin eʾtiraf etdikləri kimi, xəlifə Ömər və onun tərəfdarlarının verdikləri yasaq hökmü, Qurʾan ayələrinin müqabilində ictihad və əldə olunan nəticədir. Lakin nə etməli, onlar xəlifələrinin verdikləri hökmə tabe olmağı Peyğəmbərin (s) sünnəsinə tabe olmaq kimi lazım və zəruri hesab edirlər.[2]

Və bu barədə ən gözəl sözləri Ömərin oğlu Abdullah və Təfsirul-mənarın müəllifi şeyx Məhəmməd Əbduh demişlər.

Abdullah ibni Ömər deyir: Peyğəmbərin (s) buyruqlarına tabe olmalı, ya Ömərin dediklərinə?!

Şeyx Məhəmməd Əbduh isə öz təfsirində bu barədə (Əttəlaqu mərrətan) Riʾci təlaq vermə [boşama] ayəsinə istinad edir.

### *İRS AYƏSİNİN NƏSXİ*

وَلِكُلٍّ جَعَلْنَا مَوَالِيَ مِمَّا تَرَكَ الْوَالِدَانِ وَالأَقْرَبُونَ وَالَّذِينَ عَقَدَتْ أَيْمَانُكُمْ فَآتُوهُمْ نَصِيبَهُمْ إِنَّ اللّهَ كَانَ عَلَى كُلِّ شَيْءٍ شَهِيدًا

***Ata-ana və yaxın qohumların qoyub getdikləri maldan hər biri üçün varislər təʾyin etdik. And içib, əhd-peyman bağladığınız şəxslərin də paylarını özlərinə verin! Əlbəttə, Allah hər şeyə şahiddir.) (Nisa-33).***

Ayənin məʾna və məfhumu haqda müxtəlif nəzərlər verilmişdir.

Müfəssirlərin bəʾziləri (Vəlləzinə əqədət əymanukum) cümləsini ayədən hesab edərək demişlər: Bu cümlə ayənin əvvəli ilə əlaqəli deyildir və bu səbəbdən də onun haqda ayrılıqda söhbət

---

[1] Əhkam fi usulil-ehkam, 4-cü cild, 222-ci səh.

[2] Fəqinin Muntəqiyə yazdığı haşiyə, 2-ci cild, 519-cu səh.

açmaq lazımdır. Digər tərəfdən isə ayənin sonundakı (nəsib) kəlməsini yardım, kömək, nəsihət və xeyirxahlıq kimi məʾnalandırmışlar. Beləliklə [hər iki mətləbi nəzərə alaraq] ayə belə bir məʾna daşıyacaqdır: «Əhd-peyman bağladığınız şəxslərə nəsihət, xeyirxahlıq və yardım edin».

Bu səbəbdən də ayə nəsx olunmaz sabit bir hökmü əhatə edir.

Digər təfsir alimləri (Vəlləzinə əqədət) cümləsinin ayənin əvvəli ilə əlaqəli olduğunu bildirmişlər və (nəsib) kəlməsini də «irs» [vərəsə] məʾnasında təfsir etmişlər. Lakin onların özləri ayədəki (əqdəmin) ifadəsi haqda müxtəlif nəzərlər vermişlər. Bəʾziləri buradan cahiliyyət dövründə bağlanılan qardaşlıq və ya digər əhd-peymanların nəzərdə tutulduğuna işarə etmişlər. Belə ki, əhd-peyman bağlayan şəxslər bir-birlərindən irs aparmaq hüququna malik olmuşlar. İslam dini zühur etməklə bu ayədə həmən [vərəsəlik] qanununu rəsmi olaraq təsdiq etmişdir.

"Ənfal" surəsinin 75-ci ayəsi nazil olduqdan sonra vərəsəlik qanunu nəsx olundu. Ayədə deyilir:

وَأُوْلُو الْأَرْحَامِ بَعْضُهُمْ أَوْلَى بِبَعْضٍ فِي كِتَابِ اللَّه

***"Qohumlar Allahın kitabında [lövhi məhfuzda və ya Qurʾanda] irs [varislik] baxımından bir-birlərinə daha yaxındırlar.)***

Göründüyü kimi bu ayədə varisliyin qohumlara məxsus edildiyi göstərilir və haqqında söhbət açdığımız ayədə varisliyə səbəb olan qardaşlıq və digər əhd-peymanlar bu ayə vasitəsilə varislik qanunundan çıxarılaraq nəsx olunur. Təfsir alimlərinin bəʾzilərinin fikrikcə, "əqdi-yəmin" deyildikdə, yalnız bağlanınlan əhd-peymanın [əhd-peyman iştirakçılarının] istər xeyrində, istərsə də zərərində bir-birləri ilə şərik olmaları nəzərdə tutulur. Bu da fiqhi termin olaraq (zamin ğərifə) adlanır. Belə bir təfsirə əsasən, əgər əhli-sünnə alimlərinin bir çoxunun ğərirə zəmanətinin varislik üçün əsas amil hesab etmədiklərini qəbul edəriksə, deməliyik ki, haqqında söhbət açdığımız ayə, «irs» ayəsi ilə nəxs olunmuşdur.[1] Lakin əgər Əbu Hənifə və onun davamçılarının

[1] Nasix və Mənsux, Nuhas 101-ci səh.

nəzərlərini qəbul edəriksə – onlar ğərirə zəmanətini varislik üçün əsas səbəb və amil hesab edirlər – ayənin nəsx olunmadığını və hələ də qüvvədə qaldığını hesab etməliyik. Əbu Hənifə və onun davamçıları "əqdi-yəmin" (and içmə əhd-peymanı) ifadəsini bu ayədə "zamin ğərirə" kimi təfsir və onu varisliyin amili olduğunu hesab etmişlər və nəticədə onlar ayənin nəsx olunmadığına belə istinad edirlər: İrs ayəsi ilə haqqında söhbət açdığımız (zamin ğərirə) üçün irsin bəhrəsi təʾyin olunur. Və belə olduqda ayə ilə nə ziddiyyət təşkil edəcək, nə də nəsx olunmasına səbəb olacaqdır. Çünki irs ayəsi yalnız qohumları varislik hüququna malik olmaqda başqalarından üstün tutur və bu heç də o demək deyildir ki, qohum olmayanlar varislikdən məhrum və ayənin özü də nəsx olunmuş olsun.[1]

***Müəllif:***

Qeyd etdiyimiz kimi, ayənin məʾna və məfhumu və onun nəsx olunması haqda bir neçə nəzəriyyə irəli sürülmüşdür və biz onlardan dördü haqda qısa izah verdik. Lakin bizim nəzərimizcə, ayənin zahiri məʾna və məfhumu bundan ibarətdir ki, [bağlanılan] əhd-peyman «irsə» [varisliyə] səbəb olur. Deməк ayənin verdiyi hökm nəsx olunmadan qüvvədə qalmaqda və eyni zamanda əməl olunmaqdadır.

***İzah:***

1. Ayənin ümumi məzmunundan belə bir nəticəyə gəlmək olur ki, «nəsib» kəlməsi ayədə «irs» məʾnasını daşıyır və onu «kömək», «yardım» kimi məʾnalandırmaq ayənin zahiri məʾnası ilə tam ziddiyyət təşkil edir.

2. Diqqət yetirmək lazımdır ki, ayədə üç qrupun (ata-ana, qohumlar, həmpeymanlar) adlarının çəkilməsi heç də onların varislik hüququna malik olmalarına dəlalət etmir. Məsələn, övladlar öz ata-analarından irs aparırlar və vəfat etmiş şəxsin övladları olduğu bir halda onun digər qohumları varislik hüququna malik olmurlar. Və biz ayənin məzmunundan belə bir qənaətə gəlirik ki, yalnız bu üç qrup varislik hüququna malik olmağa qadirdirlər. Lakin bu ayələrin heç birində varislərin birinin

[1] Əhkamul-Qurʾan, Cəsas, 2-ci cild, 175-ci səh.

digərindən üstün və əvvəl, və ya əksinə, bir qədər az əhəmiyyət kəsb etmələri haqda heç bir nəticəyə gəlmək olmur. Bu hökmləri isə biz digər ayə və rəvayətlərdən əldə edirik.

Haqqında söhbət açdığımız ayədə varislər və onların bir-birindən [övladların öz ata-analarından, qohum və əhd-peyman bağlayanların bir-birlərindən] irs aparmaları haqda ümumi məˈlumat verilmişdir. Lakin onların eyni səviyyədə və ya bir-birlərindən fərqli olaraq irs aparmaları haqda söhbət getmir və bu barədə ətraflı məˈlumat əldə etmək üçün digər ayə və rəvayətlərə müraciət etməliyik.

***İzah:***

Bə`zi vaxtlarda varislik məsələsi və irs qanunları qohumluq əlaqələri əsasında olur. Ata-ana, övladlar və digər qohum-əqrəbaları buna misal çəkmək olar. Bu qanunlar bəˈzən dörd yolla yaranan əhd-peymanlar əsasında olur ki, burada da varislik və irs aparmalar həmin şəraitlərin yaranması ilə həyata keçirilir.

1. Evlənmə – ailə qurulduqdan sonra ərlə-arvad bir-birlərindən irs aparma hüququna malik olurlar;

2. Beyˈət – Belə bir əhd-peymana «Vilayət əhd-peymanı və ya Vilai-İmamət» də deyilir. Peyğəmbər (s) və imamların vilayətini [rəhbərliyini] buna misal çəkmək olar. Belə bir əhd-peymana əsasən, onlar öz davamçılarından irs aparırlar. Dinindən fərqi olmayaraq hər bir müsəlman belə bir əhd-peymana tabe olduğuna eˈtiraf edir. Əhli-sünnə mənbələrində Peyğəmbərdən (s) bu məzmunda nəql olmuş rəvayətlərdən birində deyilir:

(Ənə varisun mən la varisə ləh – ***Mən o şəxsin varisiyəm ki, onun varisi yoxdur.)***

Belə bir əhd-peymanın xəlifə və vəsilərə (Peyğəmbərin (s) əməli-saleh davamçılarına) aid olunmasına da şübhə ilə yanaşmaq lazım deyildir. Çünki əldə etdiyimiz qəti və inandırıcı dəlillərlə deyə bilərik ki, Peyğəmbərin (s) canişinləri hər cəhətdən onun malik olduğu xüsusiyyətlərə yiyələnmiş, söylədikləri hər bir söz və gördükləri bütün işlər onunku kimi eˈtibar kəsb etmişdir. Əhli-beyt tərəfindən nəql olunmuş rəvayətlər və İmamiyyə alimlərinin verdikləri nəzəriyyələr bunu bir daha sübuta yetirir.

3. Bə᾿zən birinin başqa birisini azad etməsilə onların arasında varisliyə səbəb olacaq əhd-peyman yaranır.

Məsələn, əgər birisi öz köləsini azad edərsə onların arasında əhd-peyman yaranır və bu əhd-peymana «azadlıq əhd-peymanı» deyilir. Belə ki, kölə sahibi [azad edən şəxs], azad etdiyi kölədən irs aparma huququna malik olur. Şiə alimləri arasında bu barədə heç bir ixtilaf nəzərə çarpmır və əhli-sünnə alimlərinin bir qismi varisliyə səbəb olacaq belə bir əhd-peymanı e᾿tibarlı hesab edirlər.

4. Zəmanət əhd-peymanı. Belə bir əhd-peymana əsasən, hər hansı bir [iqtisadi] məsələdə bir-birləri ilə şərik olan şəxslər ziyana uğradıqları zaman bir-birlərinin xəsarətini ödəyəcəklərinə, iqtisadi böhrandan çıxaracaqlarına əhd-peyman bağlayırlar. Bir sözlə, onlar xəsarətə uğradıqda bir-birlərilə zamin olacaqları barədə əhd-peyman bağlayırlar. Əbu Hənifə və onun davamçıları bu məsələyə dair müsbət fikirdə olmuşlar. Beləliklə, haqqında söhbət açdığımız ayənin nəxs olunması iki mühüm mətləbdən asılıdır:

a) Ayənin son hissəsi mə᾿na baxımından ayrı və müstəqildir. Çünki belə olduqda «nəsib» ayədə yardım, xeyirxahlıq mə᾿nasını daşıyacaqdır və belə bir mə᾿na bir qədər əvvəl qeyd etdiyimiz kimi nəsx olunası deyildir.

b) «Əqdi-yəmin» deyildikdə, yalnız «zimani ğərirə», yə᾿ni, xəsarətdəki əhd-peyman nəzərdə tutulur. Bu şərtlə ki, belə bir əhd-peymanı hələlik irs üçün səbəb hesab etməyək və ya burada qardaşlıq və digər əhd-peymanları nəzərdə tutaq. Belə ki, bütün müsəlman alimlərinin fikrincə, irs belə bir əhd-peymanla sabit olunmur. Bütün bu hallarda biz irs ayəsinin bu ayəni nəsx etməsini hesab edə bilmərik. Çünki haqqında söhbət açdığımız ayə bu kimi əhd-peymanlar üçün irs qanununu sübuta yetirir. Halbuki, onlardan heç biri irs ayəsinə əsasən, irsə səbəb olmur. Bu səbəbdən də deməliyik ki, ayənin hökmü, irs ayəsi ilə nəsx olmamışdır.

Demək ayənin nəsx olunması üçün bir neçə əsas şərt lazımdır. Halbuki, onların hər biri tamamilə batil və əsassızdır.

***Birinci şərt:***

Ayənin sonu müstəqil mə᾽na daşısın. Bu isə heç də düzgün deyildir. Çünki bir qədər əvvəl işarə etdiyimiz kimi, ayənin sonu onun əvvəli ilə tam əlaqəlidir.

***İkinci şərt:***

«Əqdi-yəmin – əhd-peyman» deyildikdə yalnız «ziman ğərirə» ilə, [xəsarətlə] qarşılaşdıqda hər iki tərəf ziyanın aradan qaldırılmasında zamin (şərik) olmuş olsun. Bunun da təsəvvür olunması qeyri-mümkündür.

Əvvəla ona görə ki, əhd-peyman deyildikdə yalnız «ziman ğərirə» deyil, bir qədər əvvəl işarə etdiyimiz digər əhd-peyman növləri də nəzərdə tutulur. Digər tərəfdən əhd-peyman deyildikdə, yalnız «ziman ğərirə» nəzərdə tutulduğunu fərz etsək də belə, əhd-peymanın bu növü nəsx olmamış və hal-hazırda öz qüvvəsində qalmaqdadır. Bizim fikrimizcə, bu, irsin əsas amil və səbəblərindən birini təşkil edir.

### *SƏRXOŞLUQ AYƏSİNİN NƏSXİ*

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَقْرَبُواْ الصَّلاَةَ وَأَنتُمْ سُكَارَى حَتَّىَ تَعْلَمُواْ مَا تَقُولُونَ

***“Ey iman gətirənlər! Sərxoş ikən nə dediyinizi anlayana qədər namaza yaxınlaşmayın).” (4\43).***

Alimilərin bir çoxunun fikrincə bu ayə nəsx olunmuşdur. Lakin onun hansı ayə ilə nəsx olunduğu haqda müxtəlif fikirlər irəli sürülmüşdür.

Qətadə, Mucahid və Həsən Bəsri ayənin, şərabın haram hökmünü verən ayə ilə nəsx olunduğuna istinad etmişlər. İbni Abbasdan nəql olunmuş rəvayətdə isə “Maidə” surəsinin 6-cı ayəsi ilə nəsx olunduğu göstərilir.

إِذَا قُمْتُمْ إِلَى الصَّلاةِ فاغْسِلُواْ وُجُوهَكُمْ وَأَيْدِيَكُمْ إِلَى الْمَرَافِقِ

***Namaz qılmağa durduğunuz zaman üzünüzü və əllərinizi dirsəklərinizə qədər [dirsəkləriniz də daxil olmaqla] yuyun.***

İrəli sürülmüş hər iki nəzəriyyə ilə tanış oldunuz. Lakin bizim nəzərimizcə onların hər ikisi batil və əsassızdır.

1. Sərxoşluq ayəsi ilə nəsx olunması:

***Deyilir:*** sərxoşluq və şərabın haramlığı yalnız namaza aiddir. Lakin şərabın haramlığı haqda nazil olmuş ayə bu hökmü nəsx

etmiş, onu sərxoşluq və şərabın tək namaz üçün deyil, bütün hallarda haram olduğunu bəyan edən hökm ilə əvəz etmişdir.

***Cavab:***

Əvvəla bu ayə heç də namazdan qeyri hallarda şərabın içilməsinə dəlalət etmir ki, şərabı haram edən ayə ilə nəsx olunmuş olsun. Digər tərəfdən isə bu ayə nazil olmazdan əvvəl şərabın haramlığı haqda qəti hökm verilmişdir. Belə olduğu bir halda necə belə bir qənaətə gəlmək olar ki, bu ayə şərabın [namazdan qeyri hallarda] içilməsinə icazə vermiş və [sonralar] başqa bir ayə ilə nəsx olunmuşdur.

Bu məzmunda dediklərimizi təsdiq edəcək bir neçə mö'təbər rəvayət nəql olmuşdur və biz onlardan bir neçəsinə işarə edirik.

Abdullah ibni Ömər deyir: Şərabın haram olunmasına dair üç ayə nazil olmuşdur. Nazil olmuş ilk ayə "Bəqərə" surəsinin 219-cu ayəsi olmuşdur. Orada deyilir:

يَسْأَلُونَكَ عَنِ الْخَمْرِ وَالْمَيْسِرِ قُلْ فِيهِمَا إِثْمٌ كَبِيرٌ وَمَنَافِعُ لِلنَّاسِ وَإِثْمُهُمَآ أَكْبَرُ مِن نَّفْعِهِمَا

***"[Ya Məhəmməd] Səndən içki və qumar [məysir] haqqında sual edənlərə söylə: Onlarda həm böyük günah, həm də insanlar üçün mənfəət [dünya mənfəəti] vardır. Lakin günahları mənfəətlərindən daha böyükdür!)***

Abdulla deyir: Bu ayə nazil olduqdan sonra [əshabdan] bə'ziləri dedilər: Şərab haram olundu [və bununla kifayətləndilər]. Digərləri Peyğəmbərin (s) yanına gəlib dedilər: Ya Rəsulullah! Bizə icazə ver şərabın dünyəvi mənfəətlərindən bəhrələnək! Peyğəmbər (s), onların bu istəklərinin müqabilində bi şey söyləməyib sükut etdi və sonra bu ayə nazil oldu:

لاَ تَقْرَبُواْ الصَّلاَةَ وَأَنتُمْ سُكَارَى

***"Sərxoş ikən nə dediyinizi anlayana qədər namaza yaxınlaşmayın) (4/43).***

Bu məzmunda Əbu Hüreyrədən də başqa bir rəvayət nəql olmuşdur.

Əbu Səid nəql etdiyi rəvayətdə deyir: Şərabı haram edən ayə nazil olduqdan sonra Ömər ibni Xəttab dedi: "İlahi! Şərabın haramlığını bizlər üçün daha da aşkar et!" Sonra bu ayə nazil oldu.

يَسْأَلُونَكَ عَنِ الْخَمْرِ وَالْمَيْسِرِ قُلْ فِيهِمَا إِثْمٌ كَبِيرٌ

***[Ya Məhəmməd!] Səndən içki və qumar [məysir] haqqında sual edənlərə söylə: Onlarda həm böyük günah...) (2/219).***

Bu ayə Ömərə oxundu, lakin o buna qane olmayıb dedi: “İlahi! Şərabın haramlığını bizlərə daha da aşkar et!” Sonra bu ayə nazil oldu.

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَقْرَبُواْ الصَّلاَةَ وَأَنتُمْ سُكَارَى حَتَّىَ تَعْلَمُواْ مَا تَقُولُونَ

***“Ey iman gətirənlər! Sərxoş ikən nə dediyinizi anlayana qədər namaza yaxınlaşmayın) (4/43).***

Əbu Məsirə deyir: Bu ayə nazil olduqdan sonra, Peyğəmbərin (s) müəzzini azan verdikdə uca səslə hamıya e`lan etdi: “Bundan sonra heç kim sərxoş ikən namaza yaxınlaşmasın [gəlməsin]!” Ömərə oxunan bu ayəni o üçüncü dəfə təkrar etdi: “İlahi! Şərabın haramlığını bizlər üçün daha da aşkar et!” “Maidə” surəsinin 91-ci ayəsi nazil oldu:

إِنَّمَا يُرِيدُ الشَّيْطَانُ أَن يُوقِعَ بَيْنَكُمُ الْعَدَاوَةَ وَالْبَغْضَاء فِي الْخَمْرِ وَالْمَيْسِرِ وَيَصُدَّكُمْ عَن ذِكْرِ اللّهِ وَعَنِ الصَّلاَةِ فَهَلْ أَنتُم مُّنتَهُونَ

***Şübhəsiz ki, Şeytan içki və qumarla aranıza ədavət və kin salmaq, sizi Allahı yada salmaqdan və namaz qılmaqdan ayırmaq istər! Artıq bu işə son qoyacaqsınızmı!?)*** (Ayənin sonundakı «fəhəl əntum muntəhun – artıq bu işə son qoyacaqsınızmı!?) cümləsinə çatdıqda Ömər lərzəyə gələrək uca səslə dedi: (İntəhəyna! İntəhəyna! – Əl çəkdik! Əl çəkdik!)[1]

Bir qədər fərqli olaraq bu rəvayəti Nəsai də öz kitabında nəql etmişdir. Rəvayətdən belə nəticəyə gəlmək olur ki, ayə nazil olmazdan əvvəl şərabın haramlığına dair qəti hökm verilmişdir və bu ayə hökm verildikdən sonra nazil olmuşdur. Bütün bunlar şərabın haramlığına dair nazil olmuş ayənin bu ayə ilə nəsx olunmasının tamamilə əsassız olduğunu bir daha sübuta yetirir.

2) Hökmün dəstəmaz ayəsi ilə nəsxi:

Haqqında söhbət açdığımız ayənin nəsx olunmasına dair irəli sürülmüş iki nəzəriyyə hökmün [ayənin] dəstəmaz ayəsi ilə nəsx olmasıdır. Çünki bu ayə yalnız namaz halında məst

---

[1] Musnədi-Əhməd ibni Hənbəl, 2-ci cild, 351-ci səh.

olmamağı əsas şərt hesab edir. Dəstəmaz ayəsi nazil olmaqla namaz üçün dəstəmazın əsas şərt olduğu göstərilir və beləliklə əvvəlki hökm öz qüvvəsini itirərək nəsx olunur.

***Cavab:***

Namaz istər dəstəmazla, istərsə də dəstəmazsız olsun, məst halında qılınmamalıdır.

Demək haqqında söhbət açdığımız ayənin, dəstəmaz ayəsi ilə heç bir əlaqəsi yoxdur. O ki, qaldı dəstəmaz ayəsinə, burada ən başlıca məqsəd, namaz üçün dəstəmazın əsas şərt olduğunu bəyan etməkdir.

Belə bir açıqlama ilə bəlli olur ki, bu iki ayə arasında heç bir ziddiyyət yoxdur və bu halda onların birinin digərini nəsx etməsi də təbii ki, qeyri-mümkündür.

***FƏRZİYYƏ VƏ CAVAB***

Nəsx nəzəriyyəsinin tərəfdarları belə təsəvvür edə bilərlər ki, sərxoşluq deyildikdə, yüngül və namazın qılınmasına azacıq da olsun xələl gətirməyən [yəʾni insan özünü idarə edə biləcək həddə] sərxoşluğun yüngül mərhələsi nəzərdə tutulur. Çünki belə olduğu bir halda onun üzərinə heç bir məsʾuliyyət düşməyəcək ki, Allah da ona namaz qılmağı qadağan etmiş olsun. Demək sərxoşluq deyildikdə insanın öhdəsinə düşən məsʾuliyyətlərdən çəkindirməyəcək [nəzərdə tutduğu işləri həyata keçirməkdə mane olmayacaq] məstlik və sərxoşluq nəzərdə tutulur. Nisa surəsinin 43-cü ayəsində isə insana bu halda namaz qılmaq yasaq olunur. Halbuki, alimlərin bəʾzilərinin fikrincə bu şəxs namazdan uzaqlaşmamalı, əksinə üzərinə düşən bu dini [şərʾi] məsʾuliyyəti yerinə yetirməlidir. Bu səbəbdən də həmin dəstəmaz hökmü [ayəsi] ilə nəsx olunmuş və namazın ən başlıca şərti sərxoş olmamaq deyil, dəstəmazlı olduğu göstərilmişdir.

***Cavab:***

Ayə haqda belə bir təsəvvür olduqca əsassızdır. Çünki ayənin özündə (Hətta təʾləmu ma təqulun – ***nə dediyinizi anlayana qədər...)*** cümləsi ilə insanın heç nəyi dərk edə bilmədiyi sərxoşluq nəzərdə tutulur.

Ayədə sərxoş şəxslərin üzərinə düşən məsʾuliyyətin əql və şüursuzluqla heç bir ziddiyyəti yoxdur, çünki sərxoş halda insan namaz qılmağa qadir olmasa da, insan öz əməli ilə əql və şüurunu itirdiyi üçün üzərinə düşən məsʾuliyyəti yerinə yetirməlidir. Yəʾni, əvvəlcədən əqli çatışmazlığa düçar olan şəxslərin üzərinə heç bir məsʾuliyyət düşməyir, insan özü buna səbəb olduqda isə məsʾuliyyətlər onun üzərindən götürülməyir.

Dediklərimizdən belə bir nəticəyə gəlirik ki, ayədə sərxoşluq deyildikdə, insanın öz əməli ilə əql və şüurunu itirib belə bir hala düşməsi nəzərdə tutulur. İnsan öz əməlləri ilə belə bir şəraitin yaranmasına səbəb olmamalı və belə bir qeyri-ixtiyari hala düşdükdə namaz qılmaqdan çəkinməlidir. Bu, Qurʾanın sabit və nəsx olunmayan hökmlərindəndir. Allaha iman gətirmiş hər bir şəxs şərtsiz olaraq buna iman gətirmiş və əməli olaraq bunu həyata keçirməlidir.

### *KAFİRLƏRİN TOXUNULMAZLIĞI HAQDA NAZİL OLMUŞ AYƏNİN NƏSXİ*

إِلاَّ الَّذِينَ يَصِلُونَ إِلَىَ قَوْمٍ بَيْنَكُمْ وَبَيْنَهُم مِّيثَاقٌ أَوْ جَآؤُوكُمْ حَصِرَتْ صُدُورُهُمْ أَن يُقَاتِلُونَكُمْ أَوْ يُقَاتِلُواْ قَوْمَهُمْ وَلَوْ شَاء اللّهُ لَسَلَّطَهُمْ عَلَيْكُمْ فَلَقَاتَلُوكُمْ فَإِنِ اعْتَزَلُوكُمْ فَلَمْ يُقَاتِلُوكُمْ وَأَلْقَوْاْ إِلَيْكُمُ السَّلَمَ فَمَا جَعَلَ اللّهُ لَكُمْ عَلَيْهِمْ سَبِيلاً

***“Ancaq sizinlə aralarında əhd olan bir tayfaya sığınanlar, yaxud sizinlə və ya öz qövmlərilə [Məkkə müşriklərilə] vuruşmaqdan ürəkləri sıxılaraq [xoşlanmayaraq] sizin yanınıza gələn şəxslər müstəsnadır. Əgər Allah istəsəydi, onları sizin üstünüzə qaldırardı və onlar da sizinlə vuruşardılar. Əgər onlar sizdən aralanıb bir tərəfə çəkilsələr və sizinlə vuruşmayıb sülh təklif etsələr, o zaman Allah sizin üçün onların əleyhinə çıxmağa heç bir yol qoymaz.) (4/90).***

Deyirlər:

Bu ayə müşriklərlə bağlanılan əhd-peyman və onların toxunulmazlığı haqda nazil olmuşdur, lakin sonralar cihad hökmü [ayəsi] ilə nəsx olunmuşdur.

Bu nəzəriyyəyə əsasən, bu ayədə iki hökm nəsx olmuşdur.

1. Müşriklərlə bağlanılan əhd-peymanın qorunması;
2. Onlara qarşı cihad hökmünün verilməsi.

***Cavab:***

Ayə müşriklər haqda deyil, münafiqlər barədə nazil olmuşdur və ayəni müşriklərlə əlaqələndirilməyə heç bir əsas yoxdur. Belə ki, münafiqlər iman gətirdikdən sonra bir daha küfr edərək dindən çıxmış və bu ayə məhz onlar haqda nazil olmuşdur. Ayənin özünün və əvvəlki iki ayənin məhz ümumi məzmunu da buna dəlalət edir.

فَمَا لَكُمْ فِي الْمُنَافِقِينَ فِئَتَيْنِ وَاللّهُ أَرْكَسَهُم بِمَا كَسَبُواْ أَتُرِيدُونَ أَن تَهْدُواْ مَنْ أَضَلَّ اللّهُ وَمَن يُضْلِلِ اللّهُ فَلَن تَجِدَ لَهُ سَبِيلاً

***“Siz nə üçün münafiqlər barəsində iki dəstəyə ayrıldınız? Halbuki, Allah onları gördükləri əməllərinə görə əvvəlki hallarına [kafirliyə] qaytarmışdır. Siz Allahın [öz istəyi, öz iradəsi ilə küfr edəcəyini əzəldən bildiyi üçün] azdırıcı kimsəni doğru yolamı gətirmək istəyirsiniz? Allahın azdırdığı kimsə üçün heç bir yol tapa bilməzsən.***

وَدُّواْ لَوْ تَكْفُرُونَ كَمَا كَفَرُواْ فَتَكُونُونَ سَوَاء فَلاَ تَتَّخِذُواْ مِنْهُمْ أَوْلِيَاء حَتَّىَ يُهَاجِرُواْ فِي سَبِيلِ اللّهِ فَإِن تَوَلَّوْاْ فَخُذُوهُمْ وَاقْتُلُوهُمْ حَيْثُ وَجَدتَّمُوهُمْ وَلاَ تَتَّخِذُواْ مِنْهُمْ وَلِيًّا وَلاَ نَصِيرًا

***Onlar özləri kafir olduqdarı kimi, sizin də kafir olub özlərinə bərabər olmanızı istərlər. Onlar Allah yolunda [Məkkədən] hicrət etməyənə qədər onlardan [özünüzə] dost tutmayın. Əgər [tövhiddən və hicrət etməkdən] üz çevirsələr, onları harada görsəniz, tutub öldürün. Onlardan özünüzə nə bir dost, nə də bir köməkçi tutun!***

إِلاَّ الَّذِينَ يَصِلُونَ....

***Ancaq sizinlə aralarında əhd olan bir tayfaya sığınanlar, yaxud sizinlə və ya öz qövmlərilə [Məkkə müşriklərilə] vuruşmaqdan ürəkləri sıxılaraq [xoşlanmayaraq] sizin yanınıza gələn şəxslər müstəsnadır.) (4/88-90).***

Göründüyü kimi hər üç ayənin ümumi məzmunu İslamı qəbul etmiş və sonralar yenidən küfr edərək dindən çıxmış münafiqlərə dəlalət edir. Fiqhi termin olaraq onlar «mürtəd» adlandırılırlar. Şər`i nöqteyi-nəzərdən onlar iki hal istisna olmaqla qətlə yetirilməlidirlər:

1. Onlar, müsəlmanlarla toxunulmazlıq və təhlükəsizlik sazişi bağlamış hər hansı bir qrupa qoşulduqda; belə ki,

müsəlmanlar tərəfindən onlara [mürtədlərə] toxunulmazlıq hüququ verilmiş olsun. Belə olduqda mürtədlər müsəlmanlarla saziş [əhd-peyman] bağlayan şəxslər tərəfindən toxunulmazlıq hüququ verdikləri üçün qətlə yetirilmirlər.

İndinin özündə də hökm qüvvədə qaldığı üçün deyə bilərik ki, sabit qalaraq nəsx olunmamışdır. Çünki ayənin özündə deyildiyi kimi: «Mürtədlərlə [və ya onların əhd-peyman bağladığı şəxslərlə] saziş bağlandıqda onların toxunulmazlığı tam şəkildə bərpa olunur. Lakin onların toxunulmazlıq sazişi qüvvədə olduğu müddət ərzində bərpa olunur və müddət başa çatdıqda toxunulmazlıq öz əhəmiyyətini itirir. Belə olduqda müsəlmanlar yenidən mürtədlərə hücum edərək onları qətlə yetirə bilərlər. Lakin diqqət yetirmək lazımdır ki, mövzunun aradan qalxması ilə hər hansı bir hökmün qüvvədən düşməsi heç də onun nəsx olunmasına dəlalət etmir və bu kimi dəyişikliklər nəsx adlandırılmur. Burada da mürtədlərə dair verilmiş hökm bu dəyişikliyə aiddir. Çünki müsəlmanlarla müşriklər arasında bağlanılan əhd-peyman Tövbə surəsi nazil olmaqla ləğv olunmuş və onlara dörd ay müddətində ya İslamı qəbul etmək və ya müsəlmanların yaşadıqları əraziləri tərk etmək möhləti verilmişdir.

Beləliklə, cihad hökmü verilməklə yenidən mövcud olan şərait dəyişilir və mürtədlərin toxunulmazlığı haqda yazılmış saziş və əhd-peyman öz qüvvəsini itirmiş olur. Nəticədə onların qətli şər՚i nöqteyi-nəzərdən hər bir müsəlmana vacib olur.

2) Mürtədlərin toxunulmazlığının ikinci şərti onların müsəlmanlarla sülh və əmin-amanlıq şəraitində yaşamalarına və onlarla sülh və dostluq əlaqələrinin bərqərar olunmasına meyl etmələridir. Bir şərtlə ki, onlar [yenidən] İslamı qəbul etməli, Allahın birliyinə, həzrət Məhəmmədin (s) peyğəmbərliyinin həqqaniyyətinə e՚tiraf etməlidirlər. “Nisa” surəsinin 94-cü ayəsində bu haqda deyilir:

وَلاَ تَقُولُواْ لِمَنْ أَلْقَى إِلَيْكُمُ السَّلاَمَ لَسْتَ مُؤْمِنًا تَبْتَغُونَ عَرَضَ الْحَيَاةِ الدُّنْيَا

***“Sizə salam verən bir şəxsə dünya həyatının puç mənfəətinə tamahlanmaqla «Sən mö՚min deyilsən!» deməyin!)***

Demək mürtəd tövbə etdikdən sonra əfv olunmalı və qətl hökmü onun üzərindən götürülməlidir. Bunu da qeyd edək ki, Qur᾽ani-Kərimdə hökmü nəsx edəcək mürtədlərin [tövbə etdikdən sonra] qətlə yetirilmələrinə dair qəti hökm verilməmişdir.

Nəsx nəzəriyyəsinin tərəfdarları: Bə᾽zən kafirlərə qarşı müharibə və onların qətlə yetirilməsinə şamil olmayan bu ayənin nəsx olunmasını cihad hökmünü verən ayəyə istinad edirlər.

***Cavab:***

Hökmə yalnız o zaman istinad etmək olar ki, mürtədlər tövbə etmədən küfr edərək öz batil əqidələrində qalmış olsunlar. Tövbə etdikdə isə onların toxunulmazlığı bərqərar olunur və qətl hökmü götürülür. Və belə olduqda ayənin nəsx olunmasını tamamilə əsassız hesab etmək olar. Lakin əhli-sünnə mənbələrində nəql olunmuş bə᾽zi rəvayətlərdə mürtədlərin hətta tövbə etdikdən sonra belə qətlə yetirilmələrinin vacibliyi göstərilir. Bəlkə bu barədə Əhməd ibni Hənbəl, Termizi, Nəsai, Əbu Davud, İbni Macə öz kitablarında İbni Abbasın Peyğəmbərdən (s) nəql etdiyi hədisə istinad etmişlər. Hədisdə deyilir: «Dinini başqa dinlərlə dəyişənləri qətlə yetirin.»[1]

Bizim fikrimizcə mürtədlərin qətlə yetirilməsinin əsas şərti onların tövbə etməməsidir. Lakin ixtilafa səbəb olan məsələlərdən biri də mürtədlərin tövbə etməyə sövq etməyin vacib və ya müstəhəb olub-olmamasıdır. Onlar hansı müddət ərzində tövbə etməlidirlər və bu müddət başa çatdıqda qətlə yetirilməlidirlərmi? Şiə alimləri belə bir fikirdədirlər ki, mürtədləri tövbə etdirmək hər bir müsəlmana vacibdir və bunun üçün müəyyən vaxt tə᾽yin etməlidir. Müddət o vaxta qədər tə᾽yin olunmalıdır ki, onların tövbə etmələri əqli baxımdan mümkün olsun. Lakin şiə alimlərinin bə᾽zilərinin fikrincə mürtədlərə tövbə etmək üçün verilən möhlət üç gün olmalıdır. Sünni alimlərinin bir çoxu, o cümlədən Əbu Hənifə və Əbu Yusif də məhz bu fikirdə olmuşlar.

Lakin Əli ibni Əbu Bəkr Mərcinani bu barədə başqa bir fikir irəli sürərək deyir: «Mürtədlər möhlət verilmədən qətlə yetirilməlidirlər.» Şafei və İbni Munzir İbni Həmmamdan nəql

---

[1] Əl-Muntəqi, 2-ci cild, 745-ci səh.

edərək deyirlər: «Mürtəd dindən çıxdıqdan sonra dərhal tövbə etməsə qətlə yetirilməlidir.»[1]

Şiə və sünni mənbələrində nəql olunmuş rəvayətlərdən belə bir nəticəyə gəlmək olur ki, mürtədlər tövbə etdikdən sonra toxunulmazlıqları tə᾿min olunur. Demək, mürtədlərin toxunulmazlığına – bə᾿zi hallarda tə᾿min etsə belə, şamil olan ayə başqa bir ayə ilə nəsx olunmadan öz qüvvəsində qalmaqdadır.

***MÜHAKİMƏ AYƏSİNİN NƏSXİ***

فَإِن جَآؤُوكَ فَاحْكُم بَيْنَهُم أَوْ أَعْرِضْ عَنْهُمْ وَإِن تُعْرِضْ عَنْهُمْ فَلَن يَضُرُّوكَ شَيْئًا وَإِنْ حَكَمْتَ فَاحْكُم بَيْنَهُمْ بِالْقِسْطِ إِنَّ اللّهَ يُحِبُّ الْمُقْسِطِينَ

***“Əgər yanına gəlsələr, aralarında hökm et və ya onlardan üz çevir. Əgər onlardan üz döndərsən, sənə heç bir zərər verə bilməzlər. Əgər aralarında hökm etsən, ədalətlə hökm et. Allah ədalət sahiblərini sevər!)” (5/42).***

Ayənin nəsx olunub-olunmaması haqda müxtəlif nəzəriyyələr irəli sürülmüşdür.

Alimlərin bə᾿ziləri – şiə alimləri də daxil olmaqla – ayənin nəsx olunmadığına istinad edirlər.

Bu səbəbdən də əgər kitab əhli öz şikayətlərini müsəlmanların qazisinə təqdim edərsə, qazi İslamın mühakimə qanunlarına əsasən, onların [müsəlmanlarla kitab əhlinin] arasında hökm çıxara bilər.

Şeyx Tusi mö᾿təbər mənbəyə istinad edərək İmam Sadiq (ə)-dan nəql etdiyi hədisdə deyir: Əgər yəhudi və məsihilər öz şikayətlərini müsəlman qazisinə təqdim edərlərsə, həmin qazi onların arasında hökm çıxarmaq və ya bundan boyun qaçırmaqda tam ixtiyara malikdir.[2]

Əhli-sünnə və şiə alimləri, o cümlədən İbrahim Nəxəi, Əta və Malik ibni Ənəs də bu fikirdə olmuşlar.

Lakin əhli-sünnə alimlərinin bə᾿ziləri ayənin növbəti 48-ci ayə ilə nəsx olunduğuna dair fikir irəli sürmüşlər.

فَاحْكُم بَيْنَهُم بِمَا أَنزَلَ اللّهُ وَلاَ تَتَّبِعْ أَهْوَاءهُمْ

---

[1] Fəthul-Qədir, 4-cü cild, 86-cı səh.

[2] Vəsailuş-şiə, 3-cü cild, 406-cu səh.

***“Sən Allahın nazil etdiyi [Qurʾan] ilə hökm et. Sənə gələn haqdan ayrılıb onların nəfslərinin istəyinə uyma.) (5/8).***

Mucahiddən nəql olmuş rəvayətdə bu nəzəriyyənin tam əksinə birinci ayənin ikinci ayəni nəsx etdiyi göstərilir.

***Müəllif:***

Ayənin nəsx olunduğu müşahidə olunmur. Çünki ikinci ayədə Allah-taala qaziyə [Peyğəmbərə (s)] ona nazil olan [Qurʾanla] kitab əhli arasında hökm etməyə əmr edir. Lakin birinci ayədə qazinin hökm çıxarıb-çıxarmamaqda tam ixtiyara malik olduğuna işarə olunur. Yəʾni, əgər hökm çıxarmaq istəyərsə öz istəyi ilə deyil, İlahi qanunlar əsasında ədalətlə hökm çıxarmalıdır.

Başqa sözlə desək, hər iki ayə eyni məʾna daşıyır. Lakin birinci ayə əslində ikinci ayənin verdiyi hökmü bəyan edir və müsəlman qazisi kitab əhli arasında hökm çıxardığı zaman İlahi qanunlara əsaslanaraq ədalətlə hökm çıxarmalıdır.

Bununla yanaşı bu məzmuna dəlalət edəcək digər rəvayətlər də nəql olunmuşdur və bütün bu rəvayətlərdən belə qənaətə gəlmək olur ki, Maidə surəsi bütünlüklə Peyğəmbərə (s) səfər zamanı nazil olmuşdur. Deməli, hər iki ayə həmən surəyə aiddir, eyni vaxtda nazil olmuşdur və onlardan birinin digərini nəsx etməsi təsəvvür olunası deyildir.

Bu səbəbdən də deməliyik ki, ayələr arasında nəsx müşahidə olunmur. Mətləbin daha açıqlanması üçün bir neçə rəvayətə işarə edirik:

1) İsa ibni Abdulla atasından, o da öz atasından və o da Əli (ə)-dan nəql etdiyi rəvayətdə deyir: Maidə surəsi Peyğəmbərə (s) nazil olmuş son surələrdəndir. Surə Peyğəmbərə (s) səfər zamanı qatırın üzərində olarkən nazil olmuşdur. Belə ki, vəhyin ağırlığından «Şəhbanın» (qatırın) ayaqları yerə batmışdır.[1]

2) Yəzidin qızı Əsmadan nəql olmuş rəvayətdə deyilir: «Peyğəmbərin (s) dəvəsinin «Şəhbanın» adlı yüyənini tutmuşdum. Bu zaman Maidə surəsi bütünlüklə ona nazil oldu. Belə ki, az qaldı dəvənin dizləri yerə batsın.»[2]

---

[1] Təfsiri-Burhan, 1-ci cild, 293-cü səh.

[2] Ibni Kəsirin təfsiri.

3) Əsmadan nəql olmuş başqa bir rəvayətdə deyilir: «Maidə surəsi Peyğəmbərə (s) bütünlüklə nazil oldu və surə nazil olarkən oturduğu dəvənin beli az qaldı sınsın.»[1]

4) Cubeyr ibni Nəfir nəql etdiyi rəvayətdə deyir: «Həcc ziyarəti zamanı Aişənin yanına getdim. Aişə məni görcək soruşdu: Cubeyr! Maidə surəsini oxuyursanmı?

Dedim: Bəli.

Dedi: Bilin ki, Maidə surəsi Peyğəmbərə (s) nazil olmuş son surə olmuşdur. Onun halalını halal, haramını da özünüzə haram bilin.

5) Əbu Ubəyd, Zəmrət ibni Həbib və Ətiyyət ibni Qeys nəql etdiyi rəvayətdə deyir: Peyğəmbər (s) buyurmuşdur: «Maidə, Qur᾽anın nazil olmuş son surəsidir. Onun halal etdiyini özünüzə halal, haram etdiyini də haram edin.»[2]

Digər bir rəvayət də vardır ki, Maidə surəsinin kamil surətdə və sonuncu surə olaraq nazil olduğunu çatdırır.

Əziz oxucular, əlimizdə belə hədislər olduğu halda necə iddia etmək olar ki, bu surənin bir ayəsi digər bir ayəni nəsx edir və bu nəsx də əməl vaxtı çatmamış həyata keçirilir. Belə bir halda nəsx olunmuş ayənin hökmünün qanuniləşdirilməsi faydasız olacaqdır və məhz buna görə də bu iddianı qəbul etmək mümkün deyildir.

Bundan əlavə, həmin hədisdən bizim qeyd etdiyimiz məsələni təsdiq edən digər bir mətləb də başa düşülür. O da bu surənin heç bir ayəsinin nəsx olunmamasıdır.

### *ŞƏHADƏT [ŞAHİDLİK VERMƏK] AYƏSİNİN NƏSXİ*

يِا أَيُّهَا الَّذِينَ آمَنُواْ شَهَادَةُ بَيْنِكُمْ إِذَا حَضَرَ أَحَدَكُمُ الْمَوْتُ حِينَ الْوَصِيَّةِ اثْنَانِ ذَوَا عَدْلٍ مِّنكُمْ أَوْ آخَرَانِ مِنْ غَيْرِكُمْ

***(Ey iman gətirənlər! Sizdən hər hansı birinizi ölüm haqladıqda vəsiyyət vaxtı aranızdan iki ədalətli şəxsi, səfərdə olduğunuz zaman başınıza ölüm müsibəti gəldikdə isə özünüzdən [müsəlman] olmayan iki nəfəri şahid tutun). (5/106).***

---

[1] Musnədi-Əhməd ibni Hənbəl, 6-cı cild, 458-ci səh.

[2] Musnəd, 6-cı cild, 485-ci səh.

Şiə alimlərinin fikrincə ayənin verdiyi hökm sabitdir və nəsx olunmamışdır. Bu səbəbdən də (min ğəyrikum – özünüzdən olmayan) cümləsini nəzərə alaraq deyə bilərik ki, kitab əhlinin səfər zamanı müsəlmanlara vəsiyyət üçün şahidlik etməsi tamamilə düzgün və e᾽tibarlıdır. Abdulla ibni Qeys, İbni Abbas, Şurəyh, Səid ibni Musəyb, Səid ibni Cubəyr, Ubəydə, Məhəmməd ibni Siyrin, Şə᾽bi, Yəhya ibni Yə᾽mar kimi tanınmış əshab və tabeinlər və əhli-sünnə fiqhinin banilərindən olan Süfyan Suri və Əbu Ubeyd kimi görkəmli şəxsiyyətlər bu nəzəriyyəni qəbul etmişlər.

Lakin Zeyd ibni Əsləm, Malik ibni Ənəs, Şafei və Əbu Hənifə ayənin nəsx olunduğunu demişlər. Kafirlərin şəhadət verməsi hansı şəraitdə olursa-olsun, e᾽tibarlı sayılmır.[1]

***AYƏNİN NƏSX OLUNMADIĞINI SÜBUTA YETİRƏN DƏLİLLƏR***

Ayənin nəsx olunmadığını aşağıdakı dəlillərlə sübuta yetirmək olar.

1. Əhli-sünnə və şiə mənbələrində nəql olunmuş rəvayətlərdən belə bir qənaətə gəlmək olur ki, kitab əhlinin müsəlmanlara verdikləri şəhadət yalnız o zaman qəbul oluna bilər ki, müsəlmanın verdiyi şəhadəti qəbul etmək mümkün olmasın. Belə ki, Koleyni, Hişam ibni Həkəmdən nəql etdiyi rəvayətdə deyir: İmam Sadiq (ə)-dan «və axərani min ğəyrikum» – özünüzdən olmayan iki nəfəri şahid tutun — ayəsinin anlamını soruşdum. İmam (ə) buyurdu: Əgər bir şəxs qürbətdə [səfərdə] olarsa və vəsiyyət etməyə müsəlman tapmazsa, qeyri-müsəlmanın verdiyi şəhadəti e᾽tibarlı hesab etmək olar.[2] Şə᾽bi nəql etdiyi rəvayətdə deyir: Dəquqa adlı məntəqədə müsəlmanlardan biri vəfat edir. Vəsiyyət etməyə müsəlman tapa bilmədiyi üçün kitab əhlindən vəsiyyətinə şəhadət verəcək iki nəfər şahid tutur. Onlar Kufəyə gəlib əhvalatı Əbu Musa Əş᾽əriyə danışdıqdan sonra həmən şəxsin verdiyi əmanətləri ona təhvil verirlər. Əbu Musa

---

[1] Ənnəsx vəl-mənsux, Nəhhas, 133-134-cü səh.
[2] Vafi, 13-cü cild, 8-ci səh. “Vəsiyyətə şahid olmaq” fəsli.

onları diqqətlə dinlədikdən sonra deyir: Peyğəmbərdən (s) sonra belə bir əhvalat baş verməmişdir.

Sonra onlara and içdirir ki, həmən şəxsin pul və var-dövlətinə xəyanət etməmiş və etdiyi vəsiyyətdə dəyişikliklər aparmamışlar. Onlar da əmanətə xəyanət etmədiklərinə və vəsiyyətdə heç bir dəyişikliklər aparmadıqlarına and içirilər. Beləliklə, Əbu Musa kitab əhlindən olan iki nəfər şəxsin verdikləri şəhadəti bir müsəlmanın verdiyi şəhadətlə bərabər tutaraq qəbul edir.

2. Əvvəlki fəsildə Maidə surəsinin nazil olması haqda nəql olmuş rəvayəti ayənin nəsx olunmamasına dair ikinci əsaslı dəlil hesab etmək olar. Çünki rəvayətdən belə nəticəyə gəlmək olur ki, Maidə surəsi, Qur᾽anın nazil olmuş son surəsidir və onun ayələri nəsx olunmadan qüvvədə qalmaqdadır.

3. Ayənin nəsx olunmasını sübuta yetirəcək əsaslı dəlillər olmalıdır. Nəsx nəzəriyyəsi tərəfdarlarının istinad etdikləri dəlillər isə bunu sübuta yetirməyə qadir deyildir.

***NƏSX NƏZƏRİYYƏSİ TƏRƏFDARLARININ İSTİNAD ETDİKLƏRİ DƏLİLLƏR***

Qeyd etdiyimiz kimi, əhli-sünnə alimlərinin bir qismi ayənin nəsx olunmasına dair müxtəlif fikirlər irəli sürmüşlər və bu barədə bir neçə dəlilə istinad etmişlər. Biz onlardan bir neçəsinə işarə edirik.

1. ***Deyilir:*** Allah-taalanın, şəhadət verən şəxslər üçün tə᾽yin etdiyi əsas şərt onların adil olmaları və müsəlmanların e᾽timadını qazanmalıdır.

Qur᾽ani-Kərimdə bu haqda yazılır:

***«Razı olduğunuz şahidlərdən»*** (2/282).

2. ***«İçərinizdən iki ədalətli şahid tutun»*** (63/2).

E᾽timad və ədalətin kafirlərdə olmadığını nəzərə alaraq deyə bilərik ki, onların verdikləri şəhadət e᾽tibarsız və qeyri-məqbuldur. Belə olduqda onların vəsiyyət üçün verdikləri şəhadət də e᾽tibarsız hesab olunmalıdır. Deməli, haqqında söhbət açdığımız ayə də yeni verilən hökm ilə nəsx olunaraq öz qüvvəsini itirmişdir.

***Cavab:***

Gətirilən bu dəlili bir neçə səbəbdən əsassız hesab edə bilərik. Əvvəla ona görə ki, birinci ayənin şahidlik verməyə dəlalət etdiyini fərz etsək də belə, ikinci ayəyə diqqət yetirməklə onun şəhadətə deyil, təlaq hökmünə aid olunduğunun şahidi olarıq. Deməк, onların heç biri vəsiyyət üçün verilən şahidlikdə ədalətin əsas şərt olmasına dəlalət etmir. Digər tərəfdən isə hər iki ayənin təlaq hökmünə aid olması və onun bütün hallara şamil olunduğunu fərz etsək, haqqında söhbət açdığımız ayəni təlaq hökmünə şamil olan bu iki ayə üçün bir növ əlavə hesab etməli olacağıq. Çünki ümumi xarakter daşıyan bir hökm, başqa bir məhdud hökmü nəsx etməyə qadir deyildir. Belə olduqda adətən məhdud hökm, mütləq və ümumiyyət xarakteri daşıyan hökmlərə əlavə olunur.

2. Nəsx nəzəriyyəsi tərəfdarlarının istinad etdikləri ikinci əsaslı dəlil icmanın irəli sürdüyü nəzəriyyədir. İcma belə bir fikirdədir ki, əməli-saleh olmayan fasiq şəxslərin verdikləri şahidlik [şəhadət] e҆tibarsız sayılır. Kafirlər də fasiq [günahkar] olduqları üçün onların verdikləri şəhadət e҆tibarsız sayılmalıdır.

Alimlərin əksəriyyəti kitab əhlinin verdikləri şəhadəti e҆tibarlı hesab etdikləri üçün icmanın irəli sürdüyü bu nəzəriyyəni tamamilə əsassız hesab etmək olar. Belə ki, alimlərin bir çoxu fasiq müsəlmanın vəsiyyəti üçün kitab əhlinin verdiyi şəhadəti e҆tibarlı hesab edir. Demək, fasiq müsəlmanın şəhadət verməsinin e҆tibarsız hesab olunması, öz din və məzhəbində e҆timad qazanmış qeyri-müsəlman adil bir şəxsin verdiyi şəhadətin e҆tibarsız olmasına dəlalət etmir. Çünki əqli baxımdan bu iki ayə arasında heç bir əlaqə yoxdur.

3. ***Deyilir:*** Kafirlərin verdiyi şəhadət yalnız vəsiyyət üçün qəbul oluna bilər. Lakin bu barədə də bə҆zi ixtilaflar nəzərə çarpır. İxtilaf doğuran məsələlərdə icmaya və şübhə meydana gəldikdə isə qəti və əsaslı hökmə müraciət etmək lazımdır.

***Cavab:***

Bir o qədər də məntiqli olmayan və insanda təəccüb doğuran belə bir dəlilin əvəzinə yaxşı olardı ki, bunun tam əksinə istinad

olunub deyiləydi. Peyğəmbərin (s) zamanında kafirlərin vəsiyyət üçün verdikləri şəhadət hamı tərəfindən qəbul olunardı. Lakin Peyğəmbər (s) vəfat etdikdən sonra bu barədə ixtilaf meydana gəldi. İxtilaf doğuran hər bir məsələdə isə icmaya müraciət etmək lazımdır.

***Nəticə:***

Dediklərimizdən belə bir qənaətə gəlmək olur ki, ayənin nəsx olunmasına dair irəli sürülmüş nəzəriyyələr tamamilə batil və əsassızdır və bu nəzəriyyəyə istinad edən varsa, o da son dövrün bə᾽zi fiqh alimləridir.

Məgər Qur᾽anın verdiyi qəti bir hökmü kimlərinsə verdikləri fətvalarla əvəz etmək olarmı?

Daha da təəccüb doğuran Həsən Zəhranın irəli sürdüyü nəzəriyyədir. O deyir: «Ov axərani min ğəyrikum» – özünüzdən olmayan iki nəfər şəxsi — cümləsindən məqsəd, heç də kafir və kitab əhlinin şəhadət verməsləri deyildir. Buradan məqsəd «öz qövm və qəbilənizdən olmayan» şəxslərdir. Çünki ayədə birbaşa olaraq kitab əhlinin adı çəkilmədiyi üçün biz verilən şəhadətin onlara dəlalət etdiyi haqda bir söz deyə bilmərik. Bu nəzəriyyə ayənin təfsiri haqda nəql olmuş rəvayətlə yanaşı, ayənin zahiri mə᾽nası ilə də tam ziddiyyət təşkil edir. Çünki ayədə xitab [müraciət olunan] yalnız mö᾽minlərdən və «ğəyrikum» – özünüzdən olmayan — deyildikdə mö᾽min olmayanlar, yə᾽ni, kafirlər nəzərdə tutulmalıdır.

Diqqət yetirmək lazımdır ki, ayə heç bir şərt olmadan şəhadətin verilməsinə dəlalət edir və verilən şəhadət istər kitab əhlindən olan kafirlər tərəfindən verilsin, istərsə də kitab əhlindən olmayan kafirlər və həmçinin istər mö᾽minlərin özləri tərəfindən mümkün olsun, istərsə də qeyri-mümkün.

Lakin bu məzmunda nəql olmuş bir çox rəvayətlərdə şəhadətin mö᾽minlər tərəfindən verilməsi mümkün olmadıqda, kitab əhlindən olan kafirlər tərəfindən verilməsinə dəlalət etdiyi göstərilir və bu hökm istisna ilə aradan qaldırılaraq Qur᾽anın ümumi xarakter daşıyan hökmünün, Peyğəmbərin (s) buyurduqları ilə sabit olunan hökmlərə daxildir.

## *ZƏKAT AYƏSİNİN NƏSXİ*

وَهُوَ الَّذِي أَنشَأَ جَنَّاتٍ مَّعْرُوشَاتٍ وَغَيْرَ مَعْرُوشَاتٍ وَالنَّخْلَ وَالزَّرْعَ مُخْتَلِفًا أُكُلُهُ وَالزَّيْتُونَ وَالرُّمَّانَ مُتَشَابِهًا وَغَيْرَ مُتَشَابِهٍ كُلُواْ مِن ثَمَرِهِ إِذَا أَثْمَرَ وَآتُواْ حَقَّهُ يَوْمَ حَصَادِهِ وَلاَ تُسْرِفُواْ إِنَّهُ لاَ يُحِبُّ الْمُسْرِفِينَ

***"Yer üzünə sərilmiş və sərilməmiş bağ-bağatı [bostanları və bağları], dadları müxtəlif olan xurmanı və taxılı, bir-birinə həm bənzəyən, həm də bənzəməyən zeytunu və narı yaradan Odur. [Onların hər biri] bar verdiyi zaman barından yeyin, yığım günü haqqını [zəkatını, sədəqəsini] ödəyin, lakin israf etməyin. Allah israf edənləri sevməz.)***

Əhli-sünnə alimlərinin bir çox ayənin nəsx olunduğuna istinad edirlər. Onlar buna dair müxtəlif nəzəriyyələr irəli sürmüşlər:

1. Ayə zəkat barəsində nazil olmuşdur. Lakin verilən hökm arpa, buğda, xurma və s. bu kimi istisna olmaqla ayədə adları çəkilən meyvələr ilə nəsx olunmuşdur. Çünki Peyğəmbərin (s) bir çox səhabələri və onların davamçıları olan tabeinlər bütün bitkilərə zəkat verməyi vacib hesab etmişlər. Lakin Əbu Hənifə istisna olaraq «odun», «qamış» və «samandan» başqa bütün becərilən bitkilərə zəkat verməyi vacib hesab etmişdir.

2. ***Deyirlər:***

Ayə Peyğəmbərdən (s) nəql olunmuş rəvayətlə nəsx edilmişdir. Belə ki, zəkat olduğu vəziyyətdən 10-da bir və 20-də birə qədər müəyyənləşdirilmişdir. Sudey və Ənəs ibni Malik ayənin nəsx olunmasına dair bu nəzəriyyəni irəli sürmüşlər. Bə᾽zən İbni Abbasın və Məhəmməd ibni Hənəfinin də bu fikirdə olduqlarına istinad etmişlər.

3. Nəsx nəzəriyyəsi tərəfdarları bə᾽zən deyirlər: Ayənin zəkat hökmü ilə heç bir əlaqəsi yoxdur. Haqq və ödəniş deyildikdə zəkat deyil, bu ayə ilə veriləsi vacib olan başqa bir ödəniş nəzərdə tutulur.

Zəkat hökmü verildikdən sonra isə ayə nəsx olunmuşdur.

B***izim nəzərimiz:*** Bizim fikrimizcə ayənin nəxs olunmasına dair irəli sürülmüş hər üç nəzəriyyə tamamilə batil və əsassızdır. Dediklərimizi sübuta yetirəcək bir neçə dəlilə işarə etmək istəyirik.

1. Əhli-beyt tərəfindən nəql olmuş bir neçə rəvayətdə «haqq və ödəniş» zəkat kimi təfsir olunmamışdır. Belə ki, Koleyni nəql etdiyi rəvayətdə deyir: İmam Sadiq (ə), Müaviyə ibni Həccaca deyir: Əkinçilikdə iki ödəniş vardır. Onlardan biri səndən alınır, digərini isə sən özün ödəyirsən. Müaviyə deyir: İmam Sadiq (ə)-dan onlardan hansının alındığını və hansının ödənildiyini soruşdum.

İmam Sadiq (ə) buyurdu: Əkdikləriniz şeylərdən 10-da biri və 20-də bir qismi zəkat halında sizdən alınır. Özünüz ödədiyiniz isə Allah buyurduğu «Və atu həqqəhu yovmə həsadihi» – yığım günü haqqını ödəyin — ayəsidir.[1]

İbni Mərdəveyh, Əbu Səiddən və o da Peyğəmbərdən (s) ayənin təfsirinə dair nəql etdiyi rəvayətdə deyir: Burada yığım zamanı yerə tökülmüş sünbüllər nəzərdə tutulur.

2. Bildiyimiz kimi Ənʾam surəsi Məkkədə bir dəfəyə [eyni zamanda] nazil olmuşdur. Zəkat ayəsi isə hicrətdən sonra Mədinədə nazil olmuşdur. Demək ayənin birinin digərini nəsx etməsi sadəcə olaraq qeyri-mümkündür.

Ənʾam surəsinin Məkkədə nazil olmasına dair kifayət qədər hədis və rəvayət nəql olmuşdur. Bu rəvayətlərdən birini Koleyni öz kitabında Həsən ibni Həmzədən nəql edir.

İmam Sadiq (ə) buyurur: Ənʾam surəsi birdəfəyə nazil olmuşdur. Surədə Allahın adı yetmiş dəfə çəkildiyi üçün onu yetmiş min mələk Peyğəmbərə (s) təʾzimlə nazil etmişlər. Əgər camaat onun oxunmasının nə qədər fəzilətli olduğunu bilsəydilər, daim onu qiraət etməyə can atardılar.

İbni Abbasdan nəql olunmuş rəvayətdə deyilir: Ənʾam surəsi gecə ikən birdəfəyə Məkkədə nazil olmuşdur. Surə nazil olarkən yetmiş min mələk onu müşahidə edərək Allaha şükür və səna edirdi.

Bu və bu məzmunda nəql olunmuş digər rəvayətlərdən belə bir qənaətə gəlmək olur ki, haqqında söhbət açdığımız ayə zəkat hökmü verilməzdən əvvəl nazil olmuşdur.

---

[1] Təfsiri Burhan, 1-ci cild, 338-ci səh.

Zucac deyir: Bəʾzilərinin fikrincə ayə Mədinədə nazil olmuşdur. Lakin bu nəzəriyyə əsassız olmaqla yanaşı nəql olunmuş rəvayətlərlə də ziddiyyət təşkil edir.

3. Ayənin nəsx olunmadığını sübuta yetirəcək sonuncu dəlil məhsulun biçim zamanı ödənilməsidir. Deməkbu zəkatdan fərqli olan başqa bir vergi haqqıdır. Çünki zəkat yığım zamanı deyil, məhsul yığılıb dəyirmanda döyüldükdən və bölündükdən sonra ödənilir.

Əhli-beytin məhsulun axşam yığılmasına dair qoyduğu qadağa və bu məzmunda onlar tərəfindən nəql olunmuş onlarla hədis və rəvayət dediklərimizi bir daha sübuta yetirir. Rəvayətlərdən belə bir məʾna əldə etmək olur ki, məhsul gecə ikən yığıldıqda yoxsul və imkansız təbəqə bundan xəbərsiz qalır və paylarına düşən ödənişdən məhrum olurlar.

Cəʾfər ibni Məhəmməd ibni İbrahim İmam Sadiq (ə)-a istinad edərək atası İmam Baqir (ə) və o da atası İmam Səccad (ə)-dan nəql edir ki, Peyğəmbər (s), xurma və digər əkin məhsullarının gecə ikən yığılmasını yasaq etdirdi. Cəʾfər rəvayəti nəql etdikdən sonra deyir: Yasaq hökmü bəlkə də yoxsul və imkansızların yığımdan xəbərsiz qaldıqları üçün verilmişdir.

***Cavab:***

Bəʾzilərinin fikrincə «haqqını ödəyin» deyildikdə zəkat, və «yovmə həsadihi» – yığım günü cümləsindən ödəniş vaxtı deyil, ödənişin vaxtının vacib olması nəzərdə tutulur. Çünki ödəniş məhsul yığılıb, üyüdülüb və bölündükdən sonra həyata keçirilir. Demək «yovmə həsadihi» – yığım günü cümləsi ödəniş haqqı [vergi] deyildikdə hökmən zəkatın nəzərdə tutulduğuna dəlalət edə bilməz.

***Cavab:***

Nəql olmuş rəvayətlərdən belə bir qənaətə gəlmək olur ki, «yovmə həsadihi» – yığım günü deyildikdə ödəniş vacibliyi deyil, ödəniş vaxtı nəzərdə tutulur.

1. Zaman şəkilçisi hökm halında deyil, feʾl məʾnasında işlənilir. Məsələn «Zeydə cümə günü hörmət və ehtiram et» deyildikdə, cümə günü burada hörmət və ehtiramın vacibliyi üçün

deyil, Zeydə olunacaq ehtiramın nə zaman olunacağına dəlalət edir.

2. Haqqında söhbət açdığımız ayə ilə tətbiq olunmayınca, zəkat verilməsi biçim zamanı vacib olunmur. Zəkat haqqı [vergisi] yalnız o zaman tə᾿yin oluna bilər ki, buğda və ya arpa dən halına düşüb istifadəyə yararlı olsun. Bu səbəbdən də ayədə «yığım gününə» xüsusi diqqət yetirilməsi, verilməsi vacib olan zəkat vergisindən fərqli olan başqa bir ödəniş nəzərdə tutulur.

3. Ayənin zəkat hökmünə dəlalət etmədiyinə dəlalət edən başqa bir dəlil Allahın, israfa yol verilməməsinə dair verdiyi hökm və zəkatın müəyyən həddə ödənilməsidir.

Beləliklə ayədə ödəniş deyildikdə, zəkatın nəzərdə tutulmadığı bəlli oldu və zəkat hökmünü verən ayənin bu ayə ilə heç bir bağlılığı yoxdur və təbii ki, belə olduğu bir halda onu nəsx etməsi də qeyri-mümkündür.

***Nəticə:***

Qeyd etdiklərimizdən belə mə᾿lum olur ki, ayənin nəsx olunmasına dair irəli sürülmüş nəzəriyyə əkin məhsullarına aid olan zəkat kimi vacib olan başqa bir verginin ödənilməsinin vacibliyi ilə sübuta yetirilir. Və bu hökm zəkat ayəsi ilə əvəz edilərək nəsx olunur. Lakin nəsx nəzəriyyəsi tərəfdarları zəkat vergisindən əvvəl belə bir verginin vacibliyini sübuta yetirəcək əsaslı dəlil gətirməyə qadir deyildirlər. Çünki əgər «Ayədə verilən hökm onun vacibliyinə dəlalət edir və bu səbəbdən də nəsx olunan vergi [ödəniş], vacibdir» deyərlərsə, cavabında deyilməlidir:

Hökmün icrası vacib olmaqla yanaşı, davamiyyətli olması da zərurət doğurur və onların hər ikisi haqqında söhbət açdığımız ayədə özünü büruzə verməyir. Çünki əgər davamiyyəti nəzərə alarıqsa, vaciblik istər-istəməz öz əhəmiyyətini itirmiş olur. Vacibliyi nəzərə aldıqda da eyni qaydada davamiyyət öz əhəmiyyətini itirmiş olacaq və bilirik ki, zəkatdan savayı başqa bir verginin ödənişi vacib deyildir.

Bu səbəbdən də ya gərək hökmün vacib olmasından əl çəkib onun davamiyyətinə əsaslanmalı, ya da davamiyyətdən əl çəkməli

və vacibliyinə əsaslanaraq hökmün nəsx olunduğu qəbul olmalıdır. Lakin verilən ikinci ehtimal bə᾽zi üstünlüklərə malikdir.

Əvvəla ona görə ki, ödənişin davamiyyəti və daimi olduğuna dair imamlardan kifayət qədər hədis və rəvayət nəql olunmuşdur və biz növbəti fəsillərdə bu rəvayətlər haqda danışacağıq.

Digər tərəfdən də əgər belə bir vacib vergi haqqı olsaydı, Peyğəmbərin (s) əshabı və sonrakı dövrlərdə yaşayan müsəlmanlar tərəfindən ödənilər və yalnız Əkrəmə və Zəhhan kimilərin nəql etdiyi rəvayətlərdə məhdudlaşmazdı.

Demək, ayədə vergi deyildikdə ödənişi müstəhəb olan başqa bir vergi haqqı nəzərdə tutulur. Vergi meyvələr yığıldıqdan və dənli bitkilər biçilərək döyüldükdən sonra yoxsul və ehtiyacı olanlara verilir ki, onlar bu yolla ailə üzvlərini qismən də olsa tə᾽min edərək özlərini hər şeydən məhrum hiss etməsinlər. Bir sözlə, haqqında söhbət açdığımız ayə nəsx olunmadan öz qüvvəsində qalmaqdadır.

### *ƏTİ HARAM OLAN HEYVANLARIN YEYİLMƏSİNƏ DAİR NAZİL OLMUŞ AYƏNİN NƏSXİ*

قُل لاَّ أَجِدُ فِي مَا أُوْحِيَ إِلَيَّ مُحَرَّمًا عَلَى طَاعِمٍ يَطْعَمُهُ إِلاَّ أَن يَكُونَ مَيْتَةً أَوْ دَمًا مَّسْفُوحًا أَوْ لَحْمَ خِنْزِيرٍ فَإِنَّهُ رِجْسٌ أَوْ فِسْقًا أُهِلَّ لِغَيْرِ اللّهِ بِهِ فَمَنِ اضْطُرَّ غَيْرَ بَاغٍ وَلاَ عَادٍ فَإِنَّ رَبَّكَ غَفُورٌ رَّحِيمٌ

***«[Ya Rəsulum!] De ki: «Mənə gələn vəhylər içərisində murdar olduqları üçün ölü heyvan, axar qan, donuz əti və ya Allahdan başqasının adı ilə [“Bismillah” deyilmədən] kəsilmiş heyvanlar istisna olmaqla, hər hansı bir kəsin yediyi yeməklər içərisində haram buyurulan bir şey görmürəm. Bununla yanaşı, hər kəs məcburiyyət qarşısında qalsa, həddi aşmadan, zəruri ehtiyacını ödəyəcək qədər [bunlardan yesə, Allah ona cəza verməz]» Çünki sənin Rəbbin, həqiqətən bağışlayan və rəhm edəndir!» (6/145).***

Nəsx nəzəriyyəsi tərəfdarları deyirlər: Ayə nazil olmaqla bə᾽zi heyvanların ətinin yeyilməsi haram, başqalarının yeyilməsi isə halal edilmişdir. Lakin sonralar Peyğəmbərin (s) buyruqları ilə digər yeyim şeyləri də haram edilərək ayə nəsx olunmuşdur.

***Cavab:***

Digər ayələr kimi, bu ayənin də verdiyi hökm sabitdir və nəsx olunmamışdır. Çünki ayə qanunvericilik xarakteri daşımır və

belə bir halda təbii ki, onun nəsx olunması da tamamilə əsassız olardı. Ayədə sadəcə olaraq İslam dinində əvvəllər haram olmayan şeylər (meytə, qan, donuz əti və kəsilərkən Allahın adı çəkilməyən heyvanlar) haqda xəbər verilir və bunun, sonralar digər yemək şeylərinin haram olmasına dair verilən yeni hökm ilə heç bir ziddiyyəti yoxdur. Çünki hər hansı bir mətləb barədə mə`lumat verən xəbər cümləsində nəsx heç bir mə`na kəsb etmir.

Ayədə haram olan şeylərin bir-bir adlarının çəkilməsi isə bir növ əlavə xarakteri daşıyır. Belə ki, müşriklər İslam dini zühur etməzdən, İslamın haram etmədiyi bə`zi şeyləri özlərinə haram etmişdilər. Ayə nazil olmaqla onların əqidə və adət-ən`ənələrini inkar və ləğv edir. Əvvəlki ayəyə diqqət yetirsək görəcəyik ki, qoyulan məhdudiyyət, həqiqi məhdudiyyətdir, yə`ni, ayə nazil olarkən yeyilməsi haram olan ətlər məhz ayədə göstərilən miqdarda müəyyənləşdirilmişdir və belə bir mə`nanın dərk olunması daha asandır. Çünki ayə İslamın zühur etdiyi ilk illərdə nazil olmuşdur və təbii ki, sonralar həzrət Məhəmmədin (s) 23 illik peyğəmbərliyi dövründə tədriclə yeni ayələr nazil olmuş və yeni-yeni qanun və qadağalar tə`yin olunmuşdur. Yasaq hökmü verildikdən sonra, başqa bir yasaq və qadağanın tə`yin olunması hər hansı bir hökmün nəsx olunmasına əsla dəlalət etmir. Dediklərimizdən belə bir nəticəyə gəlirik ki, əvvəla haqqında söhbət açdığımız ayə qanunverici deyil, xəbər xarakteri daşıyır və yeyilməsi haram olan ətlərin müəyyənləşdirilməsi ya həqiqidir və ya nisbi və hər iki halda ayənin nəsx olunması heç bir mə`na və məfhum kəsb etmir.

### *DÖYÜŞDƏN FƏRARİLİK AYƏSİNİN NƏSXİ*

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ إِذَا لَقِيتُمُ الَّذِينَ كَفَرُواْ زَحْفاً فَلاَ تُوَلُّوهُمُ الأَدْبَارَ وَمَن يُوَلِّهِمْ يَوْمَئِذٍ دُبُرَهُ إِلاَّ مُتَحَرِّفاً لِّقِتَالٍ أَوْ مُتَحَيِّزاً إِلَى فِئَةٍ فَقَدْ بَاء بِغَضَبٍ مِّنَ اللّهِ وَمَأْوَاهُ جَهَنَّمُ وَبِئْسَ الْمَصِيرُ

***«Ey iman gətirənlər! Kafirlər bir yerə toplaşdıqları vaxt onlarla rastlaşsanız, dönüb qaçmayın! [Düşməni aldatmaq məqsədilə yoldan özünü qaçan kimi göstərib] təkrar döyüş üçün bir tərəfə çəkilən və ya [kömək məqsədilə müsəlmanlardan ibarət] başqa bir dəstəyə qoşulanlar istisna edilməklə, kim belə bir gündə düşmənə arxa çevirib qaçarsa, sözsüz ki, Allahın qəzəbinə uğramış***

***olur. Onun məskəni Cəhənnəmdir. Ora nə pis dönüş yeridir!» (8/15-16).***

Bəʾzi müfəssirlərin fikrincə bu ayə həmən surənin 66-cı ayəsi ilə nəsx olunmuşdur. Orada deyilir:

الآنَ خَفَّفَ اللّهُ عَنكُمْ وَعَلِمَ أَنَّ فِيكُمْ ضَعْفًا فَإِن يَكُن مِّنكُم مِّئَةٌ صَابِرَةٌ يَغْلِبُواْ مِئَتَيْنِ وَإِن يَكُن مِّنكُمْ أَلْفٌ يَغْلِبُواْ أَلْفَيْنِ بِإِذْنِ اللّهِ وَاللّهُ مَعَ الصَّابِرِينَ

***«[Ey möʾminlər!] İndi Allah yükünüzü yüngülləşdirdi. Çünki O, sizdə bir zəiflik olduğunu bilirdi. Artıq aranızda yüz səbirli kişi olsa, iki yüz nəfərə [kafirə], min kişi olsa, iki min nəfərə Allahın izni ilə qələbə çalar. Allah səbir edənlərlədir!» (8/66).***

Nəsx nəzəriyyəsi tərəfdarları deyirlər: Ayədən belə bir qənaətə gəlmək olur ki, əgər müsəlmanların sayı kafirlərin yarısından az olarsa, döyüş meydanını tərk edə bilərlər. Göründüyü kimi birinci ayədə döyüş meydanından qaçmaq qətiyyətlə qadağan olunur, növbəti (66-cı) ayə nazil olmaqla hökm nəsx olunur və müsəlmanlara bir növ güzəştə gedilərək döyüş meydanını tərk etməyə icazə verilir.

Əta və İbni Reyhan ayənin nəsx olunmasına dair irəli sürülmüş bu nəzəriyyəyə istinad etmişlər.

***Cavab:***

Gətirilən dəlil tamamilə əsassızdır və ayənin nəsx olunması ilə heç bir əlaqəsi yoxdur. Belə ki, döyüş meydanını tərk etmək yalnız o zaman haram ola bilər ki, müsəlmanların sayı kafirlərin yarısından az olmasın. Onların sayı kafirlərin yarısından az olduqda isə, döyüş meydanını tərk etmələrinin qətiyyətlə haram olduğunu deyə bilmərik.

Bu səbəbdən də ayələrin birinin digərini nəsx etməsi üçün heç bir ziddiyyət yoxdur. Diqqət yetirsək görərik ki, bu iki ayə arasında sıx bağlılıq vardır və bu bağlılıq müharibə üçün böyük əhəmiyyət kəsb edən təbii qanunun əsasını qoyur. O da bundan ibarətdir ki, müsəlmanlar qələbəyə yaxın olduqlarını gördükdə son damla qanlarınadək mübarizə aparmalı və döyüş meydanını tərk etməməlidirlər. Kifayət qədər qüdrətə malik olmadıqda və məğlubiyyətin qəti olduğunu gördükdə isə, döyüş meydanını tərk etməyə bilərlər.

Lakin Əmr ibni Ömər, Əbu Hüreyrə, Əbu Səid, Əbu Nəzrə, Nafe Mövla ibni Ömər, Həsən Bəsri, Əkrəmə, Qətadə, Zeyd ibni Əbi Həbib və Zəhhakdan nəql olmuş rəvayətdə döyüş meydanının tərk olunmasına dair verilmiş yasaq hökmünün hamıya [və bütün dövrlərə] şamil olmadığı göstərilir. Onların fikrincə, bu verilən yasaq hökmü «Bədr» döyüşündə iştirak edən döyüşçülərə aid olmuş və onlar ayə nazil olmaqla döyüşə sövq edilmişlər.

Əhli-sünnənin məşhur alimlərindən olan Əbu Hənifə də ayənin nəsx olunmasına dair irəli sürülmüş bu ayəyə istinad etmişdir.

***Müəllif:***

İrəli sürülmüş bu nəzəriyyə də digər ayələrin nəsx olunmasına dair irəli sürülmüş nəzəriyyələr kimi bir neçə səbəbdən batil və tamamilə əsassızdır.

1. Ayə Bədr döyüşündən sonra nazil olmuşdur. Demək bu hökmü Bədr döyüşçülərinə aid etmək tamamilə əsassız olardı.

2. Hər hansı bir məsələyə dair verilən hökm müəyyən şəxslərə deyil, ümumi olaraq hamıya şamil olunur. Bu səbəbdən də fərariliyə dair verilən yasaq hökmü yalnız Bədr döyüşünə deyil, bütün dövrlərə şamildir.

Demək haqqında söhbət açdığımız ayədən üç nəzəriyyə əldə etmək olar:

1. Nəsx nəzəriyyəsi;

2. Ayənin Bədr döyüşünə aid olması;

3. Hər iki nəzəriyyənin batil və əsassız oldması.

Sonuncu nəzəriyyə bizim tərəfimizdən irəli sürülmüşdür. Bir qədər əvvəl qeyd etdik ki, ayənin məzmunu qəti məğlubiyyət istisna olmaqla, bütün döyüş meydanlarını tərk etməyə şamil olunur. Hökm indinin özündə də sabitdir və nəsx olunmamışdır. O ki, qaldı ikinci ayəyə, döyüş meydanını yalnız çıxılmaz vəziyyətdə və məğlubiyyət qəti olduqda tərk etməyə icazə verir.

Şiə və əhli-sünnə alimlərinin bir çoxu ayənin nəsx olunmadığı haqda məhz bu fikirdədirlər və hər iki mənbələrdə nəql olmuş rəvayətlərdə bu nəzəriyyə bir daha sübuta yetirilir.

Belə ki, Koleyni, İmam Sadiq (ə)-dan nəql etdiyi rəvayətdə deyir: Böyük günahlar yeddi qismə bölünür: Mö᾽min bir şəxsi bilərəkdən öldürmək, ismətli qadını zinakarlıqda ittiham etmək, döyüş meydanını tərk etmək, yetimin malını yemək [mənimsəmək], hicrət etdikdən sonra yenidən cahiliyyət dövrünün adət-ən᾽ənələrinə qayıtmaq və Allahın Qur᾽anda əzab və᾽dəsi verdiyi [yasaq etdiyi] hər bir şeylərə əməl etmək.

Əbu Hüreyrə, Peyğəmbərdən (s) nəql etdiyi rəvayətdə deyir: Sizi fəlakətə sürükləyəcək yeddi günahdan uzaq olun. Peyğəmbərdən (s) onların hansı günahlar olduğunu soruşduqda buyurdu: Allaha şərik qoşmaq, sehr [cadugərlik] etmək, haqsız olaraq qan tökmək, yetimin malını yemək [mənimsəmək], döyüş meydanını tərk etmək və ismətli bir qadını zinakarlıqda ittiham etmək.

***SÜLH AYƏSİNİN NƏSXİ***

وَإِن جَنَحُواْ لِلسَّلْمِ فَاجْنَحْ لَهَا

***«Əgər onlar sülhə [barışığa] meyl etsələr, sən də sülhə meyl et.» (8/61).***

Müfəssirlərin bə᾽ziləri, o cümlədən İbni Abbas, Mucahid, Zeyd ibni Əsləm, Əta, Əkrəmə, Həsən Bəsri və Qətadə ayə barədə öz fikirlərini belə bəyan edirlər: ...Ayə «Səyf» ayəsi ilə nəsx olunmuşdur. Çünki yuxarıda qeyd olunan ayə müsəlmanları sülh və sazişə də᾽vət edir. Sərf ayəsində isə heç bir güzəşt olunmadan müşriklərə qarşı cihad hökmü verilir.

***Cavab:***

Ayənin nəsx olunmadığına dair iki əsaslı dəlilə istinad edə bilərik.

1. Cihad hökmünü verən “Səyf” ayəsi yalnız müşriklərə şamil olunur. Belə ki, Peyğəmbər (s) hicrətin 10-cu ilində kitab əhlindən olan Nəcran müşrikləri ilə sülh sazişini imzalamışdır. Həmən surədə olan “Səyf” ayəsi isə Nəcran müşrikləri ilə imzalanan sülh sazişindən bir il əvvəl, yə᾽ni, hicrətin 9-cu ilində nazil olmuşdur və təbii ki, əgər “Səyf” ayəsi kitab əhlindən olan Nəcran məsihilərinə də şamil olsaydı, Peyğəmbər (s) onlarla sülh sazişini imzalamazdı. Demək sülh ayəsi hamıya cihad hökmünü

verən “Səyf” ayəsi ilə müşriklərə şamil olunur. Bir sözlə, «Səyf» ayəsi bir növ istisna xarakteri daşıyır. Hökmün istisna xarakteri daşıması isə ayənin nəsx olunmasına əsla dəlalət etmir.

2. Müşriklərlə müharibənin vacibliyi və sülh sazişinin bağlanılmasının ən başlıca şərti müsəlmanların kifayət qədər qüdrətə malik olması və onların qələbəyə yaxınlaşmasıdır. Əks təqdirdə, kafirlərlə sülh sazişinin bağlanılmasının heç bir nöqsanı yoxdur. Belə ki, Peyğəmbər (s) Hüdeybiyyə döyüşündə bu qanundan istifadə edərək Qureyş qəbiləsi ilə sülh sazişini imzalayır.

Qeyd etdiklərimizdən belə mə՚lum olur ki, «sülh ayəsi» «Səyf» ayəsi ilə nəsx olunmamışdır. Lakin sülh sazişi – müsəlmanlar kifayət qədər qüdrətə malik olmadıqda – imzalanmalı, döyüş isə onların düşməndən üstün olduqları vaxt aparılmalıdır.

Məhəmməd surəsinin 35-ci ayəsində bu haqda deyilir:

فَلَا تَهِنُوا وَتَدْعُوا إِلَى السَّلْمِ وَأَنتُمُ الْأَعْلَوْنَ وَاللَّهُ مَعَكُمْ وَلَن يَتِرَكُمْ أَعْمَالَكُمْ

***«Buna görə də [cihadda] zəiflik göstərməyin və [kafirlərə] üstün [qalib] gəldiyiniz zaman [onları] sülhə də՚vət etməyin. Allah sizinlədir. O sizin əməllərinizi boş [mükafatsız] qoymaz! (41/35).***

Göründüyü kimi, ayədə müsəlmanların üstünlüyünə və kifayət qədər qüdrətə malik olduqda sülh sazişinə razı olmamalarına işarə olunur.

### *DÖYÜŞ ZAMANİ [DÜŞMƏNƏ QARŞI] MÜQAVİMƏT GÖSTƏRMƏK AYƏSİNİN NƏSXİ*

يَا أَيُّهَا النَّبِيُّ حَرِّضِ الْمُؤْمِنِينَ عَلَى الْقِتَالِ إِن يَكُن مِّنكُمْ عِشْرُونَ صَابِرُونَ يَغْلِبُواْ مِئَتَيْنِ وَإِن يَكُن مِّنكُم مِّئَةٌ يَغْلِبُواْ أَلْفًا مِّنَ الَّذِينَ كَفَرُواْ بِأَنَّهُمْ قَوْمٌ لاَّ يَفْقَهُونَ الآنَ خَفَّفَ اللّهُ عَنكُمْ وَعَلِمَ أَنَّ فِيكُمْ ضَعْفًا فَإِن يَكُن مِّنكُم مِّئَةٌ صَابِرَةٌ يَغْلِبُواْ مِئَتَيْنِ وَإِن يَكُن مِّنكُمْ أَلْفٌ يَغْلِبُواْ أَلْفَيْنِ بِإِذْنِ اللّهِ وَاللّهُ مَعَ الصَّابِرِينَ

***«[Ya Peyğəmbər!] Mö՚minləri döyüşə həvəsləndir [təşviq et]. İçərinizdə iyirmi səbirli kişi olsa, iki yüz kafirə, yüz səbirli kişi olsa, min kafirə qalib gələr. Çünki onlar anlamayan bir tayfadır. [Ey mö՚minlər!] İndi Allah yükünüzü yüngülləşdirdi. Çünki O sizdə bir zəiflik olduğunu bilirdi. Artıq aranızda yüz səbirli kişi***

***olsa, iki yüz nəfərə [kafirə], min kişi olsa iki min nəfərə – Allahın izni ilə – qələbə çalar. Allah səbir edənlərlədir.» (8/65-66).***

Nəsx nəzəriyyəsinin tərəfdarları deyirlər:

Birinci (65-cı) ayə növbəti (66-cı) ayə ilə nəsx olunmuşdur. Belə ki, İslam zühur etdiyi ilk illərdə kafirlərin sayı müsəlmanlardan on dəfə çox olsa da, müsəlmanlara [vacib olaraq] cihad hökmü verilmişdir. Sonralar isə müsəlmanlara güzəşt olunaraq müharibə zəruri olduğu şəraitdə və sayca iki dəfə az olduqda cihad əmri verilir. Göründüyü kimi yuxarıda qeyd olunan ayədə yüz nəfərin, iki yüz və min nəfərin iki min nəfərə qarşı döyüşərək zəfər çalacaqları haqda xəbər verilir.

***Cavab:***

Deyə bilərik ki, bu ayə də digər ayələr kimi nəsx olunmadan hökmü sabit olaraq qalmaqdadır. Çünki ayənin nəsx olunması üçün iki əsas şərt lazımdır:

1. Ayələrin fasilə ilə nazil olunmasını sübuta yetirmək;

2. İkinci ayənin, birinci ayəyə əməl olunduqdan sonra nazil olduğunu sübuta yetirmək. Çünki hökm icra olunmazdan əvvəl nəsx olunarsa birinci verilən hökm ləğv və öz qüvvəsini itirmiş olur.

Lakin nəsx nəzəriyyəsi tərəfdarları yalnız vahid xəbərə istinad edərək bu iki şərti sübuta yetirə bilmirlər. Və biz vahid xəbərlə Qur᾽an ayəsinin nəsx olunmadığının sübuta yetirilmədiyini dəfələrlə qeyd etmişik. Bunu da qeyd etməliyik ki, hər iki ayənin məzmunu, onların fasiləsiz olaraq eyni zamanda nazil olmasına dəlalət edir. Bu səbəbdən də hər iki ayənin hökmü sabit və dəyişilməzdir. İkinci ayənin verdiyi hökm, yə᾽ni, yüz nəfər müsəlmanın iki yüz nəfərlik düşmən ordusu müqabilində mübarizə aparması – qələbəyə ehtimal verildikdə – vacib və tə᾽xirəsalınmazdır. Lakin birinci ayənin verdiyi hökm isə, yə᾽ni, məsələn iyirmi nəfər müsəlmanın [on dəfə çox olan] iki yüz nəfərlik düşmən ordusuna qarşı mübarizə aparması vacib deyil, müstəhəb hökmdür.

Belə bir halda müstəhəb hökmün başqa bir vacib hökm ilə nəsx olunmasına dair yeni nəzər irəli sürmək nə dərəcədə düzgün ola bilər?

Nəsx nəzəriyyəsi tərəfdarları irəli sürdükləri nəzəriyyəni sübuta yetirmək üçün deyirlər: İslam zühur etdiyi ilk illərdə İslam mücahidləri sonrakı dövrlərdən daha dözümlü və daha cəsur olmuşlar.

Müsəlmanların sonrakı dövrlərdə döyüş meydanlarında göstərdikləri heyrətedici fədakarlıqları nəzərə alaraq deyə bilərik ki, irəli sürülmüş belə bir fərziyyə məntiqdən uzaq və tamamilə əsassızdır. Bütün bunları nəzərə alaraq müsəlmanların kifayət qədər qüdrətə nail olduqdan sonra düşmənin qarşısında süstlük göstərməsini əsaslı hesab etmək olarmı?!

Ayənin zahiri mə՚nasından belə qənaətə gəlmək olur ki, müşriklərin sayının müsəlmanlardan on dəfə çox olmasına baxmayaraq, Allah-taala onları mübarizə aparmağa də՚vət edir və nəticədə qələbə çalacaqlarına və՚də verir.

Lakin Allah-taala müsəlmanların zəif və özlərindən sayca on dəfə çox olan düşmən müqabilində müqavimət göstərə bilməyəcəklərindən agah olduğu üçün belə bir hökmü onlara vermir. Onlara mübarizə aparmağa və müqavimət göstərməyə icazə verir və eyni zamanda düşmən sayca onlardan on dəfə çox olduqda mübarizəni dayandırmağa da izn verir.

Allah-taala, müsəlmanlara, düşmən sayca on dəfə onlardan çox olsa belə, layiqincə müqavimət göstərəcəkləri təqdirdə zəfər çalacaqlarını və՚də verir. Lakin eyni zamanda onlara güzəşt də edir. Belə ki, düşmənə qarşı müqavimət göstərməyin vacib deyil, olduqca xeyirxah iş olduğu bildirilmiş və onlara müqavimətin yalnız düşmən onlardan iki dəfə çox olduqda zəruri olduğunu agah etmişdir. Belə olduqda müsəlmanlar qələbəyə nail olacaqlar. Çünki kafirlərin nə yaradılışa, nə də axirət dünyasına e՚tiqadları vardır. Onlar çətinliklərə qarşı müqavimət göstərməyə qadir olmaz, həyatın ağrı-acısına sinə gərə bilməzlər. Bütün çətinliklərin həlli yolunu tapan və ümidini bir an da olsun qırmayan, yalnız Allaha sidq ürəklə iman gətirən mö՚minlər isə qəlblərindəki iman

nuru ilə küfrə qarşı qiyam edərək haqq sözünü bəyan edərlər. Çünki onlar istər zəfər çalsınlar, istərsə də zahirdə məğlub olsunlar, özlərini qalib hesab edirlər.

Nisa surəsinin 104-cü ayəsində bu haqda deyilir:

وَلاَ تَهِنُواْ فِي ابْتِغَاء الْقَوْمِ إِن تَكُونُواْ تَأْلَمُونَ فَإِنَّهُمْ يَأْلَمُونَ كَمَا تَأْلَمونَ وَتَرْجُونَ مِنَ اللّهِ مَا لاَ يَرْجُونَ وَكَانَ اللّهُ عَلِيمًا حَكِيمًا

***«[Ey müsəlmanlar!] Kafirləri tə᾽qib etməkdə zəiflik göstərməyin! Əgər siz [yaralarınızdan və səfərin çətinliklərindən] əziyyət çəkirsinizsə, onlar da sizin kimi əziyyət çəkirlər. Halbuki, siz onların ummadıqlarını Allahdan umursunuz. Allah hər şeyi bilən və hikmət sahibidir!»***

***CİHAD AYƏSİNİN NƏSXİ***

إِلاَّ تَنفِرُواْ يُعَذِّبْكُمْ عَذَابًا أَلِيمًا

***«Əgər [sizə əmr olunan bu döyüşə] çıxmasanız Allah sizə şiddətli bir əzab verər». (9/39).***

İbni Abbas, Həsən Bəsri və Əkrəmədən nəql olunmuş rəvayətdə ayənin həmən surənin 122-ci ayəsi ilə nəsx olunduğu göstərilir.

Orada deyilir:

وَمَا كَانَ الْمُؤْمِنُونَ لِيَنفِرُواْ كَآفَّةً

***«[Ehtiyac olmadıqda] mö᾽minlərin hamısı birdən [cihada, döyüşə] çıxmamalıdır.» (9/122).***

Nəsx nəzəriyyəsi tərəfdarlarının irəli sürdükləri nəzəriyyədə deyilir: Tövbə surəsinin 39-cu ayəsində bütün müsəlmanlara döyüşə getmək əmr olunur. Lakin həmən surənin 122-ci ayəsində hökm artıq ümumi xarakter daşımır.

***Cavab:***

Ayənin nəsx olunduğunu yalnız o zaman qəbul edə bilərik ki, birinci ayədə döyüşə getməyin vacibliyi bütün müsəlmanlara şamil olsun. Belə olduqda hökm ikinci ayə ilə nəsx və yalnız müəyyən şəxslərə aid ola bilər.

Lakin əvvəlki ayələri nəzərdən keçirməklə belə qənaətə gəlmək olur ki, döyüşə getmək bütün müsəlmanlara deyil, yalnız

o şəxslərə vacib olmuşdur ki, onlar özləri bunu Peyğəmbərdən (s) dəfələrlə xahiş etmişlər. Əvvəlki ayələrdə deyilir:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ مَا لَكُمْ إِذَا قِيلَ لَكُمُ انفِرُواْ فِي سَبِيلِ اللّهِ اثَّاقَلْتُمْ إِلَى الأَرْضِ أَرَضِيتُم بِالْحَيَاةِ الدُّنْيَا مِنَ الآخِرَةِ فَمَا مَتَاعُ الْحَيَاةِ الدُّنْيَا فِي الآخِرَةِ إِلاَّ قَلِيلٌ إِلاَّ تَنفِرُواْ يُعَذِّبْكُمْ عَذَابًا أَلِيمًا وَيَسْتَبْدِلْ قَوْمًا غَيْرَكُمْ وَلاَ تَضُرُّوهُ شَيْئًا وَاللّهُ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ

***«Ey iman gətirənlər! Sizə nə oldu ki: «Allah yolunda döyüşə çıxın!» – deyildikdə yerə yapışıb qaldınız. Yoxsa axirətdən vaz keçib dünya həyatına razı oldunuz? Halbuki, dünya malı axirət yanında [axirətlə müqayisədə] yalnız cüz᾽i bir şeydir! Əgər [sizə əmr olunan bu döyüşə] çıxmasanız Allah sizə şiddətli bir əzab verər və sizi başqa bir tayfa ilə əvəz edər [yerinizə başqa bir tayfa gətirər]. Siz isə [döyüşə çıxmamağınızla Allaha və Peyğəmbərinə] heç bir zərər verə bilməzsiniz. Allah hər şeyə qadirdir!» (9/38-39).***

A*yənin ümumi məzmunu:*

«Cihad hökmü verilən və döyüş meydanına getməyə əmr olunan, lakin buna tabe olmayan şəxslər əzaba layiqdirlər.» Belə bir mə᾽nanı nəzərə alaraq deyə bilərik ki, cihadın bütün müsəlmanlara vacib olması ilə heç bir bağlılığı yoxdur ki, başqa bir ayə ilə cihadın vacibliyini aradan götürərək onu nəsx etmiş olsun.

### *AYƏNİN NƏSX OLUNMASINA DAİR İRƏLİ SÜRÜLMÜŞ BAŞQA BİR FƏRZİYYƏ*

Bu ayə ilə cihad ayəsinin nəsx olunduğuna dair irəli sürülmüş başqa bir nəzəriyyəni tamamilə əsassız bilmək olar. Bunlar Tövbə surəsinin 41-ci ayəsinə istinad edərək deyirlər:

انْفِرُواْ خِفَافًا وَثِقَالاً وَجَاهِدُواْ بِأَمْوَالِكُمْ وَأَنفُسِكُمْ فِي سَبِيلِ اللّهِ

***«[Ey mö᾽minlər!] Ağırlı-yüngüllü [qocalı-cavanlı, atlı-piyada, güclü-gücsüz, dövlətli-kasıb] hamınız cihada çıxıb malınız və canınızla Allah yolunda vuruşun.» (9/111).***

Ayənin məzmunundan belə qənaətə gəlmək olur ki, müsəlmanlar hamılıqla döyüş meydanına doğru hərəkət etməli və Allah yolunda düşmənə qarşı mübarizə aparmalıdır və bu ayə cihadın hamıya deyil, yalnız müəyyən şəxslərə vacib olduğunu bəyan edən həmən surənin 122-ci ayəsi ilə nəsx olunmuşdur.

***Cavab:***

Əvvəlki ayədə qeyd etdiyimiz kimi, ayənin mə᾽na və məfhumu, nəsx olunmaq üçün ümumi xarakter daşımır və burada əmr olunan müəyyən şəxslər nəzərdə tutulur. Bütün bunlarla yanaşı bu mətləbə işarə etdik ki, ümumi bir hökmü müəyyən şəxslərə aid etmək nəsx deyil, ümumi hökm üçün bir növ istisnadır.

O ki, qaldı 122-ci ayəyə (və ma kanəl-mu᾽minunə – mö᾽minlər döyüşə birdən çıxmamalıdılar), qətiyyətlə deyə bilərik ki, bu iki ayəni nəinki nəsx etməmiş, əksinə açıq-aşkar olaraq onların nəsx olunmadığına dəlalət edir. Çünki ayədə birbaşa göstərilir ki, döyüş meydanına getmək əvvəldən də ümumi xarakter daşımamışdır ki, bütün müsəlmanlara aid və sonralar çarəsizlik üzündən nəsx olunmuş olsun. Döyüş meydanına getmək elə ilk günlərdən yalnız müəyyən şəxslərə, xüsusilə də bunu Peyğəmbərdən (s) tələb edən və döyüş əzmində olan fədailərə aid olmuşdur.

***İZN AYƏSİNİN NƏSXİ***

عَفَا اللّهُ عَنكَ لِمَ أَذِنتَ لَهُمْ حَتَّى يَتَبَيَّنَ لَكَ الَّذِينَ صَدَقُواْ وَتَعْلَمَ الْكَاذِبِينَ لاَ يَسْتَأْذِنُكَ الَّذِينَ يُؤْمِنُونَ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ أَن يُجَاهِدُواْ بِأَمْوَالِهِمْ وَأَنفُسِهِمْ وَاللّهُ عَلِيمٌ بِالْمُتَّقِينَ إِنَّمَا يَسْتَأْذِنُكَ الَّذِينَ لاَ يُؤْمِنُونَ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ وَارْتَابَتْ قُلُوبُهُمْ فَهُمْ فِي رَيْبِهِمْ يَتَرَدَّدُونَ

***«Allah səni bağışlasın! Doğru danışanlar sənə bəlli olmadan, yalançıları tanımadan əvvəl nə üçün onlara [cihadda iştirak etməyə] izn verdin? Allaha və axirət gününə iman gətirənlər malları və canları ilə cihad etmək barəsində səndən izn istəməzlər [o saat cihada çıxarlar]. Allah müttəqiləri tanıyandır! Səndən [cihada çıxmaq üçün] izn istəyənlər ancaq Allaha və axirət gününə iman gətirməyənlər və ürəkləri şəkk-şübhəyə düşənlərdir. Onlar öz şübhələrində tərəddüd edib durarlar.» (9/43-45).***

İbni Abbas, Həsən Bəsri və Əkrəmədən nəql olmuş rəvayətdə deyilir: Bu ayə Nur surəsinin 62-ci ayəsi ilə nəsx olunmuşdur. Orada deyilir:

فَإِذَا اسْتَأْذَنُوكَ لِبَعْضِ شَأْنِهِمْ فَأْذَن لِّمَن شِئْتَ مِنْهُمْ

***«Əgər onlar bə᾽zi işlər üçün səndən izn istəsələr, onlardan özün istədiyinə [yanından getməyə] izn ver.» (24/62).***

***Cavab:***

Ayənin nəsx olunmasına dair irəli sürülmüş bu nəzəriyyəni tamamilə əsassız hesab etmək olar. Çünki ayənin məzmunundan mə᾽lum olur ki, döyüş meydanının tərk olunması üçün icazənin verilməməsi o zaman olmuşdur ki, kimin yalan, kimin də həqiqəti söylədiyi arasında fərq qoymaq olmurdu. Ayə nazil olmaqla əmrə tabe olmaq istəməyən və müxtəlif bəhanələrlə şəhərdə qalmaq üçün Peyğəmbərdən (s) icazə istəyən və beləliklə döyüşdə iştirak etməyən şəxslərin iç üzü açılır.

Allah-taala, Peyğəmbərə (s) kimin yalan, kimin də həqiqəti söylədiyi və kimin həqiqətən iman gətirdiyi, kimin də küfr etdiyi bəlli olmayınca heç bir kimsəyə icazə verməməyi əmr edir. Hər şey mə᾽lum olduqdan sonra Allah-taala bir tərəfdən mö᾽minlərə Peyğəmbərdən (s) icazə almaqla bə᾽zi çətinlikləri aradan qaldırmaq üçün müvəqqəti olaraq döyüşlərdə iştirak etməməyə izn verir. Digər tərəfdən də (Fə izəstə᾽zənukə libə᾽zi şə᾽nihim – əgər onlar bə᾽zi işlər üçün səndən üzr istəsələr) ayəsi ilə Peyğəmbərə (s) məsləhət gördüyü şəxslərə ciddi çətinliklərini aradan qaldırmaq üçün döyüşdə iştirak etməməyə icazə verməsini bbuyurur. Verilən izahla hər iki ayənin müəyyən mətləbə toxunduğu və birinin digərini nəsx etmədiyi artıq bəlli olur.

***MÜHARİBƏDƏN BOYUN QAÇİRMAQ HAQDA NAZİL OLMUŞ AYƏNİN NƏSXİ***

مَا كَانَ لِأَهْلِ الْمَدِينَةِ وَمَنْ حَوْلَهُم مِّنَ الأَعْرَابِ أَن يَتَخَلَّفُواْ عَن رَّسُولِ اللّهِ وَلاَ يَرْغَبُواْ بِأَنفُسِهِمْ عَن نَّفْسِهِ

***«Mədinəlilərə və onların ətrafında olan bədəvilərə [döyüşdə] Allahın peyğəmbərindən geri qalmaq, ondan [ona üz verən məşəqqətlərdən] özlərini kənara çəkmək [belə çətinliklərin özlərinə üz verməsini istəməmək, beləliklə də, özlərini Peyğəmbərdən üstün tutmaq] yaraşmaz.» (9/120).***

İbni Zeyddən nəql olmuş rəvayətdə deyilir:

Bu ayə də növbəti 122-ci ayə ilə nəsx olunmuşdur. Çünki 120-ci ayədə döyüşdən boyun qaçırmağın hamıya qadağan

olduğu, növbəti 122-ci ayədə isə hökmün ümumi xarakterinin nəsx olunaraq döyüşdə yalnız müəyyən şəxslərin iştirak edəcəyinə toxunulur.

***Müəllif:***

Nəsx nəzəriyyəsi tərəfdarlarının istinad etdikləri bu ayə 120-ci ayənin nəsx olunmasına deyil, hökmün nəsx olunmadığına dəlalət edir və biz hər iki ayəyə diqqət yetirdikdə belə bir qənaətə gəlirik ki, müsəlmanlar döyüş meydanında hamılılıqla deyil, yalnız kifayət edəcək miqdarda iştirak etməlidirlər.

Başqa sözlə desək, hər iki ayənin məzmunundan yalnız bir hökm əldə edə bilərik. O da bundan ibarətdir ki, cihad eyni deyil, kifayi-zəruri olan hökmdür. Yə᾽ni, birinci ayə hökmün zəruriliyini, ikinci ayə isə onun kifayi olduğunu bəyan edir. Lakin eyni zamanda bütün müsəlmanların zəruri olaraq hamısının döyüş meydanında iştirak etməsini (eyni-zəruri) tələb edir və bu zərurət birinci zərurətdən bir qədər fərqlidir. Bu səbəbdən də iki növ zərurət mövcuddur:

Kifayi və xarici amillər meydana gəldikdə; bə᾽zən də eyni-zərurət və onların hər ikisi öz yerində dəyişilməzdir və e᾽tibarlıdır.

***SƏBIR AYƏSİNİN NƏSXİ***

وَاتَّبِعْ مَا يُوحَى إِلَيْكَ وَاصْبِرْ حَتَّى يَحْكُمَ اللّهُ وَهُوَ خَيْرُ الْحَاكِمِينَ

***«Sənə nə vəhy gəlirsə, ona tabe ol. Allah [zəfər] hökmünü verənə qədər səbir et. O, hökm verənlərin ən yaxşısıdır.» (10/109).***

İbni Zeyddən nəql olmuş rəvayətdə deyilir: Bu ayə cihad hökmünü verən ayə ilə nəsx olunaraq öz qüvvəsini itirmişdir.

***Müəllif:***

Birinci ayənin nəsx olunduğunu batil edən dəlilləri biz bu ayənin də nəsx olunmadığına dair dəlil gətirə bilərik.

Təkrara yol verməyib yalnız bu mətləbə işarə etmək istəyirik ki, «Səbir» bu ayədə düşmənin inadkarlıqlarının müqabilində deyil, həyatın bütün mərhələlərinə aiddir. Başqa sözlə desək, “Səbir” ayədə siyasi deyil, əxlaqi mə᾽na daşıyır. Bunun da nəsx olunması qeyri-mümkündür.

***BAĞIŞLAMA VƏ KAFİRLƏRDƏN ÜZ DÖNDƏRMƏ AYƏSİNİN NƏSXİ***

وَإِنَّ السَّاعَةَ لآتِيَةٌ فَاصْفَحِ الصَّفْحَ الْجَمِيلَ

***«Sən müşriklərdən yaxşıca üz döndər və ya onları alicənablıqla bağışla.» (15/85).***

İbni Abbas, Səid və Qətadədən nəql olmuş rəvayətdə deyilir: Ayədə Peyğəmbərə (s) kafirləri bağışlamağa və əfv etməyə əmr olunur. "Səyf" ayəsində isə kafirə qarşı cihad hökmü verilməklə ayənin hökmü nəsx olunur.

***Müəllif:***

Əvvəlki ayələrdə olduğu kimi bu ayə haqqında da deyə bilərik ki, əfv və bağışlama burada məʾna daşımır. Belə ki, Peyğəmbər (s) səbir etməyə əmr olunduqda, müşriklərin inadkarlıqlarının və etdikləri pisliklərin müqabilində səbir etməsi nəzərdə tutulur. Hicr surəsinin 94 və 95-ci ayələri dediklərimizi bir daha sübuta yetirə bilər:

فَاصْدَعْ بِمَا تُؤْمَرُ وَأَعْرِضْ عَنِ الْمُشْرِكِينَ إِنَّا كَفَيْنَاكَ الْمُسْتَهْزِئِينَ

***«[Ya Məhəmməd!] Sənə əmr olunan Qurʾanı açıq-aşkar təbliğ et və müşriklərdən üz döndər! Şübhəsiz ki, istehza edənlərin [şərrindən] səni qorumağa Biz kifayət edərik.» (15/94-95).***

Göründüyü kimi, burada Peyğəmbər (s) müşriklərin istehzalarının müqabilində səbir etməyə əmr olunur. Belə bir məʾnanı nəzərə alaraq deyə bilərik ki, ayənin «Səyf» ayəsi ilə nəsx olunması üçün kafirlərə qarşı cihad ayəsi ilə heç bir bağlılıq yoxdur. Ayənin ümumi məzmunu bundan ibarətdir ki, Allah-taala öz Peyğəmbərini (s) İslam dininin təbliğinə sövq edir və bu yolda qarşılaşacağı çətinliklərə sinə gərməyi və müşriklərin ardı-arası kəsilməyən istehzalarının müqabilində dözümlü olmağı əmr edir.

Göründüyü kimi ayənin cihad hökmü ilə heç bir bağlılığı yoxdur.

Müsəlmanların belə bir mühüm işə cəlb olunmaları isə yalnız kifayət qədər qüdrətə malik olduqdan sonra baş vermişdir. Daha dəqiq desək, Peyğəmbər (s) beʾsətin ilk illərində cihad əmrini almadığı üçün müşriklərin qeyri-insani rəftarlarına göz yummalı

və onlarla yumşaq rəftar etməli idi. O, peyğəmbərliyinin həqqaniyyətini göstərdiyi mö`cüzələrlə sübuta yetirir və bu yolla insanları Allahın birliyinə də`vət edirdi. Çünki o zaman nə Peyğəmbər (s), nə də ona iman gətirmiş azsaylı müsəlmanlar müharibəyə lazım olan kifayət qədər qüdrətə malik deyildilər. Əgər belə bir şəraitdə müşriklərə qarşı mübarizəyə başlasaydılar, təbii ki, böyük itkilər verər və məğlubiyyətə uğrayardılar. Bir neçə il sonra müsəlmanların sayı artdıqdan və müharibəyə lazım olan döyüş alətləri kifayət qədər əldə olunduqdan sonra müsəlmanlara cihad hökmü verildi. Əvvəlki fəsillərdə qeyd etdik ki, şəriət hökmləri zəmanənin tələbatını ödəmək üçün tədriclə Peyğəmbərə (s) nazil olmuşdur və 23 il müddətində təkmilləşmişdir. Cihad hökmü də be`sətin ilk illərində müsəlmanlara verilmədiyi üçün bütün çətinliklərin müqabilində dözümlü olmağa və səbir etməyə tövsiyə olunurdu.

Demək hökmün nəsx ilə heç bir bağlılığı yoxdur.

### *ŞƏRABIN HALALLIĞİNA DAİR NAZİL OLMUŞ AYƏNİN NƏSXİ*

وَمِن ثَمَرَاتِ النَّخِيلِ وَالأَعْنَابِ تَتَّخِذُونَ مِنْهُ سَكَرًا وَرِزْقًا حَسَنًا

***«Siz xurma ağaclarının meyvəsindən və üzümlərdən şərab [yaxud sirkə] və gözəl ruzi [kişmiş, məvüz, bəhməz, quru xurma, və s.] düzəldirsiniz.» (16/67).***

Qətadə, Səid ibni Cubeyr, Şə`bi, Mucahid, İbrahim və Əbu Zərrindən nəql olmuş rəvayətdə bu ayənin şərabın haramlığına dair nazil olmuş ayə ilə nəsx olunduğu göstərilir.

***Cavab:***

Ayənin nəsx olunması iki mühüm mətləbin sübuta yetirilməsindən ibarətdir:

1. Ayədə (səkər) deyildikdə, məstedici şərab nəzərdə tutulsun. Lakin nəsx nəzəriyyəsi tərəfdarları bunu sübuta yetirməyə qadir deyildirlər. Çünki (səkər) kəlməsinin daşıdığı lüğəvi mə`nalardan biri də «sirkədir». Tanınmış təfsir alimlərindən olan Əli ibni İbrahim də «Səkər» kəlməsini məhz bu mə`nada təfsir etmişdir. Belə bir mə`naya əsasən, (rizqən həsənən

– ləziz yeməklər) deyildikdə, xurma və üzümdən hazırlanan şirə və müxtəlif yeyinti şeyləri nəzərdə tutulur.

2. Ayə şərabın halallığına dəlalət etmiş olsun. Halbuki, nəsx nəzəriyyəsi tərəfdarları bunu da sübuta yetirməyə qadir deyildirlər. Çünki ayə nəyinsə halal və ya haram olmasını və camaatın adət etdiyi hər hansısa bir şeyi deyil, müəyyən gerçəkliyi və təbii cərəyanı bəyan edir.

Biz ayənin təbii cərəyanı bəyan etdiyini bəşəriyyətin müxtəlif sənət və isteʾdadlara yiyələndiyini bəyan edən ayələr arasında olması ilə sübuta yetirə bilərik:

وَاللّهُ أَنزَلَ مِنَ الْسَّمَاء مَاء فَأَحْيَا بِهِ الأَرْضَ بَعْدَ مَوْتِهَا إِنَّ فِي ذَلِكَ لآيَةً لِّقَوْمٍ يَسْمَعُونَ وَإِنَّ لَكُمْ فِي الأَنْعَامِ لَعِبْرَةً نُّسْقِيكُم مِّمَّا فِي بُطُونِهِ مِن بَيْنِ فَرْثٍ وَدَمٍ لَّبَنًا خَالِصًا سَآئِغًا لِلشَّارِبِينَ وَمِن ثَمَرَاتِ النَّخِيلِ وَالأَعْنَابِ تَتَّخِذُونَ مِنْهُ سَكَرًا وَرِزْقًا حَسَنًا إِنَّ فِي ذَلِكَ لآيَةً لِّقَوْمٍ يَعْقِلُونَ وَأَوْحَى رَبُّكَ إِلَى النَّحْلِ أَنِ اتَّخِذِي مِنَ الْجِبَالِ بُيُوتًا وَمِنَ الشَّجَرِ وَمِمَّا يَعْرِشُونَ ثُمَّ كُلِي مِن كُلِّ الثَّمَرَاتِ فَاسْلُكِي سُبُلَ رَبِّكِ ذُلُلاً يَخْرُجُ مِن بُطُونِهَا شَرَابٌ مُّخْتَلِفٌ أَلْوَانُهُ فِيهِ شِفَاء لِلنَّاسِ إِنَّ فِي ذَلِكَ لآيَةً لِّقَوْمٍ يَتَفَكَّرُونَ

***«Allah göydən bir yağış endirər, onunla yer özünü öldükdən [quruduqdan] sonra dirildər. [Öyüd-nəsihətə] qulaq asanlar üçün bunda bir ibrət vardır. [Allah quru torpağa həyat verə bildiyi kimi, insanları da öləndən sonra diriltməyə qadirdir!] Şübhəsiz ki, heyvanlarda da sizin üçün bir ibrət vardır. Biz onların qarınlarındakı qanla ifrazat arasında olan təmiz südü sizə içirdirik. [Qanı və ifrazatın dadı, qoxusu və rəngi əsla südə qarışmaz. Əksinə, südə elə bir tam verər ki, o içiləndə xoş gələr]. Siz xurma ağaclarının meyvəsindən və üzümlərdən şərab [yaxud sirkə] və gözəl ruzi [kişmiş, mövüz, bəhməz, quru xurma və s.] düzəldirsiniz. Şübhəsiz ki, bunda da ağılla düşünənlər üçün bir ibrət vardır. Rəbbin bal arısına belə vəhy [təlqin] etdi: «Dağlarda, ağaclarda və insanların qurduğu yerlərdə [evlərin damında, üzümlüklərdə] özünə yuva tik: sonra bütün meyvələrdən ye və Rəbbinin sənə göstərdiyi yolla rahat və asanlıqla get!» O arıların qarınlarından insanlar üçün şəfa olan müxtəlif rəngli [ağ, sarı, qırmızı] bal çıxar. Şübəhsiz ki, bundan da düşünüb dərk edənlər üçün bir ibrət vardır!» (16/65-69).***

Allah-taala bu beş ayədə Öz qüdrət nişanələrindən, ölmüş torpağın yenidən yağışla dirilməsindən, yaradılmışların

heyrətedici xüsusiyyətlərindən, insanların dördayaqlı heyvanların qarınlarındakı qanla ifrazat arasında olan təmiz süddən bəhrələnmələrindən söz açır və xilqətin digər sirlərinə işarə edir.

Burada həmçinin xurma və üzümün müsbət xüsusiyyətləri, onlardan müxtəlif çeşiddə hazırlanan şirə və yeməklərdən, ilham alaraq dağlarda özünə yuva quran bal arılarının heyrətedici xüsusiyyətlərindən söhbət açılır.

Qeyd etdiklərimizdən belə mə᾽lum olur ki, ayələr heç də qanunvericilik xarakteri daşımır. Burada sadəcə olaraq Allahın birliyinə və Onun qüdrət nişanələrinə işarə olunur. Bunun isə şərabın haram olmasına dair nazil olmuş ayənin, şərabın halal olmasını nəsx etməklə heç bir əlaqəsi yoxdur.

«Səkər» deyildikdə məstedici içkilər nəzərdə tutulduğunu fərz etsək, belə ayə şərabın halallığına deyil, haram olduğuna dəlalət edəcəkdir. Çünki ayədə «şərab», «rizqən həsənən – gözəl ruzi»nin müqabilində işlənmişdir. Bu da bir daha sübut edir ki, şərab pak və halal ruzi deyildir.

Şeyx Səduq öz müəllimi Məhəmməd ibni Əsləmdən nəql etdiyi rəvayətdə deyir: İmam Sadiq (ə)-dan şərabın halal olub-olmaması haqda soruşuldu. İmam (ə) sualın cavabında buyurdu: ***«Peyğəmbər (s) buyurmuşdur: Allahın mənə haram etdiyi ilk şey bütpərəstlik və şərab olmuşdur.»***

Şeyx Səduq İmam Rza (ə)-dan nəql etdiyi başqa bir rəvayətdə deyir: «Allah-taala elə bir peyğəmbər göndərməmişdir ki, şərabı ona haram etməmiş olsun.»

E᾽caz fəslində qeyd etdik ki, şərab Tövratda da bəşəriyyətə haram olunmuşdur. Lakin bu bir həqiqətdir ki, İslam zühur etdiyi ilk illərdə şərab haram olmamış və bir müddət keçdikdən sonra şərabın haramlığına dair qəti hökm verilmişdir.

Belə bir qanunvericilik üsulu tək şərab hökmünə deyil, digər şəriət hökmlərinə də aiddir. Belə ki, bütün hökmlər əvvəlcədən müəyyənləşdirilmiş, zaman keçdikcə tədriclə e᾽lan edilmişdir. Sonradan haramlığına dair ayə nazil olmuş şərab hökmü də əvvəlcədən [yə᾽ni ayə nazil olmazdan əvvəl] haram olmuşdur.

***ZİNAKAR KİŞİ VƏ QADININ EVLƏNMƏSİNƏ DAİR NAZİL OLMUŞ AYƏNİN NƏSXİ***

الزَّانِي لَا يَنكِحُ إِلَّا زَانِيَةً أَوْ مُشْرِكَةً وَالزَّانِيَةُ لَا يَنكِحُهَا إِلَّا زَانٍ أَوْ مُشْرِكٌ وَحُرِّمَ ذَلِكَ عَلَى الْمُؤْمِنِينَ

***«Zinakar kişi ancaq zinakar, yaxud müşrik bir qadınla evlənə bilər. Zinakar qadın da yalnız zinakar, yaxud müşrik bir kişiyə ərə gedə bilər. Bu [belə bir evlənmə], mö᾿minlərə haram edilmişdir.» (24/3).***

Səid ibni Musəyb və alimlərin bir çoxu belə bir fikirdə olmuşlar ki, bu ayə həmən surənin 32-ci ayəsi ilə nəsx olunmuşdur.

Orada deyilir:

وَأَنكِحُوا الْأَيَامَى مِنكُمْ وَالصَّالِحِينَ مِنْ عِبَادِكُمْ وَإِمَائِكُمْ

***«[Ey mö᾿minlər!] Aranızda olan subay kişiləri və ərsiz qadınları, əməli-saleh [yaxud evlənməyə qabil] kölə və cariyələrinizi evləndirin.» (24/32).***

***Deyilir:***

Birinci ayədə müşrik və zinakar istisna olmaqla, zinakar qadınlarla evlənməyin yasaq olduğu, ikinci ayədə isə nikah hökmü əməli saleh olub-olmamasından asılı olmayaraq bütün subay şəxslərə ümumilikdə şamil olunur.

***Müəllif:***

Ayənin nəsx olunduğunu sübuta yetirmək üçün ilk növbədə «nikah» deyildikdə, evlənmək nəzərdə tutulduğunu sübuta yetirmək lazımdır. Lakin belə mə᾿nanı sübuta yetirmək üçün heç bir dəlil yoxdur. Və əgər «nikah» deyildikdə evlənmək nəzərdə tutularsa, müsəlman zinakar kişinin, müşrik [kafir] qadınla, həmçinin müşrik kişinin zinakar müsəlman qadınla evlənməsi də qanuni olacaqdır. Çünki ayədə zinakar kişinin yalnız zinakar və müşrik qadınla nikah edib evlənə biləcəyi göstərilir. Eyni qaydada zinakar qadın da yalnız zinakar və ya müşrik kişi ilə nikah edib evlənə bilər.

Halbuki, belə bir evlənmə İslam nöqteyi-nəzərindən qeyri-qanunidir və müsəlmanların adət-ən᾿ənələri ilə müvafiq deyildir.

Bu səbəbdən də deməliyik ki, ayədə «nikah» deyildikdə, istər qanuni olsun, istərsə də qeyri-qanuni, onun lüğəvi mə`nası, yə`ni, «cinsi yaxınlıq» nəzərdə tutulur.

«La yənkihu – evlənməyin», cümləsi də heç də qanunvericilik xarakteri daşımır. Burada sadəcə olaraq zinanın nə qədər qəbahətli iş olduğuna və insanların ondan çəkinmələrinə işarə olunur. Belə ki, zinakar kişi yalnız zinakar və kafir qadınla və zinakar qadın yalnız zinakar və kafir kişi ilə zina edər. Çünki mö`min və əməli-saleh şəxslər zinanı özlərinə haram edər və belə bir qəbahətli işə yol verməzlər.

### *GÜZƏŞT AYƏSİNİN NƏSXİ*

قُل لِّلَّذِينَ آمَنُوا يَغْفِرُوا لِلَّذِينَ لا يَرْجُون أَيَّامَ اللَّهِ

***«İman gətirən şəxslərə de ki, axirət gününə iman gətirməyənləri bağışlasınlar.» (45/111).***

Təfsir alimlərinin bə`zilərinin fikrincə bu ayə «Səyf» və cihad hökmü ilə nəsx olunmuşdur. Bu haqda deyilir: Ayə Məkkədə Ömər ibni Xəttab barəsində nazil olmuşdur. Belə ki, müşriklərdən biri Öməri söyərək təhqir edir və Ömər də onu cəzalandırmaq istəyir. Ayə nazil olmaqla Ömər özünu ələ alır və sonra Tövbə surəsinin 5-ci ayəsi ilə bu ayə nəsx olunur:

فَاقْتُلُواْ الْمُشْرِكِينَ حَيْثُ وَجَدتُّمُوهُمْ

***«Müşrikləri harda görsəniz öldürün.» (19/5).***

Nəsx nəzəriyyəsi tərəfdarları ayənin nəsx olunmasına dair bu cərəyanla yanaşı Əli ibni Əhmədin Məhəmməd Hişamdan, o da Asim ibni Suleymandan, o da İbni Cubeyrdən, o da Zəhhakdan və o da İbni Abbasdan nəql etdiyi rəvayətə istinad etmişlər.

***Müəllif:***

Nəsx nəzəriyyəsi tərəfdarlarının istinad etdikləri bu rəvayət olduqca zəif və əsassızdır. Rəvayətin bütün zəif xüsusiyyətlərinə göz yumsaq da, onun Asim ibni Suleyman tərəfindən nəql olunması rəvayətin əsassız olmasına kifayət edər. Çünki o, yalan və iftiralarla dolu olan bir çox hədis və rəvayət nəql etmişdir.

1. İbni Udey onun barəsində deyir: O yalançı və hədis iftiraçısı olmuşdur. Onun nəql etdiyi bütün hədis və rəvayətlər istər sənəd, istərsə də mətn baxımından tamamilə e`tibarsızdır.

Fəlas deyir: Onun kimi hədis uyduran ikinci bir şəxs görmədim. Bu sahədə böyük məharəti var idi.

Əbu Hatəm və Nəsai deyir: Asimin söylədikləri tamamilə e҆tibarsızdır.

Dar Qutbi deyir: Nəql etdiyi rəvayətlər zəif və əsassızdır.

Əbu Həbban deyir: Onun nəql etdiyi rəvayətləri yalnız hansısa bir şəxsdə təəccüb doğurmaq üçün nəql etmək olar.

Əbu Davud Təyalisi deyir: Yalançı olmuşdur.

Əzdi: Nəql etdiyi rəvayətlər əsassız və e҆tibarsız olardı.[1]

Onun nəql etdiyi rəvayətləri bir neçə səbəbdən əsassız hesab edə bilərik:

1. Mə҆lum olduğu kimi, müsəlmanlar hicrətdən əvvəl Məkkədə yaşayır və azlıq təşkil etdikləri [eyni zamanda zəif olduqları] üçün müşriklərlə sərt rəftar edə bilməzdilər.

2. Ömər heç də döyüşlərdə şücaət göstərən qabaqcıl mücahidlərdən deyildi. İradəsi zəif olan bu şəxsin elə bir ağır şəraitdə müşriklərə qarşı sərt davranaraq onları cəzalandırması və Ömərin özünü ələ alması üçün belə bir ayənin nazil olması nə dərəcədə düzgün ola bilər?

Halbuki, ayədəki «Ğufran – güzəşt etmək, bağışlamaq» kəlməsi qüdrət və intiqam almağa dəlalət edir. Lakin qeyd etdiyimiz kimi, hicrətdən əvvəl Ömərin müşriklərdən intiqam alması qeyri-mümkün idi. Çünki əgər Ömər onu təhqir edən şəxsi cəzalandırmaq istəsəydi, o da müqavimət göstərəcək və artıq güzəşt etməyə fürsət qalmayacaqdı.

Dediklərimizdən belə bir qənaətə gəlmək olur ki, ayənin verdiyi hökm nəsx olmamışdır və o, yalnız Ömərə deyil, bütün müsəlmanlara ümumilikdə şamil olunur. Belə ki, onlar müşriklərin əzab və əziyyətinə səbir etməli və bacardıqca güzəşt etməyi bacarmalıdırlar. Casiyə surəsinin 14-15-ci ayələri dediklərimizi bir daha sübuta yetirir.

لِيَجْزِيَ قَوْمًا بِما كَانُوا يَكْسِبُونَ مَنْ عَمِلَ صَالِحًا فَلِنَفْسِهِ وَمَنْ أَسَاء فَعَلَيْهَا ثُمَّ إِلَى رَبِّكُمْ تُرْجَعُونَ

***«[Ya Peyğəmbər!] İman gətirənlərə de ki, Allah etdiyi əməllərə görə hər hansı bir qövmün cəzasını versin deyə – Allahın***

---

[1] Lisanul-Mizan, 3-cü cild, 218-219-cu səh.

***əzabından [əzab günlərindən] qorxmayanları bağışlasınlar! Kim yaxşı bir iş görsə, xeyri özünə, kim də bir pislik etsə, zərəri özünə olar.»***

Ayənin zahiri məʾnası bundan ibarətdir ki, günahkarlar istər kafirlərdən olsun, istərs kitab əhlindən, istərsə də müsəlmanlardan, axirət əzab və sorğu-sualına iman gətirməyəcəkləri təqdirdə Allah tərəfindən layiqincə cəzalandırılacaqlar.

Hansı təbəqədən olursa-olsun, zülmkarların zülmünün və təcavüzkarların cinayətlərini unutmayan Allah onların cəzalandırılmasını öz üzərinə götürmüşdür.

Belə bir halda Allaha iman gətirmiş bir şəxs intiqam almaq üçün başqalarını qabaqlamağa çalışmamalıdır. Lakin diqqət yetirmək lazımdır ki, bu, əxlaqi və ictimai məsələyə aid olan bir hökmdür. Və istər hökmün qanunvericiliyi "Səyf" ayəsi nazil olmazdan əvvəl verilmiş olsun, istərsə də sonra, İslama dəʾvət və ya cihad hökmü ilə heç bir ziddiyyəti yoxdur.

### *DÖYÜŞDƏ ƏSİR GÖTÜRÜLƏNLƏR HAQDA NAZİL OLMUŞ AYƏNİN NƏSXİ*

فَإِذا لَقِيتُمُ الَّذِينَ كَفَرُوا فَضَرْبَ الرِّقَابِ حَتَّى إِذَا أَثْخَنتُمُوهُمْ فَشُدُّوا الْوَثَاقَ فَإِمَّا مَنًّا بَعْدُ وَإِمَّا فِدَاء

***«[Ey möʾminlər!] Kafirlərlə [döyüş meydanında] qarşılaşdığınız zaman boyunlarını vurun. Nəhayət onları məğlub etdikdə [əsir alıb, qaçmasınlar deyə əl-ayaqlarını] iplə möhkəm bağlayın. Sonra da müharibə bitdikdə, onları ya [boyunlarına minnət qoyub] pulsuz və ya fidyə müqabilində azad edin. (47/4).***

Müfəssirlərin bəʾziləri hökmün "Səyf" ayəsi ilə nəsx olunduğunu qeyd etmişlər. Başqaları isə əksinə olaraq, bu ayənin "Səyf" ayəsini nəsx etdiyini qeyd etmişlər.

***Müəllif:***

Bu bir həqiqətdir ki, nə "Səyf" ayəsi bu ayəni, nə də bu ayə "Səyf" ayəsini nəsx etmişdir.

Bu barədə daha dəqiq nəzər irəli sürmək üçün müharibə şəraitində müsəlmanların kafirlərlə necə rəftar etmələrinə diqqət yetirməliyik.

***DÖYÜŞDƏ İŞTİRAK EDƏN KAFİRLƏRİN HÖKMÜ***

Müsəlmanlara qarşı mübarizə aparan kafirlərə «döyüş və müharibə kafirləri» (kafiri-hərbi) deyilir. Şiə alimləri bir neçə hal istisna olmaqla, onların qətlini vacib hesab edirlər:

1. Əgər döyüşdə iştirak edən kafirlər — istər döyüş zamanı olsun, istərsə döyüşdən sonra —İslamı qəbul edərlərsə, qətl hökmü onların üzərindən götürülür. Çünki onların qətlə yetirilməsinə səbəb kafir olmalarıdır. İslamı qəbul etdikdən sonra isə artıq buna heç bir səbəb qalmır.

2. Müsəlmanlar döyüşdə qalib gəldikdən sonra əsir alınmış kafirlər.

Belə olduqda da kafirlərin üzərindən qətl hökmü götürülmüş olur. Lakin döyüş başa çatmazdan əvvəl və ya döyüş zamanı əsir alınarlarsa, qətl hökmü öz qüvvəsində olaraq qalır. Çünki ayədə müsəlmanların zəfər çalmalarına və son cəza üsulu olaraq qətlin zəruri olduğuna xüsusi diqqət yetirilir. Mə`lum olduğu kimi, həddi-hüdudu olan hər bir hökm müəyyən olunmuş həddə çatdıqda qüvvədən düşmüş olur.

Bir sözlə, kafirlər döyüşdən sonra müsəlmanlara əsir düşərsə, dini rəhbər və ya qazi onların barəsində üç hökm verə bilər:

Ya kölə kimi istifadə edə, ya fidyə almaqla və ya pulsuz olaraq onları azad edə bilər.

Kafirlərin bütpərəst olub-olmamasından asılı olmayaraq, hökmün icrasında heç bir fərq qoyulmur.

***Xülasə:*** Qeyd etdiklərimizdən belə qənaətə gəlmək olur ki, müharibədə iştirak edən kafirlər əsir düşərkən ya döyüş zamanı qətlə yetirilməli, ya İslamı qəbul etdiyi təqdirdə əfv olunmalı və ya döyüş başa çatdıqdan sonra əsir alınaraq qətlə yetirilməməlidir. Döyüş başa çatdıqdan sonra da baş dini hakim əsirləri ya kölə olaraq müsəlmanların ixtiyarına verməli, ya fidyə alaraq azad etməli və ya pulsuz olaraq güzəştlə azad etməlidir.

Müsəlmanlarla müharibə aparan kafirlər haqda verilən hökmün xülasəsi bundan ibarətdir. Bu barədə müsəlman alimləri

arasında heç bir ixtilaf nəzərə çarpmır. Əgər cüz᾽i ixtilaflar varsa da, əsassızdır və heç bir e᾽tibara malik deyildir.

Ayədə istifadə olunan ifadələrdən bir daha belə qənaətə gəlmək olur ki, ayənin zahiri mə᾽nası məhz kafirlərin döyüş zamanı qətlə yetirilməsinə: «zərbərriqab», döyüş başa çatdıqdan sonra əsirləri ciddi nəzarət altında saxlamağa: «şuddul-vəsaq» və döyüş başa çatdıqdan sonra baş dini hakim tərəfindən əsirləri fidyə verərək və ya pulsuz azad olunmağa «mənnən və fidaən» dəlalət edir.

Qeyd etdiklərimizdən belə mə᾽lum olur ki, «şuddul vəsaq» deyildikdə, əsirlərin pulsuz və fidyə alınaraq azad olunmaları nəzərdə tutulur.

Çünki «şuddul vəsaq» adətən düşmənin hər növ ixtiyar, azadlıqdan məhrum olunmasına deyilir və belə bir mə᾽nanı əsir alınmış şəxslərin azadlıqdan məhrum olunmasına şamil etmək olduqca münasib olardı və əgər «şuddul vəsaq» ayədə əsirlik deyil, ümumi bir mə᾽na daşıyarsa, onda başqa bir dəlillərlə köləliyin qanuni olduğuna dəlalət etmiş olur. Və beləliklə "fidaən" fidyə ilə azad etmək» hökmünə aid olmuş olur.

Belə bir izahatla döyüşə gəlmiş və köləliyə əsir alınmış kafir haqda verilmiş hökm tamamilə bəlli olur.

Bu hökmə dəlalət edəcək bir çox mö᾽təbər rəvayətlərə də işarə etmək olar. Belə ki, Koleyni və Şeyx Tusi, Təlhə ibni Səiddən nəql etdikləri rəvayətdə deyir: İmam Sadiq (ə) atasından nəql edərək buyurur: «Döyüş başa çatmazdan əvvəl və kafirlər döyüş meydanını tərk etmədən əsir alınarlarsa, qazi onun ya boynunun vurulmasına, ya da dar ağacından asılmağa və ya sol ayağı ilə sağ əlinin kəsilməsinə dair hökm verə bilər. Onlar əl ayaqları kəsildikdən sonra buraxılmalı və qanaxma nəticəsində ölməlidirlər. Bu, Allah-taalanın Maidə surəsinin 33-cü ayəsində buyurduğudur:

إِنَّمَا جَزَاء الَّذِينَ يُحَارِبُونَ اللّهَ وَرَسُولَهُ وَيَسْعَوْنَ فِي الأَرْضِ فَسَادًا أَن يُقَتَّلُواْ أَوْ يُصَلَّبُواْ أَوْ تُقَطَّعَ أَيْدِيهِمْ وَأَرْجُلُهُم مِّنْ خِلافٍ أَوْ يُنفَوْاْ مِنَ الأَرْضِ ذَلِكَ لَهُمْ خِزْيٌ فِي الدُّنْيَا وَلَهُمْ فِي الآخِرَةِ عَذَابٌ عَظِيمٌ

***«Allah və Onun peyğəmbəri ilə vuruşanların, yer üzərində fitnə-fəsad salanların cəzası öldürülmək, ya dar ağacından***

***asılmaq, ya əl-ayaqlarının soldan və sağdan kəsilməsi və ya sürgün edilməsidir. Bu, dünyada onlar üçün xarlıq və zillətdir, axirətdə də böyük bir əzaba mübtəla olacaqlar.» Sonra İmam Sadiq (ə) buyurur: «Məgər bilmirsinizmi ki, Allah-taala, imamı yalnız kafirləri hansı növdən istifadə edərək cəzalandırmaqda ixtiyar sahibi etmişdir?»***

Təlhə deyir: İmam Sadiq (ə)-dan «Əv yunfəv minəl ərz» cümləsində nəyin nəzərdə tutulduğunu soruşdum. İmam Sadiq (ə) buyurdu: «Sürgün etmək deyildikdə ayədə kafirlərin döyüş meydanını tərk etmələri nəzərdə tutulur. Yə'ni, müsəlmanlar döyüş zamanı kafirləri pərakəndə etməli və əsir etdikləri təqdirdə müəyyən olunmuş hökmü icra etməlidirlər. İcra olunası hökm isə bundan ibarətdir ki, döyüş başa çatdıqdan sonra əgər kafirlər əsir alınarlarsa, qazi onları ya kölə kimi saxlamalı, ya fidyə almaqla və yaxud pulsuz olaraq azad etməlidir.

Verilən izahatlardan belə mə'lum olur ki, döyüş başa çatdıqdan sonra əsir düşmüş kafirlərin üzərindən qətl hökmü götürülür.

Əhli-sünnə alimlərindən olan Zəhhak, Əba, Həsən Bəsri və başqaları bu nəzəriyyə ilə müvafiq olduqlarını bildirmişlər. Həsən Bəsri bu haqda deyir: Döyüş sona çatdıqdan sonra əsir alınmış kafirlər qətlə yetirilmir, dini hakim ya onları kölə kimi saxlamalı, ya fidyə ilə və ya pulsuz olaraq azad etməlidir.[1]

Qeyd etdiklərimizdən belə qənaətə gəlmək olur ki, "Səyf" ayəsi istər bu ayədən əvvəl, istərsə də sonra nazil olmuş olsun, ayənin nəsx olunmasına əsla dəlalət etmir. Çünki kafirlərin qətlinin vacib olduğunu bəyan edən "Səyf" ayəsinin məzmununun bu ayə ilə heç bir ziddiyyəti yoxdur. Hər iki ayənin məzmunu bəllidir və verdiyi hökm nəsx olunmadan qüvvədə qalmalıdır.

Lakin təəccüb doğuran, Şeyx Tusinin şiə alimlərini kafirlərin döyüş başa çatdıqdan sonra qətlə yetirilmələrinə dair hökm verməkdə ittiham etməsidir.

---

[1] Qurtubinin təfsiri, 16-cı cild, 227-228-ci səh.

Şeyx Tusi bu haqda deyir: Səhabələrimizin nəql etdiyi rəvayətlərdə kafirlərin döyüş zamanı əsir alınarkən qətlə yetirildiyi göstərilir. Dini rəhbər onların qətlə yetirilmələrinə dair hökm verir. Lakin fidyə alaraq və ya pulsuz olaraq onları azad etməyə qadir deyildir. Və əgər döyüş başa çatdıqdan sonra əsir alınarlarsa, dini rəhbər ya onları kölə kimi saxlamalı, ya fidyə ilə və ya pulsuz olaraq azad etməlidir.

Bu nəzəriyyəni Təbərsi də öz kitabında «Məcməul-bəyanda» nəql etmişdir.[1]

Lakin bu barədə bir rəvayət də olsun nəql olunmamışdır. Maraqlı hallardan biri də budur ki, Şeyx Tusi özünün «Məbsut» adlı başqa bir kitabında bu nəzəriyyəni təsdiq edərək deyir: Döyüş başa çatdıqdan sonra dini rəhbər, əsir alınmış kafirləri qətlə yetirməməli, onları ya kölə kimi müsəlmanların ixtiyarına verməli, ya fidyə ilə və ya pulsuz olaraq azad etməlidir.[2] Onun özü «Xilaf» adlı kitabının «qənimətlərin bölüşdürülməsi» fəslinin on yeddinci bölümündə alimlər icmasının bu haqda fikir irəli sürdüklərinə işarə etmişdir.

Bu səbəbdən də ehtimal vermək olar ki, Şeyx Tusinin «Tibyan» adlı kitabında əsirlərin boynunun vurulması haqda deyilənlər yazılışda buraxılan səhvdən irəli gəlmişdir. Mərhum Təbərsi də heç bir araşdırmalar aparmadan bunu öz kitabında qeyd etmişdir. Çünki bu nəzəriyyə həm alimlər icmasının çıxardıqları hökm, həm də Şeyx Tusinin digər kitablarında bu haqda verdiyi mə`lumatlarla tamamilə ziddiyyət təşkil edir.

Bu nəzəriyyəni dəstəkləyən şəxslərdən biri də Əllamə olmuşdur. O özünün “Muntəha” və “Təzkirə” adlı kitablarının “cihad” fəslində bu barədə geniş söhbət açmışdır.

### *AYƏ HAQDA İRƏLİ SÜRÜLMÜŞ DİGƏR NƏZƏRİYYƏLƏR*

Şiə alimlərinin və əhli-sünnə alimlərinin bə`zilərinin (Zəhhak, Əta və Həsən Bəsri) bu haqda nə fikirdə olduqları ilə tanış

---

[1] Təfsiri-Tibyan, 9-cu cild, 291-ci səh.

[2] Məqsud, Cihad fəsli, kafirlərin xüsusiyyətləri və onların necə qətlə yetirilmələri.

oldunuz. Lakin əhli-sünnə alimlərinin bir çoxu bu barədə tam fərqli fikir irəli sürmüşlər:

1. Onlardan bə᾽ziləri bu fikirdədirlər ki, ayə yalnız bütün kafirlər barədə deyil, yalnız müşriklər haqda nazil olmuşdur. Belə ki, əsirlər öldürülməməli, fidyə ilə və ya pulsuz olaraq azad olunmalıdırlar. Cihad hökmünü verən "Səyf" ayəsi nazil olduqdan sonra isə hökm nəsx olunaraq öz qüvvəsini itirmişdir. Bu nəzəriyyənin Zəhhak, Sudəy, İbni Cərih, İbni Abbas və bir çox Kufə müfəssirləri tərəfindən irəli sürüldüyü göstərilir. Onlar deyirlər: Ayə nəsx olunduğu üçün əsir düşmüş müşriklər qətlə yetirilməlidir və onları fidyə ödəmək və ya pulsuz olaraq azad etməyi heç də düzgün hesab etmək olmaz.[1]

***Cavab:***

"Səyf" ayəsi istər müşriklərə, istərsə də qeyri-müşriklərə – İslam və müsəlmanlarla düşmənçilik edən bütün şəxslərə – şamil olunur. Nəsx nəzəriyyəsi tərəfdarları isə ayənin yalnız müşriklərə aid olduğunu hesab edirlər. Ümumi xarakter daşıyan [mütləq] hər hansı bir qanun isə sadir olunduğu zaman baxımından ümumi xarakter daşımayan qanundan istər əvvəl, istərsə də sonra verilmiş olsun, onu məhdudlaşdırmağa və ya nəsx etməyə qadir deyildir.

Bu səbəbdən də ümumiyyət xarakteri daşıyan "Səyf" ayəsinin, haqqında söhbət açdığımız ayəni nəsx etməsi qeyri-mümkündür.

2. Bə᾽zilərinin fikrincə ayə bütün kafirlər haqda nazil olmuş, lakin müşriklərə gəldikdə hökm əvəz olunaraq nəsx edilmişdir. Bu nəzəriyyənin də Qətadə, Mücahid və Həkəm tərəfindən irəli sürüldüyü göstərilir. Əbu Hənifə məzhəbinin tərəfdarları da bu nəzəriyyəyə istinad etmişlər.

***Cavab:***

Bu nəzəriyyənin də əsassız olduğu göz qabağındadır. Çünki ayənin nəsx olunduğunu sübuta yetirmək üçün ilk növbədə "Səyf" ayəsinin bu ayədən sonra nazil olduğunu sübuta yetirmək lazımdır. Nəsx nəzəriyyəsi tərəfdarları isə əllərində əsaslı dəlil

---

[1] Qurtubinin təfsiri, 16-cı cild, 217-ci səh.

olmadığı üçün bunu sübuta yetirməyə qadir deyildirlər. İstinad etdikləri mənbə varsa, o da vahid xəbər halında nəql olmuş hədis və rəvayətlərdir. Və biz dəfələrlə qeyd etmişik ki, vahid xəbər halında nəql olmuş hədis və rəvayətlərlə Qur҆an ayələrinin nəsx olunmasını sübuta yetirmək tamamilə əsassız və qeyri-mümkündür.

Ayənin nəsx olunduğu vahid xəbərlə sübuta yetirilsə belə, onun "Səyf" ayəsi ilə nəsx olunmasına dəlalət edəcək heç bir əsaslı dəlil yoxdur. Sübuta yetiriləcək şey yalnız bundan ibarətdir ki, haqqında söhbət açdığımız ayə "Səyf" ayəsini məhdudlaşdıracaq xarakteri daşıyır. Çünki hər bir müsəlman ayənin istər müşriklərə, istərsə də qeyri-müşriklərə şamil olunduğunu və ümumiyyət xarakteri daşıdığını hesab edir. Bu səbəbdən də haqqında söhbət açdığımız ayə Səyf ayələrinin nəsxedici deyil, məhdudlaşdırıcı xarakter daşımasına səbəb olur. Çünki bir qədər əvvəl qeyd etdiyimiz kimi, ümumiyyət [mütləq] xarakteri daşıyan hökm məhdudiyyət [müqəyyəd] xarakteri daşıyan hökmləri nəsx etməyə qadir deyildir. Qeyd etdiklərimizi nəzərə almasaq, belə bir qənaətə gəlməli olacağıq ki, hər iki ayənin verdiyi hökm qüvvədə olaraq qalır və onların arasında heç bir ziddiyyətlik yoxdur. Fərq yalnız bundan ibarətdir ki, "Səyf" ayəsində əsir alınmış müşriklərin qətlinə, bu ayədə isə əsirlərin ya köləliyə vadar olunmasına, ya fidyə ödəmək və ya pulsuz olaraq azad olunmalarına dair hökm verilir. İki halda ziddiyyətsizlik hər iki ayənin məfhumuna dəlalət edir. Ziddiyyət meydana gəldikdə o ayənin hökmünə əməl olunur ki, başqa bir dəlillə onu sübuta yetirmək mümkün olsun.

3. Əhli-sünnə alimlərinin bir qismi ayənin "Səyf" ayəsi ilə nəsx olunduğuna deyil, əksinə olaraq "Səyf" ayəsini nəsx etdiyinə istinad edirlər.

***Cavab veririk:***

Ayənin nəsx olunduğunu sübuta yetirmək üçün ilk növbədə "Səyf" ayəsinin bu ayədən nazil olunduğunu sübuta yetirmək lazımdır. Bunun üçün isə onların əlində heç bir əsaslı dəlil yoxdur.

"Səyf" ayəsinin bu ayədən əvvəl nazil olduğunu sübuta yetirsək belə, bunu ayənin nəsx olunmasına əsaslı dəlil hesab etmək olmaz. Belə ki, ayənin nəsx olunması daha əsaslı dəlillərlə sübuta yetirilməlidir.

4. İrəli sürülmüş sonuncu nəzəriyyədə deyilir: Dini rəhbər istər döyüş zamanı, istərsə də döyüş başa çatdıqdan sonra əsir alınanları ya kölə kimi saxlamalı, ya qətlə yetirməli, ya fidyə alaraq və ya pulsuz olaraq azad etməlidir.

Bu nəzəriyyə Əbu Təlhə və İbni Abbas tərəfindən nəql olunmuşdur. Əhli-sünnənin məşhur təfsir alimlərindən olan İbni Ömər, Həsən Bəsri, Əta və Malik ibni Ənəs, Şafei, Suri, Əvzam, Əbu Ubəyd kimi məşhur fiqh alimləri bu nəzəriyyəyə dair öz müsbət rə᾿ylərini bildirmişlər.

Ayənin ümumi məfhumunu irəli sürülmüş bu nəzəriyyə ilə ziddiyyət təşkil etmədiyi üçün hökmün nəsx olunmasına əsaslı dəlil hesab edə bilmərik. Nəhhas bu nəzəriyyəni öz kitabında qeyd edərək deyir: İstər əfv, istərsə də "Səyf" ayəsinin verdiyi hökm sabit olaraq qaldığı üçün bu nəzəriyyəni əsaslı hesab edə bilərik. Hökmün heç biri digərini nəsx etmir və bu ən düzgün nəzəriyyədir. Çünki nəsxin sübuta yetirilməsi üçün əsaslı dəlillərə istinad olunmalıdır. Əvvəla nəsx nəzəriyyəsi tərəfdarlarının istinad edəcək belə bir əsaslı dəlilləri yoxdur. Digər tərəfdən isə hər iki ayənin icra olunması mümkün olduğu təqdirdə hər hansı bir ayənin nəsx olunması heç bir mə᾿na və məfhum kəsb etmir.

Nəhhas sonra deyir: Bu nəzəriyyəni mədinəlilər, Şafei və Əbu Ubeydə də nəql etmişlər.

***Cavab:***

Bu nəzəriyyəni ayənin məzmunu ilə ziddiyyət təşkil etdiyi üçün iki əsaslı səbəbə görə doğru və düzgün hesab edə bilmərik:

1. Ayədə istifadə olunan «mənnən və fidaən – pulsuz olaraq və ya fidyə ödəmək» ifadəsi müsəlmanların qələbəsi ilə başa çatan döyüşdən sonra birbaşa müşriklərin əsir alınmasına və fidyə ödəmək və ya pulsuz olaraq azad olunmalarına dəlalət edir. Bu səbəbdən də ayənin verdiyi hökmün döyüş zamanı əsirlərin azad olunması ilə heç bir uyğunluğu yoxdur.

2. «Zərburriqab – boyunlarını vurun». Bu ayədə müsəlmanların zəfər çalanadək ayənin məfhumuna əsasən, kafirlərin döyüş zamanı qətlə yetirilmələri məhdudlaşdırılır. Döyüş başa çatdıqdan sonra isə [əsir alınmış] kafirlərin qətlə yetirilməsi qəti olaraq qadağan olunur. Bu səbəbdən də qətiyyətlə deyə bilərik ki, müsəlmanların qələbəsi ilə başa çatan döyüşdən sonra əsirlərin qətlə yetirilməsinə dair irəli sürülmüş nəzəriyyə ayənin məʾna və məfhumu ilə tamamilə ziddiyyət təşkil edir.

Onlar əsirlərin qətlə yetirilməsində "Səyf" ayəsinə istinad etsələr belə, düzgün nəticə əldə edə bilməyəcəklər. Çünki bir qədər əvvəl qeyd etdiyimiz kimi "Səyf" ayəsi döyüş zamanı alınan əsirlərə dəlalət edir.

Və əgər bu barədə Peyğəmbərin (s) necə rəftar etdiyinə istinad edərlərsə, yenə də bunu onların dediklərinə əsaslı dəlil hesab etmək olmaz. Çünki Peyğəmbərin (s) zamanında əsir alınmış şəxslər bir neçə hissəyə bölünür və onlara dair müxtəlif tədbirlər görülürdü. Belə ki, döyüş zamanı əsir alınanlar qətlə yetirilir, döyüş başa çatdıqdan sonra əsir alınanlar üçün isə müvafiq tədbirlər görülürdü.

Sonrakı xəlifələrin, yəʾni, Əbu Bəkr və Ömərin əsirlərlə necə rəftar etmələrinə istinad etsələr belə, yenə də qənaətbəxş nəticə əldə edə bilməyəcəklər. Çünki əvvəla bu tarixi cərəyanın nə dərəcədə doğru olduğu haqda çox deyilmiş və danışılmışdır.

Digər tərəfdən də onun doğru və düzgün olduğunu fərz etsək belə, əsaslı olduğunu sübuta yetirəcək heç bir dəlil yoxdur. Qurʾanın zahiri məʾnasını kənara qoyaraq onların hansı yolu tutduqlarına istinad etmək isə heç də düzgün olmazdı.

### *DİLƏNÇİLƏRİN HAQLARINI BƏYAN EDƏN AYƏNİN NƏSXİ*

وَفِي أَمْوَالِهِمْ حَقٌّ لِّلسَّائِلِ وَالْمَحْرُومِ

***«Mallarında da dilənçinin və [abrına qısılıb dilənməyən] yoxsulun haqqı [payı] var idi. Şəriətə müvafiq olaraq var-dövlət-lərinin müəyyən hissəsini ehtiyacı olanlara paylayırdılar.» (51/19).***

وَالَّذِينَ فِي أَمْوَالِهِمْ حَقٌّ مَّعْلُومٌ

***«O kəslər ki, onların mallarında müəyyən bir haqq [pay] vardır. Dilənən və [hər şeydən] məhrum olan [lakin abrına qısılıb dilənməyən] kimsə üçün:» (10/24-25).***

Ayənin nəsx olunub-olunmaması haqda təfsir alimləri tərəfindən müxtəlif fərziyyələr irəli sürülmüşdür.

Onlardan bə`ziləri «mallarında müəyyən bir haqq [pay] vardır» dedikdə ödənilməsi vacib olan zəkatın, bə`ziləri digər vacib ödənişin, bə`ziləri də müstəhəb olan digər ödənişlərin nəzərdə tutulduğunu qeyd etmişlər. Bu səbəbdən də birinci ehtimala əsasən, deyə bilərik ki, ayə zəkat ayələrinə aiddir. Və nəsx olunmadan qüvvədə olaraq qalmaqdadır. Üçüncü ehtimala əsasən, yenə də ayənin nəsx olunduğu heç bir mə`na və məfhum kəsb etmir. Çünki müstəhəb olan ödəniş [sədəqə, ehsan] daim varlı təbəqəyə aid olmuş və olacaqdır. Lakin ikinci ehtimala əsasən, nəzərdə tutulmuş vacib ödəniş haqqı zəkatdan fərqli olan bir ödəniş haqqıdır. Və bu hər iki ayəni nəsx etmişdir. Çünki zəkatın vacib olması ilə digər vacib sədəqələr nəsx olunaraq, ödənilmələri tə`xirə düşmüş olur. Hal-hazırda İslamda zəkatdan savayı başqa bir ödəniş haqqı mövcud deyildir.

Bütün bunları nəzərə alaraq alimlərin bir qismi «müəyyən haqq» deyildikdə zəkatdan başqa digər vacib ödəniş haqqının nəzərdə tutulduğuna və buna əsasən, ayənin nəsx olunduğuna istinad etmişlər.

***Cavab:***

Hər iki ayəni diqqətlə nəzərdən keçirdikdə, belə qənaətə gəlmək olur ki, ayədə «müəyyən haqq» deyildikdə nə zəkat, nə də hər hansı bir vacib ödəniş haqqı nəzərdə tutulur. Sadəcə olaraq burada, cəmiyyətdə adət halını almış və ödənilməsi müstəhəb olan adi ödəniş haqqı nəzərdə tutulur.

Qeyd etdiklərimizi sübuta yetirəcək iki əsaslı dəlilə istinad edirik:

1. Şiə və sünnü mənbələrində nəql olunmuş hədis və rəvayətlərdə yalnız zəkatın vacib olduğu göstərilmişdir.

2. Əhli-beyt (ə) tərəfindən nəql olunmuş rəvayətlərdə ayədə müstəhəb ödəniş haqqının [sədəqənin] nəzərdə tutulduğu göstərilir.

Siqətul-İslam Koleyni, Əbu Bəsirə istinad edərək deyir: İmam Sadiq (ə) ilə birlikdə idik. Dövlətlilərdən bir neçəsi də bizimlə idilər. Zəkat haqda söhbət açıldıqda İmam Sadiq (ə) buyurdu: ***«Zəkat verməklə heç kimsə tə՚rif edilməməlidir. Bu vacib vergini ödəməklə insan canını və malını qorumuş olur və müsəlman adlandırılır. [İmkan daxilində] zəkat haqqını ödəməyənlərdən isə namaz belə qəbul olunmaz. Lakin zəkatdan başqa da üzərinizə digər ödəniş haqları düşür.»***

Əbu Bəsir tərəddüd edərək dedi: Zəkatdan başqa da bir vergi ödəməliyikmi?

İmam Sadiq (ə), Əbu Bəsirin bundan xəbəri olmadığını görüb təəccüblə dedi: «Məgər bu ayəni eşitməmisinizmi?

***«O kəslər ki, onların malında müəyyən haqq [pay] vardır».***

Əbu Bəsir deyir: Müəyyən haqq deyildikdə nə nəzərdə tutulur?

İmam Sadiq (ə) buyurdu: «And olsun Allaha! Bu hər bir şəxsin günlük, həftəlik, aylıq və ya illik əlavə qazanclarından ehtiyacı olanlara ödəməli olduğu haqdır [sədəqədir].»

Koleyni başqa bir rəvayətdə İsmail ibni Cabirə istinad edərək İmam Sadiq (ə)-dan nəql edərək deyir:

İmam Sadiq (ə)-dan zəkatdan başqa digər ödəniş haqqının olub-olmadığını soruşdum.

İmam Sadiq (ə) buyurdu: «Bəli, vardır. Varlılar qazandıqları var-dövlətdən min, iki min və ya üç min dirhəm ehtiyacı olanlar üçün ayırarlar. Bu da həmin müəyyən ödəniş haqqıdır.»[1]

Beyhəqi özünün «Şə՚bul iman» adlı kitabında Ğəzvan ibni Əbu-Hatimə istinad edərək nəql etdiyi rəvayətdə deyir: «Əbuzər Osmanın evinin astanasında dayanıb evə daxil olmaq istəyirdi. Lakin heç kim ona icazə vermirdi. Qüreyş qəbiləsindən olan bir şəxs onu görcək soruşdu: Əbuzər, nə üçün burada oturmusan?

Əbuzər dedi: Onlar mənə evə daxil olmağa icazə vermirlər.

---

[1] Vafi, 6-cı cild, 52-ci səh, «Müəyyən haqq» fəsli.

O, Osmanın evinə daxil olub dedi: Əbuzərin günahı nədir ki, ona evə daxil olmağa icazə vermirsiniz? Osman Əbuzərə evə daxil olmağa icazə verdi. O da məclisə daxil olub onların kənarında əyləşdi.

Osman Kə`bul Əhbarı çağıraraq dedi: Ey Əba İshaq! Əgər bir şəxs malının zəkatını ödəyərsə yenə də günahı olarmı? Kə`b qətiyyətlə dedi: Xeyr! Əbuzər təəccüblənərək əsəbi halda ayağa qalxıb əlindəki əsa ilə Kə`bin kürəyinə vurub dedi: Ey yəhudi övladı! Elə güman edirsən ki, zəkat ödənildikdən sonra heç bir vergi haqqı ödənilməməlidir? Halbuki, Allah-taala Qur`ani-Kərimdə bu haqda buyurur: (59/9), (16/8), (1/74-75).

وَيُؤْثِرُونَ عَلَى أَنفُسِهِمْ وَلَوْ كَانَ بِهِمْ خَصَاصَةٌ

وَيُطْعِمُونَ الطَّعَامَ عَلَى حُبِّهِ مِسْكِينًا وَيَتِيمًا وَأَسِيرًا

وَالَّذِينَ فِي أَمْوَالِهِمْ حَقٌّ مَّعْلُومٌ لِّلسَّائِلِ وَالْمَحْرُومِ

İbni Abbas bu rəvayətə istinad edərək deyir: Müəyyən haqq deyildikdə sədəqə deyil, hər bir şəxsin [imkan daxilində] ehtiyacı olan qohum-əqrəbasına etdiyi yardım və saxladığı qonaqların xərci nəzərdə tutulur.[1]

Təfsir alimlərinin bir qismi İbni Abbasın dediklərinə istinad etmişlər.

***Nəticə:***

Demək «müəyyən haqq» deyildikdə vacib deyil, müstəhəb ödəniş haqqı nəzərdə tutulur. Və ayənin verdiyi hökm nəsx olunmadan qüvvədə qalmaqdadır.

### *NƏCVA AYƏSİNİN NƏSXİ*

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذَا نَاجَيْتُمُ الرَّسُولَ فَقَدِّمُوا بَيْنَ يَدَيْ نَجْوَاكُمْ صَدَقَةً ذَلِكَ خَيْرٌ لَّكُمْ وَأَطْهَرُ فَإِن لَّمْ تَجِدُوا فَإِنَّ اللَّهَ غَفُورٌ رَّحِيمٌ

***«Ey iman gətirənlər! Peyğəmbərlə [hər hansı bir iş barəsində] məxfi danışığa getməzdən əvvəl [ona hörmət əlaməti olaraq yoxsullara] sədəqə verin. Bu [əməl] sizin üçün [Allah yanında] daha xeyirli və daha pakdır. Əgər [sədəqə verməyə] bir şey***

---

[1] Qurtubinin təfsiri, 29-cu cild, 50-ci səh.

***tapmasanız [ürəyinizi sıxmayın]. Çünki Allah bağışlayan və rəhm edəndir. (58/12)***

أَأَشْفَقْتُمْ أَن تُقَدِّمُوا بَيْنَ يَدَيْ نَجْوَاكُمْ صَدَقَاتٍ فَإِذْ لَمْ تَفْعَلُوا وَتَابَ اللَّهُ عَلَيْكُمْ فَأَقِيمُوا الصَّلَاةَ وَآتُوا الزَّكَاةَ وَأَطِيعُوا اللَّهَ وَرَسُولَهُ وَاللَّهُ خَبِيرٌ بِمَا تَعْمَلُونَ

***«Məgər siz [Peyğəmbərlə] məxfi danışmazdan əvvəl sədəqə verməkdən qorxdunuzumu? Madam ki, siz [bunu] etmədiniz [sədəqə vermədiniz] və Allah da tövbənizi qəbul buyurdu, onda namaz qılıb, zəkat verin. Allah və Onun Peyğəmbərinə itaət edin. Allah nə etdiklərinizdən xəbərdardır!» (58/13).***

Bir çox əhli-sünnə və şiə mənbələrində nəql olunmuş rəvayətlərdə deyilir: Ayə nazil olduqdan sonra Əli (ə)-dan savayı kimsə ona əməl etmədi. O, bir dinarı xırdalayaraq on dirhəm etdi. Peyğəmbərlə (s) görüşmək istərkən bir dirhəm sədəqə verdi. Görüşlərin və etdikləri söhbətlərin sayı ona çatdıqda «Nəcva» ayəsi nazil oldu. Misal olaraq bir neçə rəvayətə işarə edirik.

1. İbni Babəveyh, Məhkula istinad edərək nəql etdiyi rəvayətdə deyir: Əmirəl-mö᾽minin Əli (ə) buyurur: «Peyğəmbərin (s) səhabələrindən və hədis hafizlərindən elə bir şəxs yoxdur ki, mən onunla şərik olmadan hər hansı bir fəzilətə malik olmuş olsun və mənim fəzilətim onların hamısından daha üstündür. Lakin malik olduğum yetmiş fəzilətdə səhabələrdən heç birinin payı yoxdur. Və bu fəzilətlər yalnız mənə məxsusdur.

Məhkul deyir: Dedim, ya Əmirəl-mö᾽minin! Bizi bu fəzilətlərdən agah etməyinizi istərdik. Əli (ə) onların hamısını bir-bir sayıb 24-cüyə çatdıqda buyurdu: (İza nacəytumur-rəsul – Peyğəmbərlə [hər hansı bir işə] məxfi danışmağa getməzdən...) ayəsi nazil olduqdan sonra bir dinarı, on dirhəmə xırdalayaraq Peyğəmbərlə (s) hər görüşə getməzdən əvvəl bir dirhəm sədəqə verdim. And olsun Allaha! «Ə᾽əşfəqtum – məgər siz [Peyğəmbərlə] məxfi danışmazdan əvvəl...» ayəsi nazil olmazdan əvvəl və sonra səhabələrdən heç biri bu işi görməmişdir.[1]

2. İbni Cərir Təbəri, Mücahidə istinad edərək nəql etdiyi rəvayətdə deyir: Əmirəl-mö᾽minin Əli (ə) buyurur: Qur᾽anda elə

---

[1] Təfsir Burhan, 2-ci cild, 1099-cu səh.

bir ayə vardır ki, heç kim məndən əvvəl ona əməl etməmişdir və məndən sonra da əməl etməyəcəkdir. Bir dinar pulu on dirhəmə xırdalayaraq hər dəfə Peyğəmbərin (s) görüşünə gələrkən bir dirhəm Allah yolunda sədəqə verdim. Sonra «İza nacəytumur-rəsul» ayəsi nazil oldu və həmən ayəni nəsx etdi və bu ayəyə kimsə məndən əvvəl əməl etməmişdir.

3. Şovkani deyir: Əbdürrəzzaq, Əbd ibni Həmid, İbni Munzər, İbni Əbi Hatəm və İbni Mərdəveyh, Əli (ə)-dan nəql edərək deyirlər: Ayə nəsx oluncaya qədər heç kim məndən başqa ona əməl etmədi [və onun müddəti cəmi bir saat oldu – yəʾni, ayə nazil olduqdan bir saat sonra növbəti ayə ilə nəsx olundu.] Əli (ə) burada Nəzva ayəsini nəzərdə tutur.

4. Səid ibni Mənsur, İbni Rahəviyyə, İbni Əbi Şəybə, Əbd ibni Həmid, İbni Munzər, İbni Əli Hatəm və İbni Mərdəveyh, Əli (ə)-dan nəql edərək deyirlər: Qurʾanda elə bir ayə vardır ki, heç kim nə məndən əvvəl ona əməl etmiş, nə də məndən sonra əməl edəcəkdir. Və bu «İza nacəytumur-rəsul» ayəsidir.

Sonra buyurur: Ayə nazil olarkən bir dinar pulum var idi. Mən onu on dirhəmə xırdalayıb Peyğəmbərin (s) görüşünə getməzdən əvvəl bir dirhəmini sədəqə verərdim. «Əʾəşfəqtum» ayəsi nazil olanadək heç kim bu ayəyə əməl etməmişdir.

Bu hədisi Hakim də öz kitabında nəql etmiş və səhih olduğuna işarə etmişdir.

### *PEYĞƏMBƏRLƏ (S) GÖRÜŞÜB SÖHBƏT APARMAĞA NƏ ÜÇÜN SƏDƏQƏ VERİLMƏLİDİR?*

Bu ayə üç mühüm mətləbə dəlalət edir:

1. Peyğəmbərlə (s) görüşüb söhbət aparmazdan əvvəl, sədəqə qəlblərin məʾnən saflaşmasını və eyni zamanda Allaha iman gətirmiş hər bir müsəlmanın həm məʾnəvi, həm də maddi rifahının inkişafına səbəb olur.

2. Hökm yalnız maddi imkanı olan şəxslərə dəlalət edir. Yoxsul və imkansız təbəqəyə isə sədəqənin verilməsi heç də vacib deyildir. Çünki Allah öz bəndələrinə qarşı mehriban və bağışlayandır.

Nəcva ayəsinin verdiyi hökm bundan ibarətdir. Hökmün mahiyyətinə diqqət yetirdikdə, onun nə qədər mənfəətli və müsbət xarakter daşıdığının şahidi oluruq. Çünki bir tərəfdən yoxsul təbəqəyə maddi yardım olunur, digər tərəfdən də səhabənin Peyğəmbərə (s) qarşı olan səmimiyyətləri daha da artır. Və Peyğəmbərə (s) olan yersiz müraciətlərə məhdudiyyət qoyulmuş olur. Çünki hökm sadir olmaqla günlərini Peyğəmbərlə (s) keçirmək istəyən və özlərinin yersiz sualları ilə onun vaxtını alan şəxslərin müraciətləri müəyyən qədər azalır. Və Peyğəmbərlə (s) dostluğu və ünsiyyətdə olmağı puldan, var-dövlətdən üstün tutan təqva sahiblərinə onunla daha çox görüşmək və mümkün qədər çox bəhrələnmək imkanı verilir.

3. Bütün bunlarla yanaşı ayəni iman gətirmiş şəxslərin insani, əxlaqi və məʾnəvi dəyərlərini sınamaq üçün ən əlverişli bir vasitə hesab etmək olar. Çünki Allah yolunda Peyğəmbərlə (s) ünsiyyətdə olmaq xatirinə yoxsullara sədəqə vermək onların ruhi təkamülünə və imanlarının daha da güclənməsinə səbəb ola bilərdi.

Şübhəsiz ki, hökm müəyyən zamana deyil, bütün zamanlara dəlalət edir. Ayənin sınaq xarakteri daşıması ikinci, yəʾni, on üçüncü ayədə özünü daha da bəlli edir. Belə ki, ayə nazil olduqdan sonra Əli (ə)-dan savayı əshab pula və var-dövlətə olan sonsuz əlaqələrinə görə Peyğəmbərlə (s) görüşmək üçün sədəqə verməkdən imtina etmişlər.

***HÖKM NƏ ÜÇÜN NƏSX OLUNMUŞDUR?***

Sədəqə mənfəət verməklə yanaşı başqa bir mənfəətin də qarşısını alırdı. Çünki müsəlmanların və səhabənin Peyğəmbərlə (s) ünsiyyətdə olmamaları ümumi mənafeyə xələl gətirəcək bir çox şeylərə də səbəb olurdu. Bu səbəbdən ümumi mənafeni, şəxsi mənafedən üstün tutaraq növbəti ayə nazil olmaqla sabiq hökm nəsx olundu. Beləliklə, belə bir sədəqənin vacibliyi namaz, zəkat və Peyğəmbərə (s) tabe olmaq hökmü ilə əvəz olundu. Artıq bizə məʾlum olur ki, hökmün nəsx olunması zərurət üzündən olmuş və həqiqətən birinci (on ikinci) ayə növbəti (on üçüncü) ayə ilə nəsx olunmuşdur. Lakin diqqət yetirmək lazımdır ki, ayənin nəsx

olunması birinci ayənin qüvvədə olma müddətinin başa çatmasına dəlalət edir və bir qədər əvvəl qeyd etdik ki, ayələrin bu qayda ilə nəsx olunmaları heç də qeyri-adi hal deyildir.

Ayənin nəsx olunması hökmün qüvvədə olma müddətinin başa çatması ilə əlaqəli olsa da, bu heç də o demək deyildir ki, hökmün mənafei dövrə aid olmuşdur. Çünki bir qədər əvvəl qeyd etdik ki, belə bir mənafe Peyğəmbərin (s) həyatının bütün dövrlərində mövcud olmuşdur. Lakin müsəlmanların pula, var-dövlətə olan meyl və əlaqələri hökmün daimi olaraq qüvvədə qalmasına mane oldu və bu da ayənin nəsx olunması ilə nəticələndi.

***SUAL VƏ CAVAB***

Elmi hər şeyi əhatə edən və hər şeyi əvvəlcədən bilən Allah təbii ki, hökmün davam gətirə bilməyəcəyini və nəticədə nəsx olunacağını da bilirdi. Belə bir halda sədəqənin vacibliyinə dair belə bir hökmün verilməsi nə məqsəd daşımışdır?

***Cavab:*** Hökmün verilməsi və sonradan nəsx olunması bir neçə faydalı nəticələr vermişdir. Verdiyi ən faydalı nəticələrdən biri də müsəlmanlara olunan xəbərdarlıq və onların oyanması olmuşdur. Belə ki, ayə nəsx olunduqdan sonra hamıya mə`lum oldu ki, həm səhabə, həm də Peyğəmbərin (s) digər tərəfdarları pulu və var-dövləti öz peyğəmbərlərindən üstün tutmuş və Əli (ə)-dan savayı kimsə bu ayəyə əməl etməmişdir. Peyğəmbərlə (s) ünsiyyətdə olmaqdan çəkinmək günah olmasa da əshabın bir çoxu pulu və var-dövləti bundan üstün tutmuşlar.

Hökmün qüvvəyə minməsi və sonradan nəsx olunması bir çox həqiqətləri meydana çıxarır. Bunlardan ən başlıcası müsəlmanların Peyğəmbərə (s) olan diqqətsizliyini və Əli (ə)-ın iman və şəxsiyyətinin ucalığını bəyan etməsidir.

Nəcva ayəsində sədəqə hökmünün verilməsi və sonra bu hökmün nəsx olunması həm Qur`anın zahiri mə`nasından, həm də nəql olmuş bir çox hədis və rəvayətlərdən bəlli olur. Lakin əgər sədəqə İbrahim peyğəmbərin oğlu İsmaili qurban etməsi kimi, sınaq xarakterli bir hökm olsaydı, ayənin nəsxini həqiqi və istilahi adlandıra bilməzdik. Çünki sınaq və imtahan xarakteri daşıyan bir

çox hökmün nəsx olunması istilahi deyil, lüğəvi nəsxə aiddir. Fəxri Razi öz kitabında yazır: Əbu Müslüm qətiyyətlə hökmün sınaq xarakteri daşıdığına istinad edir. Onun fikrincə əsasən, hökmün verilməsindən məqsəd mö᾽minlərin münafiqlərdən fərqlənməsi olmuşdur. Bu səbəbdən də ayə həqiqi mə᾽nada nəsx olunmamışdır. Fəxri Razi, Əbu Müslümün nəzəriyyəsini qeyd etdikdən sonra deyir: Bu nəzəriyyə tamamilə düzgün və əsaslıdır.[1] Şeyx Şərəfüddin deyir: Məhəmməd ibni Abbas öz təfsir kitabında əhli-sünnə və şiə mənbələrindən bu məzmunda yetmiş hədis və rəvayət nəql etmişdir. Bütün bu rəvayətlərdə Peyğəmbərlə (s) görüşməzdən əvvəl sədəqə verən yeganə şəxsin Əli ibni Əbu Talib (ə) olduğu göstərilir. Sonra Şeyx Tusidən bu hədisi nəql edərək deyir: Termizi özünün «Sünən» adlı kitabında və Sə᾽ləbi öz təfsirində Əlqəmə Ənmaridən – ravilərin bir neçəsinin adı ixtisara salınmışdır – və o da Əli (ə)-dan nəql etdiyi rəvayətdə deyir: Allah-taala mənə xatir bu ümmətə güzəşt etdi. Çünki onlar Peyğəmbərlə (s) ünsiyyətdə olmaq üçün sədəqə verməklə sınağa çəkildilər. Lakin pul və var-dövlətə olan meyl və əlaqə buna imkan vermədi. Ayəyə əməl edən yeganə şəxs mən oldum. Cəmi bir dinar pulum olduğu halda mən onu on dirhəmə xırdalayıb Peyğəmbərlə (s) görüşə gəlməzdən əvvəl sədəqə verərdim. Bu səbəbdən də Allah-taala mənə xatir onları əfv edib, bağışladı. Əgər ayəyə əməl edən bir şəxs olmasaydı ilahi əmrə tabe olmadıqları üçün bütün insanlar Allahın əzabına düçar olardılar.[2]

***Müəllif:***

Bu rəvayət Termizinin «Sünən» adlı kitabının nə köhnə, nə də yeni çapında nəql olunmamışdır. Kitablarının bir çoxunda bu rəvayəti nəql edən Sə᾽ləbi də öz təfsirində buna heç bir işarə etməmişdir.

(Kitabı yazarkən Ayətullah üzma Nəcəfinin şəxsi kitabxasında [Qum şəhərində] Sə᾽ləbinin qədim və nəfis xətlə yazılmış 908 nömrəli təfsirini tapdıq. Təfsirə müraciət etdikdən sonra bizə belə mə᾽lum oldu ki, Əlqəmə Ənmari yalnız əvvəl

---

[1] Fəxri Razinin təfsiri, 8-ci cild, 167-ci səh.

[2] “Biharul-ənvar”, 9-cu cild, 12-ci səh.

hissəsini Əli (ə)-dan nəql etmişdir. Hədisin digər hissələri isə Səʾləbinin nəql etdiyi digər rəvayətlərdən əldə olunmuşdur.

Səʾləbinin nəql etdiyi bir neçə rəvayətə işarə edirik:

1. Mücahid deyir: «Sədəqə vermədən» Peyğəmbərlə (s) görüşmək bizə qadağan olundu. Sədəqə verən yalnız Əli (ə) [Allah ondan razı olsun] oldu. O bir dinarı xırdalayıb sədəqə verdi və sonra növbəti ayə nazil olmaqla Peyğəmbərlə (s) görüşməyə bizə icazə verildi.

Əli ibni Əbu Talib [Allah ondan razı olsun] deyir: Allahın kitabında [Qurʾanda] elə bir ayə vardır ki, nə məndən əvvəl, nə də məndən sonra kimsə ona əməl etməmişdir. O — ***«Ey iman gətirənlər Peyğəmbərlə (s) [hər hansı bir iş barəsində] məxfi danışığa getməzdən əvvəl [ona hörmət əlaməti olaraq yoxsullara] sədəqə verin»*** — ayəsi idi. Belə ki, ayə əvvəl vacib sonra isə nəsx olundu.

Abdulla ibni Hamid, Əli ibni Əlqəmə Ənmari, Əli ibni Əbu Talib (ə)-dan nəql edərək deyir: Nəcva ayəsi nazil olarkən Peyğəmbər (s) mənə dua etdi. (Əli (ə) sonra buyurdu:) ***"Allah taala mənə xatir bu ümməti bağışladı. Çünki Allah taala səhabələri imtahana çəkdi, onlar Peyğəmbərlə nəcva etməkdən çəkindilər. Bundan sonra Peyğəmbər (s) evində oturdu və yalnız bu iş üçün sədəqə verənlərlə söhbət etdi. Mənim də bir dinar (qızıl) pulum var idi, onu sədəqə verdim. Bu ayəyə əməl etdiyim zaman Allah taala müsəlmanların tövbəsini qəbul etdi. Əgər bir kəs bu ayənin hökmünə əməl etməsəydi, hamının ona əməl etməkdən boyun qaçırqığına görə, Allah hökmən əzab nazil edərdi."***

Əli (ə) deyir: ***"Allah-taala ümmətə [müsəlmanlara] güzəşt etdi və nə ayə nazil olmazdan əvvəl, nə də sonra heç kim bu hökmə əməl etmədi.***"

Bir sözlə, hökm istər həqiqi olsun, istərsə də sınaq məqsədi ilə, verildikdən çox az sonra nəsx olunaraq öz qüvvəsini itirməmişdir və Əli ibni Əbu Talibdən savayı hökm qüvvədə olduğu müddət ərzində heç kim tərəfindən ona əməl olunmamışdır. Bu da Əli (ə)-ın ən bariz fəzilətlərindən biri hesab olunur.

***AÇIQ-AŞKAR TƏƏSSÜB VƏ QƏRƏZÇILİK***

Fəxri Razi – hökmü icra etməyə fürsət olduğu bir halda – açıq-aşkar təəssüb hissi ilə səhabəni ayəyə əməl etməməkdə üzürlü hesab edərək deyir: Hökmün icrası yoxsulların qəm-qüssəsinə və varlıların kənara çəkilməsinə və Peyğəmbərdən (s) uzaqlaşmalarına səbəb olurdu. Çünki yoxsul təbəqə maddi çatışmazlıqlar üzündən sədəqə verə bilmir, hökmü icra edə bilmədikləri üçün kədərlənir və özlərinin buna əməl etmədiklərini görüb bilirdilər ki, hamının onlara olan münasibətləri soyuyacaq və onlara irad və nöqsanlar tutulacaqdır. Bu səbəbdən də onlar Peyğəmbərdən (s) uzaq düşür və aralarında olan münasibətlər soyumağa başlayırdı.

Demək, yoxsul təbəqənin qəm-qüssəsinə və varlıların dindən uzaqlaşmasına səbəb olan hər hansı bir hökmün icra olunmamasının bir o qədər də zərəri yoxdur. Çünki sevgi və mehribançılığa səbəb olan hər hansı bir iş müsəlmanların din və Peyğəmbərdən (s) uzaq düşmələrindən daha müsbət nəticələr verə bilər.

Bütün bunlarla yanaşı, Peyğəmbərlə (s) ünsiyyətdə olmaq nə vacib, nə də müstəhəbdir. Sadəcə olaraq şərtin qoyulmasında ən başlıca məqsəd Peyğəmbərin (s) evinə olan gediş-gəlişlərin nisbətən azalması olmuşdur və gediş-gəlişlər nə qədər az olsa, məqsədə daha tez nail olmaq olar. Sözsüz ki, bu kimi münasibətlərə son qoymaq daha məqsədə uyğun olardı və bunun üçün təqsiri münasibətləri kəsən şəxslərdə görmək lazım deyildir.

***Müəllif:***

Hörmətli oxucu! Fəxri Razinin səhabənin Qur᾽an ayələrinə əməl etməmələrinə dair gətirdiyi üzürxahlıqla tanış oldunuz. Lakin onun gətirdiyi dəlillər insanda yalnız şəkk və şübhə yaradır və bunu Qur᾽an ayələrindən azacıq mə᾽lumatı olan hər hansı bir şəxsdən eşitmək belə, insanda təəccüb hissi doğurur.

Çünki fərz edək ki, bu barədə heç bir rəvayət nəql olunmamış və səhabənin itaətsizliyi haqda heç bir söz açılmamışdır.

Bəs «əˈəşfəqtum» yəˈni, növbəti on üçüncü ayə necə, burada pul və var-dövləti Peyğəmbərlə (s) ünsiyyətdə olmaqdan üstün tutanlara və bunun nəticəsində ondan uzaqlaşanlara işarə olunaraq, onlar danlaq atəşinə tutulmurlarmı? Lakin nə etmək olar, təəssüb hissi insanı həlak edən qorxunc bir xəstəlikdir! Daha təəccüb doğuran isə Fəxri Razinin «hökmün xeyirlərindən biri də dünyapərəst insanların, məˈnəvi cəhətdən pak və axirətə həqiqi məˈnada iman gətirmiş şəxslərdən fərqlənmələri oldu» və eyni zamanda «sədəqənin verilməsi yoxsul təbəqənin qəm-qüssəsinə, varlıların isə dindən və Peyğəmbərdən (s) uzaqlaşmalarına səbəb olduğu üçün daha yaxşı olardı ki, hökm icra olunmasın» deməsidir.

Əgər onun dedikləri doğru və düzgün olsaydı, bütün vacib ödənişlərə dair verilmiş hökmləri icra etməmək daha məqsədə uyğun olardı və bu kimi ilahi göstərişlər əql, adət-ənˈənə, varlı və yoxsul təbəqənin ümumi rifahı ilə müxalif olardı. Bütün bunları nəzərə alaraq Əli (ə)-ın fəzilətlərini inkar etmək üçün Fəxri Razinin belə bir – hətta bundan da əsassız məˈnaya istinad etməsi heç də təəccüb doğurmamalıdır.

Burada Nizamuddin Nişapurinin, Fəxri Raziyə tutduğu irada işarə etmək yerinə düşərdi.

Nişapuri deyir:

«Razi deyir ki, Peyğəmbərlə (s) şəxsi söhbətlərdən [görüşlərdən] əvvəl sədəqə verməyi Əli (ə)-ın fəzilətlərindən və onun digər səhabələrindən üstün olmasından hesab etmək olmaz. Çünki ola bilsin onların hökmü icra etmələrinə fürsət olmamışdır.

Bütün bunlarla yanaşı Fəxri Razi deyir: Hökmə icrasında vaxtın olduğunu fərz etsək də belə, bu hökmü icra etmək sədəqə verməyə qadir olmayan yoxsul təbəqənin kədərlənməsinə və varlıların dindən uzaqlaşmalarına səbəb olardı.

Demək, belə bir hökmün icra olunmamasının heç bir nöqsanı yoxdur. Çünki ümumi həmrəˈyliyə səbəb olan hər hansı bir iş nifaq və ayrılığa gətirib çıxaran işlərdən daha çox müsbət nəticə verə bilər. Belə ki, Peyğəmbərlə (s) şəxsi görüşlər üçün sədəqənin verilməsi nə vacib, nə də müstəhəbdir və belə bir hökmü icra

etməmək, icra etməkdən daha yaxşı olardı. Çünki belə şəxsi görüşlər Peyğəmbərin (s) narahatçılığına səbəb olurdu.

Nişapuri, Fəxri Razinin dediklərini nəql etdikdən sonra deyir: Bütün bunların nə dərəcədə təəssüb hissi ilə deyildiyi göz qabağındadır. Axı nə üçün hər zaman Əli (ə)-ın fəziləti haqda bir söz deyildiyi zaman şübhə ilə yanaşaraq hər hansı bir nöqsan axtarmalı və ya qətiyyətlə rədd etməliyik? Məgər o digər səhabələrin malik olmadıqları xüsusiyyətlərə yiyələnə bilməzdimi? Halbuki, Ömərin oğlundan nəql olunan rəvayətdə deyilir: Ömər deyərdi: Əgər Əlinin fəzilətlərindən biri məndə olsaydı, bu mənim üçün qırmızı tüklü dəvələrdən daha qiymətli olardı.

1. Peyğəmbərin (s) yeganə qızı Fatimə (ə) ilə evlənməsi;
2. Xeybər döyüşündə bayraqdar olması;
3. Nəcva ayəsinə əməl etməsi.

Bütün bunlarla yanaşı hər bir insaflı şəxs deyə bilərmi ki, Peyğəmbərlə (s) şəxsi görüş və söhbətlərin aparılması fəzilət deyil, nöqsandır? Kamal [kamillik] yox, eyibdir? Məgər ayədə hökmün icra olunması yasaq olunurmu?! Xeyr! Əksinə, buna əməl edənlərin iki fəzilətə nail olacaqları bildirilir.

Belə ki, həm ehtiyacı olanlara maddi yardım etmiş olur, həm də qəlbində Peyğəmbərə (s) olan məhəbbəti daha da gücləndirərək bir qədər də ona yaxınlaşır və öz çətinliklərini onun vasitəsilə aradan qaldırır və beləliklə onunla ünsiyyətdə olmağın var-dövlətdən əhəmiyyətli olduğunu sübuta yetirmiş olur.[1]

ٓا أَفَاء اللَّهُ عَلَى رَسُولِهِ مِنْ أَهْلِ الْقُرَى فَلِلَّهِ وَلِلرَّسُولِ وَلِذِي الْقُرْبَى وَالْيَتَامَى وَالْمَسَاكِينِ وَابْنِ السَّبِيلِ

## AYƏSİNİN NƏSXİ

***«Allahın Öz peyğəmbərinə [fəth olunmuş] məmləkətlərin əhalisindən [dinc yolla] verdiyi qənimət Allaha, Peyğəmbərə [Məhəmmədə (s) yaxın olan] qohum-əqrəbaya, yetimlərə,***

---

[1] Nişapurinin təfsiri, Təbərinin haşiyələrində, 28-ci cild, 24-cü səh.

***yoxsullara və [pulu qurtarıb yolda qalan] müsafirlərə məxsusdur. Bu ona görədir ki, [həmin mal-dövlət] içərinizdəki zənginlər arasında əldən-ələ düşən bir sərvət olmasın [ondan yoxsullar da faydalansın]. Peyğəmbər sizə nə verirsə onu götürün, nəyi qadağan edirsə, ondan əl çəkin. Allahdan qorxun. Həqiqətən, Allahın cəzası çox şiddətlidir.» (59/7).***

Qətadə ayənin nəsx olunduğunu belə izah edir: «Fəy`» və «qənimət» eyni məʾna daşıyır. Bu səbəbdən də ayədə «fəy`» kəlməsindən istifadə olunaraq qənimət hökmləri bəyan olunur. İslamın zühur etdiyi ilk illərdə qənimət məhz bu ayəyə əsasən, bölünür və əldə olunan qənimətlərdən yalnız ayədə işarə olunan şəxslərə verilirdi. Lakin Ənfal surəsi nazil olduqdan sonra ayə nəsx olundu və artıq qənimət əvvəlki kimi deyil, onun beşdə biri ayədə işarə olunan şəxslərə və yerdə qalan dörd hissəsi də döyüşçü, əsgər və mücahidlər arasında müəyyənləşdirildi.

Ənfal surəsinin 41-ci ayəsində deyilir:

وَاعْلَمُواْ أَنَّمَا غَنِمْتُم مِّن شَيْءٍ فَأَنَّ لِلّهِ خُمُسَهُ

***«Bilin ki, əldə etdiyiniz hər hansı qənimətin beşdə biri Allahındır.»***

Ayənin nəsx olunduğuna dair yalnız Qətadə fikir irəli sürmüşdür.

Lakin alim və tədqiqatçılar onun bu fikri ilə razılaşmayaraq demişlər: Müsəlmanların döyüş zamanı ələ keçirdikləri qənimət Allahın Peyğəmbərə aid etdiyi «fəy` – qənimətdən» bir qədər ayrı sözdür. Çünki «fəy`» adi halda kafirlərdən ələ keçirdikləri şeylərə deyilir, «qənimət» isə yalnız döyüş zamanı əldə olunan hər hansı bir şeydir.

Bu səbəbdən də qətiyyətlə deyə bilərik ki, ayələr arasında heç bir ziddiyyət yoxdur və belə bir halda hökmün hər ikisi qüvvədə olaraq qalacaq və biri digərini nəsx etməyəcəkdir.

***Müəllifin nəzəri:***

Tədqiqatçıların bu barədə dedikləri tamamilə doğru və düzgündür. Onların söylədiklərini dəstəkləyərək demək istəyirəm ki, ayənin nəsx olunması Peyğəmbərin (s) sünnət və adət-ənʾənələri ilə əsla uyğun gəlmir. Çünki tarixi mənbələrin heç

birində Peyğəmbərin (s) əldə olunan qənimətin özünə və qohum-əqrəbasına aid etdiyi və döyüş iştirakçılarına bir şey vermədiyi göstərilmir.

Ayənin nəsx olunduğuna dair irəli sürülmüş nəzəriyyənin batil olduğuna dəlalət edəcək başqa bir dəlil bə͗zilərinin Ənfal surəsinin Həşr surəsindən əvvəl nazil olduğunu hesab etmələridir. Halbuki, bu heç də belə deyildir. Tarixə müraciət edərək deyə bilərik ki, Ənfal surəsi Həşr surəsindən sonra nazil olmuşdur.

Demək «qənimət» ayəsi olan Ənfal surəsi Həşr surəsindəki «fəy`» ayəsindən əvvəl nazil olmuşdur. Halbuki, nəsx edən ayə nəsx olunan ayədən əvvəl deyil, sonra nazil olmalıdır. Bu səbəbdən də qətiyyətlə deyə bilərik ki, «qənimət» ayəsi, zaman baxımından bir qədər sonra nazil olan və haqqında söhbət açdığımız ayəni nəsx etməyə əsla qadir deyildir.

# *ON ÜÇÜNCÜ FƏSİL*

## *YARADILIŞDA BƏDA*

***1. Allahın iradə və təqdiri arasında olan rabitə;***
***2. Bədanın həqiqi mə᾽na və məfhumu;***
***3. Bədanı sübuta yetirəcək dəlillər;***
***4. Bədanın (istifadə olunmadığı) halları;***
***5. Bədaya olan əqidənin yaranması;***
***6. Şiə nöqteyi-nəzərindən bədaya baxış.***

## *İLAHİ İRADƏ VƏ TƏQDİR ARASINDA OLAN RABİTƏ*

### *NƏ ÜÇÜN BƏDA HAQDA SÖHBƏT AÇIRIQ?*

Bir qədər əvvəl nəsx və nəsx ilə əlaqəli olan məsələlər haqda ətraflı söhbət açdıq. Söhbətimizi «bəda» ilə davam etdiririk. Çünki nəsx və bəda eyni məˋna və məfhum kəsb edir. Fərq yalnız bundan ibarətdir ki, nəsx qanunvericilik, bəda isə yaradılış mövzusuna dəlalət edir.

Yəˋni yaradılışda baş verən nəsxə bəda deyilir. Qanunvericilikdə isə bu [dəyişiklik] nəsx adlanır.

Bunların arasında olan sıx bağlılıq bizi yeni fəsil, yəˋni, bəda haqda söhbət açmağa vadar edir.

Bu haqda söhbət açmağa səbəb olan başqa bir dəlil, müsəlmanların bir qisminin şiə məzhəbinin bədaya yanlış təsəvvürü olmuşdur. Düzgün araşdırmalar aparmadıqları üçün nəticədə böyük səhvlərə yol verərək şiə məzhəbi haqda yanlış təsəvvürlər əldə etmişlər. Əgər onlar şiə məzhəbinin bədaya olan əqidə və eˋtiqadlarını düzgün dərk etsəydilər, yol verdikləri səhvlərin şahidi olar və şiə məzhəbinə yaxdıqları yalan və iftiralara bir dəfəlik son qoyardılar. Kaş alimlər dəqiq tədqiqatlar apararaq həqiqətin nə olduğunu dərk edəydilər! Kaş başqaları haqda söylədiklərinin nə dərəcədə doğru və düzgün olduğunu dərk edib yersiz və heç bir əsası olmayan nəzəriyyələr irəli sürməkdən çəkinəydilər!

Bütün bunları nəzərə alaraq bəda haqda ətraflı söhbət açmaq və beləliklə şiə məzhəbi haqda yaranmış yanlış təsəvvürlərin aradan qaldırılmasını özümüzə zəruri hesab etdik.

### *MÜQƏDDİMƏ*

Bu bir həqiqətdir ki, aləmdə mövcud olan bütün varlıqlar Allahın qüdrəti və Onun istək və iradəsi ilə yaradılmışdır. Belə ki, Onun istək və iradəsi olmadan nə bir varlıq yaranar, nə də müstəqil həyat tərzi keçirə bilər (yəˋni bir varlıq kimi davam gətirə bilməz).

Bu da hamıya məˋlumdur ki, Allahın elmi bütün varlıqları yarandıqları ilk gündən əhatə etmiş və onların hər biri əvvəlcədən

müəyyənləşdirilmişdir. Belə müəyyənləşdirilmə dini termin olaraq «təqdir» adlanır.

Allahın daimi elm və qüdrəti və təqdirin nə olduğu bizə mə՚lum olduqdan sonra buna diqqət yetirməliyik ki, onların arasında nə bir ziddiyyət, nə də bir ixtilaf vardır. Yə՚ni, varlıqların vücuda gəlməsi üçün hər şeyi əhatə edən Allahın əzəli elmi arasında heç bir maneə və ziddiyyət mövcud deyildir. Çünki aləmdə mövcud olan bütün varlıqlar Allahın istək və iradəsindən asılıdır və buna bə՚zən «ixtiyar» da deyilir. Demək, əgər Allahın istək və iradəsi olarsa varlıqlar vücuda gəlir, yox əgər olmazsa onların vücuda gəlməsi mahal və qeyri-mümkündür.

Buna da Allahın əzəli və daimi qüdrəti deyilir.

Lakin təqdir və əzəli ilahi elm deyildikdə, Allahın bütün varlıqlara və bütün zaman və şəraitdə, onların həqiqi mahiyyətini əhatə etmiş elmi nəzərdə tutulur.

Yə՚ni, Allah varlıqlar yarandığı ilk gündən onların hansı mərhələləri keçəcəkləri və necə olacaqlarını bilir. Çünki bütün varlıqların həqiqi mahiyyəti Allahın istək və iradəsindən asılıdır. Belə ki, bir qədər əvvəl qeyd etdiyimiz kimi, Allahın istək və iradəsi olmadan onlar nə vücuda gəlir, nə də bir varlıq kimi mövcud ola bilir. Zaman və şəraitin dəyişilməsinə baxmayaraq Allah bütün varlıqlarda baş verən dəyişikliklərdən agahdır və onun elmi hər şeyi əhatə edir.

### *BƏDANIN HƏQİQİ MƏ՚NA VƏ MƏFHUMU*

### *YƏHUDİLƏRİN ALLAHIN QÜDRƏTİNƏ OLAN BAXIŞI*

Bir qədər əvvəl qeyd etdik ki, İlahi elm deyildikdə qüdrət, istək və iradə nəzərdə tutulur. Lakin yəhudilər bunun tam əksinə olan bir əqidəyə əsaslanırlar. Onların əqidəsinə əsasən, varlıqların qəza və qədəri yarandıqları ilk gündən müəyyənləşdirilmiş və bunun dəyişdirilməsi mahal və qeyri-mümkündür. Yəhudilər bu barədə deyirlər: Hər bir varlığın müqəddəratı yarandığı ilk gündən müəyyənləşdirildiyi üçün Allahın əli bağlıdir, onlara nə bir şey verir, nə alır, nə verdiyi şeyləri çoxaldır, nə də onları

azaldır. Qurʾani-Kərimdə yəhudilərin bu yanlış əqidələrinə işarə olunaraq deyilir:

وَقَالَتِ الْيَهُودُ يَدُ اللّهِ مَغْلُولَةٌ

***«Yəhudilər dedilər: Allahın əli bağlıdır».***

Doğrudan da yəhudilərin Allahı aciz, heç bir qüdrət və ixtiyara malik olmadığını, lakin insanın öz əməllərində tam ixtiyar sahibi olduğunu hesab etmələri insanda təəccüb doğurur. Halbuki, hər ikisinin meʾyarı eynidir. Belə ki, əgər Allahın əzəli elmi varlıqların üzərindən qüdrət və ixtiyarın götürülməsinə səbəb olarsa, insanın gördüyü işlərdə də tə`sirli olacaq, yəʾni insan da qüdrət və ixtiyardan məhrum qalacaqdır. Çünki Allahın əzəli elmi onun işlərini əhatə etdiyi kimi, insanın da gördüyü işləri əhatə edəcəkdir. Demək əgər bu əzəli elm Allahın istək və iradəsi ilə fərqli olarsa, insanın da gördüyü işlərlə fərqli olacaqdır.

### *ŞİƏ NÖQTEYİ-NƏZƏRİNDƏN BƏDAYA BAXIŞ*

Şiə məzhəbi isə yəhudilərin tam əksinə olaraq, belə bir əqidədədir ki, Allah varlıqların yaradılmasında və onlarda hər növ dəyişikliklərin baş verməsində tə`sirlidir. Bu kimi dəyişiklikləri «bəda» adlandırırlar. Lakin diqqət yetirmək lazımdır ki, varlıqlardakı dəyişikliklər (bəda) yalnız o zaman baş verə bilər ki, onların aqibəti, qəza və qədəri qətiyyətlə müəyyənləşdirilməmiş olsun və şiə məzhəbinin əqidəsinə əsasən, qəza və qədər əvvəlcədən qəti olaraq müəyyənləşdirildikdə onlarda heç bir dəyişiklik baş vermir. Və əgər bədanın nədən ibarət olduğunu və qəza-qədərin nə məʾna daşıdığını bilmək istəyirsinizsə, aşağıdakı mətləblərə diqqət yetirin.

### *BƏDA VƏ QƏZA-QƏDƏRİN NÖVLƏRİ*

***1. Xüsusi və ya gizli [sirli] elm:***

Allahdan başqa qəza və qədərin nə olduğunu heç kim bilmir. Belə ki, bu kimi elmlər yalnız Allaha məʾlumdur və Ondan başqa heç bir kimsə onlara agah deyildir.

Şübhəsiz ki, bu kimi qəza və qədərdə heç bir dəyişikliklər baş verməyir. Baş verən dəyişikliklər yalnız Allahın elmindən qaynaqlanaraq qəti qəza və qədərin nümunələrində həyata keçir.

Şeyx Səduq özünün «Uyun» adlı kitabında Həsən ibni Məhəmməd Nofəldən nəql edərək deyir: İmam Rza (ə), Süleyman Mərziyə bu haqda verdiyi tə᾽limlərin birində buyurur: Atam, öz atası İmam Sadiq (ə)-dan nəql edərək deyərdi: Allahın elmi iki hissəyə bölünür:

1. Allahın Özünə aid olan və heç kimin agah olmadığı gizli və sirli elmlər. Bəda da məhz bu kimi elmlərdən meydana gəlir.

2. Yalnız Peyğəmbər və mələkləri agah etdiyi elmlər. Əhli-beyt də bu kimi elmlərdən agah olmuşlar.[1]

Məhəmməd ibni Həsən Səffar da özünün «Bəsairud-dərəcat» adlı kitabında Əbu Bəsirdən və o da İmam Sadiq (ə)-dan nəql etdiyi rəvayətdə deyir: "Allah-taala iki növ elmə malikdir: Biri yalnız Onun Özünə mə᾽lum olan sirli elmlər, digəri də yalnız Peyğəmbərlərin və mələklərin agah olduqları elmlər. Biz Əhli-beyt də bu elmlərdən (yə᾽ni Peyğəmbərlərin və mələklərin agah olduqları elmlərdən) agahıq."[2]

### *QƏTİ QƏZA VƏ QƏDƏR*

Qəza və qədərin birinci növündə olduğu kimi, Allah-taalanın Öz Peyğəmbərini və mələklərini agah etdiyi şeylərin həyata keçməsi qəti və dəyişilməzdir. Fərq yalnız bundan ibarətdir ki, bəda qəza və qədərin birinci növündən meydana gəlir, lakin ikinci növü ilə onun heç bir əlaqəsi yoxdur. Bir qədər əvvəl İmam Rza (ə)-dan Süleyman Mərziyə nəql olunduğu rəvayətdə deyildiyi kimi: Əli (ə) buyurur: Allahın elmi iki hissəyə bölünür:

Peyğəmbər və mələkləri agah etdiyi elmlər. Bu kimi elmlərdə bəda və heç bir dəyişikliklər baş verməyir. Çünki Allah-taala Peyğəmbər və mələkləri agah etdiyi şeyləri dəyişməklə heç vaxt onları kütlə qarşısında yalançı kimi tanıtdırmaz. İkinci hissəyə aid olan elmlərdən isə, Allahın özündən başqa bir kimsə onlardan agah olmaz. Bu elmlər bir sirr olaraq yalnız Onun özünə bəlli olar və kimsəni onlardan agah etməz.

---

[1] "Uyunu əxbarir-Riza", 13-cü fəsil, "Biharul-ənvar", «Bəda və nəsx», 2-ci cild, 132-ci səh.

[2] "Biharul-ənvar", «Bəda və nəsx», 2-ci cild, 136-cı səh.

Məhz bu kimi elmlərdə bədanın həyata keçdiyinin şahidi oluruq. Belə ki, Allah-taala istədiyi şeyi tezləşdirir, istədiyini də tə͗xirə salır və ya daha da sabit edir.[1] (Əyyaşi, Füzeyldən nəql edərək deyir: İmam Baqir (ə) buyurardı: Allahın nəzərdə tutuduğu bə͗zi işlərin həyata keçməsi qəti və dəyişilməzdir. Onlarda bəda baş vermədən istər-istəməz həyata keçməlidir. Lakin bə͗zi işləri Allah-taala kimsəyə agah etməmişdir. Bu işlər Allahın istəyi ilə tə͗xirə düşə də bilər, vaxtından əvvəl də həyata keçə bilər. Lakin diqqət yetirmək lazımdır ki, peyğəmbərləri agah etdiyi şeylər hökmən baş verəcəkdir. Çünki Allah Öz Peyğəmbər və mələklərini heç vaxt təkzib etməz.[2]

### *QƏTİ OLMAYAN QƏZA VƏ QƏDƏR*

Əgər Allah-taala hər hansı bir şeyin baş verməsini Öz Peyğəmbər və mələklərinə xəbər verərsə, lakin onun həyata keçməsini öz istək və iradəsindən asılı edərsə, bu kimi qəza və qədərə qəti olmayan qəza və qədər deyilir. Və bu kimi işlərdə bə͗zən «bəda» (yə͗ni dəyişiliklər) baş verir. Yə͗ni, bu kimi hallarda Allahın istək və iradəsi, baş verəcək şeyin əksinə, dəyişikliklərə yol verilir və buna da «bəda» deyilir.

Qur͗ani-Kərimdə bu haqda deyilir:

يَمْحُو اللّهُ مَا يَشَاء وَيُثْبِتُ وَعِندَهُ أُمُّ الْكِتَابِ

***«Allah istədiyi şeyi məhv edər, istədiyini də sabit saxlayar. Kitabın əsli [lövhi məhfuz] Onun əlindədir.»***

### *BƏDANI SÜBUTA YETİRƏCƏK DƏLİLLƏR*

1. Bə͗zən Allahın istək və iradəsi, qəti olmayan qəza və qədərin (şərti elmlər və ya təqdirati-müəlləq) tam əksinə olur və belə olduqda Allahın istək və iradəsinə əsasən, dəyişikliklər baş verir.

Şiə məzhəbi də məhz bu əqidəyə əsaslanır. Onlar bəda və qəti olmayan qəza və qədərdə Qur͗ana və bu məzmunda nəql olunmuş hədis və rəvayətlərə istinad edirlər. Bir qədər əvvəl bu

---

[1] “Biharul-ənvar”, «Bəda və nəsx», 4-cü cild, 133-cü səh.

[2] Uyunl əxbar ər-Rza 13-cü fəsil.

ayələrdən ikisinə işarə etdik. Nəql olunmuş rəvayətlərə gəldikdə isə, onlardan bir neçəsinə işarə etməklə kifayətlənirik.

1. Əli ibni İbrahimin təfsirində Abdulla ibni Muskan, İmam Sadiq (ə)-dan nəql etdiyi rəvayətdə deyir: «Qədr gecəsi mələklər və insanların əməllərini yazan katiblər göyün yerə ən yaxın olan təbəqəsinə enərlər. Onlar orada bir il ərzində baş vermiş hadisələri ölçüb-biçər, sonradan yazarlar. Allah-taala istədiyi vaxt baş verəcək şeyləri dəyişər, tezləşdirər və ya tə͗xirə salar. Dəyişiklikləri icra edən mələklərə yazdıqları şeyləri Öz istədiyi kimi ixtisara salmağı, orada dəyişiklər aparmağı və ya nəyisə oraya əlavə etməyi əmr edər.

İbni Muskan deyir: İmam Sadiq (ə)-dan soruşdum: Hər şey Allahın hüzurundakı kitabda yazılmışdırmı?

Buyurdu: Bəli.

Dedim: Bütün bunlardan sonra nə kimi işlər baş verə bilər?

Buyurdu: Allahın istədiyi hər bir şey.[1]

2. Yenə də Əli ibni İbrahimin təfsirində Abdulla ibni Muskan, İmam Baqir (ə)-dan nəql etdiyi rəvayətdə deyir: İmam Sadiq və İmam Kazim (ə) ***«Fiha yufrəqu kullu əmrin həkim»*** ayəsini belə izah etmişlər: Allah-taala bir il ərzində baş verəcək hadisələri həmən ilin qədr gecəsində müəyyənləşdirir və onu [lövhi-məhfuzda] yazdırır. Lakin bütün bunlarla yanaşı hər şey Onun istək və iradəsindən asılıdır. Ömürləri, ruziləri və xəstəlikləri azaldır və ya çoxaldır. Baş verəcək hadisələri Öz istək və məsləhəti ilə tə͗xirə salır, tezləşdirir və ya dəyişdirir. O, istədiyi hər bir şeyi azaldır, çoxaldır və istədiyi ölçü və miqdarda müəyyənləşdirir...[2]

3. Təbərsinin «Ehticac» adlı kitabında Əmirəl-mö͗minin Əli (ə)-dan nəql olunmuş rəvayətdə deyilir: «Əgər Qur͗anda — Allah istədiyi şeyi məhf edər, istədiyi şeyi sabit saxlayar» — ayəsi olmasaydı, bu vaxta qədər baş vermiş və bundan sonra da qiyamət gününədək baş verəcək şeylərdən sizi agah edərdim.[3]

---

[1] "Biharul-ənvar", «Bəda və nəsx», 2-ci cild, 133-cü səh.

[2] "Biharul-ənvar", «Bəda və nəsx», 2-ci cild, 133-cü səh.

[3] "Ehticac", 137-ci səh.

Bu rəvayəti Şeyx Səduq (ə.r) da Əsbəğin vasitəsilə Əli (ə)-dan, özünün «Əmali» və «Tohid» adlı kitablarında nəql etmişdir.

4. Əyyaşinin təfsirində Zürarənin İmam Sadiq (ə)-dan nəql etdiyi rəvayətdə deyilir: «İmam Baqir, İmam Səccad, İmam Hüseyn, İmam Həsən və İmam Əli (ə) bu haqda buyurmuşlar: Əgər Qur᾿anda «məhv və sabitlik» (19-39) ayəsi olmasaydı, bu günədək və bundan sonra qiyamətədək baş verəcək şeylərdən sizi agah edərdim.

Bu məzmunda digər rəvayətlər də nəql olunmuşdur. Lakin bu dörd rəvayətlə kifayətlənib söhbətimizi tamamlayırıq.

***BƏDANIN İSTİFADƏ OLUNMADIĞI HALLAR***

Qeyd etdiklərimizdən bu nəticəyə gəlmək olur ki, bə᾿zən «Lövhi-məhfuz», «Ummul-kitab» və ya «Elmul-məxzun» adlanan qəti olmayan ilahi elm və təqdirlərdə (qəza və qədərdə) heç bir dəyişliklik (bəda) baş verməyir. Çünki ilk gündən e᾿tibarən Allah bütün məxluqatı, hətta kiçicik zərrəcikləri belə tanımış və onların xüsusiyyətlərindən agah olmuşdur. Elm və agahlıq belə bir geniş dairəni əhatə etdiyi bir halda bəda və dəyişiklik mümkün olardımı?! Xeyr! Allah hər şeyi lazımi zaman və məkanda yaratmış və baş verəcək hər bir hadisənin zamanını əvvəlcədən müəyyənləşdirmişdir.

Bu barədə bir çox hədis və rəvayətlər varid olmuşdur və biz onlardan bir neçəsinə işarə edirik:

1. Şeyx Səduq özünün «İkmaluddin» adlı kitabında Əbu Bəsir və Səmaədən nəql etdiyi rəvayətdə deyir: İmam Sadiq (ə) buyurur: «Allahın baş verəcək şeylər haqda xəbərsiz olduğunu və dünən bilmədiyi şeylərdən bu gün bəda ilə agah olduğunu hesab edən şəxslərdən uzaq olun.»

2. Əyyaşi, İbni Sənnandan nəql etdiyi rəvayətdə deyir: İmam Sadiq (ə) buyurur: ***«Allah istədiyini tezləşdirər, istədiyini tə᾿xirə salar, istədiyini də lövhi məhfuzundan silər və ya orada sabit saxlayar. Kitabın əsil nüsxəsi (lövhi-məhfuz) Onun yanındadır.»***

Sonra sözlərinə əlavə edərək buyurur: Bu səbəbdən də istədiyi hər bir şey əvvəlcədən Ona mə՝lumdur və Allahın xəbəri olmadan aləmdə heç bir dəyişiklik baş verməyir.[1]

3. Əyyaşi, Əmmar ibni Musadan nəql etdiyi rəvayətdə deyir: İmam Sadiq (ə)-dan (Yəmhullah – Allah istədiyini məhv edir...» ayəsi haqda soruşduqda buyurdu: Baş verəcək hadisə və bütün qəza və qədərlər iki kitaba yazılır: «Ummul kitab» adlanan kitab sabit və dəyişlməz, digəri isə – «Kitabun məhfuz» – isbatidir. Yə՝ni, insanların qəza və qədəri orada yazılır. Lakin edilən dualar nəticəsində orada müəyyən dəyişikliklər olunur. Burada yazılanlar «Ummul kitabda» yazıldıqdan sonra isə artıq orada nə ixtisara yol verilir, nə də əlavəyə.[2]

3. Şeyx Tusi özünün «Qeybət» adlı kitabında Bəzəntidən, o da İmam Rza (ə)-dan nəql etdiyi rəvayətdə deyir: «İmam Zeynəlabidin, İmam Əli ibni Əbu Talib, İmam Baqir və İmam Sadiq (ə) buyurmuşlar: «Məhv və sabitlik» ayəsi olduğu bir halda biz gələcəkdən necə xəbər verə bilərik? (Yə՝ni, İlahi qəza və qədər dəyişkəndir. Bu səbəbdən də heç kim gələcəkdən xəbər verməyə qadir deyildir.) Lakin Allah-taala hətta cüz՝i dəyişikliklərdən belə agah və xəbərdardır.

Dəyişikliklərdən sonra Allahın baş vermiş şeylərdən xəbərdar olduğunu hesab edən şəxslər isə küfr edərək təkallahlıq dinindən çıxmış olarlar.[3]

Qəza və qədər, yaradılışdan əvvəl Allahın hər şeydən agah olduğu və Onun elminin hər şeyi əhatə etdiyi haqda kifayət qədər hədis və rəvayət nəql olunmuşdur. Şiə məzhəbinin bəda və ilahi qəza və qədərə dair yaranmış əqidəsi də məhz bu məzmunda nəql olunmuş rəvayətlər və Peyğəmbərin (s) sünnəsi əsasında formalaşmışdır.

### *BƏDAYA OLAN ƏQİDƏNİN YARANMASI*

Qeyd etdik ki, «bəda» yalnız «məhv və sabitlik lövhü» adlanan şərti elm, qəza və qədərdə baş verir və bu kimi hallarda

---

[1] “Biharul-ənvar”, «Bəda və nəsx», 2-ci cild, 139-cu səh.
[2] “Biharul-ənvar”, «Bəda və nəsx», 2-ci cild, 139-cu səh.
[3] “Biharul-ənvar”, «Bəda və nəsx», 2-ci cild, 139-cu səh.

«bəda»ya olan əqidə heç də cəhlin (xəbərsizliyin) Allaha aid olunmasına səbəb olmur. Çünki «bəda» Allahın tükənməz və əzəli elmində mövcuddur və Onun istək və iradəsi ilə icra olunur. Deməki, «bəda» nəinki cəhlin Allaha aid olunmasına və Onun əzəmətinə xələl gətirilməsinə səbəb olmur, əksinə bir neçə müsbət nəticələr də verir.

1. «Bəda» varlıqların Allahın elm və qüdrəti ilə yarandığına, baş verən bütün hadisə və dəyişikliklərin Allahın istək və iradəsi ilə həyata keçdiyinə və hər şeyin Allahın qüdrət və əzəmətindən asılı olduğuna insanın diqqət yetirməsinə səbəb olur. İnsan artıq dərk edir ki, aləmdə vücuda gəlmiş hər bir varlıq və baş verən hər bir dəyişiklik, hadisə və cərəyan məhz Allahın qüdrət, istək və iradəsi ilə həyata keçir.

2. Bədanın mahiyyəti bəlli olmaqla Xaliqlə (Allahın), məxluqun elmi arasında olan fərq özünü büruzə verir. Hətta Peyğəmbər (s) və İmamların elmi Allahın elminin əhatə etdiyi şeyləri əhatə edə bilməz. Çünki Allah bəda və baş verəcək dəyişikliklərdən agahdır və hər şey Onun istək və iradəsi ilə idarə olunur. Lakin məxluqatın elmi yalnız qəza və qədərin zahirini əhatə edir və baş verəcək dəyişikliklərdən heç bir məˈlumatı olmur.

Başqa sözlə desək, İlahi təˈlim almış bəˈzi şəxslərin yaradılışa olan elm və məˈlumatı nə qədər geniş olsa da, yenə də Allahın elmindən az və naqis olacaqdır. Çünki belə şəxslər Allah-taalanın baş verəcəyi qəti olan və dəyişilməyəcəyindən agah etdiyindən savayı Ona aid olan elmə nail ola bilmirlər. Beləliklə, hər bir peyğəmbər və İmam bütün hallarda bəda (dəyişilmə) ehtimalını verəcək və bu da onların elmi səviyyələrini elmi hər şeyi əhatə edən, hətta bədanın baş verib-verməyəcəyindən tam agahlığı olan İlahi elmdən fərqləndirib ondan olduqca aşağı səviyyədə olduğunu büruzə verəcəkdir.

3. «Bəda»ya olan baxış və belə bir əqidəyə əsaslanmaq insanın Allaha daha çox diqqət yetirməsinə səbəb olur. Bundan sonra hər zaman Allah dərgahına üz tutur, bütün istək və

hacətlərini və qarşılaşdığı çətinliklərin aradan qaldırılmasını məhz Ondan diləyir.

Xeyirli işlər görməkdə, layiqincə ibadət etməkdə, xoşbəxtliyə və səadətə nail olmaqda Allahdan kömək diləyir və bədbəxtçiliyə səbəb olan bütün işlərdə Allaha pənah aparır. İbadət və bəndəliyin bu mərhələsi bədaya olan əqidədən əldə olunur. Çünki bədanı nəzərə almaqla Allah-taala edilən dualar nəticəsində tale, qəza və qədərdə dəyişikliklər edir. Yə`ni, insan taleyində nəzərdə tutulan bə`zi şeylər tə`xirə salınır, bə`ziləri də sabit olaraq qalır.

Yox əgər bədanı qəbul etməriksə, onda ilahi təqdir, qəza və qədərdə nəzərdə tutlan hər bir şey həyata keçəcək və heç bir dəyişiklikliyə yol verilməyəcəkdir. Belə bir əqidəyə əsasən, Allah dərgahına edilən dua və istəklər mə`na və məfhum kəsb etmədiyi üçün heç bir nəticə verməyəcəkdir. Çünki əgər insan Allahdan bir şey dilədikdə güc və icbar hər şeyi həll edərsə, istər-istəməz həyata keçməli və heç bir dəyişiklikliyə yol verilməyəcəkdir. Deməs, belə bir halda edilən dualar da nəticəsiz qalacaqdır. Belə bir tərzi-təfəkkürün nəticəsində insanda etdiyi duaların qəbul olunmasına qarşı ümidsizlik yaranır. Allaha olan qorxu hissinin aradan getməsi, məs`uliyyətsizlik və diqqətsizlik hissinin güclənməsi insanda tək duaya qarşı deyil, ibadətə, sədəqəyə və s. xeyirxah işlərə qarşı soyuq münasibət bəsləməsinə və tədriclə bütün bunlardan uzaqlaşmağına gətirib çıxarır.

Hər şeydən əvvəl bu məsələyə daha çox diqqət yetirmək lazımdır ki, bədaya olan inam, insanın iman və əqidəsinin güclənməsinə daha böyük tə`sir göstərir. Belə ki, nəql olunmuş bir çox rəvayətlərdə nə dərəcədə əhəmiyyətli olduğuna tə`kid edilərək onun ibadətlərin ən şərəflisi olduğuna işarə olunur. Şeyx Səduqun «Tohid» adlı kitabında İmam Sadiq (ə)-dan bu məzmunda nəql etdiyi rəvayətlərdən birində deyilir: ***«Allaha edilən ibadətlərin ən şərəflisi bədaya olan inam və əqidədir.»***

Şeyx Səduq, Hişam ibni Salimdən, o da İmam Sadiq (ə)-dan nəql etdiyi rəvayətdə deyir: «Allaha edilən ən böyük tə`zim və pərəstiş (ibadət) varsa, o da bədaya olan inam və e`tiqaddır.»[1]

---

[1] "Tohid", Şeyx Səduq, Bəda fəsli, 212-ci səh.

Məhəmməd ibni Müslümdən nəql etdiyi başqa bir rəvayətdə deyir: «Allah-taala heç bir peyğəmbəri onlarda üç şey haqda əhd-peyman bağlamadan bu ilahi vəzifəyə (peyğəmbərliyə) tə᾽yin etməmişdir:

1. Allah qarşısında təslim olduğunu e᾽tiraf etməsi;

2. Şirkdən (Allaha şərik qoşmaqdan) uzaq olması;

3. Bədaya iman və e᾽tiqadının olması, Allahın nəzərdə tutduğu şeyləri (qəza və qədəri) tezləşdirib və ya tə᾽xirə salmasını qəbul etmələri;[1]

Əhli-beytin bədaya bu dərəcədə çox əhəmiyyət vermələrinin və öz davamçılarına bunu tə᾽kid etmələrinin əsas səbəbi bədanın inkar edilməsinin Allahın qüdrətinin inkar edilməsilə eyni olmasıdır. Yə᾽ni, Allah heç bir qüdrətə malik deyil, qəza və qədərin tə᾽xirə düşməsində, tezləşdirilməsində və ya dəyişdirilməsində heç bir rol oynamur.

***«Allah onların təsəvvür etdiklərindən daha uca və daha böyükdür».***

Hər iki əqidə, yə᾽ni, bədanın və qəza-qədərin dəyişilməsində ilahi qüdrətin inkar olunması batil və əsassız tərzi-təfəkkür olmaqla yanaşı, insanın dualarının qəbul olunmasında mə᾽yus və ümidsiz olmasına və ehtiyac duyduğu zaman Allahdan uzaq düşərək Onun rəhmətindən məhrum da olmasına səbəb olur.

### *ŞİƏ MƏZHƏBİNİN BƏDAYA OLAN BAXIŞI*

Bəda dedikdə, şiə məzhəbinin davamçıları nəyinsə zahir olmasını və aşkara çıxmasını nəzərdə tuturlar. Yə᾽ni, bəşəriyyətə mə᾽lum olmayan şeyləri Allah-taala aşkara çıxararaq, onları bilmədiklərindən agah edir.

Bədanın yaratmaq və xəlq etmək mə᾽nalarında işlənməsinin də hər iki ayə ilə əlaqəsi vardır. Çünki bir şeyi yaratmaq, sözün əsl mə᾽nasında həmən şeyi zahir etmək və aşkara çıxarmaq deməkdir.

Əhli-sünnə mənbələrində nəql olunmuş bir çox rəvayətlərdə bəda məhz bu mə᾽nada işlənmişdir. Necə ki, Buxari, Əbu Əmirdən, o da Əbu Hüreyrədən nəql etdiyi rəvayətdə deyir:

---

[1] "Tohid", Şeyx Səduq, Bəda fəsli, 212-ci səh.

Peyğəmbər (s) buyurur: Bəni-İsraildən üç nəfər şəxsin biri korluq, digəri keçəllik, başqa birisi isə qotur xəstəliyinə düçar olmuşdu. Bəda baş verdi və onlar ilahi imtahanla sınanmalı oldular. Beləliklə Allah tərəfindən onlara mələklər göndərildi...

Bədanın belə bir mə`na daşıdığının Qur`anın bir çox ayələrində də şahidi oluruq.

الآنَ خَفَّفَ اللّهُ عَنكُمْ وَعَلِمَ أَنَّ فِيكُمْ ضَعْفًا

***«[Ey mö`minlər!] İndi Allah yükünüzü yüngülləşdirdi [aşkar etdi]. Çünki O sizdə zəiflik olduğunu bilirdi.» (8/66).***

لِنَعْلَمَ أَيُّ الْحِزْبَيْنِ أَحْصَى لِمَا لَبِثُوا أَمَدًا

***«İki tayfadan [mö`minlərdən və kafirlərdən] hansının onların [mağarada] qaldıqları müddəti daha düzgün hesabladıqlarını bilmək üçün...» (18/12).***

لِيَبْلُوَكُمْ أَيُّكُمْ أَحْسَنُ عَمَلًا

***«Biz yer üzündə olanları onun [sakinləri] üçün bər-bəzək yaratdıq ki, onlardan daha gözəl əməl sahibi olduğunu yoxlayıb ayırd edək.» (18/1).***

Əhli-sünnə mənbələrində nəql olunmuş rəvayətlərdə də göstərilir ki, dua edib sədəqə vermək (yoxsullara maddi yardım etmək) insan taleyində dəyişiklikliyə səbəb olur. Əgər insanlar Allahın istək və iradəsi ilə əlaqələndirmədən gələcəkdə baş verəcək hadisələrdən qəti xəbər versəydilər, bunu qəti qəza və qədər adlandırmalı olacaqdıq. Bu da bir qədər əvvəl haqqında söhbət açdığımız üç hissədən ibarət olan qəza və qədərin ikinci hissəsini təşkil edir.

Gələcəkdə baş verəcəyinə dair verilmiş bu kimi xəbərlər bəda və dəyişiklik baş vermədən həyata keçəcəkdir. Çünki Allah insanları baş verəcək hadisələrdən agah etdikdən sonra dəyişikliklərə yol verməklə Öz peyğəmbərini və əməli-saleh bəndələrini e`tibar baxımından onların nəzərindən salmır.

Əgər bir şeyin baş verəcəyindən xəbər versələr, amma onun Allahın istək və iradəsindən asılı olaraq müəyyən şərtlər əsasında həyata keçəcəyini desələr, özü də bu şərtlər o xəbərdə göstərilən əlamətlər olsa və burada digər xarici əlamətlərdən də istifadə edilsə, onda burada bəda və dəyişikliklərə də ehtimal vermək olar.

Yox, əgər Allahın istək və iradəsi bu kimi xəbərlərin əksinə olaraq həyata keçməzsə, yenə də bunu yalan hesab etmək olmaz. Bunu Allahın istək və iradəsindən xaric olan gələcək haqda verilən xəbər də adlandıra bilərik. Çünki qeyd etdiyimiz kimi, baş verəcək hadisələrin əsas şərti bundan ibarətdir ki, Allahın istək və iradəsi ilə ziddiyyət təşkil etməmiş olsun.

Əyyaşi bu haqda Əmr ibni Həməldən nəql etdiyi rəvayətdə deyir: Əli (ə) aldığı qılınc yarasından ölüm ayağında olduğu zaman məni yanına çağırıb buyurdu: «Əmr! Tezliklə dünyamı dəyişib sizi tərk edəcəyəm. Agah olun ki, hicrətin yetmişinci ilində böyük çətinliklərlə qarşılaşacaqsınız.»

Əmr deyir: Əli (ə)-dan soruşdum: Bundan sonra çətinliklər aradan qalxacaqmı?

Buyurdu: «Bəli, aradan qalxacaqdır.»

Sonra bu ayəni tilavət etdi:

يَمْحُو اللّهُ مَا يَشَاء وَيُثْبِتُ وَعِندَهُ أُمُّ الْكِتَابِ

***«Allah istədiyi şeyi məhv edər, istədiyini də sabit saxlayar». (13/39).***

# *ON DÖRDÜNCÜ FƏSİL*

## *QURʾANIN TƏFSİRİNƏ DAİR ÜMUMİ QANUNLAR*

***1. Təfsirin məʾnası;***
***2. Qurʾanın təfsiri üçün möʾtəbər olan sənədlər;***
***3. Qurʾanın vahid xəbərlə təfsiri;***
***4. Qurʾanın vahid xəbərlə müəyyən və xüsusi hal tapması;***
***5. Sual və cavablar.***

## *TƏFSİRİN MƏ᾽NASI*

Ayələrin mə᾽na və məfhumunun və Allahın nazil etdiyi ayələrdə nəyi nəzərdə tutduğunun açıqlanmasına təfsir deyilir. Bu səbəbdən də ayələri təfsir edərkən əql və şəriət baxımından e᾽tibar kəsb edən əsaslı dəlillərə istinad etmək lazımdır. Çünki əvvəla, qeyri-mö᾽təbər sənəd və mənbəələrə istinad etmək şər᾽i nöqteyi-nəzərdən haram, digər tərəfdən də Allahın izni olmadan hər hansı bir mətləbi Ona aid etmək haram və bağışlanmaz bir günahdır. Qur᾽ani-Kərimdə bu haqda deyilir:

قُلْ آللّهُ أَذِنَ لَكُمْ أَمْ عَلَى اللّهِ تَفْتَرُونَ

***«De ki: [Bunu deməyə] Allah özü sizə izn verdi, yoxsa Allaha iftira yaxırsınız?»***

وَلاَ تَقْفُ مَا لَيْسَ لَكَ بِهِ عِلْمٌ

***«[Ey insan!] Bilmədiyin bir şeyin ardınca getmə [bacarmadığın bir işi görmə, bilmədiyin bir sözü də demə.] (17/36)***

Qur᾽anın əsaslı dəlillərlə təfsir olunmasına dair kifayət qədər hədis və rəvayət nəql olunmuşdur. Bütün bunlarla yanaşı nəql olunmuş rəvayətlərdə Qur᾽anın şəxsi rə᾽y və nəzərlə təfsir olunmasının qətiyyətlə qadağan olunduğu da göstərilir.

Buradan belə bir qənaətə gəlmək olur ki, Qur᾽anın təfsir olunmasında şəxsi rə᾽y və nəzərlərə istinad etməklə yetkin nəticəyə gəlmək olmur. Belə bir təfsir üsulunda əldə olunan şey varsa həqiqət və gerçəklik deyil, zənn və gümandır.

وَإِنَّ الظَّنَّ لَا يُغْنِي مِنَ الْحَقِّ شَيْئًا

***«Zənn isə əsla həqiqət deyildir».***

## *QUR᾽ANIN TƏFSİRİ ÜÇÜN MÖ᾽TƏBƏR SAYILAN SƏNƏDLƏR*

Bir qədər əvvəl qeyd etdik ki, Qur᾽an zənn və gümanla deyil, əql və şəriət nöqteyi-nəzərindən e᾽tibar kəsb edən əsaslı dəlillərə söykənilərək təfsir olunmalıdır. Müfəssir Qur᾽anı təfsir edərkən yalnız əqli, elmi və şər᾽i dəlillərə istinad etməli və ilk növbədə aşağıda qeyd olunanları nəzərə almalıdır:

1. Qur᾽anda işlənilən kəlmələrin zahiri mə᾽nası təfsir üçün mö᾽təbər sənədlərdən biri hesab olunur;

2. Sağlam və fitri əql şəxsi zövq və təfəkkürdən tə᾽sirləndikdə, ondan ayələrin təfsirində mö᾽təbər mənbə kimi istifadə etmək olar. Çünki Peyğəmbər (s) xarici hidayətçi olduğu kimi, əql də mö᾽təbər daxili və batini hidayətçidir.

3. Mə᾽sum imamların buyruqları və onlardan bu məzmunda nəql olunmuş hədis və rəvayətlər Qur᾽anın təfsirində tam mö᾽təbər hesab olunur. Çünki onlar dini məsələlərdə ən e᾽tibarlı mənbə hesab olunurlar. Dini məsələlərdə onlara istinad etmək və bunun zəruriliyi haqqında Peyğəmbərdən (s) onlarla hədis və rəvayət nəql olunmuşdur. Bu rəvayətlərin birində deyilir: «Mən sizin aranızda iki ağır əmanət qoyuram. Əgər onlardan möhkəm yapışsanız, heç vaxt haqq yoldan azmayacaqsınız.»

4. Qur᾽an təfsirində mö᾽təbər zənn doğuran rəvayətlər də e᾽tibarlı hesab olunur.

***İzah:***

Mə᾽sum imamlardan nəql olunmuş mö᾽təbər rəvayətlər şübhəsiz ki, Qur᾽anın təfsirində e᾽tibarlı hesab olunur və əsaslı olaraq onlara istinad edilir. O ki, qaldı zəif rəvayətlərə, təbii ki, onlara istinad olunmur. Görəsən Qur᾽anın təfsirində qəti olmayan, lakin mö᾽təbər hesab olunan rəvayətlərə, yə᾽ni, vahid xəbər halında nəql olunmuş rəvayətlərə istinad etmək olarmı? Təfsir və hədis alimləri arasında bu barədə fikir ayrılığı vardır. Lakin biz belə bir fikirdəyik ki, bu kimi rəvayətlər e᾽tibar kəsb etdikləri üçün təfsir alimləri Qur᾽an ayələrini təfsir edərkən onlara istinad edə bilər.

### ***QUR᾽ANIN VAHİD XƏBƏRLƏ TƏFSİRİ***

Qeyd etdik ki, vahid xəbər halında nəql olunmuş rəvayətlərə – mö᾽təbər olduğu üçün – Qur᾽an ayələrinin təfsirində istinad etmək olar. Lakin alimlərin bə᾽ziləri bu məsələyə irad tutaraq deyirlər: Vahid xəbər halında nəql olunmuş rəvayətlər və zənn doğuran dəlillərin mö᾽təbər hesab olunması bundan irəli gəlir ki, insan həqiqətdən agah olmadığı təqdirdə həqiqəti qəbul etdiyi kimi, vahid xəbər halında nəql olunmuş rəvayətlərə və ya zənn doğuran dəlillərə istinad etməlidir. Zənn doğuran rəvayətləri yalnız o zaman e᾽tibarlı hesab etmək olar ki, onun mə᾽na və

məfhumu hər hansı bir şəriət hökmünə dəlalət etmiş olsun. Çünki insan şəriət hökmlərini bilmədikdə bir təqlidçi kimi üzərinə şər`i vəzifə düşür və yəqinlik gətirən dəlil tapa bilmədiyi təqdirdə zənn doğuran dəlillərə istinad etməlidir!

Rəvayətin mə`na və məfhumunun e`tibar qazanmağının əsas şərt və mə`nası bundan ibarətdir. Lakin bu kimi şərtlər mə`sum imamlardan ayənin təfsiri haqda nəql olunmuş rəvayətlərdə mövcud olmur. Çünki təfsir xarakterli rəvayətlər adətən şər`i hökmlərə aid olmur (yə`ni bu rəvayətlərdə şəriət hökmləri açıqlanmır). Qisas və keçmiş ümmətlər haqda nazil olmuş ayələri buna misal çəkmək olar. Deməк, vahid xəbər halında nəql olunmuş rəvayətləri təfsir xarakteri daşıyan bütün hədis və rəvayətlərə şamil etmək olmaz və eyni zamanda onların hamısının mö`təbər olduğunu sübut etməyə də qadir olmayacaqdır.

Lakin bu kimi iradlar tamamilə zəif və əsassızdır. Çünki üsul elmində sübuta yetirilib ki, gerçəkliyi zənni və ehtimali olaraq bizə mö`təbər göstərən dəlillər şər`i nöqteyi-nəzərdən və şəriət sahibinin nəzərinə uyğun olaraq elmi və qəti dəlillərin yerində işlədilir.

Demək, elmi dəlillərdən istifadə olunan bütün hallarda şər`i nöqteyi-nəzərdən mö`təbər hesab olunan bu kimi zənni dəlil və əlamətlərə istinad etmək olar. Mö`təbər hesab olunan vahid xəbər halında nəql olunmuş rəvayətlər də mö`təbər zənni dəlillərdən biridir. Və bütün hallarda yalnız bir elmi dəlilin yerinə ondan istifadə etmək olar. Alimlərin hal-hazırkı və daim istifadə etdikləri üsul, dediklərimizə əsaslı dəlil ola bilər. Çünki alimlər mö`təbər elmi dəlillərdən istifadə edib onlara tabe olduqları kimi, «əmarat» adlanan mö`təbər zənni əlamətlərdən də istifadə edib onlara tabe olurlar. Müqayisə etdikdə də elmi və zənni dəlillər arasında elə bir böyük fərqin olmadığına əsaslanırlar.

Məsələn, bir şəxsin nəyəsə malik olmasına dini terminologiyada «yəd» deyilir. Bu da şəxsin malikiyyət əlamətlərindən biri hesab olunur. Və camaat həmən əlamətlər əsasında hər hansı bir şəxsi malik olduğu şeyin həqiqi sahibi hesab edir. O ki, qaldı şəriət sahibinə, adət halını almış belə bir qayda-

qanunu onlara yasaq edərək mənfi xüsusiyyət kimi qələmə verməmişdir.

Bəli, vahid xəbər və digər zənni yollarla nəql olunmuş rəvayətlər barədə başlıca şərt bundan ibarətdir ki, tək bu rəvayətlərə istinad olunmamalı və əldə olan sənədin mö᾿təbərliyinə dəlalət edəcək bütün xüsusiyyətlərə malik olmalıdır. Və bu xüsusiyyətlərdən biri də sənəddə (rəvayətdə) yalana yol verilməməsidir. Yalan o yol verilən rəvayəti isə vahid xəbər kimi qəbul edə bilmərik.

Bu səbəbdən də icma, sünnə, Peyğəmbərdən (s) nəql olmuş mö᾿təbər hədis, Qur᾿an və ya mö᾿təbər əqli hökmlə müxalif olan hər hansı bir hədis və rəvayət, e᾿tibarlılığına dəlalət edəcək digər xüsusiyyətlərə malik olsa da, heç bir e᾿tibar kəsb etməyəcəkdir. Və belə olduqda həmən zənni dəlilin istər şəriət hökmlərinə, istərsə də digər məsələlərə aid olması arasında heç bir fərq olmur.

Vahid xəbər halında nəql olunmuş rəvayətlərin bu xüsusiyyətlərə malik olmasının zəruriliyinin əsas səbəbi bunun üçündür ki, rəvayəti nəql edən şəxs hər hansı bir baxımdan e᾿tibara malik olsa da, nəql etdiyi rəvayətdə ziddiyyətliyə ehtimal verilmiş olsun. Çünki heç olmasa hədisin səhv olmasına ehtimal vermək olar. Belə bir ehtimalın verildiyi bir halda, mö᾿təbərliyini sübuta yetirəcək dəlillər əldə etməyənədək vahid xəbər halında nəql olunmuş rəvayətlərə istinad etməməliyik. Belə bir dəlillərə [e᾿tibarlılığına dəlalət edəcək xüsusiyyətlərə] malik olmaqla vahid xəbər halında nəql olunmuş rəvayətlərdə ehtimal verilən səhvlərə bir o qədər də ciddi yanaşmaya bilərik. Bu isə yalnız o zaman ola bilər ki, vahid xəbər halında nəql olunmuş hədis və rəvayətlərdə yalana yol verilməmiş olsun. Yox, əgər nəql olunmuş rəvayətin mətnində yalana yol verildiyini müşahidə edəriksə, əsaslı dəlilləri kənara qoyaraq vahid xəbər halında nəql olunmuş rəvayətlərə istinad edə bilmərik.

Vahid xəbər halında nəql olunmuş rəvayətlərin yalan və əsassız olduğu sübuta yetirildikdə də zənni dəlillər heç bir müsbət nəticə vermir. Ümumiyyətlə, bu kimi dəlillər yalnız elə bir

hallarda e`tibar kəsb edir ki, rəvayətin nəql olunmasında əsla yalana yol verilməmiş olsun.

Bununla bir çox həqiqətləri sübuta yetirmək və bir çox suallara cavab tapmaq olar. Bunun üçün də oxucu bütün deyilənləri heç vaxt nəzərdən qaçırmamalıdır.

### *QUR`AN AYƏLƏRİNİN VAHİD XƏBƏRLƏ MÜƏYYƏN VƏ XÜSUSİ HAL TAPMASI*

Qur`anın verdiyi ümumi hökmlər vahid xəbər halında nəql olunmuş rəvayətlərlə müəyyən və xüsusi hal tapa bilərmi? yə`ni, Qur`anın hər hansı ayəsində ümumi hökm verildikdən sonra həmən hökm vahid xəbər halında nəql olunmuş rəvayətlə müəyyənləşə bilərmi? Məsələn, həcc mərasiminin vacibliyi haqda ümumi hökm verilir, lakin növbəti ayədə həccin imkan daxilində yerinə yetirilməsi qeyd olunur. Daha dəqiq desək, bə`zi istisnalar edilməklə hökm ümumi haldan xaric olub, müəyyən hal daşımağa başlayır.

Alimlərin bir çoxu bu suala müsbət cavab vermişlər. Onların fikrincə, Qur`an ayələrinin (hökmlərinin) vahid xəbər halında nəql olunmuş rəvayətlərlə müəyyən və xüsusi hal tapması tamamilə düzgün və adi bir haldır. Lakin əhli-sünnə alimlərinin bə`ziləri bu barədə müxalif mövqe tutmuşlar. Onlardan bə`ziləri vahid xəbər halında nəql olunmuş rəvayətlərlə Qur`anın müəyyən və xüsusi hal tapmasını qətiyyətlə rədd edirlər. İsa ibni Əbban isə bu barədə deyir: Əgər ümumi hal daşıyan hər hansı bir ayə əvvəllər başqa bir qəti dəlil ilə müəyyənləşərsə, onu vahid xəbər halında nəql olunmuş rəvayətlərdə müəyyənləşdirərək ayrıca xüsusi bir hökm kim bəyan etmək olar. Əks təqdirdə, ayənin müəyyən hal tapması heç bir e`tibar kəsb etməyəcəkdir. Mərhum Kərəki deyir: Əgər Qur`anın ümumi xarakter daşıyan hər hansı bir hökmü əvvəllər ayrı bir qeyri-Qur`ani hökmlə müəyyən və xüsusi hal taparsa, vahid xəbər halında nəql olunmuş rəvayətlərdə onu müəyyən və xüsusi hökm olaraq qəbul etmək olar. Qazi Əbu Bəkr isə bu barədə heç bir fikir irəli sürməmişdir.

***MÜƏLLİFİN NƏZƏRİ***

Vahid xəbər halında nəql olunmuş rəvayətlər öz e`tibarını sübuta yetirəcək dəlillərə malik olduğu üçün Qur`anın verdiyi ümumi hökmləri də müəyyənləşdirə bilər. (Yə`ni vahid xəbər halında nəql olunmuş rəvayətlərə istinad edərək deyə bilərik ki, ümumi hökm verildikdən sonra həmən hökmün xırdalıqları bəyan olunmuş və ya müəyyən istisnalar edilmişdir.)

Çünki hər hansı bir mətləb (dəlil) kifayət qədər mö`təbər və əsaslı olarsa, maneə olmadığı təqdirdə istinad olunmalı və əməli olaraq həyata keçirilməlidir.

***SUAL VƏ CAVABLAR***

Qeyd etdik ki, vahid xəbər halında nəql olunmuş mö`təbər rəvayətlərlə Qur`anın ümumi xarakter daşıyan ayələrinə əlavə olaraq müəyyən izahlar verilmişdir. Lakin alimlərin bə`ziləri bu nəzəriyyə ilə müxalif olaraq bunun mümkün olmadığına dair bir neçə dəlilə istinad etmişlər. Lakin bu dəlillər olduqca zəif və əsassızdır.

1. ***Deyirlər:*** Bu bir həqiqətdir ki, Qur`an Allah kəlamıdır və onun ayələri bütünlüklə Allah tərəfindən nazil olmuşdur. Lakin vahid xəbər halında nəql olunmuş rəvayətlərin qəti olaraq nə məzmununun həqiqətlə uyğun olması və nə də onun mə`sum imamlar tərəfindən nəql olunduğu bəllidir. Çünki həm rəvayəti nəql edən şəxsin səhvə yol verdiyinə ehtimal vermək olar, həm də bir qədər dərindən düşündükdə belə bir qənaətə gəlmək olur ki, səhvə yol verilməsinə ehtimal verilən və ya hər hansı bir zənn doğuran dəlilə istinad edərək əsaslı və daha yaxın olan sənədi kənara qoymamalıyıq.

***Cavab:***

Qur`anın Allah tərəfindən nazil olması kimsədə şəkk-şübhə doğurmur. Lakin Qur`anın ümumi xarakter daşıyan bə`zi ayələrinin ümumi məfhumu bir o qədər də bəlli olmur. Qur`anın ümumi hökmlərinə əməl etmək isə vacib və zəruridir. Bunun üçün də ümumi xarakter daşıyan bə`zi ayələrin zahiri mə`nasından istifadə olunur. Ayələrin zahiri mə`naları e`tibar kəsb etdiyi üçün də bu, alimlərin və ümumi kütlənin istifadə etdiyi üsullardan biri

olmuşdur. O ki, qaldı Peyğəmbər (s) və ondan sonrakı mə᾽sum imamlara, bunu onlara qadağan etməmişdir. Başqa sözlə desək, Qur᾽anın Allah tərəfindən nazil olduğu qəti olsa da, onun bə᾽zi mətləblərə dəlalət etməsi zənnidir. Bunun da əqli baxımdan mö᾽təbərliyi sabit olan hər hansı bir zənn doğuran dəlil və məfhumdan əl çəkməyə heç bir maneçiliyi yoxdur.

2. ***Deyirlər:*** Mə᾽sum imamlardan nəql olunmuş mö᾽təbər rəvayətlərə əsasən, nəql olunmuş bütün rəvayətlər Qur᾽anla müqayisə olunmalı və onların doğru olub-olmadıqları aşkara çıxarılmalıdır. Qur᾽anla müxalif olan rəvayətlər kənara qoyularaq onlara istinad olunmamalıdır. Çünki mə᾽sum imamlardan Qur᾽an ayələri ilə ziddiyyət təşkil edən və müxalif olan bir hədis və rəvayət də olsun nəql olunmamışdır.

***Cavab:***

Düzdür, Qur᾽anla müxalif olan bütün hədis və rəvayətlər kənara qoyulmalıdır. Lakin hər şeydən əvvəl müxalif deyildikdə nəyin nəzərdə tutulduğu və müxalifətin mə᾽na və məfhumunun nədən ibarət olduğunu dərk etmək lazımdır. Əgər hər hansı bir məsələdə ürfi (adət-ən᾽ənə) əlamətlər Qur᾽anın bə᾽zi ayələrinin zahiri mə᾽nası ilə müxalif olarsa, mətləbin bu yolla bəyan olunması ürfi və əqli nöqteyi-nəzərdən müxalifət və ziddiyyət kimi qəbul olunmur. Bu səbəbdən də əgər vahid xəbər halında nəql olunmuş hər hansı bir mö᾽təbər rəvayət Qur᾽anın ümumi zahiri mə᾽nası ilə müxalif olarsa, bu kimi rəvayətlər əksinə olaraq ayələrin təfsir və anlamını verməklə yanaşı, zahiri mə᾽nanın nəzərdə tutulmadığını da bildirir.

Demək, rəvayət və ayələrin zahiri mə᾽nası arasında mövcud olan belə bir fərqi ziddiyyət adlandırmamalıyıq. Ziddiyyət yalnız o zaman ola bilər ki, onların hər ikisi, yə᾽ni, həm nəql olunmuş ayələr eyni şəxs tərəfindən sadir olunsun və həm də xitab olunan şəxslər çətinlik çəkmiş olsunlar. Lakin vahid xəbər halında nəql olmuş rəvayətin «xüsusi» və ayənin «ümumi» məfhumu arasında ziddiyyət deyil, birinin digərini açıqlaması müşahidə olunur.

Digər tərəfdən də məʾsum imamlardan Qurʾanın ümumi ayələrini xüsusiləşdirəcək bir çox hədis və rəvayət nəql olunmuşdur.

Demək, əgər Qurʾan vahid xəbər halında nəql olunmuş rəvayətlərlə müəyyən və xüsusi hal taparsa, imamlardan nəql olunmuş «Deyilən hər bir söz Qurʾanla müxalif olarsa bilin ki, bizim tərəfimizdən deyilməmişdir» rəvayəti ilə ziddiyyət təşkil edəcəkdir. Halbuki, Əhli-beytdən (ə) bu məzmunda bir çox rəvayətlər nəql olunmuşdur və bu rəvayətlərin Qurʾanla heç bir ziddiyyəti yoxdur.

İstinad edəcəyimiz başqa bir dəlil bundan ibarətdir ki, İmamlar, bir-biri ilə ziddiyyət təşkil edən iki rəvayətdən birinin Qurʾanla müvafiq olduğunu və bu rəvayətlərdən üstün tutulmasına dair öz müsbət rəʾylərini bildirmişlər. Bu da bir daha bunu sübuta yetirir ki, ayənin ümumi zahiri məʾnası ilə ziddiyyət təşkil edən rəvayət özü-özlüyündə möʾtəbər və əsaslı olmuşdur. Lakin Qurʾanla müvafiq olan başqa daha əsaslı və ziddiyyətli rəvayət olduğu üçün zahirdə müxalif olan rəvayət kənara qoyulmuşdur. Və əgər heç bir eʾtibara malik olmasaydı, artıq burada ziddiyyət və birinin digərinə üstün tutulmasına fürsət olmazdı.

***3 Sonuncu dəlil:***

Qurʾanın vahid xəbər halında nəql olunmuş rəvayətlərlə müəyyənləşməsi və xüsusi hal tapmasını təkzib edən şəxslər gətirdikləri sonuncu dəlildə bu nöqtəyə işarə edirlər. «Əgər Qurʾanın vahid xəbərlə müəyyənləşərək xüsusi hal tapması doğru olarsa, ayələrin vahid xəbərlə nəsx olunmasını doğru və əsaslı hesab etməliyik. Halbuki, Qurʾanın vahid xəbərlə nəsx olunması heç bir eʾtibar kəsb etmir. Demək, ayələrin vahid xəbərlə müəyyənləşərək xüsusi hal tapması da heç bir eʾtibar kəsb etməyəcəkdir. Bir qədər əvvəl qeyd etdik ki, nəsx deyildikdə yenə də ayələrin müəyyənləşib xüsusi hal tapması nəzərdə tutulur. Belə ki, nəsx hər hansı bir hökmün müəyyən dövrdə qüvvədə qalmasına və qüvvədə qalacağı müddət başa çatdıqdan sonra yeni [daha mükəmməl] hökm verilməklə birinci hökm nəsx olunaraq

öz qüvvəsini itirməsinə deyilir. Başqa sözlə desək, hökmün qüvvədə olacağı vaxtın başa çatması, daha dəqiq desək hökmə zaman baxımından müəyyən əlavələrin olunması deməkdir. Demək nəsx, qüvvədə olan hökmə, zaman baxımından əlavə olduğu kimi, ayənin müəyyən və xüsusi hal tapması da hökmən cəmiyyət baxımından olunan əlavə rolunu ifadə edir. Bir sözlə, həm ayənin nəsx, həm də müəyyən və xüsusi hal tapması istisna halı daşıyır. Belə bir halda vahid xəbərlə nəsx e᾽tibar kəsb etdiyi kimi, ayənin müəyyən və xüsusi hal tapması da əsaslı və mö᾽təbər hesab olunacaq.

Lakin heç kim bunun əsaslı hesab etmir.

***Cavab:***

Bunların hər ikisi eyni xüsusiyyətə malik olsa da, zaman və nümunə (misdaq) baxımından aralarında olan fərq onları bir-birindən ayırmağa kömək edir. İcma Qur᾽anın vahid xəbərlə nəsx olunmasını rədd edir. Lakin ayələrin vahid xəbərlə müəyyən və xüsusi hal tapmasına gəldikdə, icma tərəfindən heç bir qəti hökm verilməmişdir və əgər ayələrin vahid xəbərlə nəsx olunmasına dair icma öz rə᾽yini bildirməsəydi, bu da ayələrin müəyyən və xüsusi hal tapması kimi tamamilə əsaslı və məntiqi olardı. Çünki bir qədər əvvəl qeyd etdiyimiz kimi, Qur᾽an sənəd baxımından qəti olsa da, məfhum və dəlalət baxımından qəti deyildir (yə᾽ni, Qur᾽anın Allah tərəfindən nazil olduğu heç bir şəkk və şübhə doğurmur, lakin bə᾽zi ayələrin mə᾽na və məfhumu açıqlanmadan oxucuyua nəyin nəzərdə tutulduğu bir qədər bəlli olmur. Bu səbəbdən də mö᾽təbərliyi əsaslı dəlillərlə sübuta yetirilən vahid xəbər halında nəql olmuş rəvayətlərlə, zənn doğuran mə᾽na və məfhumun kənara qoyulmasının heç bir nöqsanı yoxdur. Demək istər nəsx, istərsə də ayənin xüsusi hal tapması ilə cümlənin zahiri mə᾽nasının kənara qoyulmasında elə bir əsaslı fərq yoxdur.

Nəzərə çarpan yeganə fərq bundan ibarətdir ki, Qur᾽anın vahid xəbərlə nəsx olunmasına icazə verilmədikdə, icma öz qüvvəsində qalır və bu kimi hallarda e᾽tibarı sübuta yetirilməyinə baxmayaraq, ayənin vahid xəbər halında nəql olunmuş rəvayətlərlə nəsx olunmasının qarşısını alır. Bunu da nəzərdən

qaçırmamalıyıq ki, icmanın əsasını əqli dəlillər təşkil edir. Çünki bə᾽zi məsələlər elə bir şəraitdə həyata keçir ki, xaricdə baş vermiş olarsa, mütəvatir olaraq və bir çoxlarının nəql etməsi ilə camaat arasında yayılıb hamının bundan agah olmasına səbəb olur. Yox, əgər belə bir əhəmiyyət kəsb edən məsələni müəyyən şəxslər nəql edərsə, yalan və səhv olduğuna dəlalət edəcəkdir. Vahid xəbər halında nəql olunmuş rəvayətlər isə nəql olunan bu kimi xəbər və rəvayətlərə şamil olub, onların mö᾽təbərliyini sübuta yetirmir (yə᾽ni, azsaylı müəyyən şəxslər tərəfindən nəql olunmuş rəvayətlər – vahid xəbər halında nəql olunmuş rəvayətlər kimi bir o qədər də mö᾽təbər hesab olunmur və vahid xəbər deyildikdə biz bu rəvayətləri nəzərdə tuta bilmərik). Bütün bunları nəzər alaraq əvvəllər dəfələrlə bu mətləbə işarə etdik ki, Qur᾽an və onun nəsx olunması vahid xəbər halında nəql olmuş rəvayətlərlə deyil, mütəvatir olaraq sübuta yetirilmişdir. Çünki əgər Qur᾽anın hər hansı bir ayəsi həqiqətən nəsx olunmuş olsaydı, müəyyən şəxslər tərəfindən vahid xəbər halında deyil, müsəlmanların bir çoxu tərəfindən nəql edilərək bizə mütəvatir olaraq gəlib çatar və beləliklə şübhə birdəfəlik aradan qaldırılmış olardı.

Beləliklə, «nəsx» və «ayələrin müəyyən və xüsusi hal tapması» arasında mövcud olan fərq bəlli olur. Qur᾽an ayələrinin vahid xəbərlə müəyyən və xüsusi hal tapması bir daha sübuta yetirilir.

## *ON BEŞİNCİ FƏSİL*

### *QURʾANIN QƏDİM VƏ YA HADİS OLMASI*

***1. Qurʾanın qədimliyinə və «nəfsi [məʾnəvi] kəlama» əsaslanan əqidənin yaranması;***

***2. Nəfsi kəlamda aparılan araşdırmalar;***

***3. Əşairənin nəfsi kəlama dair gətirdikləri dəlillərin araşdırılması.***

## *QURʾANIN QƏDİMLİYİNƏ VƏ NƏFSİ [MƏʾNƏVİ] KƏLAMA ƏSASLANAN ƏQİDƏNİN YARANMASI*

Qurʾanın Allah tərəfindən həzrət Məhəmmədin (s) peyğəmbərliyinin həqqaniyyətini sübuta yetirmək və bəşəriyyətin hidayəti üçün nazil olması heç bir müsəlmanda şəkk-şübhə doğurmur. Allahın danışması və bunun Onun sübutiyyə sifətlərindən olması da heç kimdə şübhə yaratmır.

Qurʾani-Kərimdə bu haqda deyilir:

وَكَلَّمَ اللّهُ مُوسَى تَكْلِيمًا

***«Allah Musa ilə sözlə [arada heç bir vasitə olmadan] danışdı». (4/164).***

Bəli, yunan fəlsəfəsi müsəlmanlar arasında yayılmayanadək, hər iki məsələ (yəʾni həm Qurʾanın haqq olaraq Allah tərəfindən nazil olduğu və həm də Allahın danışması) hər bir müsəlman tərəfindən qəbul olunur və heç bir ixtilafa səbəb olmurdı. Yunan fəlsəfəsi İslam dünyasına nüfuz etdikdən sonra müsəlmanlar arasında müxtəlif məzhəb və firqələr yaranmağa başladı. Belə ki, biri digərini küfr və dindən çıxmaqda ittiham edir və bir çox hallarda yaranmış ixtilaflar daha da ciddiləşir, qarşıdurma hətta böyüklü-kiçikli müharibələrlə nəticələnirdi. Ən acınacaqlısı isə bu idi ki, öldürən də, ölən də Allahın birliyinə, həzrət Məhəmmədin (s) peyğəmbərliyinə, axirət gününə iman gətirmiş müsəlmanlardan idi. Onlar amansızcasına bir-birinin qanını tökür, namusuna toxunur, elini-obasını qarət edir və nəyin bahasına olursa-olsun öz əqidələrini yaymağa çalışırdılar.

Məgər onların haqq olaraq Peyğəmbər hesab etdikləri həzrət Məhəmməd (s) və ondan sonra müsəlmanlara rəhbərlik edən şəxslər yuxarıda qeyd olunanlara iman gətirənləri müsəlman ümmətindən hesab etmirdilərmi? Belə əqidəli şəxslərin canı, malı, namusu amanda deyildimi?! Elə bir tarixçi və ya mühəddis (hədis nəql edən şəxs) varmı ki, öz kitabında Peyğəmbərin (s) və onun canişinlərinin müsəlmanlarla gələcəkdə ixtilafa səbəb olacaq Qurʾanın qədim və yeniliyini (və bu kimi məsələlər haqda) bir söz dediklərini qeyd etmiş olsun? Məgər onlar Qurʾanın qədim və ya yeni olduğunu qəbul edib-etməyənlər arasında fərq qoyur, qəbul

etmədikləri təqdirdə həqiqətən onları dindən çıxmış hesab edirdilər? Bu ixtilaflara səbəb olan şəxslər qiyamət günü Allah dərgahında sorğu-sual olunarkən bütün bunların qarşısında nə cavab verəcəklər?

Bəli, Qur᾽anın qədim və hadis olması haqda aparılan müzakirələr – müsəlmanlar iki böyük firqəyə – «Əş᾽əri» və «Qeyri-Əş᾽əri»yə bölündükdən sonra meydana gəldi.

Əş᾽ərilər Qur᾽anın qədim olduğunu hesab edir və kəlamı iki hissəyə «ləfzi; nəfsi» [mə᾽nəvi] bölür və bunu Allahın zati sifət və xüsusiyyətlərindən hesab edirdilər. Qur᾽an da ilahi kəlam olduğu üçün onun zati sifəti kimi qədim olmalıdır.

Əşə᾽rilərdən fərqli olaraq «Mö᾽təzilə» və «Ədliyyə» isə belə bir əqidəyə əsaslanırdı ki, Qur᾽an hadis və yeni, kəlam isə ləfzidir. Allahın danışmasını isə Onun zati sifətlərindən deyil, fe᾽li sifətlərindən hesab edirdilər.

### *ALLAHIN ZATİ VƏ FE᾽Lİ SİFƏTLƏRİ*

### *ZATİ VƏ FE᾽Lİ SİFƏTLƏR ARASINDAKI FƏRQ*

***«Zati sifətlər»*** – O sifətlərə deyilir ki, Allahın müqəddəs zatı daim onlarla vəsf edilmiş olsun. Bu sifətlər Allahın müqəddəs zatından bir an olsun belə, əksilməmiş və onların əksinə olaraq vəsf olunmamışdır. Allahın elmini, qüdrətini, hər zaman mövcud olmasını buna misal çəkmək olar. Çünki Allah daim mütləq elmə, qüdrətə malik olmuş, hal-hazırda malikdir və gələcəkdə də malik olacaqdır. Bütün bunların əksinə olaraq, yə᾽ni, Allahı cəhl, acizlik və bu kimi sifət və xüsusiyyətlərlə vəsf etmək isə mahal və qeyri-mümkündür.

***«Fe᾽li sifətlər»* –** O sifətlərə deyilir ki, Allah-taala bə᾽zən bu sifətlərə malik, bə᾽zən də tam əksinə malik olmuşdur. Yaratmaq və ruzi verməyi buna misal çəkmək olar. Deyə bilərik ki, Allah-taala filan varlığı yaratmış, filan varlığı isə yox, kiməsə övlad nəsib etmiş, kiməsə də var-dövlət.

Buradan belə mə᾽lum olur ki, danışmaq da Allahın zatı yox, fe᾽li sifətlərindən olmuşdur. Çünki Allah-taala Musa peyğəmbərlə

danışmış, Fir᾿onla isə yox və ya Allah Musa peyğəmbərlə Tur dağında danışmış, Nil çayında isə yox.

### *NƏFSİ [MƏ᾿NƏVİ] KƏLAM NƏDİR?*

Əş᾿ərilər bu fikirdədirlər ki, adi ləfzi kəlamdan fərqli olaraq «nəfsi kəlam» adlanan başqa bir kəlam da vardır. Sonra onların arasında belə bir fikir ayrılığı yaranmışdır ki, görəsən «nəfsi kəlam» deyildikdə həmən «ləfzi kəlam» nəzərdə tutulur, ya qeyrisi və onların arasında bağlılıq varmı? İkinci nəzəriyyənin tərəfdarları deyirlər: «Ləfzi kəlam» «nəfsi kəlama» dəlalət etdiyi kimi deyil, bizim ixtiyari hərəkətlərimizdən elmə, həyata olan dəlalətdir. Buna da ləfzin birbaşa mə᾿naya etdiyi dəlalət deyil, əqli dəlalət deyilir.

Qur᾿anı «nəfsi kəlam», Allahın danışmasında Onun zati sifətlərindən hesab edən Əşairə (icbari) olaraq Allahın zati sifətləri Özü kimi qədim olduğu üçün Qur᾿anın da qədim olduğunu hesab edirlər. Onların fikrincə Qur᾿anın qədim olması yalnız orada istifadə olunan kəlmə və ifadələrə aiddir. Lakin Fazil Quşçi hətta Qur᾿anın üst qabığını da qədim hesab edir.[1]

Digər firqələrə aid olan müsəlmanlar Qur᾿anı «ləfzi kəlam», Allahın danışmasını isə «Fe᾿li sifət» hesab edirlər. Bu səbəbdən də Qur᾿anın hadis və yeniliyinə əsaslanaraq deyirlər: Qur᾿an Allahın ləfzi kəlamıdır. Aləmdə mövcud olan varlıqlar Allahın əlamətləri olduğu kimi, Qur᾿andakı kəlmə və cümlələr də Onun nişanələrindən hesab olunur. Bu səbəbdən də Qur᾿andakı hər bir cümlə ayə adlanır.

Bu barədə söhbəti nə qədər genişləndirsək də elə bir faydalı mətləb əldə edə bilməyəcəyik. Çünki nə üsulidinə (dinin əsasları), nə də füruidinə (dinin şaxələri), nə Allahı tanımağa və nə də dini tə᾿limlərə aiddir. Lakin necə olursa-olsun söhbətimizi davam edirik. Bəlkə də müsəlmanların əksəriyyətini təşkil edən Əşairə məzhəbinin davamçılarına bəlli olsun ki, onların dinin mühüm məsələlərindən hesab etdikləri belə bir təfəkkür tərzi heç bir əqli

[1] Şərhi-Təcrid, 354-cü səh.

əsası olmayan, şəriət və məzhəb ilə heç bir əlaqəsi olmayan xəyal və cəfəngiyyatdan savayı bir şey deyildir.

### *NƏFSİ KƏLAMDA APARILAN ARAŞDIRMALAR*

Bir qədər əvvəl «nəfsi kəlamın» mə҆nası, yaranması və Qur҆anın qədimliyi ilə bağlı söhbət açdıq.

Bu fəsildə də söhbətimizi davam etdiririk.

Mə҆lum olduğu kimi hər kəlmə əlifba (heca) hərflərindən yaranır və yaranmış kəlmə yeni mə҆na və məfhumdan başqa bir şey deyildir. Allahın belə bir yeni məfhumla əzəli və zati olaraq vəsf olunması isə qeyri-mümkündür. Lakin ixtilafa səbəb olan və haqqında söhbət açdığımız kəlam [adi] ləfzdən ibarət olmayan mə҆nəvi vücuddan ibarətdir. Belə ki, onun tərkib hissəsi ani olaraq aləmdə vücuda gəlir.

Əşairə belə bir kəlamın mövcud olduğunu sübuta yetirir və onu «nəfsi kəlam» adlandırırlar. Onların fikrincə belə bir kəlam Allahın zati sifətlərindəndir və başqaları da belə bir kəlamla vəsf olunmuşlar. Lakin digər firqələrin də varlıqları Əşairənin əksinə olaraq belə bir kəlamın mövcud olduğunu rədd edir və kəlamın yalnız «ləfzi kəlamdan» ibarət olduğuna əsaslanırlar. Onların irəli sürdükləri nəzəriyyədə deyilir: Hər bir iş failindən asılı olduğu kimi, kəlamın da yaranması onu ifadə edən şəxsdən asılıdır. Kəlam isə tədrici ifadələrdən və danışıqdan yaranır.

Bizim fikrimizcə bu barədə irəli sürülən ən doğru və düzgün nəzəriyyə ikinci – yə҆ni, «ləfzi kəlamdan» savayı «nəfsi kəlam» adında başqa bir kəlam yoxdur – nəzəriyyəsidir.

***Dəlil:***

Gündəlik danışıqlarımızda istifadə etdiyimiz cümlələr iki hissədən ibarətdir:

1. Xəbər cümləsi;
2. İnşa cümləsi.

***Xəbər cümləsi:*** Əgər xəbər cümlələrini ətraflı araşdırsaq görəcəyik ki, hər bir xəbər cümləsi doqquz hissədən ibarətdir.

1. Kəlmələr, kəlmə və cümlələrin tərkib hissəsi;
2. Hər birinin mə҆na və dəlalət etdiyi mətləb;
3. Cümlənin ümumi tərkibi;

4. Cümlənin ümumi tərkibinin dəlalət etdiyi mətləb;

5. İfadəçinin cümlədən əldə etdiyi zehni təsəvvür;

6. İfadəçinin cümlənin mə᾽na və məfhumundan əldə etdiyi zehni təsəvvür;

7. Məfhumun həqiqətlə mütabiq olub-olmaması;

8. İfadəçinin belə bir mütabiqətdən əldə etdiyi mə᾽lumat və ya şəkk və tərəddüdlə yanaşması;

9. İfadəçinin danışmağa və ya nəyi isə ifadə etməyə istək və iradəsi.

Xəbər cümləsinin yaranmasına lazım olan şərait bunlardan ibarətdir və Əşairənin özlərinin e᾽tiraf etdiklərinə görə onların heç biri «nəfsi kəlam» deyildir. Bu səbəbdən də xəbər cümləsində «nəfsi kəlam» üçün heç bir misdaq və məfhum görmək mümkün deyildir.

Xəbər cümləsinin mə᾽na və məfhumu da «nəfsi kəlam» ola bilməz. Çünki alimlərin bir çoxunun fikrincə xəbər cümləsinin mə᾽na və məfhumu «xəbər verilən şeyin baş verib-verməməsindən» ibarətdir. Bizim fikrimizcə isə xəbər cümləsinin mə᾽na və məfhumu xəbər verilən şeyin baş verib-verməməsindən deyil, baş verəcək və ya verməyəcək şey haqda xəbər verilməsini istəməsindən ibarətdir.

Çünki bir qədər əvvəl qeyd etdik ki, xəbər cümləsinin istifadə olunduğu yer baxımından özünəməxsus əlamətlərdən biri də bundan ibarətdir ki, şəxs bir şeyin baş verib-verməməsi haqda xəbər verməyi istəmiş olsun. Bu səbəbdən xəbər cümləsi də digər cümlələr kimi, nəyəsə dəlalət etmək və əlamət məqsədi ilə qurulur. Bunu da qeyd etdik ki, şəxs xüsusi ifadələrdən (kəlmələrdən) istifadə etməklə nəzərdə tutuduğu hər hansı bir mətləbi dinləyiciyə yetirir və beləliklə öz fikrini çatdırmış olur.

***Nəticə:***

Xəbər cümləsinin mə᾽na və məfhumu bir qədər əvvəl qeyd olunanlardan fərqli deyildir. Biz onu «nəfsi kəlam» da adlandıra bilmərik. Çünki «nəfsi kəlam» tərəfdarları bunu kəlamın bir hissəsini təşkil edən, lakin xəbər cümləsinin mövzusunun həyata

keçib-keçməməsindən fərqli olan nəfsani [mə᾽nəvi] və zati həqiqət hesab edirlər.

Bir sözlə «nəfsi kəlamı» xəbər cümləsinin mə᾽na və məfhumu ilə heç cür tətbiq edə bilmərik.

***İnşa cümləsi:*** Xəbər cümləsi kimi, inşa cümləsi də «nəfsi kəlamın» misdaqına çevrilə bilməz. Çünki mə᾽na və məfhumdan başqa xəbər və inşa cümlələri arasında heç bir fərq yoxdur. Belə ki, xəbər cümlələri bə᾽zən baş verən cərəyanlarla mütabiq olur, bə᾽zən də yox. İnşa cümləsi isə belə bir xüsusiyyətlərə malik deyildir. Çünki inşa cümləsində baş verən cərəyanlarla mütabiq olub-olmayacaq xarici həqiqət mövcud olmur.

Demək, yeddi və səkkizinci hissələr istisna olmaqla inşa və xəbər cümlələrinin tərkib hissləri tamamilə eynidir. Soruşa bilərsiniz ki, inşa cümlələrinin mə᾽na və məfhumu nədən ibarətdir? Və ya onların mə᾽na və məfhumu «nəfsi kəlamın» misdaqına çevrilə bilməzmi?

***Cavabında deyirik:*** Alimlərin bir çoxlarının fikrincə, inşa cümləsindən mə᾽nanı dinləyiciyə çatdırmaq üçün istifadə olunur. Demək, özünə gəldikdə müstəqil vücud, mə᾽na və məfhum e᾽tibarı ilə isə məcazi hal daşıyır. Məhz belə bir bağlılığın nəticəsində gözəllik və çirkinlik kimi ifadələr kəlmənin özünə də tə᾽sir qoyur. Bu səbəbdən də deyilir ki, mə᾽na kəlmənin vasitəsilə vücuda gəlir. Lakin belə bir mövcudluq həqiqi deyil, ləfzi və zahiridir. Çünki həqiqi vücud kəlməyə aid deyildir. Lakin diqqət yetirmək lazımdır ki, mə᾽nanın kəlmədən bu yolla yaranması inşa cümlələrinə aid deyildir. Bunu xəbər cümlələrində və ayrı-ayrı ifadələrdə də görmək olar.

Lakin kəlmə mövcud olmadan mə᾽nanın mövcud olması yalnız iki halda ola bilər. Və bu iki haldan heç birində kəlmə mə᾽nanın yaranmasında heç bir tə᾽sir qoymur.

***1. Həqiqi vücud:***

Bu kimi varlıqlar aləmdə varlığın həqiqi mahiyyətini təşkil edən cövhər və ərəz halında zahir olur. Belə bir varlığın meydana gəlməsi onun təbii amillərinin formalaşmasından asılıdır. Təbii ki,

belə bir məʾna daşıyan kəlmələr onun təbii amillərindən hesab olunmur və onun formalaşmasında əsla dəxalət etmir.

***2. Eʾtibari vücud:***

Bu da varlığın bir növünü təşkil edir. Lakin xaricdə deyil, təsəvvür və fərz aləmində mövcud olur. Belə bir varlığın vücuda gəlməsi fərziyyəçinin etdiyi fərziyyədən asılıdır.

Bir sözlə, nə həqiqi, nə də eʾtibari vücud ona dəlalət edən kəlmə üçün əsas şərt deyildir. Lakin qanunverici [Peyğəmbər (s) və nəzər sahibləri] bağlanılan əhd-peymanlarda (inşa cümləsində) eʾtibari vücudun olmasını əsas şərtlərdən biri hesab edir. Lakin belə bir şərt və bağlılıq bundan irəli gəlir ki, kəlmə özünün həqiqi məʾnasında işlənmiş və onun vücuduna dəlalət etmiş olsun.

Çünki məʾnanın zahiri və ləfzi vücudu tək inşa cümləsinə deyil, istər xəbər, istərsə də inşa cümlələlərinin məʾnalarına da şamil olur.

Bu barədə irəli sürülmüş ən doğru və ən düzgün nəzəriyyə bundan ibarətdir ki, inşa cümlələrinin quruluşu hər hansı bir nəfsani mətləbin çatdırılması üçündür. Və bu da həmən fərz olunan mətləbdir. Əmr və qadağa, əhd-peymanlar və bəʾzən də sifət və xüsusi hallar ümid və arzu xarakterli cümlələr kimi dəlalət edir.

Deməkk, cümlə quruluşlarının hər biri nəfsani işlərin nişan və əlamətlərini təşkil edir. Bu da xəbər cümlələrindəki «bir şeyin baş verib-verməməsini bəyan etmək» və inşa cümlələrindəki «işin eʾtibarı fərz və ya özünəməxsus sifət və hallardan ibarətdir» deməkdir.

***NƏFSİ KƏLAM NƏYİ TƏLƏB EDİR***

«Tələb» kəlməsindən əldə etdiyimiz məʾna «nəyinsə əldə olunması üçün çalışmaq və səʾy etməkdən» ibarətdir.

Bu səbəbdən bir şəxs çalışmadan deyə bilmərik ki, filan şəxs «itirdiyini və ya axirət gününün səadətini tələb edir».

«Tələb, şəxsin bir şeyi toplaması və əldə etməsi üçün göstərilən səʾy və çalışmalara deyilir».

Bu səbəbdən də əmr edən şəxsə «talib» deyilir. Çünki o, əmr etməklə istədiyi şeyi əldə etmək istəyir.

Deməkk, əmr deyildikdə tələb nəzərdə tutulur. Yə`ni, əmr müstəqil kəlmə deyildir və tələb onun mə`nasını ifadə edir. Buradan belə mə`lum olur ki, əmr tələb üçün istifadə olunur. Tələb – «nəfsi kəlam»dır, əmr isə «ləfzi kəlam» olaraq ona dəlalət edir — demələrinin isə heç bir əsası yoxdur.

Əşairənin, «tələbi» iradədən fərqli hesab etmələri də tamamilə əsaslıdır. Lakin «tələbi» nəfsi sifət və onu «nəfsi kəlam»ın mə`nası hesab etmələrində isə böyük səhvə yol vermişlər.

***Nəticə:***

Deyilənlərdən belə qənaətə gəlmək olur ki, nə xəbər, nə də inşa cümlələrində «nəfsi kəlam» adında müstəqil bir məfhum yoxdur.

Bir sözlə şəxs nəyisə ifadə etməzdən əvvəl ilk növbəbdə ifadə edəcəyi şeyi zehnində canlandırmalıdır. Belə bir zehni təsəvvürə də «zehni vücud» deyilir. Əgər «nəfsi kəlam» tərəfdarları həmən mə`nanı nəzərdə tutarlarsa və zehni vücudu «nəfsi kəlam» adlandırarlarsa, düzgün nəticə əldə etmiş olarlar. Lakin bildiyiniz kimi, «zehni vücud» yalnız kəlama deyil, insanın bütün ixtiyari işlərinə şamil olur və insanın bütün işləri də «zehni vücuddan» ibarətdir. Və əgər danışıq zamanı «zehni vücud» və əvvəlki təsəvvür lazım olarsa, bundan irəli gəlir ki, kəlam danışan şəxs üçün bir növ ixtiyari əməl olmuş olsun.

«Nəfsi kəlam» barədə deyilməsi mümkün olan şeylərin xülasəsi bundan ibarətdir. Lakin bunlarla yanaşı Əşairə belə bir kəlamın mövcud olduğuna və nəticədə Qur`anın qədimliyinə istinad etmişlər.

Növbəti fəsildə bu haqda ətraflı söhbət açacağıq.

### *ƏŞAİRƏNİN NƏFSİ KƏLAMA DAİR GƏTİRDİKLƏRİ DƏLİLLƏRİN ARAŞDIRILMASI*

Əşairə öz əqidələrini sübuta yetirmək üçün bir neçə dəlilə istinad etmişlər.

***1.*** Şəxs bir söz deməzdən əvvəl nəzərdə tutduğu şeyi öz-özlüyündə nəzmə salır və yalnız bundan sonra fikrini ifadə edir. Belə bir ləfzi və xarici kəlam, vücudundakı ««nəfsi kəlam»dan irəli

gəlir. Bu bir həqiqətdir ki, hər bir şəxs öz vücudunda onu hiss edir və yaşadır.

Görkəmli ərəb şairi Əxtəl şe᾽rlərinin birində bu həqiqətə işarə etmişdir.

ان الكلام لفي الفؤاد و انما جعل اللسان علي الفؤاد دليلا

Şe᾽rin məzmunu:

«Həqiqətən hər bir şəxsin deyəcəyi söz onun qəlbindədir. Onu bəyan edən şey varsa, o da onun dilidir.»

***Cavab:***

Bir qədər əvvəl verilən cavablarda qeyd olundu ki, kəlamın qəlbdəki təsviri, zehni vücud adlanan şəxsi zehndə yaranan həmən zehni təsəvvürdür. Bu da tək kəlama deyil, insanın gördüyü bütün ixtiyarı işlərə şamil olur. Çünki hər bir yazıçı və ya rəssam yazacağı və ya çəkəcəyi şey haqda ilk növbədə zehni təsəvvürə malik olmalı və yalnız bundan sonra nəzərdə tutduğu şeyi yazmalı və ya kağız üzərinə köçürməlidir.

Deməк, onun deyilənlərə dəlil olsun deyə «nəfsi kəlam»la heç bir əlaqəsi yoxdur.

***2.*** İnsanın zehnindəki hər hansı bir mətləbi kəlam adlandıra bilərik. Belə bir ünvanı hər hansı bir dəlilə istinad etmədən tamamilə düzgün hesab etmək olar. Belə ki, insan bə᾽zən deyir: Qəlbimdə elə şeylər var ki, onları bildirmək istəmirəm. Mülk surəsinin on üçüncü ayəsində deyilir:

وَأَسِرُّوا قَوْلَكُمْ أَوِ اجْهَرُوا بِهِ إِنَّهُ عَلِيمٌ بِذَاتِ الصُّدُورِ

***«[Ey insanlar!] İstər sözünüzü gizli saxlayın, istərsə də açıq deyin, heç bir fərqi yoxdur. Allah ürəklərdə olanları biləndir.»***

***Cavab:*** Zehni vücud mərhələsində də nəzərdə tutulan hər bir ibarətə kəlam deyilir. Və həmən qayda üzrə xarici və ləfzi vücud mərhələsində də kəlam deyilir. Çünki hər bir şey iki növdən ibarətdir: Xarici və zehni vücud və onların hər biri yalnız bir şeyin vücudunu təşkil edir. Bu səbəbdən də dəlil və əlamətə ehtiyac olmadan onların hər ikisini eyni adla adlandırırıq. Məsələn, hər ikisinə kəlam deyirik. Lakin məsələ buradadır ki, hər iki mövzu özünəməxsus vüs᾽ət və əhatə dairəsinə malikdir. Və bu yalnız kəlama aid deyildir. Belə ki, hətta mühəndis belə deyə bilər ki,

«Zehnimdə kağız üzərinə köçürəcəyim binanın layihəsi vardır» və hər iman sahibi deyə bilər ki, nəzərdə tutmuşam ki, sabah oruc tutum.

3. «Danışan» – «deyən» məʾnasını daşıyan «mütəkəllim» – kəlməsinin Allaha aid olması tamamilə düzgündür və bu barədə heç bir şəkk-şübhə nəzərə çarpmır, lakin cümlə quruluşu baxımından ismi-fail məʾnasını daşıdığı üçün kəlmənin əsli olan kəlam ifadəsinin mövcud olması ilə olduğu kimi qalmış və sifət rolunu oynamışdır.

Necə ki, fail məʾnasını daşıyan «hərəkətverici – mütəhhərik» və «sakin» kəlmələri hərəkətə sükunətə və alimi elm əldə etməyə səbəb olan şəxslərə deyil, bu xüsusiyyətlərə malik olan şəxslərə deyilir.

Belə bir izaha əsasən, Allahı yalnız o zaman mütəkəllim adlandıra bilərik ki, bu xüsusiyyətə malik olmuş olsun. Halbuki, Allah-taala ləfzi kəlama malik deyildir, çünki ləfzi kəlam sonradan yaranmış bir məfhumdur. Belə olduqda qədim olan Allahı yeni sifət və məfhuma aid edə bilmərik. Deməki, istər-istəməz mütəkəllim kəlməsinin həmən qeyri-ləfzi, qədim adlandırma eʾtibarı ilə Allaha aid olduğunun əsaslı olması üçün qədim qeyri-ləfzi kəlamın olmasını qəbul etməliyik.

***Cavab:***

Mütəkəllim kəlməsinin əsl məfhumu kəlam deyildir, çünki kəlam ifadəçidən asılı deyildir, yəʾni, kəlam insanın vücudunda bir növ qeyri-maddi hal daşıyır. İnsanın vasitəsilə havada dalğa şəklinə düşür. Bu səbəbdən də hava ifadəçidən [mütəkəllimdən] deyil, havadan yaranır. Bütün bunları nəzərə alaraq deməliyik ki, mütəkəllim kəlməsinin əslini danışmaq məʾnası daşıyan “təkəllüm” təşkil edir və bu kəlmə Allah və Allahdan qeyrisi üçün də istifadə olunur.

Feʾl və failin xüsusiyyətləri ismi faildən əldə olunmur və buna dəlalət edəcək elə bir ümumi qanun tapmaq mümkün deyildir. Çünki feʾl və failin xüsusiyyətləri istifadə olunduqları yer baxımından bir-birləri ilə fərqlidir.

Məsələn, «elm» və «qüdrət» deyildikdə biz elm və qüdrətə səbəb olan şəxsi deyil, məhz bu xüsusiyyətlərə malik olan şəxsi nəzərdə tutmalıyıq, lakin «basit», «qabiz», «nafi» və «zarr» kimi kəlmələr bu xüsusiyyətlərə malik olan şəxslərə deyil, bunlara səbəb olan şəxsə deyilir.

***Xülasə:***

Nəfsi kəlam təxəyyüli bir məfhumdur və belə bir kəlamın mövcud olmasını sübuta yetirəcək elə bir əsaslı əqli dəlil yoxdur. Söhbətimizi nəfsi kəlamın əsassız olduğuna dair İmam Sadiq (ə)-dan nəql olunmuş rəvayətlə bitirmək istəyirik. Şeyx Koleyni, Əbu Bəsirə istinad edərək İmam Sadiq (ə)-dan nəql etdiyi rəvayətdə deyir: «Allah-taala əzəldən mövcud olmuş və Onun elmi də zati kimi əzəldən hər şeyi əhatə etmişdir. Varlıqlar xəlq olunmamışdan əvvəl onlardan agah olmuşdur. Allahın eşitməsi, görməsi və qüdrəti də zati kimi əzəli olmuşdur. Eşidiləsi, görüləsi və güc tətbiq olası bir şey olmazdan əvvəl O, hər şeyi görmüş, eşitmiş və hər şeyə qadir olmuşdur. Varlıqları yaratdıqdan [xəlq etdikdən] və bilməli şeyləri vücuda gətirdikdən sonra elmi bilinəsi, eşitməsi eşidiləsi, görməsi görüləsi və qüdrəti qüdrətə malik olan bütün şeylərə şamil oldu.»

Əbu Bəsir deyir: İmamdan (ə) soruşdum: Allahın hər şeyi hərəkətə gətirməsi də əzəli olmuşdurmu?

İmam (ə) buyurdu: «Allah-taala bundan da uca və üstündür. Çünki hərəkət sonradan vücuda gələn bir şeydir. Və Allah-taala xitab olunası bir varlıq olmazdan əvvəl əzəli olaraq bu xüsusiyyətə malik olmuşdur.[1]

---

[1] “Üsuli-kafi”, «Zati sifətlər» fəsli, 51-ci səh.

## *ON ALTINCI FƏSİL*

### *HƏMD SURƏSİNİN TƏFSİRİ*

***1. Həmd surəsi haqda ümumi mə᾽lumatlar;***
***2. Bismillah ayəsinin təfsiri;***
***3. Bismillah ayəsindəki mətləblər;***
***4. Həmd surəsinin 1-ci hissəsinin təfsiri;***
***5. Həmd surəsinin 2-ci hissəsinin təfsiri;***
***6. İbadət və itaət;***
***7. Şəfaət və kömək diləmək;***
***8. Həmd surəsinin sonuncu hissəsinin təfsiri;***
***9. Hidayət.***

بسم الله الرحمن الرحيم

الْحَمْدُ للّهِ رَبِّ الْعَالَمِينَ الرَّحْمـنِ الرَّحِيمِ مَـلِكِ يَوْمِ الدِّينِ إِيَّاكَ نَعْبُدُ وإِيَّاكَ نَسْتَعِينُ اهدِنَا الصِّرَاطَ المُستَقِيمَ صِرَاطَ الَّذِينَ أَنعَمتَ عَلَيهِمْ غَيرِ المَغضُوبِ عَلَيهِمْ وَلاَ الضَّالِّينَ

***«Bismillahir-Rəhmanir-Rəhim – Rəhimli və mərhəmətli Allahın adı ilə.»***

***«Əl-həmdu lillahi Rəbbil-aləmin – Həmd [şükür və tə'rif] olsun Allaha, aləmlərin Rəbbinə.»***

***«Ər-Rəhmanir-Rəhim – [Bu dünyada hamıya] rəhimli, [axirətdə isə ancaq mö'minlərə] mərhəmətli olana.»***

***«Maliki yəvmiddin – Haqq-hesab [qiyamət] gününün sahibinə!»***

***«İyyakə nə'budu və iyyakə nəstəin – Yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik.»***

***«İhdinəssiratəl mustəqim – Bizi doğru yola yönəlt.»***

***«Siratəlləzinə ən`əmtə ələyhim ğəyril məğzubi ələyhim vələzzallin – Ne'mət verdiyin kəslərin yoluna! Qəzəbə düçar olanların və [haqdan] azanların yoluna yox!»***

***HƏMD SURƏSİ HAQDA ÜMUMİ MƏ`LUMATLAR***

***Nazil olduğu yer:***

Bir çox müfəssirlərin fikrincə Həmd surəsi Məkkədə nazil olmuşdur. Lakin bə`ziləri onun Mədinədə nazil olduğunu qeyd etmişlər. Surənin Məkkədə nazil olduğu daha həqiqətə uyğundur və bunu sübuta yetirəcək iki əsaslı dəlilə istinad etmək olar.

1) Həmd surəsinin digər adlarından biri də Səb`ül-Məsani (yeddi ayə )-dir. Hicr surəsinin 87-ci ayəsində bu haqda deyilir:

وَلَقَدْ آتَيْنَاكَ سَبْعًا مِّنَ الْمَثَانِي وَالْقُرْآنَ الْعَظِيمَ

***"[Ya Məhəmməd!] Biz sənə [hər namazda oxunub] təkrarlanan yeddi ayəni [Fatihə surəsini] və böyük [əzəmətli] Qur`anı verdik.)***

«Həmd» surəsi haqda mə`lumat verən bu ayə Məkkədə nazil olmuşdur və buna əsasən, deyə bilərik ki, «Həmd» surəsi də Məkkədə nazil olmuş surələrdəndir.

2) «Həmd» surəsinin Məkkədə nazil olduğuna dəlalət edəcək ikinci əsaslı dəlil ***Namaz*** hökmünün Məkkədə verilməsidir. Belə ki, məzhəbindən asılı olmayaraq hər bir müsəlman namaz qılarkən «Həmd» surəsinin oxunmasını zəruri hesab edir. Peyğəmbərdən (s) bu barədə nəql olunmuş rəvayətdə deyilir:

***(La səlatə illa bifatihətil kitab – Fatihəsiz namaz, namaz deyildir.)***

Bu hədis sünnü və şiə mənbələrində mütəvatir olaraq nəql olmuşdur. Belə bir nəticəyə gəlirik ki, «Həmd» surəsi Məkkədə nazil olmuş və müsəlmanlar elə ilk gündən namazlarında «Həmd» surəsini oxumuşlar.

Bə`zi müfəssirlər isə bu barədə üçüncü nəzəri irəli sürmüşlər. Onların fikrincə «Həmd» surəsi böyük əhəmiyyət kəsb etdiyi üçün iki dəfə, yə`ni, bir dəfə Məkkədə və bir dəfə Mədinədə nazil olmuşdur. Lakin bu nəzəriyyəni sübuta yetirəcək elə bir tutarlı dəlil yoxdur. Bəlkə də surənin «Səb`ul-Məsani» adlandırılmasına səbəb müfəssirlərin dedikləri kimi onun iki dəfə nazil olması olmuşdur. Lakin bunun başqa bir səbəbi də ola bilər. O da «Həmd» surəsinin namazın birinci və ikinci rəkətlərində oxunmasıdır.

### *HƏMD SURƏSİNİN FƏZİLƏTİ*

«Həmd» surəsinin fəziləti barədə bunu qeyd etmək kifayətdir ki, Allah-taala Hicr surəsinin 87-ci ayəsində bu surəni Qur᾽anla müqayisə edərək onların eyni əhəmiyyətə malik olduğunu bəyan edir. «Həmd» surəsinin ikinci böyük əhəmiyyət kəsb edən və onu Qur᾽anın digər surələrindən fərqləndirən xüsusiyyətlərdən biri də onun gündəlik namazlarda oxunmasıdır. «Həmd» surəsinin digər üstün xüsusiyyətlərindən biri də onun gündəlik [və sair] namazlarda digər surələrlə əvəz olunmamasıdır. Belə ki, dinin sütunu olan namaz, müsəlmanları qeyri-müsəlmanlardan fərqləndirir və bu [yə᾽ni namaz] müsəlmanlar üçün ən gözəl, üstün xüsusiyyət hesab olunur. Bu surədə bir çox mühüm elmi mətləblərə toxunulmuşdur və biz növbəti fəsillərdə onların hər biri haqda ətraflı söhbət açacağıq.

Bütün bunlarla yanaşı «Həmd» surəsinin fəziləti barədə bir çox hədis və rəvayətlər də nəql olunmuşdur.

Şeyx Səduq, İmam Həsən Əsgəri (ə)-dan, o da atasından və o da cəddi Əli (ə)-dan nəql etdiyi hədisdə deyilir:

«Bismillahir-Rəhmanir-Rəhim» – «Həmd» surəsinin ayələrindən biridir. Bu ayə ilə birlikdə «Həmd» surəsi yeddi ayədən ibarət olur. Əli (ə) əlavə edərək buyurur: Allahın Rəsulu (s) buyurdu:Allah-taala

وَلَقَدْ آتَيْنَاكَ سَبْعًا مِّنَ الْمَثَانِي وَالْقُرْآنَ الْعَظِيمَ

ayəsini mənə nazil etdi və «Həmd» surəsinin Qur᾽anla müqayisədə eyni əhəmiyyət kəsb etdiyini mənə əyan etdi. Bəli! «Həmd» surəsi Qur᾽anın ən dəyərli surələrindən və İlahi Ərşin qiymətli xəzinələrindən biridir.[1]

Buxari, Əbi Səid ibni Mə᾽ladan nəql etdiyi rəvayətdə deyir: Namaz qılarkən Peyğəmbər (s) məni səslədi, lakin namaz qıldığım üçün ona cavab vermədim. Namazı qılıb qurtardıqdan sonra Peyğəmbərə (s) yaxınlaşıb dedim: Ya Rəsulullah! Namaz qıldığım üçün sizə cavab vermədim. Buyurdu: Məgər Allah-taala bunu sizə əmr etmədimi

---

[1] Təfsiri-Burhan, 1-ci cild, 26-cı səh.

اسْتَجِيبُواْ لِلّهِ وَلِلرَّسُولِ إِذَا دَعَاكُم

***Allahın və Onun Peyğəmbərinin də'vətini qəbul edin.)***[1] Sonra sözlərinə əlavə edərək buyurdu: Məsciddən çıxmazdan əvvəl sənə ən böyük surəni öyrətməyimi istərsənmi? Məsciddən çıxarkən dedim: Ya Rəsulullah! Ən böyük surəni öyrədəcəyinizi buyurdunuz. Peyğəmbər (s) «Həmd» surəsini tilavət edib buyurdu: Bu mənə nazil olmuş həmən «Səb'ul-Məsani» və əzəmətli Qur'andır.[2]

### *HƏMD SURƏSİNİN AYƏLƏRİNİN SAYI*

Bir çox müfəssirlərin fikrincə «Həmd» surəsi yeddi ayədən ibarətdir. Lakin bu barədə bir neçə müxtəlif nəzəriyyələr də irəli sürülmüşdür. Belə ki, Hüseyn Cə'fəri «Həmd» surəsinin altı, Əmr ibni Ubeyd isə səggiz ayədən ibarət olduğunu hesab etmişlər. Lakin bu nəzəriyyəni bir neçə səbəbdən əsassız hesab etmək olar.

1. İslam alimlərinin əksəriyyəti «Həmd» surəsinin yeddi ayədən ibarət olduğunu hesab edir.

2. İstər sünnü, istərsə də şiə mənbələrində nəql olunmuş rəvayətlərdə «Həmd» surəsinin yeddi ayədən ibarət olduğu göstərilir.

3. Bir qədər əvvəl qeyd etdik ki, «Səb'ul-Məsani – yeddi ayə» deyildikdə «Həmd» surəsi nəzərdə tutulur. Və bu da «Həmd» surəsinin yeddi ayədən ibarət olduğunu bir daha sübuta yetirir.

Bu nəzəriyyəyə əsasən, «Bismillah» ayəsini müstəqil ayə və «Həmd» surəsinin bir hissəsini təşkil etdiyini hesab edənlər «Siratəlləzinə» ayəsini surənin sonunadək bir ayə hesab edir, lakin «Bismillah» ayəsini «Həmd» surəsinin müstəqil ayəsi hesab etməyənlər «ğəyril məğzubi» ayəsini müstəqil hesab edir. Beləliklə hər iki nəzəriyyəyə əsasən, «Həmd» surəsinin yeddi ayədən ibarət olduğu sübuta yetirilir.

### *HƏMD SURƏSİNİN HƏDƏFİ*

«Həmd» surəsində iki mühüm məsələyə işarə olunur.

---

[1] Ənfal /24

[2] “Səhihi-Buxari”, 6-cı cild, 103-cü səh.

1. Tohid [təkallahlıq] – İnsan Allahın birliyinə iman gətirməli, Ondan başqa heç bir varlığı ibadətə layiq görməməli və yalnız Ona ibadət etməlidir.

2. Məada [axirət dünyasına] iman gətirmək.

Bəşəriyyəti təkallahlığa də՚vət edən müqəddəs İslam dininin tə՚limləri məhz bu iki amilin üzərində formalaşmışdır. Ali-İmran surəsinin 64-cü ayəsində deyilir:

قُلْ يَا أَهْلَ الْكِتَابِ تَعَالَوْاْ إِلَى كَلَمَةٍ سَوَاء بَيْنَنَا وَبَيْنَكُمْ أَلاَّ نَعْبُدَ إِلاَّ اللّهَ وَلاَ نُشْرِكَ بِهِ شَيْئًا وَلاَ يَتَّخِذَ بَعْضُنَا بَعْضاً أَرْبَابًا مِّن دُونِ اللّهِ

***[Ya Məhəmməd!] Söylə ki: «Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan [fərqi olmayan] bir kəlməyə tərəf gəlin! [O kəlmə budur ki:] Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub bir-birimizi [özümüzə] Rəbb qəbul etməyək!»)***

Demək, peyğəmbərlərin göndərilməsində və səmavi kitabların nazil olmasında əsas məqsəd bəşəriyyəti haqq yola hidayət etmək və təkallahlığa də՚vət etmək olmuşdur. Və haqqında söhbət açdığımız surədə bu mətləbə xüsusi diqqət yetirilmişdir.

***İzah:***

Şüurlu insan, başqa birisinin qarşısında özünü kiçik hesab etdikdə ona tabe olur və özündə görmədiyi üstün xüsusiyyətləri onda müşahidə etdiyi üçün ona möhtac olduğunu hiss edir. Bu hiss onda ya mə՚nəvi zəiflikdən, ya maddi asılılıqdan, ya ehtimal verdiyi zərər və təhlükəni özündən uzaqlaşdırmaqdan, ya onun diqqətini cəlb etməkdən və yaxud da onda mənfəət duyduğundan irəli gəlir. Tabe olunan və özünü başqalarından üstün görən şəxs isə başqasının ona tabe olduğunu görməklə yanaşı, ona tabe olan şəxsin bir gün ona qarşı çıxacağından da bərk nigarançılıq keçirir.

Bütün bunlar insanın başqa birisinin qarşısında tə՚zim və tabe olmasına səbəb olan ən başlıca amillərdir. Lakin bir şüurlu insan əgər diqqət yetirərsə, bu həqiqətin şahidi olacaq ki, bu xüsusiyyətlərin hamısı hər şeyə qadir və ibadətə layiq yeganə varlıq olan aləmlərin Rəbbinin müqəddəs zatında təcəlli olmuşdur. O Allah ki, hər şeyi yoxdan yaratmış, varlıqları fitri və

şəriət yoluna hidayət etmiş, ruzi verərək kamala doğru yönəltmişdir. Bəli, Odur ibadətə layiq olan yeganə varlıq! Odur yaratdıqlarına ruzi verən və onları kamala çatdıran!

Bütün bunları nəzərə alaraq şüurlu insan Allahdan başqa bir varlığa pənah apararaq ona arxalana bilərmi?! Halbuki, Allahdan başqa bütün yaranmış varlıqlar məxluq və mümkünəl — vücuddur. Və belə bir varlıq özünün mövcud olmasında başqa birisindən möhtac və tam mə᾽nada asılı olur. Heç bir varlığa ehtiyacı olmayan və bütün eyb və nöqsanlardan uzaq olan yeganə varlıq isə Allahın müqəddəs zatıdır. O hamıdan ehtiyacsız, hamı isə Ona möhtacdır!!!

يَا أَيُّهَا النَّاسُ أَنتُمُ الْفُقَرَاء إِلَى اللَّهِ وَاللَّهُ هُوَ الْغَنِيُّ الْحَمِيدُ

***«Ey insanlar! Siz Allaha möhtacsınız, Allah isə [heç nəyə, o cümlədən sizin ibadətinizə] möhtac deyildir və hər cür şükrə, tə᾽rifə layiqdir!) (35/15).***

Allah-taala bu surədə şükür və sənanın məhz Onun Özünə aid olduğunu bəyan etdikdən sonra insanlara qəlblərinin dərinliklərindən – «İyyakə nə᾽budu və iyyəkə nəstəin **– *Yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik»* –** itaət şüarını dilə gətirməyi xatırladır.

Sonra insanlara ümumilikdə işarə olunaraq buyurulur:

Peyğəmbərlər və səmavi kitablar göndərilsə də, onlar üç əsas dəstəyə bölündü:

a) Tükənməz ilahi ne᾽mətlərdən bəhrələnərək haqq yola hidayət və kamala nail olan kəslər;

b) Haqq yoldan azan, lakin haqqın qarşısında inadkarlıq etməyən kəslər; Onlar böyük səhvə yol verərək haqq yoldan uzaq düşmüş və bu yolun nakam yolçularına çevrilmişlər. Əgər həqiqəti dərk edərlərsə, onun müqabilində inadkarlıq etməz və tutduqları səhv yolu davam etdirməzlər.

v) Var-dövlət, vəzifə və müxtəlif dünyəvi əyləncələrə qurşanan, haqqın müqabilində inadkarlıq və düşmənçilik edən kəslər; Onlardan bə᾽ziləri əvvəllər haqqı dərk etməmiş, bə᾽ziləri isə dərk edərək ona göz yummuş, hətta inkar da etmişlər. Sözün

əsl mə᾽nasında onlar şəxsi meyl və istəklərinin əsiri olmuş və onun itaətkar bəndələrinə çevrilmişlər.

Allah-taala başqa bir surədə buyurur:

أَفَرَأَيْتَ مَنِ اتَّخَذَ إِلَهَهُ هَوَاهُ

***«Ya Peyğəmbər!] Nəfsini özünə tanrı edən və Allahın bilərəkdən [onu hələ yaratmamışdan gələcəkdə kafir olacağını bildiyi üçün] yoldan çıxardığı, qulağını və qəlbini möhürlədiyi, gözünə də pərdə çəkdiyi kimsəni gördünmü?» (45/23).***

Onlar haqqın qarşısında inadkarlıq edərək küfrə və bu səbəbdən də haqq yoldan uzaq düşmüş ikinci dəstəyə aid olan şəxslərdən daha ağır əzaba düçar olarlar. Bəşər təbiəti var-dövlətə, sərvətə, ad-sana meyl edən bir varlıqdır. Bu səbəbdən də əgər İlahi hidayət ne᾽mətindən bəhrələnməzsə öz batini meyl və istəklərinə tabe olaraq gec-tez haqq yoldan uzaq düşəcəkdir.

وَلَوْلَا فَضْلُ اللَّهِ عَلَيْكُمْ وَرَحْمَتُهُ مَا زَكَا مِنكُم مِّنْ أَحَدٍ أَبَدًا وَلَكِنَّ اللَّهَ يُزَكِّي مَن يَشَاء وَاللَّهُ سَمِيعٌ عَلِيمٌ

***«Əgər Allahın sizə ne᾽məti və mərhəməti olmasaydı, [günah] sizdən heç vaxt pak olmazdı. Lakin Allah dilədiyini [günahdan] pak edər. Allah [hər şeyi] eşidən və biləndir». (24/21).***

Allah əgər rəhm etməsə, insan batini istəklərinə tabe olduğu üçün hər an batini meylinin qarşısında məğlub olmaq ehtimalı vardır. Bu səbəbdən də Allah-taala insanlara hidayət olmalarını diləmələrini xatırlardır. «İhdinəsiratəl mustəqim – ***[İlahi] Sən bizi doğru yola yönəlt!» «Ne᾽mət verdiyin kəslərin yoluna! Qəzəbə düçar olanların və [haqdan] azanların yoluna yox!»***

Namaz qılan hər bir şəxs gündəlik namazlarında bu ayəni dəfələrlə təkrar edir və Allahdan onu ne᾽mət vermiş və haqq yola hidayət etdiyi kəslərdən qərar verməsini diləyir.

أُوْلَئِكَ الَّذِينَ أَنْعَمَ اللَّهُ عَلَيْهِم مِّنَ النَّبِيِّينَ مِن ذُرِّيَّةِ آدَمَ وَمِمَّنْ حَمَلْنَا مَعَ نُوحٍ وَمِن ذُرِّيَّةِ إِبْرَاهِيمَ وَإِسْرَائِيلَ وَمِمَّنْ هَدَيْنَا وَاجْتَبَيْنَا إِذَا تُتْلَى عَلَيْهِمْ آيَاتُ الرَّحْمَن خَرُّوا سُجَّدًا وَبُكِيًّا

***«Bunlar Adəmin və Nuhla gəmiyə mindirdiyimiz adamların nəslindən, İbrahimin, İsrailin [Yə᾽qubun] nəslindən seçib haqq yola yönəltdiyimiz və Allahın ne᾽mət bəxş etdiyi peyğəmbərlərdəndir. Onlar Rəhmanın [Allahın] ayələri özlərinə oxunduğu zaman ağlayaraq səcdəyə qapanırdılar». (19/58).***

*Xülasə:*

«Həmd» surəsinin ümumi məfhumu bundan ibarətdir ki, Allah-taala ilk növbədə özünü, öz kamal sifətləri ilə vəsf edir. Burada bir daha xatırladılır ki, Allah axirət gününün sahibi və Onun rəhmət və tərbiyəsi bu dünyada hamıya şamil olunur. Sonra belə bir nəticə əldə olunur ki, ibadətə layiq olan yeganə varlıq Allahın müqəddəs zatıdır. Və insan Ondan başqa heç bir varlıqdan kömək diləməməlidir.

Daha sonra necə ibadət etməyi və öz ibadətlərində Ondan tükənməz ne՚mətləri olan haqq yola yönəltmələrini istəmələrini xatırladır. Son mərhələdə haqq yola hidayət olmuş və ilahi ne՚mətlərdən bəhrələnən mö՚min və əməli-salehlərlə Allahın qəzəbinə gəlmiş və haqq yoldan sapmış şəxslər arasında olan fərq bəyan olunur. Deməк, «Həmd» surəsi dörd mühüm hissədən ibarətdir və onlardan hər biri böyük əhəmiyyət kəsb edən mətləbə toxunur.

1. Allahın kamal sifətləri vəsf olunur;

2. İbadətə layiq olan yeganə varlıq Allahın müqəddəs zatıdır. İnsan yalnız Allaha ibadət etməli və yalnız Ondan kömək diləməlidir;

3. Haqq yolu tanımağı və bu yola hidayət olmağı Allahdan diləmək lazımdır;

4. Əməli-saleh insanların hidayət yolu, qəzəbə gəlmişlərin (məğzubin) və haqdan uzaq düşənlərin (zallin) yolundan ayrı və fərqlidir.

***BİSMİLLAH AYƏSİNİN TƏFSİRİ***

«Həmd» surəsinin ilk ayəsi ***«Bismillahir-Rəhmanir-Rəhim»*** ayəsidir. Bu ayəni «Bəsmələ» də adlandırırlar. Və bu ayə beş kəlmədən ibarətdir:

*İzah:*

***«Bə»*** – qarammatikada bu hərfə «ğərr hərfi» deyirlər. Kəlmənin əvvəlində işlənir və nəinsə başlanmasına dəlalət edir. Belə ki, hər şey Allahın adı ilə başlanmalıdır. Əks təqdirdə həmin iş olduqca dəyərsiz və naqis olacaqdır. Bir qədər sonra bu barədə ətraflı mə՚lumat verəcəyik.

***«İsm»* –** İsim kəlməsi lüğətdə nişan və əlamət mə᾽nasını daşıyır. Əvvəldəki həmzə kəlməyə əlavə olunmuşdur, onun əsl hissəsini təşkil etmir və bu səbəbdən də başqa bir kəlmə ilə birləşdikdə tələffüz olunmur. “Bismillah” cümləsində isə yazılışda ixtisara düşmüşdür.

***İsm*** kəlməsinin müxtəlif yazılış və tələffüz üsulları vardır. Lakin əksər hallarda ya kəsrə ilə «ism – sim» və ya zəmmə ilə «usm – sum» oxunur.

***İsm*** kəlməsi ucalıq mə᾽nasını daşıyan «sumuvv» kəlməsindən götürülmüşdür. İsm kəlməsinin belə bir mə᾽na daşımasına səbəb bəlli olmayan bir şeyi aşkara çıxarmaq və ya heç bir mə᾽na daşımayan bir kəlməni adlandıraraq onu heç bir mə᾽na və məfhum daşımayan kəlmələrdən fərqləndirmək olmuşdur.

Alimlərin bə᾽zilərinin fikrincə, ism kəlməsi «əlamət» mə᾽nası daşıyan «səmət» kəlməsindən götürülmüşdür. Lakin bu nəzəriyyə tamamilə səhv və əsassızdır. Çünki bildiyimiz kimi ism kəlməsinin cəm halı «əsma», kiçiltmə mə᾽nasında «suməyy», tə`sirlik halında «səmməytu» və «əsməytu» kimi istifadə olunur. Və əgər «səmət» götürülsəydi, cəm halda «əvsam» təsğir (kiçiltmə) halında «vusəym», nisbət verildikdə «vəsmiyy», tə᾽sirlik halında isə «vəssəmtu» və ya «əvsəmtu» kimi istifadə olunardı.

**«A*ll*a*h*»** – Allahın müqəddəs zatına xas olan adlardandır. Ərəblər hətta cahiliyyət dövründə də bu addan öz şe᾽rlərində istifadə edərdilər.

Allah-taala Loğman surəsinin 25-ci ayəsində bu barədə buyurur:

وَلَئِن سَأَلْتَهُم مَّنْ خَلَقَ السَّمَاوَاتِ وَالْأَرْضَ لَيَقُولُنَّ اللَّهُ

***«[Ya Məhəmməd!] Həqiqətən əgər sən müşriklərdən «göyləri və yeri kim yaratmışdır?» deyə soruşsan, onlar mütləq «Allah!» deyə cavab verəcəklər».***

«Allah» kəlməsinin xüsusi ad kimi deyil, ümumi ünvan daşıdığını iddia edənlər böyük səhvə yol vermiş olurlar. Və biz bunu sübuta yetirəcək bir neçə dəlilə işarə edə bilərik.

1) ***«Allah»*** kəlməsi «Ləfzi-cəlalə» də adlanır. Belə ki, bu kəlməni eşitməklə heç bir dəlil və sübuta ehtiyac duyulmadan ilk növbədə insanın zehnində Allahın müqəddəs vücudu canlanır.

2) Başqa bir kəlməyə vəsf gəlmir. Məsələn, «Əl alimu – Əllahu, «Əl-xaliqu Əllahu (yə`ni, sifəti Allah olan alim, yaxud sifəti Allah olan Xaliq kimi ifadələrdən istifadə edərək) «Allah» kəlməsini vəsf şəklində gətirə bilmərik. Demək, Allah kəlməsi başqa bir kəlmədən götürülməmişdir (müştəq deyildir) və Ona xas olan adlardandır.

3) Əgər ləfzi-cəlalə Allaha xas olan ad olmasaydı ***«La ilahə illəllah – Allahdan başqa heç bir ilah, mə`bud yoxdur»*** təkallahlıq şüarı nə tohid kəlməsi adlanar, nə də Allahın birliyinə dəlalət edə bilərdi. Belə ki, (La ilahə illərraziq – Ruzi verəndən başqa bir Allah yoxdur), (La ilahə illəl xaliq – Yaradandan başqa Allah yoxdur) və bu kimi ifadələr Allahın birliyinə dəlalət etmir. Və əgər bir şəxs bu ifadələri (La ilahə illəllah) kəlməsinin yerinə istifadə edərsə, onu Allaha iman gətirmiş bir müsəlman kimi qəbul etmək olmaz.

4) Hər bir varlığın özünəməxsus müəyyən adı olduğu kimi aləmlərin Rəbbinin də özünə xas adı olmalıdır. Və bunu da bilirik ki, ərəb dilində bu müqəddəs zata «Allah»dan başqa heç bir ad verilməmişdir. Demək, «Allah» aləmlərin Rəbbinə xas olan bir addır.

***İradlar:***

1. Əgər bir şəxs hər hansı bir varlığa müəyyən bir ad qoyursa, demək ilk növbədə onu zehnində canlandırmış və özündə yarandığı təsəvvürə müvafiq olaraq ona nəzərdə tutduğu adı vermişdir. Lakin Allaha gəldikdə isə, bu iş qeyri-mümkündür. Çünki Allah təsəvvür olunası bir varlıq deyildir. Və insan kimi naqis və məhdud bir varlığın, elm və qüdrəti hər şeyi əhatə edən mütləq bir varlığı nə təsəvvür etməsi mümkündür və nə də adlandırması.

Və əgər «Allah» kəlməsinin «müqəddəs zata» verilən ad olduğuna ehtimal verilərsə, bunu da əsaslı hesab etmək olmaz. Çünki əvvəla bilirik ki, «Allah» adını qoyan Allahın özü deyildir.

Digər tərəfdən isə adın qoyulması ilə yanaşı onu dilə gətirdikdə də insan onu zehnində canlandıra bilməlidir. Lakin qeyd etdiyimiz kimi, bəşərin bu müqəddəs zatı təsəvvür etməsi qeyri-mümkündür və belə bir halda «Allah» adını da [təsəvvür edə bilmədiyi] bir varlığa qoyması imkan xaricindədir. Deməк, bəşərin müqəddəs zat üçün ad tə᾽yin edib, onu bu adla adlandıra bilməsi qeyri-mümkün olduğu üçün deyə bilərik ki, «Allah» kəlməsi tanrıya xas olan bir ad deyildir.

***Cavab:***

Hər hansı bir varlığa ad qoymaq üçün bu kifayət edər ki, insanın zehnində həmən varlıq barədə cüz᾽i və təqribi olsa da belə, təsəvvür yaranmış olsun. Və belə bir icmali təsəvvürün istər Allah kimi mütləq bir varlıq, istərsə də digər məhdud varlıqlar haqda olunması tamamilə mümkündür. Təsəvvürü mümkün olmayan isə Allahın müqəddəs zatı və Onun kamal sifətləridir. Halbuki, belə bir dəqiq təsəvvür nə adın tə᾽yin, nə də istifadə olunmasında lazımdır. Və əgər belə bir təsəvvür zəruri olsaydı, varlıqları adlandırmaq tək Allaha dair deyil, həqiqət və mahiyyəti bəşəriyyətə tamamilə bəlli olmayan mələk, cin, ruh kimi varlıqlarda da böyük nöqsanlar doğurardı.

Digər tərəfdən də heç kim işarə və şəxs əvəzliyinin Tanrının müqəddəs zatı üçün istifadə olunmasının doğruluğunda şəkk və tərəddüd edə bilməz. Demək insan işarə və şəxs əvəzliklərini tələffüz etməklə Allahı nəzərdə tuta bilər. Belə isə hər hansı bir kəlməni tələffüz etməklə Allahı nəzərdə tutmağımızın və bu kəlməni Ona xas olan ad hesab etməyimizin nə kimi nöqsanı ola bilər? Və Tanrının müqəddəs zatı bu kamal sifətlərinə malik olduğu üçün adlandırmaq mərhələsinə gəldikdə, bütün o kamal sifətlər nəzərdə tutulur. Bütün bunları nəzərə alaraq deməliyik ki, «Allah» kəlməsi bütün kamal sifət və xüsusiyyətlərə malik olan mütləq varlığa xas olan bir addır.

2. Əgər «Allah» kəlməsi xüsusi ad olarsa, Ən᾽am surəsinin 3-cü ayəsinin verdiyi mə᾽na bir o qədər doğru və düzgün olmayacaqdır. Ayədə deyilir:

وَهُوَ اللّهُ فِي السَّمَاوَاتِ وَفِي الأَرْضِ

***«Göylərdə də, yerdə də [ibadətə layiq olan] yalnız O Allahdır».***

Çünki əgər «Allah» kəlməsi Tanrının xas adı olarsa, belə olduqda ayədən belə bir qənaətə gəlməli olacağıq ki, Allahın müəyyən yeri və məkanı vardır. Halbuki, Allahın nə yeri var, nə də məkanı vardır. Bu səbəbdən də deməliyik ki, «Allah» kəlməsi Tanrının xas adı deyil, «mə͗bud» mə͗nasını daşıyacaqdır. Və belə olduqda ayənin mə͗nası belə olacaqdır. (Odur göylərin və yerin mə͗budu).

***Cavab:***

Demək, ayədən əldə etdiyimiz mə͗naya əsasən, Allah üçün yer və məkan heç bir mə͗na kəsb etmir. O, göylərdə və yerdə hər nə varsa əhatə edir və heç nə Ondan gizli və pünhan deyildir. Ayənin ardı bu mətləbə dəlalət edir.

يَعْلَمُ سِرَّكُمْ وَجَهرَكُمْ وَيَعْلَمُ مَا تَكْسِبُونَ

***«Gizlində də, aşkarda da tutduğunuz [bütün] əməlləri O bilir!)***

Əbu Cə͗fər – Şeyx Səduqun fikrincə Məhəmməd ibni Ne͗man həmən şəxs olmuşdur – nəql etdiyi rəvayətdə deyir: İmam Sadiq (ə)-dan ***(Və huvəllahu fissəmavati və fil ərzi – göylərdə də, yerdə də yalnız O Allahdır)*** ayəsinin təfsirini soruşdum.

İmam (ə) buyurdu: Bəli, O hər yerdədir.

Dedim: O Öz vücud və zatı ilə hər yerdə olurmu?

Buyurdu: Söylədiklərinə diqqət yetir! Yer və məkanlar məhduddur. Əgər, Allah Öz zatı ilə filan yerdədir desən, deməli Onun digər varlıqlar kimi müəyyən və məhdud bir yerdə olduğunu təsəvvür etmiş olursan. Lakin bu heç də belə deyildir. O nə məhduddur, nə də məhdud bir yerə sığır. O yaradılmışlardan ayrı və onların malik olduqları sifət və xüsusiyyətlərdən də uzaqdır. Lakin eyni zamanda elm və qüdrəti hər şeyi əhatə edir.

«Allah» kəlməsi böyük və olduqca əhəmiyyətli mə͗na kəsb etdiyi üçün «ləfzi-cəlalə» adlandırılmışdır. Bu kəlmənin özünəməxsus xüsusiyyətlərindən biri də budur ki, kəlmənin əvvəlindəki «Əlif və lam» xüsusi isim olduğundan kəlmənin əsas

tərkib hissəsini təşkil etsə də, eyni zamanda həmzə digər kəlmələrdə olduğu kimi — nida cümləsi istisna olmaqla – Ya Allah – başqa bir kəlmə ilə birləşdikdə ixtisara düşərək tələffüz olunmur. Bu yalnız «ləfzi-cəlalə»yə xas olan xüsusiyyətdir. Və biz digər kəlmələrdə belə xüsusiyyətlərlə qarşılaşmırıq.

Lakin bunu da qeyd etməliyik ki, ləfzi-cəlalə «Lahə» kəlməsindən götürülmüşdür və bu da gizli qalmaq, bəʾzən də ucalıq məʾnasını daşıyır. Demək, «Allah» kəlməsi tərkib baxımından məsdər, məʾna baxımından fail, istifadəyə gəldikdə isə Tanrıya xas olan ad kimi işlənilir. Belə ki, onun məʾnalarında bir neçə mətləbə toxunulmuşdur: «Allah» – yəʾni, bütün eyb və nöqsanlardan uzaq, hər şeydən uca və hər şeyə sahib və hakim olan mütləq bir varlıq. Elə bir varlıq ki, nişan və əlamətləri hamıya bəlli və gün kimi aşkardır. Eyni zamanda insanlar Onu görməz, əql və düşüncələri ilə zatının nədən ibarət olduğunu dərk etməzlər.

فيك يا اعجوبة الكو    ن غدا الفكر كليلا
انت حيرت ذوي    اللب و بلبلت العقولا
كلما اقدم فكري    فيك شبرا فر ميلا
ناكصا يخبط في    عشواء لا يهدي سبيلا

***«Ey aləmi heyrətə gətirən varlıq! Ağıl və düşüncələr səni dərk etməkdən aciz qalmışlar. Sənsən ağıl və şüur sahiblərini heyrətə gətirən! Sənsən onları özünə valeh və heyran edən! Hər zaman səni dərk etmək üçün bir qarış irəliləyirəmsə fasilələr geri çəkilir. Zülmət və qaranlıqda sərgərdan sənə doğru irəliləyirəm. Və heç bir yol məni sənə doğru gətirmir».***

***4. Rəhman.***

Bəsmələ cümləsinin dördüncü kəlməsi «Rəhman kəlməsidir. Mərhəmət, bağışlamaq və rəhm etmək məʾnasını daşıyan bu kəlmə «Rəhmət» kəlməsindən götürülmüşdür.

Allah-taala Qurʾani-Kərimdə buyurur:

أَشِدَّاء عَلَى الْكُفَّارِ رُحَمَاء بَيْنَهُمْ

***«[Möʾminlər] kafirlərə qarşı sərt, bir-birinə [öz aralarında] isə mərhəmətlidirlər.) (48/29).***

اعْلَمُواْ أَنَّ اللّهَ شَدِيدُ الْعِقَابِ وَأَنَّ اللّهَ غَفُورٌ رَّحِيمٌ

***«Bilin ki, Allahın əzabı şiddətlidir və Allah bağışlayan, rəhm edəndir!» (5/98).***

Rəhmət dedikdə, biz həm bu kəlmənin həqiqi mə᾽nasını yə᾽ni, bağışlamaq, mərhəmətli olmaq və rəhm etməyi, həm də «ürəyi yumşaqlıq» kimi məcazi mə᾽nada nəzərdə tuta bilərik. Lakin biz bu kəlmənin yalnız həqiqi mə᾽nasını Allaha nisbət verə bilərik. Çünki «rəhmət» «ruzi vermək», «yaratmaq» kimi Allaha xas olan xüsusiyyətlərdəndir. «Ürəyi yumşaqlıq» isə bu kəlmənin məcazi bir mə᾽nası kimi insana aid olan xüsusiyyətdir. Allah-taala Qur᾽ani-Kərimdə bu barədə buyurur:

رَّبُّكُمْ أَعْلَمُ بِكُمْ إِن يَشَأْ يَرْحَمْكُمْ أَوْ إِن يَشَأْ يُعَذِّبْكُمْ

***«Rəbbiniz sizi daha yaxşı tanıyır [kimin mö᾽min, kimin kafir olduğunu çox gözəl bilir]. İstəsə sizə rəhm edər, istəsə əzab verər». (17/54).***

يُعَذِّبُ مَن يَشَاء وَيَرْحَمُ مَن يَشَاء وَإِلَيْهِ تُقْلَبُونَ

***«Allah istədiyinə əzab verər, istədiyini bağışlayar». (29/21).***

Qur᾽anın bir çox ayələrində insanlara Ondan bağışlanmalarını istəmələrini xatırladır.

وَقُل رَّبِّ اغْفِرْ وَارْحَمْ وَأَنتَ خَيْرُ الرَّاحِمِينَ

***«[Ya Məhəmməd!] De ki: «Ey Pərvərdigar! [Bizi] bağışla və rəhm et! Sən rəhm edənlərin ən yaxşısısan». (23/118).***

Bir çox müfəssirlərin və lüğət alimlərinin fikrincə, rəhman kəlməsi rəhmət kəlməsinin mübaliğə və çoxaltma formasıdır. Və bunu rəhman kəlməsinə də – bütün tərkib hissəsi istər istifadə olunsun, istərsə də olunmasın – aid etmək olar. Belə bir istifadə ümumiyyət xarakteri daşıyır. Və onun ümumi məfhumu rəhmətin bütün yaradılmışlara şamil olduğuna dəlalət edir. Belə ki, biz Qur᾽anın heç bir ayələrində belə bir ifadə ilə qarşılaşmırıq:

***«Həqiqətən Allah insanları və ya mö᾽minləri bağışlayan və rəhm edəndir».***

Yə᾽ni Qur᾽ani-Kərimin heç bir ayəsində rəhman kəlməsi insanlar və ya mö᾽minlərlə birlikdə işlənməmişdir. Lakin rəhim kəlməsinin bu kimi hallarda Qur᾽anın bir çox ayələrində istifadə olunduğunun şahidi oluruq.

Rəhman – sanki Allaha verilən bir ləğəbdir və bu ləqəb Ondan başqa birisi üçün istifadə olunmur. Bu səbəbdən də bəʾzi ayələrdə başqa bir kəlmədən istifadə olunmadan Allahın müqəddəs zatına aid olduğu göstərilir.

قَالُوا مَا أَنتُمْ إِلاَّ بَشَرٌ مِّثْلُنَا وَمَا أَنزَلَ الرَّحْمن مِن شَيْءٍ إِنْ أَنتُمْ إِلاَّ تَكْذِبُونَ

***«Siz də bizim kimi ancaq adi bir insansınız. Rəhman [sizə] heç bir [kitab, möʾcüzə] nazil etməmişdir». (36/15).***

إِن يُرِدْنِ الرَّحْمَن بِضُرٍّ لاَّ تُغْنِ عَنِّي شَفَاعَتُهُمْ شَيْئًا وَلاَ يُنقِذُونِ

***«Əgər Rəhman mənə bir zərər yetirmək istəsə, onların şəfaəti mənə heç bir fayda verməz və onlar məni [Allahın əzabından] xilas edə bilməzlər». (36/23).***

هَذَا مَا وَعَدَ الرَّحْمَنُ وَصَدَقَ الْمُرْسَلُونَ

***«Bu, Rəhmanın məxluqata buyurduğu vəʾddir [Qiyamət günüdür]. Peyğəmbərlər doğru deyirmişlər!». (36/52).***

مَّا تَرَى فِي خَلْقِ الرَّحْمَنِ مِن تَفَاوُتٍ

***«Sən Rəhmanın yaratdığında heç bir uyğunsuzluq görməzsən». (67/3).***

Məryəm surəsinin 65-ci ayəsinə də işarə etmək olar.

رَبُّ السَّمَاوَاتِ وَالْأَرْضِ وَمَا بَيْنَهُمَا فَاعْبُدْهُ وَاصْطَبِرْ لِعِبَادَتِهِ هَلْ تَعْلَمُ لَهُ سَمِيًّا

***«O, göylərin və yerin, onların arasında olan hər şeyin Rəbbidir! Yalnız Ona ibadət et və Onun ibadətinə səbirli ol!»***

Göründüyü kimi «Rəhman» kəlməsinə bu ayədə xüsusi diqqət yetirilir. Və bu kəlmə Məryəm surəsində 16 dəfə işlənmişdir. Belə bir qənaətə gəlmək olur ki, Allahla eyni ada malik olan ikinci bir varlıq yoxdur. Bu ad yalnız Allaha xasdır və Ondan başqa heç bir varlığa aid olunmur.

5. «***Rəhim» –*** kəlməsi "Bəsmələ" cümləsinin sonuncu kəlməsini təşkil edir. Və burada ya mübaliğə, ya da feʾli sifət rolunu oynayır. «Fəil» vəzninin cümlədə ifa etdiyi rollardan biri də hər hansı bir xüsusiyyəti daimi olaraq nəyə və ya kiməsə aid etməsidir. (Qadir, alim, səxavətli, şərafətli, uca, alçaq, düşgün və bu kimi xüsusiyyətlər). Demək, «Rəhman» ilə «Rəhim» arasında olan fərq bundan ibarətdir ki, «Rəhim» Allahdan ayrılmaz və daimi xüsusiyyətlərə deyilir. «Rəhman» isə yalnız Tanrının bağışlayan və mərhəmətli olmasına dəlalət edir. Bunu da qeyd

etmək lazımdır ki, «Rəhim» kəlməsi Qur᾽ani-Kərimdə daim «bi» tə᾽sirlik şəkilçisi ilə işlənmişdir.

إِنَّ اللَّهَ بِالنَّاسِ لَرَؤُوفٌ رَّحِيمٌ

***«Allah insanlara qarşı, əlbəttə mehriban və mərhəmətlidir». (2/143).***

وَكَانَ بِالْمُؤْمِنِينَ رَحِيمًا

***«...Allah mö᾽minlərə rəhm edəndir». (33/43).***

Bizə elə gəlir ki, bu yerlərdə ona aid olan sözlərlə işlənən həmin kəlmə tə᾽sirli formadan çıxaraq tə᾽sirsiz hala salınmış və müstəqil şəkildə işlədilmişdir. Əgər o tə᾽sirsiz halda olsaydı, «bi» hərfi ilə tə᾽sirli hala salınmazdı. Bu kəlmənin tə᾽sirsiz fərz olunması onun məfhumunun zati olmasını sübuta yetirir.

Alusi bu kəlmə barəsində belə bir nəzər irəli sürmüşdür ki, onlar fe᾽li sifətlər deyildirlər, çünki hər iki kəlmə «Rəhmanəd-dünya vəl axirəti və rəhiməhuma» cümləsində öz tamamlığı ilə izafə təşkil etmişdir. Halbuki fe᾽li sifətlər tə᾽sirli deyil, tə᾽sirsiz fe᾽llərdən düzəlir. Başqa sözlə desək, fe᾽li sifətlərin heç vaxt tamamlığı olmur ki, onunla da izafə təşkil etsin.

Alusinin bu sözləri çox təəccüblüdür, çünki qeyd olunan cümlədə bu iki sözün izafə təşkil etməsi sözün öz tamamlığı ilə izafəi növündən deyil, məkan və ya zamanla izafə növündəndir. Bu növ izafədə də tə᾽sirli və tə᾽sirsiz fe᾽llər arasında fərq yoxdur.

Nəql olunmuş bə᾽zi rəvayətlərdə «Rəhim» kəlməsinin xüsusi isim və ümumi mə᾽na daşıdığı göstərilmişdir. Çünki hər ikisi axirət və ya mö᾽minlərə aid olunur. Lakin bu rəvayət ya kənara qoyulmalı, ya da izah olunmalıdır. Çünki rəvayətlərin zahiri mə᾽nası Qur᾽an ayələri ilə ziddiyyət təşkil edir. Çünki «Rəhim» kəlməsi Qur᾽ani-Kərimdə «mö᾽minlərə» və ya «axirətə» aid olmadan bir çox yerdə işlənmişdir.

فَمَن تَبِعَنِي فَإِنَّهُ مِنِّي وَمَنْ عَصَانِي فَإِنَّكَ غَفُورٌ رَّحِيمٌ

***«İndi kim ardımca gəlsə, o şübhəsiz ki, məndəndir. Kim mənə qarşı çıxsa, [bilin ki, tövbə edəcəyi təqdirdə] Sən [günahları] bağışlayan və bəndələrinə rəhm edənsən». (14/36).***

نَبِّىءْ عِبَادِي أَنِّي أَنَا الْغَفُورُ الرَّحِيمُ

***«[Ya Məhəmməd!] Bəndələrimə xəbər ver ki, [tövbə edəcəkləri taqdirdə] Mən, həqiqətən bağışlayan və rəhm edənəm». (15/49).***

إِنَّ اللَّهَ بِالنَّاسِ لَرَؤُوفٌ رَّحِيمٌ

***«Həqiqətən, Allah insanlara şəfqətli və mərhəmətlidir». (22/65).***

رَّبُّكُمُ الَّذِي يُزْجِي لَكُمُ الْفُلْكَ فِي الْبَحْرِ لِتَبْتَغُواْ مِن فَضْلِهِ إِنَّهُ كَانَ بِكُمْ رَحِيمًا

***«Sizin üçün [bol] ne῾mətlərdən özünüzə ruzi diləmək [qazanmaq] məqsədilə dənizdə gəmiləri hərəkətə gətirən məhz Rəbbinizdir. Həqiqətən, Rəbbiniz sizə qarşı rəhimlidir». (17/66).***

وَيُعَذِّبَ الْمُنَافِقِينَ إِن شَاء أَوْ يَتُوبَ عَلَيْهِمْ إِنَّ اللَّهَ كَانَ غَفُورًا رَّحِيمًا

***«Allah [bununla] doğruları doğruluqlarına görə mükafatlandırsın, münafiqlərə də istəsə əzab versin, yaxud onların tövbələrini qəbul buyursun. Həqiqətən, Allah [bəndələrini] bağışlayan və (onlara) rəhm edəndir». (33/24).***

Göründüyü kimi «Rəhim» kəlməsi bu ayələrdə ümumi mə῾nada işlənmişdir. Yə῾ni, Allah hər iki dünyada istər mö῾min, istərsə də münafiqlərə qarşı mehriban və bağışlayandır.

Bu ifadələrə bə῾zi dualarda da rast gəlmək olur.

Ya Rəhmanəd-dunya vəl axirəti və Rəhiməhuma – Ey dünya və axirətdə bağışlayan.

### *ƏDƏBİ İZAH*

Təfsir alimlərindən bə῾zilərinin fikrincə, «Bismillah» kəlməsinin «car və məcrur», yə῾ni, yiyəlik halında olması «əqulu» ya «qul» ya «əqrəu» və ya «iqr῾a» əmr fe῾linə aiddir. Bə῾zilərinin fikrincə isə, «Bismillah» kəlməsinin «car və məcrur» olması «əstəinu» və ya «istəin» əmr fe῾linə aid olub onunla əlaqəlidir. Bu barədə başqa fikir irəli sürən digər təfsir alimləri isə «Bismillah» kəlməsinin «ibtədi῾» əmr fe῾lindən asılı olduğunu qeyd etmişlər. Lakin bizim fikrimizcə ilk iki nəzəriyyəni bu səbəbdən əsassız hesab etmək olar ki, «qiraət» və «qovl» fe῾llərinə aid olan tamamlıq mə῾na daşıyan bir cümlə olmalıdır. Belə bir halda bu kəlmələrin özləri ilə yanaşı «qiraət» və «qovl» fe῾llərinin tamamlığı olacaq başqa bir cümlə də nəzərdə tutmalıyıq. Burada da «Rəhman» və «Rəhim» kəlmələri özünün ümumi mə῾nasında

işlənmişdir. Deməkʼ, məʼna baxımından onların arasında heç bir fərq yoxdur.

Bəlkə də «Rəhim» kəlməsinin xüsusi məʼna daşıdığına işarə edən rəvayətlərdən məqsəd, onun yalnız axirət dünyasına aid olmasıdır. Belə bir halda əgər İlahi rəhmət bu dünyada sona çataraq axirətədək davam etməzsə, onun olub-olmaması arasında heç bir fərq qoymaq olmaz. Çünki belə bir rəhmətdən sonra əzab və bədbəxtçiliyin insana nə bir xeyiri ola bilər, nə də bəhrəsi. Belə bir qənaətə gəlmək olar ki, rəhmət (bağışlanma) deyildikdə, onun həqiqi məʼnada yalnız və yalnız möʼminlərə şamil olunduğunu nəzərdə tutmalıyıq, lakin bu heç də o demək deyildir ki, başqaları Allahın rəhmət və mərhəmətindən məhrum qalacaqlar.

İkinci nəzəriyyənin əsassız olduğuna gəldikdə isə, bunu deyə bilərik ki, Allahın Özünün kömək və yardım istəməsi mahal və qeyri-mümkün olan bir işdir. Çünki O hətta Özünün uca adlarından kömək istəməkdən belə ehtiyacsızdır. İnsanlara gəldikdə isə, onlar da Allahın adlarından deyil, Onun Özündən kömək diləməlidirlər.

«İyyakə nəʼbudu və iyyakə nəstəin» ayəsi dediklərimizi bir daha sübuta yetirə bilər.

Demək, bu barədə irəli sürülmüş düzgün nəzəriyyə «Bismillah» kəlməsinin «ibtədiʼ» əmr feʼlinin nəzərdə tutulması ilə mümkündür. Bunu da qeyd etmək lazımdır ki, «ism» kəlməsinin «Allah» kəlməsinə birləşməsi «Allah» və «Ər-Rəhmanir-rəhim» kəlmələrinin məfhumunu ayrı-ayrılıqda bəyan etmək deyildir. Çünki əvvəla belə bir ehtimalın verilməsi olduqca zəifdir, digər tərəfdən isə əgər «ism» deyildikdə bu üç kəlmə (Allah, Rəhman və Rəhim) nəzərdə tutulsaydı – birlikdə Allahın adını təşkil etməz – və əgər onlardan biri nəzərdə tutulsaydı, onların arasında «və» bağlayıcısı qoyulardı. Belə olduqda ayəni «Bismillahi vərrəhmani vərrəhim» oxumalıyıq. Demək, «ism»in «Allah» kəlməsinə birləşməsi məʼna xarakteri daşıyır və «Allah» burada ayrıca kəlmə kimi deyil, eyni məfhum daşıdığına dəlalət edir.

### *SURƏLƏRİN BİSMİLLAH AYƏSİ İLƏ BAŞLANMASI*

Qurʾan insanları cahiliyyətin zülmət və qaranlıqlarından çıxararaq onları xoşbəxt həyata və səadətə qovuşduracaq bir kitab olduğu üçün onun Allahın adı ilə başlanması daha məqsədəuyğun olardı. Çünki Onun adı müqəddəs zatından xəbər verir və bəşəriyyətin kamala çatması üçün Allahın müqəddəs zatını onlara tanıtdırmaq Qurʾanın nazil olmasına səbəb olan başqa dəlil olmuşdur. «Tövbə» surəsi istisna olmaqla Qurʾanın bütün surələri «Bismillah» ayəsi ilə başlanır və həmin surənin Bismillah ayəsi ilə başlanmamasına səbəb bu surənin müşriklərin bəraət olunmaması və Allahın onlara qəzəb etməsi ilə başlanmasıdır.

***Xülasə:***

Allah-taala məxluqatın məʾnəvi yaradılışını [özünün ən kamil adlarından biri olan] Peyğəmbərin (s) nuru ilə başladığı kimi, nazil etdiyi sonuncu səmavi kitabı da Öz müqəddəs adı ilə başlamışdır.

Ad deyildikdə bir şeyin həqiqi mahiyyəti və onun zatı nəzərdə tutulur.

Belə bir məʾnanı əsas tutaraq deyə bilərik ki, Allahın adları ya Onun müqəddəs zatına və kamal sifətlərinə dəlalət edəcək sözlərdən, yaxud da xaricdə mövcud olan yaratdığı varlıqlardan ibarətdir. Belə ki, bu varlıqlar Allahın əzəmət və birliyinə şəhadət verir və Onun şəʾninə şükür və səna edirlər. Qurʾani-Kərimdə bu haqda deyilir:

أَمْ خُلِقُوا مِنْ غَيْرِ شَيْءٍ أَمْ هُمُ الْخَالِقُونَ

***«Yoxsa onlar heç bir şeydən [Xaliqsiz] yarandılar? Yaxud onlar öz-özlərini yaradanlardır?!» (52/35).***

لَوْ كَانَ فِيهِمَا آلِهَةٌ إِلَّا اللَّهُ لَفَسَدَتَا

***«Əgər yerdə və göydə Allahdan başqa tanrılar olsa idi, onların ikisi də [müvazinətdən çıxıb] pozulardı». (21/22).***

Yuxarıda qeyd olunan ayələrdən belə qənaətə gəlmək olur ki, mövcud varlıqlar sözün həqiqi məʾnasında Allahın xaliqiyyət adlarının xaricdəki təcəllisidir. Lakin diqqət yetirmək lazımdır ki, Allahın bəʾzi adları Onun zatına, bəʾziləri isə Onun müəyyən kamal sifətlərinə dəlalət edir. Və hər bir ad özünün məfhum

əhatəsi ilə Allahın kamal və əzəmətini çatdırır. Allahın xaliqiyyət adları da Onun birliyi, elm və qüdrəti və s. kamal sifətləri ilə müştərək olsa da, Allahın kamal və əzəmətinə fərqli olaraq dəlalət edir. Belə ki, onların ən kamili Peyğəmbərin (s) və İmamların vücudunda təcəlli etmişdir və məxluqat onların nurunun yaradılması ilə yaranmağa başlamışdır.

Yaradılmış varlıq nə qədər kamil və yüksək xüsusiyyətlərə malik olarsa, Allahın vücud və əzəmətinə bir o qədər çox dəlalət etmiş olar. Bu səbəbdən də İmamlara «Əsmaul-hüsna» – ən gözəl adlar ləqəbi verilmişdir.

Demək, Allah nazil etdiyi sonuncu və ən kamil kitabı [Qur᾽anı] ən gözəl və Ona ən yaxın olan adlarla başlamışdır.

Allah, Qur᾽anı yaradılışın təməlini təşkil edən belə bir gözəl ifadələrlə başlamaqla, insanlara bir daha xatırlatmaq istəmişdir ki, Özü hikmətlə dolu olan Qur᾽anı ən gözəl adlarla başladığı kimi, onlarda görmək istədikləri bütün işlərini Onun adı ilə başlasınlar.

Peyğəmbərdən (s) nəql olunmuş rəvayətdə deyilir:

***«Əhəmiyyət kəsb edən hər bir iş Allahın adı ilə başlanmazsa, sonsuz və nəticəsiz qalacaqdır.»***[1]

Əli (ə) Peyğəmbərdən (s) nəql etdiyi rəvayətdə buyurur: ***«Əhəmiyyət kəsb edən hər bir iş Allahın adı ilə başlanmasa, sonsuz və nəticəsiz qalacaqdır.»***[2]

«Bəsmələ» ayəsinin müxtəsər təfsiri ilə tanış oldunuz. Bu haqda gələcək fəsillərdə ətraflı mə᾽lumat verəcəyik.

### *BƏSMƏLƏ AYƏSİ HAQDA MÜXTƏLİF MƏSƏLƏLƏR*

### *QUR᾽AN RƏHMƏT VƏ BAĞIŞLANMA KİTABIDIR*

Hər şeydən uca və hər şeyə qadir olan Allah ***«Rəhman»*** və ***«Rəhim»*** [bağışlayan və mərhəmətli] sifətlərini seçərək nazil etdiyi hikmət, öyüd-nəsihətlə dolu olan sonuncu səmavi kitabı onlarla başlayır.

---

[1] Əhməd ibni Hənbəl, "Musnəd", 2-ci cild, 359-cu səh.

[2] "Biharul-ənvar", 16, 19-cu cild, 58, 60-cı fəsil.

Məhz bunun nəticəsində Allah [bəşəriyyətin haqqa hidayət olması üçün] yüzlərlə peyğəmbər göndərmiş və onlara səmavi kitablar nazil etmişdir.

Bəli, Qur᾿an rəhmət kitabı və onu gətirən də [Həzrət Məhəmməd (s)] rəhmət peyğəmbəri olmuşdur. Qur᾿ani-Kərimdə bu mətləbə işarə olunan bir çox ayələrə rast gəlmək olur:

هَذَا بَصَائِرُ لِلنَّاسِ وَهُدًى وَرَحْمَةٌ لِّقَوْمٍ يُوقِنُونَ

***«Bu [Qur᾿an] Rəbbiniz tərəfindən [göndərilmiş] aşkar dəlillərdir, həm də iman gətirən tayfa üçün hidayət və mərhəmətdir». (7/203).***

وَشِفَاء لِّمَا فِي الصُّدُورِ وَهُدًى وَرَحْمَةٌ لِّلْمُؤْمِنِينَ

***«[Ey insanlar!] Sizə Rəbbinizdən bir öyüd-nəsihət, ürəklərdə olana [cəhalətə, şəkk-şübhəyə, nifaqa] bir şəfa, mö᾿minlərə hidayət və mərhəmət [Qur᾿an] gəlmişdir». (10/57).***

وَنَزَّلْنَا عَلَيْكَ الْكِتَابَ تِبْيَانًا لِّكُلِّ شَيْءٍ وَهُدًى وَرَحْمَةً وَبُشْرَى لِلْمُسْلِمِينَ

***«Biz Qur᾿anı sənə hər şeyi izah etmək üçün müsəlmanlara [və ya Allahın vəhdaniyyətini qəbul edən bütün insanlara] da bir hidayət, mərhəmət və müjdə olaraq nazil etdik». (16/89).***

وَنُنَزِّلُ مِنَ الْقُرْآنِ مَا هُوَ شِفَاء وَرَحْمَةٌ لِّلْمُؤْمِنِينَ

***«Biz Qur᾿andan mö᾿minlər üçün şəfa və mərhəmət olan ayələr nazil etdik». (17/82).***

وَمَا أَرْسَلْنَاكَ إِلَّا رَحْمَةً لِّلْعَالَمِينَ

***«Səni də [Ya Məhəmməd!] aləmlərə [bütün insanlara və cinlərə] ancaq bir rəhmət olaraq göndərdik». (21/107).***

وَإِنَّهُ لَهُدًى وَرَحْمَةٌ لِّلْمُؤْمِنِينَ

***«Və şübhəsiz ki, o, mö᾿minlərə bir hidayət [doğru yolu göstərən rəhbər] və mərhəmətdir». (27/77).***

### *RƏHİM KƏLMƏSİNİN RƏHMANDAN SONRA GƏLMƏSİNİN SƏBƏBİ*

Bir qədər əvvəl qeyd etdik ki,«fəil» vəznində işlənilən hər bir kəlmə hər hansı bir sifətin kimə [və ya nəyəsə] daimi olaraq aid olduğuna dəlalət edir. Belə bir izahla «fəil» vəznində işlənilən «Rəhim» kəlməsinin «Rəhman» kəlməsindən sonra gəlməsi bəlli olur. Çünki «Rəhman» sifəti ümumi xarakter daşısa da, bu sifətin

zati olmasına dəlalət etmir. Belə ki, bir çox kəlmələr qısa olmaqla yanaşı, böyük məˈna və məfhum daşıyır və ya əksinə, həcmi böyük olan bir çox kəlmələr qısa və məhdud məˈnalar daşıyır.

Məsələn «fəil» vəznində olan «həzir» kəlməsi mübaliğə halında işlənərək çox qorxaq şəxsə deyilir. Lakin [bir hərf çox olan] həmən bu kəlmə «fail» vəznində «hazir» məˈnasını daşıyır.

Ziyan etmək məˈnasını daşıyan «zərrə və əzərrə» kəlməsini də dediklərimizə misal çəkmək olar.

«Rəhim» kəlməsinin «Rəhman»dan sonra gəlməsi haqda dediklərimiz yalnız o zaman ola bilər ki, «Rəhman» sözü öz lüğəvi məˈnasında işlənmiş olsun. Lakin Allaha xas olan müqəddəs ləqəb məˈnasında işlənilərsə, dediklərimizi bir qədər əvəz etməli olacağıq. «Rəhim» kəlməsinin «Rəhman»dan sonra gəlməsinin əsas səbəbi bundan ibarətdir ki, «Rəhman» deyildikdə Allaha xas olan müqəddəs ləqəb özünün lüğəvi məˈnasında bəlli olmalıdır. Və bu da hamıya şamil olan sonsuz rəhmət və mərhəmət [bağışlanmaq] məˈnasını daşıyır.

### *BİSMİLLAH AYƏSİ QURˈANIN BİR HİSSƏSİNİ TƏŞKİL EDİRMİ?*

Şiələr belə bir əqidədədirlər ki, «Bismillah» ayəsi hər bir surənin [Tövbə surəsi istisna olmaqla] bir hissəsini təşkil edir və bu surələr nazil olarkən onlarla birlikdə nazil olmuşdur.

İbni Abbas və İbni Mübarək, Məkkədən İbni Kəsir, Kufədən [Həmzə istisna olmaqla] Asim, Kəsai və başqaları bu fikirdə olmuşlar.

Şafei məzhəbinin bir çox tərəfdarları da məhz bu əqidədə olmuşlar.[1]

Məkkə və Kufə qariləri də «Bismillah» ayəsini hər bir surənin ayrılmaz hissəsi hesab etmişlər.[2]

Bu nəzəriyyə Abdullah ibni Əmr ibni Zubeyr, Əbu Hüreyrə, Əta, Tavus, Səid ibni Cubur, Məhkul, Zöhəri, Əhməd ibni Hənbəl

---

[1] Təfsiri-Alusi, 1-ci cild, 39-cu səh.

[2] Təfsiri-Şovkani, 1-ci cild, 1-ci səh.

– İshaq ibni Rahəveyh və Əbu Ubəyd Qasim ibni Sәlama istinad edərək nəql etmişlər.[1]

Beyhəqi isə bu nəzəriyyəni, Suri və Məhəmməd ibni Kəʾbdən nəql etmişdir.[2]

Bu nəzəriyyəni Fəxri Razi də öz təfsir kitabında qeyd etmişdir və o, bu nəzəriyyəni Kufə və Məkkə qarilərinə və Mübarək Səuri kimi Hicaz alimlərinə aid etmişdir. Cəlaləddin Süyuti də bu nəzəriyyəyə işarə etmiş və bu məzmunda nəql olunmuş rəvayətlərin mütəvatir olduğunu əlavə etmişdir.[3]

Lakin Həmzə və Şafei məzhəbinin bəʾzi alimləri «Bismillah» ayəsini yalnız «Həmd» surəsinin bir hissəsi olduğunu hesab etmişlər.

Bu nəzəriyyənin Əhməd ibni Hənbəl tərəfindən də irəli sürüldüyünə işarə olunmuşdur.

Bu barədə üçüncü başqa bir nəzəriyyə də irəli sürülmüşdür. Məsələn, Malik, Əbu Əmr və Yəʾqub belə bir fikirdə olmuşlar ki, «Bismillah» ayəsi müstəqil bir ayə kimi Qurʾan surələrinin, hətta «Həmd» surəsinin bir hissəsini təşkil etmir.

Bu ayə hər bir surənin əvvəlinə qoyulmaqla həm onu zinətləndirir, həm də surələr arasında fasilə yaradır. Və bu ayə hər hansı bir surəyə aid olmadan ayrıca nazil olmuşdur.

Bu nəzəriyyə Hənəfi məzhəbinin tərəfdarları arasında rəğbətlə qarşılanmışdır. Lakin onların bir çoxu namaz qılarkən «Həmd» surəsini «Bismillah» ayəsi ilə başlamağı vacib hesab edirlər. Belə ki, Zahidi Muqtəbadan nəql edərək deyir: «Nəql olunmuş möʾtəbər rəvayətə əsasən, Əbu Hənifə «Bismillah» ayəsini namazın bütün rəkətlərində oxumağı vacib hesab etmişdir.

Malikin fikrincə «Bismillah» ayəsinin namazda oxunması öz-özlüyündə bəyənilməyən və məkruh işlərdəndir. Lakin müsəlmanlar arasında birliyin bərqərar olması və fikir ayrılığına səbəb olmasın deyə, bu ayənin oxunması daha yaxşı olar.

---

[1] Ibni Kəsirin təfsiri, 1-ci cild, 16-cı səh.

[2] Xazinin təfsiri, 1-ci cild, 13-cü səh.

[3] Itqan, 1-ci cild, 135-ci səh.

## DÜZGÜN NƏZƏRİYYƏ VƏ BUNU SÜBUTA YETİRƏCƏK DƏLİLLƏR

Bu barədə heç bir əsası olmayan digər nəzəriyyələr də irəli sürülmüşdür. Və biz onların hər biri haqda söhbət açmağa heç bir ehtiyac duymuruq. Ən düzgün nəzəriyyə isə «Bismillah» ayəsinin Qur᾽an ayələrinin hər birinin [Tövbə surəsi istisna olmaqla] ayrılmaz hissəsi olduğuna dair irəli sürülmüş nəzəriyyədir.

Şiə alimləri tərəfindən yekdilliklə qəbul olunan bu nəzəriyyəni isbat edən kifayət qədər dəlil və sübutlar vardır. Və biz onlardan bir neçəsinə işarə edirik.

### *ƏHLİ-BEYT RƏVAYƏTLƏRİ*

«Bismillah» ayəsinin Qur᾽an ayələrinin ayrılmaz hissəsi olduğuna dair Əhli-beyt tərəfindən kifayət qədər hədis və rəvayət nəql olunmuşdur. Əhli-beytin (ə) cəmiyyətdə tutduğu mövqe və Peyğəmbərin (s) müsəlmanlara bütün dini məsələlərdə onlara müraciət etmələri haqda etdiyi tövsiyələr bizə nəql olunmuş bu rəvayətlərlə kifayətlənmək və əsaslı mənbə kimi onlara istinad etmək imkanını verir.

1. Müaviyə ibni Əmmardan nəql olunmuş rəvayətdə deyilir: İmam Sadiq (ə)-dan soruşdum: Namazda Həmd surəsini tilavət etdiyimiz zaman «Bismillah» ayəsini də oxuyaqmı?

Buyurdu: Bəli.

Yenidən soruşdum: Həmd surəsindən sonra oxunan surələrdə də «Bismillah» ayəsini oxuyaq?

Buyurdu: Bəli.[1]

2. Yəhya ibni Əmran Həmdani deyir: İmam Baqirə (ə) yazdığım məktubda ondan məni maraqlandıran suallara cavab verməsini xahiş etdim. Suallardan biri budur:

Namazda Həmd surəsinin «Bismillah», sonrakı surəsinin isə «Bismillah»sız olması barədə nə deyə bilərsiniz? Bunu da deyim ki, Abbasi bunun heç bir nöqsanı olmadığını deyir.

---

[1] Üsuli-kafi, 3-cü cild, 312-ci səh.

İmam (ə) yazdığı cavab məktubunda «Yenidən qılınmalıdır» deyə buyurur. İmam (ə) Abbasinin söylədiklərini nəzərə alaraq bu kəlməni iki dəfə yazmışdır.

3. İbni Əzinə özünün Səhihə adlı kitabında yazır: Peyğəmbər (s) təkbir (Allahu əkbər) deyib namaza başlarkən vəhy nazil oldu: Ya Məhəmməd! Məni adımla yad et! Bundan sonra «Bismillah» ayəsi hər bir surənin əvvəlində oxunmağa başladı. Sonra Allah-taala Peyğəmbərin (s) ona şükür etməsini əmr etdi. Peyğəmbər (s) «Əlhəmdu lillahi rəbbil aləmin – Həmd olsun aləmlərin Rəbbinə — ayəsini təkrar etdikdən sonra qəlbən bir daha Allaha şükür etdi. Yenidən belə bir vəhy nazil oldu. İndiki mənim şükrümü yerinə yetirdin – bir daha Məni Öz adımla yad et! Bu səbəbdən də Həmd surəsində «Ər-Rəhmanir-Rəhim – Bağışlayan və mərhəmətlidir» Həmd ayəsi iki dəfə oxunur. Surənin sonuna çatdıqda Allaha şükür edərək dedi: «Əlhəmdu lillahi rəbbil aləmin» – Həmd olsun aləmlərin Rəbbinə — vəhyi nazil oldu: Adımı çəkərkən onu tam demədin, bir daha Mənim adımı yad et! Peyğəmbər (s) yenidən «Bismillah» ayəsini təkrar etdi. Bu səbəbdən də Həmd surəsindən əvvəl «Bismillah» ayəsi oxunur. Sonra Allah-taala, Peyğəmbərə (s) İxlas surəsini nazil etdi.

***«[Ya Peyğəmbər!] Allahın zatı və sifətləri haqqında səndən soruşduqda müşriklərə de ki, [mənim Rəbbim olan] o Allah birdir. [Heç bir şəriki yoxdur – Allah [heç kəsə, heç nəyə] möhtac deyildir. [Hamı Ona möhtacdır: O əzəli və əbədidir – O nə doğmuş, nə də doğulmuşdur! [Allah özünə heç bir övlad götürməmişdir!] Onun heç bir tayı-bərabəri, bənzəri də yoxdur».***

### *ƏHLİ-SÜNNƏ RƏVAYƏTLƏRİ*

«Bismillah» ayəsinin Qur᾽an surələrinin ayrılmaz hissəsi olduğuna dair əhli-sünnə mənbələrində də kifayət qədər hədis və rəvayət nəql olunmuşdur.

1. Ənəs ibni Malik nəql etdiyi rəvayətdə deyir: Peyğəmbərlə (s) birlikdə oturmuşduq. Bir qədər mürgü vurduqdan sonra gülümsəyərək üzünü bizə tutdu. Ondan gülümsədiyini soruşduqda buyurdu: Elə bu an bu surə mənə nazil oldu:

«İnna ə᾽təynakəl-Kovsər...»

2. Dar Qutni mö᾿təbər mənbələrin birində nəql etdiyi rəvayətdə deyir: Əli (ə)-dan «Səb᾿ul-Məsani» barədə soruşduqda buyurdu: Səb᾿ul-Məsani "Həmd" surəsidir. Deyirlər Həmd surəsi altı ayədən ibarətdir. Buyurdu: «Bismillah» ayəsi də onun bir hissəsini təşkil edir.

3. Dar Qutni Əbu Hüreyrədən nəql etdiyi rəvayətdə deyir: Peyğəmbər (s) buyurur: "Həmd" surəsini oxuduğunuz zaman «Bismillah» ayəsini də oxuyun. Çünki bu surə Səb᾿ul-Məsani və "Ümmul kitab"dır – Qur᾿anın anasıdır.» «Bismillah» ayəsi «Həmd» surəsinin ayələrindən birini təşkil edir.[1]

4) İbni Xəzimə və Beyhəqi mö᾿təbər mənbəyə istinad edərək İbni Abbasdan nəql etdikləri rəvayətdə deyir: Səb᾿ul-Məsani «Həmd» surəsidir. Bəs yeddinci ayə hansıdır – deyə soruşduqda dedi: «Bismillah» ayəsi.[2]

5) Yenə də İbni Xəzimə və Beyhəqi «Əlmə᾿rifət» adlı kitabda mö᾿təbər mənbəyə istinad edərək Səid ibni Cubeyrədən və o da İbni Abbasdan nəql etdiyi rəvayətdə deyir: Şeytanın insanlardan oğurladığı ən böyük ayə «Bismillah» ayəsidir.

6) Səid ibni Cubeyr, İbni Abbasdan nəql etdiyi rəvayətdə deyir: Müsəlmanlar «Bismillah» ayəsi nazil olanadək surənin harada sona çatdığını bilməyirdilər. Bu ayə nazil olduqdan sonra onlar asanlıqla surənin harada sona çatdığını müəyyən edə bildilər.

7) Səid ibni Cubeyr, İbni Abbasdan nəql etdiyi başqa bir rəvayətdə deyir: Cəbrail nazil etdiyi vəhyi «Bismillah» ayəsi ilə başlarkən Peyğəmbər (s) başa düşürdü ki, ona nazil olan təzə surədir.

8) İbni Cərir deyir: Atam, Səid ibni Cubeyrdən nəql etdiyi rəvayətdə deyir:

***«[Ya Məhəmməd!] Biz sənə hər namazda oxunub təkrarlanan yeddi ayəni və böyük əzmətli Qur᾿anı verdik»*** ayəsindəki Səb᾿ul-Məsani deyildikdə «Həmd» surəsi nəzərdə tutulur. Və bu surəyə "Ümmül-Qur᾿an" da deyilir.

---

[1] Mustədrak 1-ci cild, 551-ci səh.

[2] Itqan, 1-ci cild, 136-cı səh.

İbni Cərir deyir: Atam deyərdi: Səid ibni Cubeyr «Bismillah» ayəsini mənim üçün «Həmd» surəsinin yeddinci ayəsi olaraq tilavət etdi və sonra dedi: «Bismillah» ayəsini mən sənin üçün «Həmd» surəsinin yeddinci ayəsi olaraq tilavət etdiyim kimi, İbni Abbas da onu mənim üçün tilavət edər və deyərdi: Allah-taala siz müsəlmanlara nazil etdiyi bu surəni əvvəlki ümmətlərin heç biri üçün nazil etməmişdir.[1]

***ZİDDİYYƏTLİ RƏVAYƏTLƏR***

«Bismillah» ayəsini Qur᾽an surələrinin bir hissəsi olduğuna dair nəql olunmuş rəvayətlərin müqabilində bu nəzəriyyəni rədd edən yalnız iki rəvayət nəql olunmuşdur.

1. Qətadə Ənəs İbni Malikdən nəql etdiyi rəvayətdə deyir: Peyğəmbər (s), Əbu Bəkr, Ömər və Osmanla birlikdə namaz qılardım. Lakin onların heç birindən «Bismillah» ayəsini oxuduqlarını eşitməzdim.

2. Yəzid ibni Abdulla İbni Müğəffəl nəql etdiyi rəvayətdə deyir: Namazı «Bismillah» ayəsi ilə oxuyardım. Lakin günlərin bir günündə atam mənə dedi: Oğlum namazı «Bismillah» ayəsini oxumadan başla. Əshabın bundan böyük bid᾽ətə yol verdiklərini görmədim. Peyğəmbər (s), Əbu Bəkr, Ömər və Osmanla birlikdə namaz qılardıq, lakin onların heç biri «Bismillah» ayəsini tilavət etməzdi. Sən də namazı (Əlhəmdu lillahi rəbbil aləmin – Həmd olsun aləmlərin Rəbbinə) ayəsi ilə başla.

***BİRİNCİ RƏVAYƏTƏ VERİLƏN CAVAB***

Bu rəvayət Əhli-beyt tərəfindən bu məzmunda nəql olunmuş rəvayətlərlə ziddiyyət təşkil etdiyi kimi, bir neçə səbəbdən də tamamilə əsassızdır:

1. Bu rəvayət əhli-sünnə mənbələrində nəql olunmuş bir çox mütəvatir, xüsusilə İbni Abbas, Əbu Hüreyrə, Ümmi Sələmənin Peyğəmbərin (s) namazda «Bismillah» ayəsini oxuduğuna və onu Qur᾽an surələrinin bir hissəsi olduğunu hesab etməsinə dair nəql etdikləri rəvayətlərlə tamamilə ziddiyyət təşkil edir.

---

[1] Mustədrək, Hakim, 1-ci cild, Qur᾽anın fəzilətlər fəsli, 550-ci səh.

İbni Ömər deyir: Əgər «Bismillah» ayəsi oxunmalı olmasaydı, onu Qurʾan nüsxələrində yazmağın məʾnası nə olardı? Həzrət Əli (ə) dəfələrlə bu mətləbə toxunar və buyurardı: ***«Bismillah ayəsini oxumayan kəs Qurʾan ayələrini ixtisara salmış olur.»*** Bu ayə «Səbʾul-Məsani» (Həmd) surəsini təkmil edəcək bir ayədir.

Peyğəmbər (s) və digər böyük səhabələrin buyruqlarını kənara qoyaraq kimlər tərəfindənsə nəql olunmuş bu rəvayətə istinad etmək olarmı?

2. Bu rəvayət müsəlmanlar arasında adi hal almış [və eyni zamanda zərurətə çevrilmiş] şərʾi əməl ilə ziddiyyət təşkil edir. Belə ki, «Bismillah» ayəsini müsəlmanlar elə ilk gündən oxumuş və bir dəfə də olsun namazlarını bu ayəni oxumadan başlamamışlar. Hətta Müaviyə camaat namazında «Bismillah» ayəsini oxumadıqda müsəlmanlar ona öz eʾtirazlarını bildirərmişlər: “Bismillahı oğurladın, ya deməyi unutdun?”

Bütün bu dəlilləri nəzərə alaraq Peyğəmbərin (s) və ondan sonrakı xəlifələrin namazda «Bismillah» ayəsini oxumadıqlarına necə inanmaq olar?

3. Bu rəvayət Ənəs ibni Malikin özündən nəql olmuş başqa bir rəvayətlə ziddiyyət təşkil edir.

Belə bir qənaətə gəlmək olur ki, son iki rəvayət heç bir əsası olmayan yalan və uydurmadan savayı bir şey deyildir.

### *İKİNCİ RƏVAYƏTƏ VERİLƏN CAVAB*

Birinci rəvayətin zəif və əsassız olduğuna dair dediklərimiz, nəql olunmuş ikinci rəvayətə də şamildir. Və bunun üçün də bütün bunları bir daha təkrar etməyə ehtiyac duymuruq.

Lakin bunu qeyd etmək lazımdır ki, bu rəvayət İslam və müsəlmanların ilk gündən zəruri hesab etdikləri bir məsələ ilə ziddiyyət təşkil edir.

«Bismillah» ayəsinin Həmd və digər surələrdən əvvəl tilavəti daha da canlandırmaq məqsədilə oxunması və bunun müstəhəb olduğu bir halda Yəzid ibni Məğfəlin bunu bidʾət adlandırması insanda təəccüb doğurur. Məgər hər hansı bir işi Allahın adı ilə başlamaq bu qədər xoşagəlməz bir iş və dində bidʾət adlanarmı?

*MÜSƏLMANLAR*

Elə ilk gündən müsəlmanlar «Bəraət» surəsi istisna olmaqla Qur᾽anın bütün surələrini «Bismillah» ayəsi ilə oxumuşlar. Və nəql olunmuş bir çox mütəvatir hədislərdən belə bir qənaətə gəlmək olur ki, Peyğəmbərin (s) özü bütün surələrin əvvəlində «Bismillah» ayəsini tilvət etmişdir. Əgər bu ayənin oxunması zəruri olmasaydı, bir peyğəmbər kimi bunu hamıya çatdırmalı və düzgün oxunuş tərzini müsəlmanlara tə᾽lim etməli idi. Və əgər O həzrət bəyan etdiklərinin hansının Qur᾽an ayəsi, hansının da adi kəlam olduğunu bəyan etməsəydi, öhdəsinə düşən peyğəmbərlik vəzifəsini layiqincə yerinə yetirməmiş olardı. Bu isə Peyğəmbərə (s) – xüsusilə vəhy məsələsində – xas olmayan bir xüsusiyyətdir. O digər insanlarda müşahidə olunan bütün eyb və nöqsanlardan uzaq və pakdır.

Deməк, «Bismillah» ayəsinin oxunması zəruri olmasaydı, Peyğəmbər (s) bunu bəyan edər və o da mütəvatir olaraq bizlərə gəlib çatardı. Halbuki, bu kimi rəvayətlər vahid xəbər halında da nəql olmamışdır.

*BİSMİLLAH AYƏSİ BÜTÜN NÜSXƏLƏRDƏ YAZILMIŞDIR*

Şübhə doğurmayan məsələlərdən biri də budur ki, Osmanın yığdığı Qur᾽an nüsxəsindən əvvəl, səhabə və tabeinlərin əlində olan Qur᾽an nüsxələrində «Bismillah» ayəsi Bəraət surəsi istisna olmaqla, qalan surələrin birinci ayəsi olaraq yazılır və müsəlmanlar Qur᾽an surələrini bu ayə ilə oxumağa başlayırdılar. Əgər «Bismillah» Qur᾽an surələrinin bir hissəsini təşkil etməsəydi, səhabə və tabeinlər onu öz nüsxələrində yazmazdılar. Çünki onlar Qur᾽anın yazılışına xüsusi diqqət yetirər və hər bir məsələyə böyük əhəmiyyət verərdilər. Belə ki, onlardan bə᾽ziləri hətta hərflərin üzərinə nöqtə və müxtəlif əlamətlər qoymaqdan qətiyyətlə imtina edərdilər.

Demək, «Bismillah» ayəsi hətta səhabə və onların davamçılarının, yə᾽ni, tabeinlərin nüsxələrində yazılmış və Qur᾽an surələrinin ayrılmaz bir hissəsi hesab olunmuşdur.

Buradan belə mə᾿lum olur ki, «Bismillah» ayəsi surələr arasında fasilə məqsədilə deyil, onların bir hissəsi kimi yazılmışdır.

Bu nəzəriyyənin batil və əsassız olduğuna dair gətirilən başqa bir dəlildə deyilir: Əgər «Bismillah» ayəsi surələrin əvvəlində yalnız fasilə məqsədilə yazılsaydı, bu ayə Həmd surəsinin əvvəlində deyil, əksinə Bəraət surəsinin əvvəlində yazılmalıydı. Çünki Həmd Qur᾿anın ilk, Bəraət surəsi isə doqquzuncu surəsidir. Deməк «Bismillah» ayəsinin yazılmasında ən başlıca şərt heç də surələri bir-birindən aıyrmaq deyildir. Çünki özündən əvvəl heç bir surə olmayan Həmd surəsi «Bismillah» ayəsi ilə, özündən əvvəl və sonra surələr olan Bəraət surəsi isə «Bismillah»sız başlanır.

***MÜXTƏLİF DƏLİLLƏR***

«Bismillah» ayəsinin Qur᾿an surələrinin bir hissəsi olmadığını hesab edənlər bir neçə başqa dəlilə istinad edirlər.

1) ***Deyirlər:***

Qur᾿anın sabit oxunmasının yeganə yolu onun mütəvatir olmasıdır. İxtilafa səbəb olan hər hansı bir şeyi isə Qur᾿an hesab etmək olmaz. «Bismillah» ayəsinin Qur᾿an ayəsi olub-olmadığı haqda da müxtəlif və bir-biri ilə ziddiyyətli hədis və rəvayətlər nəql olunmuşdur. Bu səbəbdən də biz onu Qur᾿an ayələrindən hesab edə bilmərik.

***Cavab:***

1. «Bismillah» ayəsinin Qur᾿an surələrinin bir hissəsi olduğuna dair Əhli-beyt tərəfindən kifayət qədər mütəvatir hədis və rəvayət nəql olunmuşdur. Və bir qədər əvvəl qeyd etdik ki, Əhli-beyt tərəfindən nəql olunmuş hədis və rəvayətlər özünün e᾿tibar baxımından Peyğəmbərdən (s) nəql olunmuş rəvayətlərlə eyni səviyyədədir.

2. Səhabənin «Bismillah» ayəsinin Qur᾿an surələrinin bir hissəsi olduğuna dair verdikləri şəhadət və onlar tərəfindən bu məzmunda nəql olunmuş onlarla mütəvatir hədis və rəvayət bu həqiqəti bir daha sübuta yetirə bilər. Və kimlərinsə müxalif nəzər

irəli sürməsi bu rəvayətlərin mütəvatir olmasına heç bir xələl gətirə bilməz.

3. Mütəvatir olaraq nəql olunmuşdur ki, Peyğəmbər (s) Qur`an surələrini «Bismillah» ayəsi ilə başlamış və bir dəfə də olsun səhabələrə Qur`an ayələrini tə`lim edərkən «oxuduğumuz bu ayə [yə`ni «Bismillah» ayəsi] surənin bir hissəsini təşkil etmir» söyləməmişdir. Tək bu dəlilə istinad edərək qətiyyətlə deyə bilərik ki, «Bismillah» ayəsi Qur`an surələrinin ayrılmaz bir hissəsini təşkil edir.

Bunu demək kifayətdir ki, Peyğəmbərin (s) «Bismillah» ayəsini surələrin əvvəlində oxuması onun cüz`i bir şey olması deyil, Qur`an olmasını sübuta yetirə bilər. Cüz`i məsələlərin sübutunda isə sünni və şiə mənbələrində nəql olunmuş bir çox rəvayətlərlə yanaşı bir qədər əvvəl işarə olunan rəvayətə istinad etmək və «Bismillah» ayəsinin cüz`i olmamasını sübuta yetirmək olar. Çünki hər hansı bir cümlənin Qur`an ayəsi olduğunu sübuta yetirmək üçün mütəvatir və inandırıcı sənədlərin olması lazımdır. Lakin hər hansı bir surənin bir hissəsinin Qur`an ayəsi olduğunu sübuta yetirmək üçün mütəvatir olması bir o qədər də zəruri deyildir və bunun üçün vahid xəbərlə də kifayətlənmək olar.

2) ***Deyirlər:***

Müslim, Əbu Hüreyrənin Peyğəmbərdən (s) nəql etdiyi hədisi öz kitabında belə nəql edir: Allah-taala buyurur: Mən namazı özümlə bəndələrim arasında iki hissəyə böldüm. Hər nə istərlərsə onlara əta edəcəyəm. Bunun üçün də insan namaz qılarkən «Əlhəmdu lillahi Rəbbil-aləmin» – dediyi zaman Allah-taala buyurar: Bəndəm Mənə şükür etdi; «Ər-Rəhmanir-Rəhim» – dediyi zaman Allah-taala buyurar: Bəndəm şə`nimə səna etdi [şə`nimə tə`riflər dedi]. «Maliki yəvmiddin – dedikdə Allah-taala buyurar: Bəndəm Məni mədh edib şə`nimə tə`riflər dedi. «İyyakə nə`budu və iyyakə nəstəin» – dediyi zaman Allah-taala buyurar: Bu Mənimlə bəndəm arasında qalacaqdır. Hər nə istərsə ona əta edəcəyəm. «İhdinəs-siratəl mustəqim» – dediyi zaman Allah-taala

buyarar: Bəndəm hidayət olacaqdır və Mən ona istədiyini bəxş edəcəyəm.[1]

Hədisin zahiri məʾnasından belə bir nəticəyə gəlmək olur ki, Həmd surəsi iki hissəyə bölünmüşdür: Dördüncü ayənin yarısına qədər Allaha, yarısından sonunadək isə namaz qılan şəxsə aiddir. Bu iki hissədə həm ayələrin sayı eyni, həm də «tənsif» rəvayəti təsdiq olunur. Lakin əgər «Bismillah» ayəsinin Həmd surəsinin bir hissəsini təşkil etdiyini hesab edəriksə, hədisdən əldə etdiyimiz məʾna bir o qədər də düzgün olmayacaqdır. Çünki bir qədər əvvəl qeyd etdik ki, Həmd surəsi belə olduqda yeddi ayədən ibarət olacaqdır. Və əgər «Bismillah» ayəsi Həmd surəsinin bir hissəsini təşkil edərsə, «Siratəlləzinə» kəlməsindən surənin sonunadək bir ayə hesab olunacaqdır.

Nəticədə birinci hissə dörd, ikinci hissə isə iki və yarım ayədən ibarət olacaqdır. Beləliklə hədisdə surənin iki bərabər hissəyə bölündüyü düzgün olmayacaqdır.

***Cavab:***

1. Bu rəvayət «Əla» tərəfindən nəql oluqmuşdur. Və rical alimləri onun möʾtəbər şəxs olub-olmadığı haqda müxtəlif fikirlər irəli sürmüşlər. Belə olduğu bir halda onun nəql etdiyi rəvayətlərə də istinad etmək bir o qədər də düzgün olmazdı.

2. Bu rəvayət heç də istifadə olunan kəlmələr baxımından iki bərabər hissədən ibarət olmasına dəlalət etmir. Əksinə, əldə etdiyimiz zahiri məʾnaya əsasən, onun məʾna baxımından iki hissədən ibarət olduğu nəzərə çarpır. Yəʾni, namazın bir hissəsi Allaha, digər hissəsi isə Onun yer üzündəki bəndələrinə aiddir. Bu səbəbdən də Həmd surəsini kəlmə baxımından iki bərabər hissəyə bölməyin heç bir zərurəti yoxdur.

3. Surənin məʾna yox, kəlmə baxımından iki hissəyə bölündüyünü fərz etsək də belə, necə bilə bilərik ki, bu bölgü ayələr əsasında aparılmışdır. Ayələr bərabər olmasa da, bölgü yalnız bu surədə istifadə olunan kəlmələr əsasında aparılmışdır. Çünki «İyyakə nəʾbudu» cümləsindən əvvəlki və sonrakı kəlmələrin miqdarı eynidir. Belə ki, ayələrin sayı eyni olmasa da

[1] "Səhihi-Müslüm", 2-ci cild, 6-cı səh.

«Bismillah» ayəsini nəzərə almaqla hər iki hissə on kəlmədən ibarətdir.

3) ***Deyirlər:***

«Bismillah» ayəsinin Qurʾan surələrinin bir hissəsi olmadığına dair Əbu Hüreyrədən nəql olunmuş rəvayətdə deyilir: Kövsər surəsi üç, Mülk surəsi isə otuz ayədən ibarətdir.[1]

Əgər «Bismillah» ayəsi surələrin bir hissəsini təşkil etsəydi, bu surələrin ayələrinin sayı Əbu Hüreyrənin dediklərindən çox olardı.

***Cavab:***

Əbu Hüreyrənin nəql etdiyi bu rəvayət düz olsa belə, bir qədər əvvəl qeyd etdiyimiz Ənəs ibni Malikdən nəql olunmuş rəvayətlə tamamilə ziddiyyət təşkil edir.

Ənəsin nəql etdiyi rəvayət isə, möʾtəbər bir rəvayət kimi «Muʾta»dan başqa bir çox «Səhih» kitablarında nəql olunmuşdur.

Bu səbəbdən də Əbu Hüreyrənin nəql etdiyi rəvayəti ya kənara qoymalı, ya da belə məʾnalandırmalıyıq ki, rəvayətdə surənin bütün ayələri deyil, yalnız ayələrin sayı göstərilir və «Bismillah» Qurʾanın bütün surələrinə aid olan, müştərək bir ayədir. Bunun üçün də Qurʾan ayələrinin sayında hesaba alınmır.

Burada biz iki fəsildən ibarət olan «Bəsmələ» ayəsinin təfsirini başa vurub «Həmd» surəsinin təfsirinə başlayırıq.

---

[1] Müəllif: Mən hədis kitablarında belə bir hədislə qarşılaşmamışam.

***HƏMD SURƏSİNİN BİRİNCİ HİSSƏSİNİN TƏFSİRİ***

«Həmd» surəsi üç hissədən ibarətdir:

1. Allaha şükür və səna və Onun kamal sifətlərinin vəsf olunması;

2. İnsanın Allaha tabe olması və Ondan kömək diləməsi;

3. Dua, istək və arzular.

***Həmd surəsinin birinci hissəsi:***

الْحَمْدُ للّهِ رَبِّ الْعَالَمِينَ الرَّحْمـنِ الرَّحِيمِ مَـلِكِ يَوْمِ الدِّينِ

***«Şükür olsun aləmlərin Rəbbinə – Bağışlayan və rəhm edəndir – Din gününün sahibidir». (1-2/4).***

***OXUNUŞ QAYDASI***

Qiraət alimlərinin bir çoxu «Əlhəmd» kəlməsindəki «dal» hərfini «zəmmə» yə`ni, «u» saiti, «Allah» kəlməsindəki «lam» hərfini isə «kəsrə» yə`ni, «i» saiti ilə tələffüz edirlər. Lakin bə`ziləri isə «Əlhəmd» kəlməsinin e`rab və hərəkələrini özündən sonra gələn «Allah» kəlməsinə tabe edərək onu da kəsrə ilə tələffüz edirlər. Bə`ziləri də tam əksinə olaraq «Allah» kəlməsinin özündən əvvəlki «Əlhəmd» kəlməsinə tabe edərək «Allah» kəlməsindəki «lam» hərfini «zəmmə» yə`ni, «u» saiti ilə tələffüz edirlər. Lakin bu son iki qiraət olduqca zəif və bir o qədər də mö`təbər deyildir.

2. «Malik» kəlməsi də müxtəlif üsullarla tələffüz olunur. Bə`ziləri onu «lam» hərfinin üzərinə sükun qoymaqla «fuls» vəznində «mulk», bə`ziləri də keçmiş zaman halında «fəəl» vəznində tələffüz etmişlər. Lakin bu qiraətlərin heç biri mö`təbər deyildir. Və bir çox qiraət alimləri bu kəlməni ya «fail» – «malik» və ya «kətif» vəznində «məlik» kimi tələffüz etmişlər və bu ən mö`təbər qiraət üsuludur.

***BU İKİ QİRAƏTİN HANSI BİRİ DÜZGÜNDÜR?***

Bir qədər əvvəl qeyd etdik ki, «Malik» kəlməsi müxtəlif üsullarla tələffüz olunur və onların ən düzgünü bir çoxlarının qiraət etdiyi «Məlik» və «Malik» «fəil və ya fail» vəznində tələffüz olunmasıdır. Lakin onların da hansı birinin daha düzgün olduğu haqda müxtəlif nəzəriyyələr irəli sürülmüşdür.

Bəʾzən deyirlər: Daha ümumi məʾna daşıdığı üçün «malik» şəklində tələffüz etmək daha düzgündür. Məsələn, «filan şəxs hər hansı bir qövmün, qəbilənin malikidir» deyilərsə, bu o deməkdir ki, həmən şəxs mülkiyyətlə yanaşı, o qövmün üzərinə hakim və rəhbərdir. «Filan şəxs hər hansı bir qəbilənin məlikidir» deyildikdə isə, geniş malikiyyət deyil, yalnız onun həmən qəbilənin üzərindəki hakimiyyəti nəzərdə tutulur. Başqa sözlə desək, «malik» dedikdə mülkiyyətə də şamil olunur, «məlik» deyildikdə həmin məʾna başa düşülmür.

İrəli sürülmüş başqa bir nəzəriyyədə deyilir:

Daha yaxşı olar ki, «malik» əvəzinə «məlik» oxunsun. Çünki zaman göstəricisi ilə əksər hallarda «malik» deyil, «məlik» kəlməsi istifadə olunur. Məsələn, «Məlikil əsri» yəʾni, əsrin, zəmanənin maliki, «mulukul əʾsaril mutəqəddimə» yəʾni, keçmiş zəmanələrin mülkədarları. Bu səbəbdən də Qurʾan bu ayədə kəlmənin oxunuşunu «məlik» olaraq «yəvmiddin» cümləsinə əlavə etmiş və belə bir oxunuşa daha üstünlük vermişdir.

İrəli sürülmüş iki nəzəriyyə ilə tanış oldunuz. Lakin bizim fikrimizcə bu bir o qədər də əhəmiyyət kəsb edən mətləb deyildir. Ümumiyyətlə möʾtəbər hesab olunan qiraətlə birini digərindən daha üstün hesab etmək qeyri-mümkündür. Çünki əgər bu qiraət üsulları Peyğəmbərdən (s) bizlərə mütəvatir olaraq gəlib çatmışsa, aralarında fərq qoymadan onların hamısını Qurʾan ayələri olaraq qəbul etməliyik. Və əgər bu qiraət üsullarının mütəvatir olması bizim üçün sabit olmazsa, onların bir-biri ilə müqayisə, hansının möʾtəbər olduğu haqda araşdırma aparmaq və bunun nəticəsində şəraitlərin hasının batil və hansının möʾtəbər olduğunu təʾyin etməyin heç bir məʾnası yoxdur. Lakin iş burasındadır ki, qiraətləri bir-birindən üstün hesab etməklə onlardan hansı birinin batil olduğunu sabit etmək olmur. Və əgər aparılan araşdırmalar, qiraətlərin birini digərindən üstün hesab etməkdə və qiraətlərin hansının batil olduğunu üzə çıxarmaqda heç bir nəticə verməzsə – necə ki, əksər hallarda belə olur – bu barədə söhbət açmaq belə əbəsdir.

Bəli, qiraətin birini digərindən üstün hesab etmək haqda bəhs etmək olduqca əbəs bir işdir. Xüsusilə də «məlik» və «malik» kəlmələrinə gəldikdə. Çünki bu iki kəlmə arasında yalnız o zaman fərq ola bilər ki, «Məlik» kəlməsi qurma [müvəqqəti] səltənət məˈnasında işlənmiş olsun. Belə olduqda səltənətin dərəcə və mərhələləri istifadə olunduğu yer baxımından bir-birilə fərqli olacaqdır. Və belə bir səltənət [hakimiyyət] bəˈzən malikiyyət, bəˈzən də onsuz olacaqdır. Lakin əgər hakimiyyəti bəˈzən hakimiyyəti daimi və həqiqi olan Allah üçün istifadə olunarsa, dərəcə və mərhələləri olmadan daimi malikiyyətlə birlikdə olacaqdır. Nəticədə məˈna və məfhum baxımından «malik» kəlməsi ilə eyni və ondan üstün də olmayacaqdır. Buradan belə məˈlum olur ki, «malik» kəlməsinin Allahdan qeyrisi üçün zaman göstəricisi ilə işlənilməsi düzgün deyilsə, Allah üçün istifadə olunmasının düzgün olmamasına da heç bir lüzumu olmayacaqdır. Çünki Allah bütün varlıqların maliki (sahibi) olduğu kimi, zamanın da sahibidir. Deməli, Allaha aid olduqda «malik» kəlməsinin zaman göstəricisi ilə işlənməsi «məlik» kəlməsi ilə heç də fərqlənməyəcək. Və bu səbəbdən də «məlik» kəlməsinin «malik» kəlməsindən heç bir üstünlüyü ola bilməz.

Bəˈzən də deyirlər: «Malik» kəlməsinin «yəvmiddin» cümləsinə birləşməsi ilə qeyri-müəyyənlik halında qaldığı üçün qənaətbəxş məˈna əldə etmək olmur. Qeyri-müəyyən cümlə ilə isə – müəyyən olan – Allah kəlməsi vəsf olunmur. Deməli, «məlik» oxunmalıdır, Çünki bu kəlmə «Soltan» və «Hakim» məˈnasını daşıyır. Və belə bir məˈna daşımaqla bu kəlmə camid, yəˈni, başqa sözdən götürülməyən kəlmələr sırasına daxil olmalıdır. Beləliklə cümlə müəyyənedici xarakter daşıyacaq və «qeyri-müəyyənliyin» «müəyyənlik» cümləsini məˈnalandırma nöqsanı aradan qalxacaqdır.

### *DIGƏRLƏRİN VERDİYİ CAVAB*

Təfsir Kəşşaf və digər təfsir kitablarında tutulan bu irada belə cavab verilir: Failin cümləyə birləşməsi o zaman məcazi xarakter daşıya bilər ki, onun indiki və gələcək zamanda işləndiyini müəyyən edə bilməmiş olsun. Amma keçmiş zaman və

davamedici məʾna daşıyarsa, failin birləşməsi cümlənin həqiqi məʾna daşımasına səbəb olacaq.

الْحَمْدُ لِلَّهِ فَاطِرِ السَّمَاوَاتِ وَالْأَرْضِ جَاعِلِ الْمَلَائِكَةِ رُسُلًا

***«Göyləri və yeri yoxdan yaradan, mələkləri [peyğəmbərlərə] elçi edən Allaha həmd olsun!» (35/1).***

Göründüyü kimi birinci ayədə «fatir» və «cail» keçmiş zaman, ikinci ayədəki «ğafiruzzənb» və «qabiluttəub» davamedici halda işlənmişdir. Və bu dörd kəlmənin hər biri [başqa kəlmələrlə] birləşməklə müəyyənlik halına çevrilmiş və «Allah» kəlməsinin vəsfində işlənmişdir. «Malik» kəlməsinin başqa kəlmələrlə birləşməsinə də bu qayda üzrə əməl olunur. Çünki «malik» – Allahın [qiyamət gününədək] daimi malikiyyət məʾnasını daşıyır. Deməк, belə bir birləşmə həqiqi məʾna daşıyar, cümlədə müəyyənlik rolunu ifa edir və müəyyənlik halında işləndiyi üçün Allahın vəsf olunması üçün də istifadə oluna bilər.

***BİZİM CAVAB***

Verilən cavabın ən böyük nöqsanı bundan ibarətdir ki, birləşmə həqiqi və ya məcazi məʾna daşıyıb-daşımamasından asılı olmayaraq cümlədə müəyyənlik rolunu ifa edə bilməz. Birləşmənin ən başlıca rolu cümlədə istifadə olunan kəlmənin xarici misdaqını, məʾna və məfhumunu məhdudlaşdırmaqdır. Lakin cümlənin müəyyənlik halına düşməsi üçün birləşmədən deyil, digər üsullardan istifadə etmək lazımdır.

Mətləbi bir qədər işıqlandıraq.

Bu cümləyə diqqət yetirin:

Ğulamu lizəydin – Zeydin qulu, köləsi. Qulamu Zəydin – Zeydin qulu, köləsi.

Göründüyü kimi bu iki cümlə arasında heç bir fərq yoxdur. Birinci cümlədə «lam» hərfi «Zeyd» kəlməsindən əvvəl gələrək qulun məhz Zeydə aid olduğunu bildirir və müəyyənlik əlaməti olan «lam» hərfinin cümlədə bundan başqa heç bir rolu yoxdur. Çünki Zeydin başqa kölələri də ola bilər və həqiqi birləşmədə də ikinci cümlədə olduğu kimi yalnız kölənin Zeydə aid olduğu bəlli olur. Məcazi birləşmədə də onun kimlərəsə aid olduğu bəlli olur. Lakin fərq burasındadır ki, kəlmənin hər hansı bir mətləbə aid

olması yalnız birləşmə yolu ilə əldə olmur. Və birləşmənin cümlədə [kəlmələrin] məˈna və məfhumunu məhdudlaşdırmaqdan savayı heç bir rolu yoxdur.

Bəli, birləşmə istər həqiqi, istərsə də məcazi müəyyənlik üçün deyil, kəlmənin [və ya cümlənin] verdiyi məˈnanı məhdudlaşdırmaq üçün xeyirli ola bilər. Lakin bu heç də o demək deyildir ki, cümləyə birləşən kəlmə burada müəyyənlik rolunu ifa edə bilməmiş olsun.

Bu səbəbdən də həqiqi və məcazi birləşmələr arasında heç bir fərq yoxdur və əgər bu barədə hər hansı bir fərziyyə irəli sürülərsə tamamilə yanlış və əsassızdır.

Kəşşafın öz təfsirində «malik» kəlməsini «yəvmiddin» cümləsində davamedici və həmişəlik malikiyyət kimi məˈnalandırmasının batil və əsassız olduğu isə göz qabağındadır. Çünki Allahın bütün varlıqlar üzərində olan malikiyyəti həmişəlik olsa da, «malik» kəlməsi bu ayədə «yəvmiddin» [qiyamət gününün sahibi] cümləsi ilə işlənmişdir. Demək Allah «malikiyyəti» həm həmişəlik [əbədi] olmalıdır və həm də davamedici.

Lakin alimlərdən bəˈziləri «muzafın – izafəin» faili haqda bir nəzər irəli sürmüşlər. Onların fikrincə əgər fail keçmişə dəlalət edərsə, müəyyənedici xarakter daşımayacaqdır və eyni zamanda müəyyənlik üçün sifət rolunu da ifa edə bilər. Və əgər indiki və gələcək zamanda işlənərsə, müəyyənlik üçün artıq sifət rolunu ifa edə bilməyəcəkdir. Və bunların ikisinin fərqi barədə demişlər: Əgər fail keçmiş zamanda işlənərsə hökmən həyata keçmişdir. Həyata keçən və baş verən hər bir şey isə hamıya bəlli olur. Bəlli və müəyyən olduqda isə sifət rolunu da ifa edə bilər. İndiki və gələcək zamanda işlənilən fail isə bu kimi xüsusiyyətlərə malik deyildir.

Lakin bizim fikrimizcə bu kimi fərqlərin də heç bir əsası yoxdur. Çünki bir şeyin həyata keçməsi və yaranması üçün müəyyənlik halını tapsın deyə, heç bir [əlavə] məˈlumata ehtiyac duyulmur. Və bəˈzən də heç bir məˈlumat və müəyyənlik hasil

olmadan keçmiş zaman indiki və gələcək zamanla eyni mə`na daşıyır.

Bir sözlə: Bütün bu qarammatik təhlil və izahatlar puç və olduqca əsassızdır. Yeganə çıxış yolu fəsahətli ərəblərin danışığına diqqət yetirmək və onların istifadə etdikləri kəlmə və qurduqları cümlələrə istinad olunmalıdır. Beləliklə qrammatik qanunları onların danışıqlarından əldə etmək olar.

***AYƏDƏ İŞLƏNƏN SÖZLƏR***

«Əlhəmd» – şükür mə`nasını daşıyır və adətən könüllü olaraq görülən işlərin müqabilində işlənmişdir. İstər bu iş şükür edənin xeyrinə olsun, istərsə də başqalarının. «Şükür» sözü isə «küfr» sözünün əks mə`nasını daşıyır və insana başqa birisindən xeyir dəydikdə istifadə olunur. Və «tənqidin-zəmm» əks mə`nasını daşıyan «mədh-tə`rif» istifadə olunduğu yer baxımından ümumiyyət xarakteri daşıyır və bu kəlmə bir şəxsin etdiyi hər hansı bir xeyirxah işin müqabilində istifadə olunur.

İstər bu yaxşılıq tə`rif olunandan tə`rif edənə edilmiş olsun, istərsə də yox. Və istər edilən yaxşılıq insani fəzilətlər kimi ixtiyari olsun, istərsə də günəşin və dürrün parıltısı kimi qeyri-ixtiyari.

«Əlhəmd» kəlməsindəki «əlif və lam» müəyyənlik xarakteri daşıyır.

2-3-4. «Allah», «Rəhman» və «Rəhim» – Bu üç kəlmə haqda əvvəlki fəsildə söhbət açdığımız üçün bir daha təkrara yol vermək istəmirik.

5. Rəbb – «Rəbəbə» kəlməsindən götürülmüşdür. Malik, islahatçı və başçı mə`nalarını daşıyır.

«Rəbibə» kəlməsi də həmən kökdən götürülmüşdür.

«Rəbb» başqa kəlmələrlə işlənmədikdə ayrı-ayrılıqda Allahdan qeyrisi üçün istifadə olunmur.

Məsələn, «rəbbissəfinə» – gəminin kapitanına, «Rəbbuddar» – ev sahibinə deyilir.

6. «Aləmin – aləm» və qövm kəlmələri kimi tək halı olmadığı üçün daim cəm halda istifadə olunur.

Bitkilər aləmi, cansızlar aləmi və s. Bə`zən də zaman və məkan baxımından bir-biri ilə əlaqəsi olan məcmuəyə deyilir.

«Axirət aləmi», «uşaqlıq aləmi» və s. Bə᾽zən də bir-birindən fərqi olan varlıqlar məcmuəsinə deyilir.

Bu kəlmənin cəm halı bə᾽zən «vav və nun» (aləmun) bə᾽zən də «fəvail» vəznində olur (əvalim).

Ərəb dilində, «fail» vəznində «əynul fe᾽l»in, yə᾽ni, orta hərfin fəthə, «vav və nun» ilə bu vəznin cəm hala düşməsi istisna olaraq, yalnız «aləm» kəlməsində işlənilir.

7. «Məlik», əhatə və hakimiyyət mə᾽nalarını daşıyır. Belə bir əhatə bə᾽zən Allahın bütün varlıqlar üzərində olan hakimiyyəti kimi həqiqi, bə᾽zən də insanların ixtiyarlarında olan əşyalara olan məhdud və müvəqqəti malikiyyətləri kimi olur.

Allahın varlıqlar üzərində olan hakimiyyət və əhatəsi ona görə mütləq və həqiqidir ki, mövcud olan hər bir varlıq özünün vücuda gəlməsində və mövcud olduğu müddətdə tam mə᾽nada Allahdan asılı və Ona möhtacdır. Belə ki, bir an da olsun özlərini müstəqil və Allahdan ehtiyacsız hesab etmirlər. Bu ehtiyac hissi varlıqlarda daim olmuş və olacaqdır.

وَاللَّهُ الْغَنِيُّ وَأَنتُمُ الْفُقَرَاء

***«Allah zəngin, siz isə yoxsulsunuz. [Allah] sizə möhtac deyildir, siz Ona möhtacsınız». (47/38).***

8. «Din» – cəza və hesab [mühakimə] mə᾽nalarını daşıyır. «Maliki yəumiddin» ayəsində hər iki mə᾽nanı əldə etmək olar. Belə ki, qiyamət günü insanların cəzalandırılıb və ya mükafatlandırılması onların sorğu-sual və mühakimə olunması ilə başlanacaqdır.

***HƏMD-ŞÜKÜR ALLAHA MƏXSUSDUR***

«Əlhəmdu lillahi Rəbbil-aləmin» ayəsini nazil etməklə, Allah-taala bir daha insanlara həmd və şükrün yalnız Ona aid [məxsus] olduğunu xatırladır.

Bu həqiqətə dəlalət edəcək kifayət qədər dəlil və sübutlar vardır və biz onlardan bir neçəsinə işarə edəcəyik.

1. Ən gözəl işlər, gözəl xüsusiyyətə malik olan şəxslər tərəfindən görülür. Bütün eyb və nöqsanlardan uzaq və ən gözəl xüsusiyyətlərə malik olan Allah gördüyü bütün işlərdə eyb və nöqsandan uzaq və tə᾽rifə layiqdir.

Bu haqda Qur᾽ani-Kərimdə buyurulur:

قُلْ كُلٌّ يَعْمَلُ عَلَى شَاكِلَتِهِ

***«De ki: Hərə öz qabiliyyətinə [xislətinə] görə iş görər». (17/84).***

Digər varlıqlar isə müəyyən nöqsanlara malik olduqları üçün təbii olaraq gördüyü işlər də adətən nöqsansız olmur. Deməli heç bir eyb və nöqsanı olmayan işlər yalnız Allaha aiddir və başqalarının bu xüsusiyyətə malik olması qeyri-mümkündür.

Bu səbəbdən də yalnız Onun müqəddəs zatı şükür və tə᾽rifə layiqdir və Ondan qeyrisi üçün həmd və şükür etmək mahal və qeyri-mümkündür. «Əlhəmdulillah» cümləsi də məhz bu mətləbə dəlalət edir. Çünki bir qədər əvvəl işarə etdik ki, «Allah» tanrıya xas olan adlardandır və bütün kamal xüsusiyyətlərə malik olan Onun müqəddəs zatıdır. «Allah» kəlməsinin əvvəlindəki «lam» hərfi də həmd və şükrün Allaha aidliyinə dəlalət edir.

İmam Sadiq (ə)-dan nəql olunmuş rəvayətdə deyilir: Atam İmam Baqir (ə)-ın qatırı itmişdi, [bir qədər axtardıqdan sonra] dedi: Əgər Allah qatırı mənə qaytarsa, Ona özünün bəyəndiyi kimi həmd və şükür edəcəyəm. Çox keçmədi, yəhər və yüyəni ilə birlikdə onu atamın yanına gətirdilər. Atam paltarını yığıb qatıra mindi və dedi: «Əlhəmdu lillah – Şükür Allaha» və artıq heç bir şey demədi. Sonra dedi: Allaha şükür etməkdə heç nəyi əsirgəmədim, bütün həmd və şükrü Ona aid etdim. Və bu kəlmə bütün tə᾽rif və şükürlərə şamildir.

İmam Sadiq (ə)-dan nəql olunmuş başqa bir rəvayətdə deyilir: Allah-taala bütün böyük və kiçik ne᾽mətləri Öz bəndəsinə yalnız Ona şükür etməklə bəxş edir və insan «Əlhəmdullillah» deməklə bütün şükürləri yerinə yetirmiş olur.

***İkinci dəlil:***

Həmd və şükrün yalnız Allaha aid olduğuna dəlalət edən ikinci dəlil bundan ibarətdir ki, hər bir varlığın – istər əqlin, istər ruh və cismin və istərsə də xaricdə mövcud olan digər varlıqların ilkin kamala çatması Allah tərəfindən müəyyənləşdirilir. Çünki onları yaradan da Allahın Özüdür.

Növbəti ikinci kamal mərhələsi isə varlıqların malik olduqları üstün xüsusiyyətlərdən irəli gəlir. Və bu üstün xüsusiyyətlər bə᾽zən ixtiyari olur, bə᾽zən də qeyri-ixtiyari. Demək məxluqatın ixtiyarından xaric olan hər bir şeyi Allaha aid etməliyik. Bitkilər aləminin inkişafını, heyvanların onlara nəyin xeyirli və nəyin zərərli olduğunu dərk etmələrini, insanın natiqlik [danışıq] qabiliyyətinə malik olmasını buna misal çəkə bilərik.

İnsanın ixtiyari olaraq ələ gətirdiyi üstün xüsusiyyətləri də [o, öz ixtiyarı ilə buna nail olsa da] son mərhələdə Allahın müqəddəs zatı ilə əlaqələndirməliyik. Çünki onları hidayət edən və bütün bu iste᾽dad və bacarıqları onların ixtiyarında qoyan hər şeyə qadir, elm və qüdrəti əhatə edən Allahdır.

Və bu həqiqətə surənin ikinci ayəsində «Rəbbil aləmin» cümləsi ilə işarə olunur.

3. Allahın gördüyü bütün xeyrili işlər Onun Özünə aid deyildir. Çünki mütləq kamala yiyələnən bir varlıq üçün təkamülə səbəb olacaq işlərin həyata keçirilməsi heç bir məfhum kəsb etmir. Demək Allahın gördüyü bütün işlər məxluqatın xeyrinə və onların təkamülü üçündür.

Lakin insanların gördükləri xeyirxah işlər başqaları üçün xeyirli olsa da, onun savabı ilk növbədə onların özlərinə çatır. Çünki o öz təkamülünü xeyirxah işlərdə görür və belə bir düşüncə onu bu işləri yerinə yetirməyə sövq edir.

Qur᾽ani-Kərimdə bu haqda deyilir:

إِنْ أَحْسَنتُمْ أَحْسَنتُمْ لِأَنفُسِكُمْ

***«Yaxşılıq da etsəniz, özünüzə etmiş olursunuz». (17/7).***

Demək, xeyri yalnız başqalarına dəyən xeyir işlər yalnız Allaha aiddir. Bu səbəbdən də həmd və tə᾽rifə layiq olan yeganə varlıq Allahın Özüdür və bu mətləbə surədə «Ər-Rəhmanir-Rəhim» cümləsi ilə işarə olunur.

Bunu da əlavə etmək lazımdır ki, bə᾽zən həmd və şükür edən şəxs ona olunan ehsan və yaxşılıqların əzəmətini və ehsan edənin yüksək xüsusiyyətlərini dərk edir və arada heç bir qorxu hissi olmadan ona [layiqincə] şükür və səna edir. Bə᾽zən həmd və səna ne᾽mət sahibinin bəxş etdiyi şeylərə əhəmiyyət vermək və

diqqət yetirmək nəticəsində olur. Bəʾzən qorxu, bəʾzən də bəxş olunan neʾmətlərə hərislik üzündən şükür və səna edilir. Göründüyü kimi, həmd və səna müxtəlif amillər üzündəndir və onların hər birinin Allahın müqəddəs zatına aid olduğuna bu surədə işarə edilmişdir.

İzah:

«Əlhəmdulillah» cümləsində həmd və sənanın Allahın müqəddəs zatına aid olduğu, Onun bütün eyb və nöqsanlardan uzaq və kamal sifətlərinə [ən yüksək xüsusiyyətlərə malik] olduğuna işarə olunur.

«Ərrəhmanir-rəhim» cümləsində həmd-sənaya səbəb olacaq ikinci və üçüncü amil bəyan olunur. Çünki Allah, rəhmət və mərhəmət mənbəyidir. İnsan da Allahın rəhmət və mərhəmətinə ümidvar olmalıdır və bu tükənməz yaxşılıqlara ümidvarlıq səbəbi ilə Allahın böyüklüyünə, tükənməz rəhmətinə həmd və səna etməlidir. Qeyd olunan məsələləri nəzərə almaqla qeyd etməliyik ki, Həmd surəsində «Ərrəhmanir-rəhim» cümləsinin iki dəfə işlənməsi heç də təkrar məqsədi daşımır. Birincidə, yəʾni, «Bismillah» ayəsində təbərrük məqsədi ilə, ikincidə isə, bütün həmd və sənaların Allaha aid olduğunu bəyan etmək məqsədilə işlənlmişdir.

«Maliki yəvmiddin» – Bu cümlə ilə həmd və sənaya səbəb olan dördüncü əsas amilə işarə olunur. Belə ki, bütün insanlar qiyamət günü Allahın hüzuruna [məhşərə] qaytarılacaq və orada öz əməllərinin müqabilində ya cəzalandırılacaq, ya da mükafatlandırılacaqlar. Belə isə Ondan qorxmalı, bir an da olsun itaətsizliyə yol vermədən şəʾninə şükür və səna deməliyik.

«Maliki yəvmiddin» cümləsini başqa ifadələrlə təfsir etmək istəsək, deməliyik ki, qiyamət günü haqq-ədalət, Allahın öz bəndələrini bağışlayıb rəhmət və mərhəmət qanadı altına aldığı gündür. Belə isə insanlar o gün bu iki böyük neʾmət ilə bəhrələndikləri üçün layiqincə Onun şəʾninə şükür və səna etməlidirlər.

Həmd surəsinin birinci hissəsinin təfsirini burada bitirib Allahın köməyi ilə növbəti fəsildə ikinci hissəyə başlayırıq.

***HƏMD SURƏSİNİN TƏFSİRİ***

***İKİNCİ HİSSƏ***

إِيَّاكَ نَعْبُدُ وإِيَّاكَ نَسْتَعِينُ

***«Yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik!» (1/5). (Bəqərə-5).***

***Lüğəvi məʾnası:***

«İbadət» – lüğətdə üç məʾna daşıyır:

1. Bəʾzən «itaət» və əmrə tabe olmaq məʾnasında işlənir.

أَلَمْ أَعْهَدْ إِلَيْكُمْ يَا بَنِي آدَمَ أَن لَّا تَعْبُدُوا الشَّيْطَانَ إِنَّهُ لَكُمْ عَدُوٌّ مُّبِينٌ

***«[Onunla cahiliyyət dövründə] ataları [Allahın əzabı ilə] qorxudulmamış və [Allahın hökmlərindən, imandan, tövhiddən] qafil olan bir tayfanı xəbərdar edib qorxudasan!» (Yasin-6).***

فَقَالُوا أَنُؤْمِنُ لِبَشَرَيْنِ مِثْلِنَا وَقَوْمُهُمَا لَنَا عَابِدُونَ

***2. «[Firʾon və əʾyan-əşrafı] dedilər: Bunların tayfası bizə bir qul kimi itaət etdiyi halda, biz özümüz kimi iki adi insana imanmı gətirəcəyik?» (Muʾminun-47).***

İkinci məʾnası xar və zəlil olmaq və çarəsizlik üzündən kiməsə tabe və təslim olmaqdır.

قُلْ إِنَّمَا أُمِرْتُ أَنْ أَعْبُدَ اللّهَ وَلا أُشْرِكَ بِهِ

3. ***«De ki: Mənə Allaha ibadət etmək, Ona şərik qoşmamaq əmr olunmuşdur».***

Bəʾzən də pərəstiş etmək məʾnasında işlənir.

İbadət kəlməsi Qurʾani-Kərimdə əksər hallarda məhz bu məʾnada işlənmişdir. Belə ki, heç bir oxşarlıq olmadıqda «ibadət»in ilk növbədə bu məʾnası nəzərdə tutulur.

«Əbd» – kəlməsi isə müxtəlif məʾnalar daşıyır. İnsan azad varlıq olsa da «əbd» kəlməsi bəʾzən onun barəsində işlənir. Çünki o, Allahın yaratdığı və Onun tərbiyə etdiyi bir varlıqdır. Öz əməlləri ilə bəʾzən inadkarlığa və itaətsizliyə yol versə də, fitri olaraq Allahın qarşısında müti və təvazöʾkardır. Bəʾzən «qul» və «kölə» məʾnalarını daşıyır. Çünki onun [kölənin] ixtiyarı öz ağasının əlindədir. Sözün əsl məʾnasında, ağasından tam asılı

vəziyyətdə və onun icazəsi olmadan heç bir ixtiyara malik deyildir. Bə`zən də çox geniş mə`na daşıyır və bir şəxsin nəfsə böyük əhəmiyyət verməsinə və ondan başqa heç bir şeyə əhəmiyyət verməməsinə «əbd» deyilir.

İmam Hüseyn (ə)-ın buyruqlarının birində deyilir:

***«Camaat dünyanın qullarıdır və din onların həyatlarını tə`min etmək üçün dildə iqrar etdikləri bir şeydir. Onlar dindən danışarlar, imtahan vaxtı gəlib çatdıqda isə, dindarlar nə qədər də az olarlar!»***

Bə`zən də "əbd" kəlməsi müti və xaze olan şəxsə deyilir:

أَنْ عَبَّدتَّ بَنِي إِسْرَائِيلَ

3. ***«İsrail oğullarını bizimlə birlikdə [Şama] göndər! [Onlara əzab-əziyyət vermə!]»*** (Şüəra-7).

İstianət – kömək istəmək mə`nasını daşıyır. Bu kəlmə ya vasitəli və ya vasitəsiz olaraq istifadə olunur. Məsələn, deyilir «istəəntuhu» və «istəəntu bihi» yə`ni, ondan kömək və yardım istədim.

***Ədəbi izah:***

«İyyakə» – hər iki yerdə məf`ul rolunu ifa edir. Hər iki halda mətləbin özündən əvvəlki mətləbə həsr olunduğu ifadə olunur. Və bu ayədə qaridən xitab olunana, yə`ni, xitab üçüncü şəxsdən ikinci şəxsə olunur. Buna «iltifat» deyilir. Bu isə iki şeydən biri ola bilər:

1) Ayədən əvvəlki cümlələr Allahın bütün məxluqatın üzərində hakim və onların həyatını idarə edən hər şeyə qadir olan bir varlıq olduğuna dəlalət edir. Belə bir sifətə malik olmaq isə o deməkdir ki, Allah qiyamət günü öz itaətkar bəndələrini mükafatlandırmaq və günahkarları cəzalandırmaq üçün onların gördükləri bütün işlərə agah olmalı və Onun elm dairəsi bütün məxluqatı [onların ehtiyac və tələbatlarını, arzularını və s.] əhatə etməlidir. Bütün bunlar Allaha bəndəlik edən insana özünü Onun qarşısında aciz görüb «iyyakə nə`budu – yalnız Sənə ibadət edirik» deyərək xitab etməyə vadar edir.

2) İbadət və pərəstiş etməyin həqiqi mahiyyəti insanın təvazö`karlıq və sidq ürəklə Allah qarşısında ibadət etməsi və bütün işlərinin ondan asılı və Onun tərəfindən idarə olunmasını

bilməsidir. İbadətdə olduğu kimi, insan kömək dilədikdə Allahın hüzuru zərurət doğurur. Çünki insanın Allaha olan ehtiyac və bağlılığı istəklərinin həyata keçməsi (dualarının qəbul olunması) üçün [hər şeyə qadir olan bir varlığın] mövcud olmasını tələb edir. Demək insan ibadət və kömək dilədiyi zaman özünü Allahın hüzurunda hiss etməli və — ***«Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik»*** **-** deyə xitab edərək öz sadiq bəndəliyini iqrar etməlidir.

***Təfsir:***

Allah-taala əvvəlki ayələrdə özünü vəsf etdikdən sonra insanlara bu ayələr barəsində düşünüb-daşınmağa və bir daha Allahdan başqa heç bir varlığa itaət etməmək və onlardan kömək gözləməmək e᾿tirafına əmr edir. Belə ki, Allahdan başqa bütün varlıqlar [zatən] olduqca aciz və fanidirlər.

Demək, hal hazırda və gələcəkdə mövcud olması üçün başqa bir varlığa möhtac olan varlığın ibadət olunmağa heç bir ləyaqəti yoxdur. Onun üstün və zəif xüsusiyyətləri bir-birindən fərqli olsa da, acizlik və ehtiyac kimi xüsusiyyətləri bir-biri ilə tamamilə eynidir. Və bütün bu xüsusiyyətlər Allahın istək və iradəsinə tabe olduğu üçün bir-birlərindən əsla fərqlənmirlər.

Allah-taala Qur᾿anın digər ayələrində bu haqda buyurur:

أَلاَ لَهُ الْخَلْقُ وَالأَمْرُ تَبَارَكَ اللّهُ رَبُّ الْعَالَمِينَ

***«Bilin ki, yaratmaq da, əmr etmək də Ona məxsusdur. Aləmlərin Rəbbi olan Allah nə qədər uca, nə qədər böyükdür!» (Ə᾿raf-54).***

وَلِلَّهِ مُلْكُ السَّمَاوَاتِ وَالْأَرْضِ وَإِلَى اللَّهِ الْمَصِيرُ

***«Göylərin və yerin hökmü Allahındır. Axır dönüş də Allahadır!» (Nur-42).***

Hər şeyi bəxş edən və geri alan, istədiyini yerinə yetirən və istədiyini əmr edən bir varlıq ilə kim qarşı-qarşıya gələ bilər? Kim ona hakim və kim onun hakimiyyəti ilə müxalif ola bilər?

Demək, mö᾿min bir şəxs Allahdan başqa heç bir varlığa itaət etmir və Ondan başqa kimsədən kömək diləmir. Çünki Allahdan başqa bütün varlıqlar möhtac və asılıdırlar. İbadət olunası bir varlıq isə hər şeydən ehtiyacsız və hər şeyə qadir olmalıdır. Necə

ola bilər ki, başqa birisinə ehtiyac duyan bir varlıq özü kimi başqa bir möhtac varlığa pərəstiş etmiş olsun?

Dediklərimizdən belə bir nəticəyə gəlmək olur ki, insan Allahdan başqa heç bir varlığa pənah aparmamalı, Ondan qeyrisinə ibadət etməməli, Ondan qeyrisindən kömək diləməməlidir. Əks təqdirdə Allaha şərik qoşmuş və Onun kimi başqa bir varlığın İlahi hakimiyyətə malik olduğunu təsəvvür etmiş olur. Halbuki, Allahın verdiyi hökm qəti və dəyişilməzdir.

وَقَضَى رَبُّكَ أَلاَّ تَعْبُدُواْ إِلاَّ إِيَّاهُ

***«Rəbbin yalnız Ona ibadət etməyi buyurmuşdur».***

Həmd surəsinin ikinci hissəsini təşkil edən «iyyakə nə҆budu və iyyakə nəstəin» ayəsinə verilən təfsir bundan ibarət idi.

Bu ayədə iki mühüm mövzuya işarə olunur. «İbadət və kömək diləmək». Gələcək fəsillərdə biz bu barədə daha ətraflı mə҆lumatlar verəcəyik.

***İBADƏT***

İbadətdə tohid: Hər bir müsəlmanın şəkk və tərəddüd etmədiyi məsələlərdən biri də ibadətin yalnız Allaha aid olmasıdır. Bir qədər əvvəl qeyd etdik ki, «ibadət» deyildikdə, onun yalnız Allah-taalaya aid olduğu nəzərdə tutulur və bunu biz «ibadətdə tohid» adlandırırıq. «İbadətdə tohid» peyğəmbərlərin təbliğ etdikləridir və səmavi kitablarda da bəyan olunmuşdur ki, Allahın zati vəhdaniyyətindən qaynaqlanır.

قُلْ يَا أَهْلَ الْكِتَابِ تَعَالَوْاْ إِلَى كَلَمَةٍ سَوَاء بَيْنَنَا وَبَيْنَكُمْ أَلاَّ نَعْبُدَ إِلاَّ اللّهَ وَلاَ نُشْرِكَ بِهِ شَيْئًا وَلاَ يَتَّخِذَ بَعْضُنَا بَعْضاً أَرْبَابًا مِّن دُونِ اللّهِ

***«[Ya Məhəmməd!] Söylə ki: «Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan [fərqi olmayan] bir kəlməyə tərəf gəlin!» [O kəlmə budur ki]: «Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub bir-birimizi [özümüzə] rəbb qəbul etməyək!»***

Deməк, Allaha iman dedikdə insanın yalnız Ona ibadət etməyini və Ondan qeyrisindən uzaq olduğunu nəzərdə tutmalıyıq. İnsanın çoxsaylı mə҆budlara e`tiqadı və ya özü ilə Allah arasında vasitə qərar verməsi isə Allaha şərik qoşmaqdır. Lakin təəssüflər olsun ki, insanların bir çoxu belə bir yanlış

əqidəyə əsaslanırlar ki, Yaradanla [Xaliq] yaradılmış [məxluq] arasında fasilə olduğu üçün insanların dua və istəklərinin Allaha çatması sadəcə olaraq qeyri-mümkündür. Bu səbəbdən də o, duaların qəbul olması [daha dəqiq desək, Allahla rabitə bərqərar etmək] üçün özü ilə Allah arasında vasitə qərar verir. Onlara ibadət edir və bütün ehtiyaclarının qərar verdiyi vasitələrlə aradan qaldırılacağını güman edir.

Bu əqidənin tərəfdarları Allahı insanlardan uzaq olan hakim və soltanlara bənzədirlər. Belə ki, adi camaat hakimlərlə birbaşa ünsiyyətdə ola bilmədikləri üçün öz sözlərini onlara müxtəlif şəxslərin vasitəsi ilə çatdırır və öz çətinliklərini bu yolla aradan qaldırmış olurlar.

Lakin Allah-taala Qur՚anın bu və digər ayələrində hər iki əqidənin [yə՚ni çoxallahlığın və vasitə qərar verməyin] batil və əsassız olduğunu bildirir.

1. Birinci əqidənin, yə՚ni, çoxallahlığın batil olduğunu Allah-taala aşağıdakı ayələrlə bəyan edir:

***Onlar: «Bütlərə ibadət edir və onlara tapınmaqda davam edirik!» – deyə cavab vermişdilər.***

***İbrahim demişdi: «Onları çağırdınız [dua etdiyiniz] zaman sizi eşidirlərmi?***

***Yaxud sizə bir xeyir və ya bir zərər verə bilirlərmi?»***

***Onlar: «Xeyr, ancaq biz öz atalarımızın belə [ibadət] etdiklərini gördük!» –deyə cavab vermişdilər». (26/71-74).***

***Birinci əqidə:*** Allah-taala çoxallahlıq e՚tiqadının müqabilində buyurur:

لَوْ كَانَ فِيهِمَا آلِهَةٌ إِلَّا اللَّهُ لَفَسَدَتَا

***«Əgər yerdə və göydə Allahdan başqa tanrılar olsa idi, onların ikisi də [müvazinətdən çıxıb] pozulardı».***

وَمَا كَانَ مَعَهُ مِنْ إِلَهٍ إِذًا لَّذَهَبَ كُلُّ إِلَهٍ بِمَا خَلَقَ وَلَعَلَا بَعْضُهُمْ عَلَى بَعْضٍ سُبْحَانَ اللَّهِ عَمَّا يَصِفُونَ

***«Onunla yanaşı [ibadət ediləcək] heç bir tanrı yoxdur. Əgər belə olsaydı, onda hər bir tanrı əlahiddə öz yaratdıqları ilə gedər, [öz məxluqatını ayırıb aparar] və onların bir qismi [dünyadakı padşahlar kimi] digərinə üstün olmağa çalışardı. Allah müşriklərin [Ona] aid etdikləri sifətdən tamamilə kənardır!»***

***İkinci əqidə:*** İkinici əqidəyə – yə᾽ni, insanların özləri ilə Allah arasında vasitə qərar verməlarinə gəldikdə isə, Allah-taala belə bir əqidənin batil olduğunu müxtəlif üsullarla bəyan edir. Bə᾽zən əqidə tərəfdarlarından söylədiklərinə dair dəlil gətirmələrini tələb edir.

أَإِلَهٌ مَّعَ اللَّهِ قُلْ هَاتُوا بُرْهَانَكُمْ إِن كُنتُمْ صَادِقِينَ

***«De ki: «[Ey müşriklər!] Əgər [Allah barəsindəki iddialarınızda] haqlısınızsa, dəlilinizi gətirin!» (27/64).***

قَالُوا نَعْبُدُ أَصْنَامًا فَنَظَلُّ لَهَا عَاكِفِينَ قَالَ هَلْ يَسْمَعُونَكُمْ إِذْ تَدْعُونَ أَوْ يَنفَعُونَكُمْ أَوْ يَضُرُّونَ قَالُوا بَلْ وَجَدْنَا آبَاءنَا كَذَلِكَ يَفْعَلُونَ

***«Onlar: «Bütlərə ibadət edir və onlara tapınmaqda davam edirik!» – deyə cavab vermişdilər. İbrahim demişdi: «Onları çağırdığınız [dua etdiyiniz] zaman sizi eşidirlərmi? Yaxud sizə bir xeyir və ya zərər verə bilirlərmi?» Onlar: «Xeyr, ancaq biz atalarımızın belə [ibadət] etdiklərini gördük!» – deyə cavab vermişdilər». (26/71-74).***

Qur᾽an bə᾽zən onlara elə bir mətləbə diqqət yetirmələrini tövsiyə edir ki, pərəstiş etdikləri mə᾽budların nə xeyir, nə də zərər verdiklərini özləri dərk etməyə başlayırlar. Belə ki, pərəstiş etdikləri varlıqlar xeyir və zərər verə bilmədikləri kimi, nə onlara bir şey bəxş edə, nə də geri ala bilir və nə onlara həyat verə, nə də öldürə bilir. Demək əql və düşüncəyə malik olan insan belə bir zəif məxluqa ibadət və pərəstiş etməməlidir.

قَالَ أَفَتَعْبُدُونَ مِن دُونِ اللَّهِ مَا لَا يَنفَعُكُمْ شَيْئًا وَلَا يَضُرُّكُمْ أُفٍّ لَّكُمْ وَلِمَا تَعْبُدُونَ مِن دُونِ اللَّهِ أَفَلَا تَعْقِلُونَ

***«İbrahim dedi: «Elə isə Allahı qoyub sizə heç bir xeyir və zərər verə bilməyən bütlərəmi ibadət edirsiniz? Tfu sizə də, Allahdan başqa ibadət etdiyiniz bütlərə də! Əcəba, [etdiyiniz əməllərin qəbahətini] başa düşmürsünüz?» (21/67)***

قُلْ أَتَعْبُدُونَ مِن دُونِ اللّهِ مَا لاَ يَمْلِكُ لَكُمْ ضَرًّا وَلاَ نَفْعًا

***«De ki: «Allahı qoyub sizə nə bir zərər, nə də bir xeyir verən şeylərəmi ibadət edirsiniz?» (5/76).***

أَلَمْ يَرَوْاْ أَنَّهُ لاَ يُكَلِّمُهُمْ وَلاَ يَهْدِيهِمْ سَبِيلاً اتَّخَذُوهُ وَكَانُواْ ظَالِمِينَ

***«Məgər buzovun onlarla danışmadığını, onlara bir yol göstərə bilmədiyini görmədinizmi? [Bununla belə] buzova tapınıb özlərinə zülm eləyən oldular». (7/148).***

Yaradılmış bir varlığın ibadətə layiq olmaması açıq-aşkar əqli və fitri bir qanundur. Və bu qanun Allahdan başqa bütün varlıqlara, hətta Peyğəmbərlərə belə şamil olur. Belə ki, Qur᾽ani-Kərim bu qəti yasaq barəsində Maidə surəsinin 116-117-ci ayələrində buyurur:

وَإِذْ قَالَ اللّهُ يَا عِيسَى ابْنَ مَرْيَمَ أَأَنتَ قُلتَ لِلنَّاسِ اتَّخِذُونِي وَأُمِّيَ إِلَـهَيْنِ مِن دُونِ اللّهِ قَالَ سُبْحَانَكَ مَا يَكُونُ لِي أَنْ أَقُولَ مَا لَيْسَ لِي بِحَقٍّ إِن كُنتُ قُلْتُهُ فَقَدْ عَلِمْتَهُ تَعْلَمُ مَا فِي نَفْسِي وَلاَ أَعْلَمُ مَا فِي نَفْسِكَ إِنَّكَ أَنتَ عَلاَّمُ الْغُيُوبِ مَا قُلْتُ لَهُمْ إِلاَّ مَا أَمَرْتَنِي بِهِ أَنِ اعْبُدُواْ اللّهَ رَبِّي وَ رَبّكُمْ

***«[Ya Məhəmməd!] Xatırla ki, o zaman [qiyamət günü] Allah belə buyuracaq: «Ya Məryəm oğlu İsa! Sənmi insanlara: «Allahla yanaşı, məni və anamı da özünüzə tanrı bilin!» – demişdin? İsa cavabında deyəcək: «Sən pak və müqəddəssən! Haqqım çatmayan bir şeyi demək mənə yaraşmaz. Əgər mən bunu demiş olsaydım, Sən onu mütləq bilərdin. Sən mənim ürəyimdə olan hər bir şeyi bilirsən, mən isə Sənin zatında olanı bilmirəm. Şübhəsiz ki, qeybləri bilən ancaq Sənsən!» Mən onlara yalnız Sənin mənə etdiyin əmri çatdırıb belə demişəm: «Mənim də, sizin də Rəbbimiz olan Allaha ibadət edin!» (5/116-117).***

***«[Ya Məhəmməd!] De ki: «Ürəklərinizdəkini gizlətsəniz də, aşkara çıxarsanız da, Allah onu bilir, çünki O, göylərdə və yerdə olanların hamısını biləndir. Allah hər şeyə qadirdir!» (3/29).***

***«Əgər Allah sənə bir zərər yetirsə [sıxıntı versə], səni ondan [Allahdan] başqa heç kəs qurtara bilməz. Əgər Allah sənə bir xeyir diləsə, heç kəs Onun ne᾽mətinə maneçilik edə bilməz». (10/107).***

***«Rəbbiniz buyurdu: «Mənə dua edin, Mən də sizin dualarınızı qəbul edim!» (40/60).***

Qur᾽an insanın özü ilə Allah arasında vasitə qərar verməsinin batil olduğunu digər ayələrdə də müxtəlif üsullarla bəyan edir.

Bu ayələrdə deyilir: Allah öz bəndələrinə o qədər yaxındır ki, hətta onların gizli saxladıqları sözləri də eşidir, bilir və onlara

cavab verir və dərhal onların istəklərini yerinə yetirir. Belə bir varlığın sözsüz ki, heç bir vasitəyə də ehtiyacı olmayacaqdır.

وَنَحْنُ أَقْرَبُ إِلَيْهِ مِنْ حَبْلِ الْوَرِيدِ

***«Biz ona şah damarından da yaxınıq!» (50/16).***

أَلَيْسَ اللَّهُ بِكَافٍ عَبْدَهُ

***«[Ya Peyğəmbər!] Məgər Allah Öz bəndəsinə kifayət deyilmi?!» (39/36).***

وَهُوَ الْقَاهِرُ فَوْقَ عِبَادِهِ وَهُوَ الْحَكِيمُ الْخَبِيرُ

***«O Öz qulları üzərində hakimi-mütləqdir. O, hikmət və bilik sahibidir!» (6/18).***

وَإِن يَمْسَسْكَ بِخَيْرٍ فَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدُيرٌ

***«Əgər Allah sənə bir xeyir yetirsə, [heç kəs ona mane ola bilməz]. Çünki O hər şeyə qadirdir!» (6/17).***

يَبْسُطُ الرِّزْقَ لِمَنْ يَشَاء وَيَقَدِرُ

***«Allah istədiyi bəndənin ruzisini bol edir, [istədiyinkini də] azaldır». (13/26.)***

إِنَّ اللَّهَ هُوَ الرَّزَّاقُ ذُو الْقُوَّةِ الْمَتِينُ

***«Şübhəsiz ki, ruzi verən də, yenilməz qüvvət sahibi olan da Allahdır!» (51/58).***

لَيْسَ كَمِثْلِهِ شَيْءٌ وَهُوَ السَّمِيعُ البَصِيرُ

***«Ona bənzər heç bir şey yoxdur. O [hər şeyi] eşidəndir, [hər şeyi] görəndir!» (42/11).***

أَلَا إِنَّهُ بِكُلِّ شَيْءٍ مُّحِيطٌ

***«Allah [Öz elm və qüdtəri ilə] hər şeyi əhatə edəndir!»***

Yuxarıda qeyd olunan ayələrdən belə bir ümumi nəticəyə gəlmək olur ki, Allah heç də Öz bəndələrindən uzaq deyildir. Daim onlara nəzarət və həyatlarını idarə edir. Və belə bir halda insanlar Ona şərik qoşaraq ehtiyaclarının aradan qalxması üçün özləri ilə Onun arasında vasitə qərar verməməlidirlər.

Bəli, O hər yerdə və hamı ilədir. O hər şeyə qadirdir və heç bir vasitəyə ehtiyacı yoxdur. Qur᾽ani-Kərim bu haqda buyurur:

مَا يَكُونُ مِن نَّجْوَى ثَلَاثَةٍ إِلَّا هُوَ رَابِعُهُمْ وَلَا خَمْسَةٍ إِلَّا هُوَ سَادِسُهُمْ وَلَا أَدْنَى مِن ذَلِكَ وَلَا أَكْثَرَ إِلَّا هُوَ مَعَهُمْ أَيْنَ مَا كَانُوا

***«Aralarında gizli söhbət gedən üç adamın dördüncüsü, beş adamın altıncısı Allahdır. Onlar bundan az da, çox da olsalar və harada olsalar, Allah yenə onların yanındadır. Sonra qiyamət günü Allah onlara etdikləri əməlləri [bir-bir] xəbər verəcəkdir. Allah hər şeyi biləndir!» (58/7).***

كَذلكَ اللهُ يَفْعَلُ ما يَشاء

***«Allah nə istəsə, onu da edər.» (3/40).***

اِنَّ اللهَ يَحْكُمُ ما يريد

***«Allah istədiyi hökmi edər». (5/1).***

***Nəticə:***

Dediklərimizdən belə bir nəticəyə gəlirik ki, ibadət yalnız Allaha olunmalı və insan yalnız Onun qarşısında özünü məs͗uliyyətli hiss etməlidir. Ondan qeyrisinə olunan ibadət və pərəstiş isə hansı üsul və tərz-təfəkkür ilə olursa-olsun, mütləq mə͗nada şirk və Allaha şərik qoşmaq deməkdir. Çünki Allahdan qeyrisinə ibadət edən bir şəxs sözün həqiqi mə͗nasında onu özünə tanrı bilmiş olur. Küfr etmiş müşrikləri Allahın birliyinə iman gətirmiş şəxslərdən fərqləndirən xüsusiyyət də məhz budur.

### *İSLAMDA İTAƏT HÖKMÜ*

### *ALLAHA İTAƏT*

Allaha itaət olunmağın vacibliyi və itaət olunmadıqda insanın əzaba düçar olacağı hamıya bəlli olan bir məsələdir. Qur͗anın bir çox ayələrində Allah-taala Onun əmrinə tabe olan şəxsləri cənnət ne͗mətləri ilə mükafatlandıracağına, tabe olmayanları isə böyük əzablarla cəzalandıracağına və͗də vermişdir.

### *ALLAHDAN QEYRİSİNƏ İTAƏT*

Bu məsələ şər͗i nöqteyi-nəzərdən bir neçə qismə bölünür: Bə͗zən vacib, bə͗zən haram, bə͗zən də mubah [icazə verilmiş] olur.

1. Bə͗zən Allahdan qeyrisinə itaət etmək Allahın Özü tərəfindən əmr olunur.

***«Biz hər bir peyğəmbəri, ancaq ona Allahın iznilə itaət olunsun deyə, göndərdik». (4/64).***

Bu səbəbdən də Allah-taala insanların Ona itaət etmələrini əmr edərkən Peyğəmbərə (s) də itaət etməyin zəruriliyinə işarə edir.

مَّنْ يُطِعِ الرَّسُولَ فَقَدْ أَطَاعَ اللّهَ

***«Hər kəs Allaha və Peyğəmbərinə itaət etsə, böyük bir səadətə [Cənnətə] nail olar». (33/71).***

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ أَطِيعُواْ اللّهَ وَأَطِيعُواْ الرَّسُولَ وَأُوْلِي الأَمْرِ مِنكُمْ

***«Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar sahiblərinə itaət edin!». (4/59).***

2. Bə᾽zən də insanı günaha sürükləyən Şeytan və digər şeylərə itaət etmək Allah tərəfindən yasaq olunur.

Şübhəsiz ki, belə bir itaət şər᾽i nöqteyi-nəzərdən haram, əqli baxımdan isə olduqca nalayiq və xoşagəlməz bir işdir. Belə ki, bir çox hallarda insanın Allahdan qeyrisinə itaət etməsi, onu şirk və küfrə sürükləyir. Bu ona bənzəyir ki, bir şəxs başqa birisini küfr və ya şirkə əmr etmiş və həmən şəxs də öz növbəsində ona itaət edərək dediyi hər bir sözü qəbul etmiş olur. Belə ki, Allah-taala Qur᾽ani-Kərimdə bu haqda buyurur:

اتَّقِ اللَّهَ وَلَا تُطِعِ الْكَافِرِينَ وَالْمُنَافِقِينَ

***«Ya Peyğəmbər! Allahdan qorx, kafirlərə və münafiqlərə itaət etmə». (33/1).***

فَاصْبِرْ لِحُكْمِ رَبِّكَ وَلَا تُطِعْ مِنْهُمْ آثِمًا أَوْ كَفُورًا

***«Elə isə Rəbbinin hökmünə səbir et və onlardan [Məkkə müşriklərindən] günahkar və nankor olana boyun əymə!» (76/24).***

حُسْنًا وَإِن جَاهَدَاكَ لِتُشْرِكَ بِي مَا لَيْسَ لَكَ بِهِ عِلْمٌ فَلَا تُطِعْهُمَا

***«Əgər ata-anan bilmədiyin şeyi Mənə şərik qoşmağa cəhd göstərsələr [bu işdə] onlara itaət etmə». (31/15).***

3. Bə᾽zən də insan, Allah tərəfindən əmr və ya yasaq olunmadan Allahdan qeyrisinə itaət edir. Bu kimi itaətləri nə haram adlandırmaq olar, nə də halal. [Əskərin ordu başçısına itaət etməsini buna misal çəkmək olar]. Yox əgər insan haram işlərdə bir başqasına itaət edərsə və onun itaət etməsi ibadət və pərəstiş

həddinə çatarsa, o, yuxarıda qeyd olunan itaətin ikinci növünə aid olacaqdır və bu da günah və şirkdir.

### *PƏRƏSTİŞ VƏ TƏ᾽ZİM ARASINDA OLAN FƏRQ*

İtaətlə yanaşı insan Allah qarşısında öz sədaqət və təvazö᾽karlığını da bildirməlidir. İstər əqli, istərsə də şər᾽i cəhətdən insanın Allah qarşısında itaət göstərməsi, öz sədaqət və təvazökarlığını bildirməsi üçün heç bir dəlil və sübuta ehtiyac yoxdur.

İnsanın, yaradılmışlar [məxluqat] qarşısında əksilərək öz acizliyini e᾽tiraf etməsi isə itaət kimi bir neçə hissəyə bölünür:

1. Bə᾽zən insan Allah tərəfindən elə bir yüksək məqama tə᾽yin olmayan [özü kimi] bir varlığın qarşısında kiçilir və ona tə᾽zim edir. Övladın ata və şagirdin öz müəllimi qarşısında tə᾽zim etməsini buna misal çəkmək olar. Bə᾽zi hallarda – məsələn, Allahdan qeyrisinin qarşısında səcdə etmək istisna olmaqla, şəriət tərəfindən belə bir rəftar yasaq olunmadıqda, insanın yuxarıda qeyd olunan şəraitlərdə tə᾽zim etməsinin təbii ki, heç bir irad və nöqsanı da olmamalıdır.

Allah tərəfindən belə bir qadağa olmadığı bir halda onu şirk ilə əlaqələndirmək də tamamilə əsassız olardı. Allah-taala Qur᾽ani-Kərimdə bu haqda buyurur:

وَاخْفِضْ لَهُمَا جَنَاحَ الذُّلِّ مِنَ الرَّحْمَةِ وَقُل رَّبِّ ارْحَمْهُمَا كَمَا رَبَّيَانِي صَغِيرًا

***«Onların hər ikisinə acıyaraq mərhəmət qanadının altına alıb: «Ey Pərvərdigar! Onlar məni körpəliyimdən [nəvazişlə] tərbiyə edib bəslədikləri kimi, Sən də onlara rəhm et!» (17/24).***

Göründüyü kimi Allah-taala «hifz cənah» ifadəsi ilə insana valideynlərinin qarşısında tə᾽zim etməyi əmr edir. Əvvəlki ayədə isə Allahdan qeyrisinə ibadət etməyi qətiyyətlə yasaq edir.

وَقَضَى رَبُّكَ أَلاَّ تَعْبُدُواْ إِلاَّ إِيَّاهُ وَبِالْوَالِدَيْنِ إِحْسَانًا

***«Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi [onlara yaxşı baxıb gözəl davranmağı] buyurmuşdur». (17/23).***

Diqqət yetirin. Məgər əvvəlki ayədə işlənən «hifz cənah» ifadəsi (valideynlərin qarşısında tə᾽zim etmək) bu ayədə nəzərdə tutulan valideynlərlə gözəl davranmağa əmr olunması demək

deyilmi? Məgər valideynlərə itaət etmək, Allaha itaət etmək deyilmi?

Buradan belə bir qənaətə gəlmək olmazmı ki, Allahdan qeyrisinə olunan bütün itaətlər şirk deyildir?

2) Bə`zən də insan başqa birisini Allah tərəfindən yüksək məqama mənsub olunduğunu hesab edir. Və bu əqidəyə əsasən, onun qarşısında tə`zim edərək müqəddəs tutur. Lakin bir çox batil din və məzhəblərdə olduğu kimi, əgər insan yanlış əqidəyə əsaslanaraq Allahın izni olmadan onların qarşısında tə`zim edərsə, dində bid`ətə yol vermiş və Allaha iftira etmiş olur. Qur`an, sünnət, əql və icmaya əsasən, bu növ tə`zim və ehtiram əlaməti, qeyd etdiyimiz kimi, bid`ət və haramdır. “Kəhf” surəsinin 15-ci ayəsində bu haqda deyilir:

فَمَنْ أَظْلَمُ مِمَّنِ افْتَرَى عَلَى اللَّهِ كَذِبًا

***«Allaha qarşı yalan uyduran şəxslərdən daha zalim [özünə zülm edən] kim ola bilər?!» (18/15).***

3. Bə`zən də insan Allahın izni və əmri ilə başqa birisinin qarşısında tə`zim edir. İnsanın Peyğəmbər, onun canişinlərinin, mö`minlərin və ya Qur`an, məscid, Həcərul-əsvəd və s. kimi Allaha mənsub olan şeylərin qarşısında tə`zim etməsini buna misal çəkmək olar. Bu kimi tə`zim və ehtiram əlamətləri nəinki şirk deyil, əksinə Allah tərəfindən olduqca bəyənilən rəftarlardandır. Belə ki, Allah-taala Qur`ani-Kərimdə bu haqda buyurur:

فَسَوْفَ يَأْتِي اللَّهُ بِقَوْمٍ يُحِبُّهُمْ وَيُحِبُّونَهُ أَذِلَّةٍ عَلَى الْمُؤْمِنِينَ أَعِزَّةٍ عَلَى الْكَافِرِينَ

***«Ey iman gətirənlər! Sizdən hər kəs dinindən dönsə, [bilsin ki] Allah [onun yerinə] elə bir tayfa gətirər ki, Allah onları, onlar da Allahı sevərlər. Onlar mö`minlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olar». (5/54).***

Bəli, insanın Allah əmri ilə tə`zim etməsi, sözün əsl mə`nasında Onun öz qarşısında tə`zim etməsi deməkdir. Çünki Allahın birliyinə sidq ürəklə iman gətirən şəxs Onun hər şeyə qadir olduğunu (yaratmaq, öldürmək, ruzi vermək, bağışlayıb və ya əzab vermək və s.) və digər tərəfdən peyğəmbər və onun davamçılarının [canişinlərinin] adi bəşər, lakin onların pak və

əməli-saleh və itaətkar olduqlarını qəbul edir və belə əqidəyə əsaslanır.

Belə bir saf əqidəyə malik olan bir şəxs onları Allahın izni ilə Onun öz dərgahında şəfaətverici vasitə hesab edir. Belə olduqda, o nə Allahın hökmündən çıxmış olur, nə də Ona şərik qoşmuş olur.

Hər bir müsəlman çox yaxşı bilir ki, Peyğəmbər (s) həcc ziyarəti (və ya digər vaxtlarda) həcərül-əsvədi (qara daşı) öpər, ona əl çəkər, mö᾽minlərin, şəhidlərin və əməli-saleh şəxslərin qəbirlərini ziyarət edər, qəbirlərin qarşısında duraraq onlara salam verər və Allah-taaladan onların bağışlanmasını istəyərdi. Peyğəmbərdən (s) sonra da səhabələr qəbirləri ziyarət edər, təbərrük olaraq onları öpər və sağlığında olduğu kimi, vəfat etdikdən sonra da Peyğəmbəri (s), Allahla özləri arasında şəfaətverici olaraq qərar verərdilər. Onlar bu kimi rəftarları tək Peyğəmbərə (s) deyil, özlərinin digər əməli-saleh din rəhbərlərinə qarşı da edərdilər. İstər əshab, istərsə də din alimləri bu kimi rəftarlara qarşı müxalif mövqe tutmamışlar. Lakin İbni Teymiyyə ləqəbi ilə şöhrət tapmış Əhməd ibni Əbdül-həlim Hərani ilk dəfə qəbirlərin ziyarət olunması və bu məqsəd üçün səfərə çıxmağın haramlığına dair hökm verir. Onun fikrincə qəbirləri öpmək, əl çəkmək, qəbir sahiblərini vasitə qərar verərək onlardan şəfaət istəmək haramdır və şirk ilə bərabərdir. O, hətta Peyğəmbərin (s) qəbrini ziyarət edən, onu öpüb əl çəkən şəxslərlə mübarizə aparır və onların bu işlərini kiçik şirk və bə᾽zən də böyük şirk kimi qələmə verirdi.

Müasir İslamşünas alimlər İbni Teymiyyənin əqidə və tərzi-təfəkkürünü diqqətlə araşdırdıqdan sonra onun İslam dinində sabit olmuş məsələlərlə müxalif olduğunun, hətta onlardan bə᾽zilərini inkar etdiyinin şahidi olmuşlar. Bu səbəbdən də yekdilliklə onun e᾽tibar baxımından saqit və bid᾽ətçi olduğuna fətva vermişlər. Çünki onlar çox gözəl bilirdilər ki, mö᾽minlərin və xüsusilə də Peyğəmbərin (s) qəbrinin ziyarət olunmasının savabı haqda bir çox hədis və rəvayət nəql olunmuşdur. Peyğəmbərdən (s) nəql olmuş bu rəvayətlərin birində deyilir:

***«Hər kəs məni vəfat etdikdən sonra ziyarət edərsə, sanki məni sağlığımda ziyarət etmişdir.»***

Peyğəmbərdən (s) bu məzmunda onlarla digər hədis və rəvayətlər nəql olunmuşdur.

Bu səbəbdən də İbni Teymiyyənin həbs olunmasına və tövbə etməyincə ağır həbs şəraitində saxlanılmasına fətva verilir.

Əgər İbni Teymiyyənin məqsədi müsəlmanlar arasında bilərəkdən ixtilaf yaratmaq olmayıbsa da, böyük səhvə yol verərək qəbirləri ziyarət, onlardan şəfaət istəmək və s. Allahdan qeyrisinə pərəstiş və şirk hesab etmişdir. Lakin o bu məsələyə diqqət yetirməmişdir ki, qəbirləri ziyarət edən həmən bu şəxslər Allahın birliyinə, Ondan başqa ruzi verən və yaradan ikinci bir varlığın olmadığına iman gətirmişlər. Və onların tə`zim etməklərində məqsəd dinin müqəddəs ayinlərinə ehtiram etməkdən başqa bir şey deyildir və sözün əsl mə`nasında tə`zim Allahın Özünə olunur. Və bütün bunların şirk ilə heç bir əlaqə və oxşarlığı yoxdur. Çünki bir qədər əvvəl qeyd etdiyimiz kimi, şirk ona deyilir ki, insan Allahdan qeyrisinə pərəstiş [ibadət] etmiş olsun. Pərəstiş isə ona deyilir ki, insan ibadət etdiyi mə`budun qarşısında səcdə etmiş olsun. Lakin Peyğəmbər (s) və onun davamçılarına [canişinlərinə] tə`zim hara, belə bir əqidə hara!?

Mə`lum məsələdir ki, heç bir müsəlman öz peyğəmbərinə ibadət etmir, o ki, qaldı onun qəbrinə. Onun və canişinlərinin müqabilində tə`zimə gəldikdə isə, o bütün bunları hər zaman Allaha sidq ürəklə bəndəlik etdikləri və əməli-saleh işlər gördükləri üçün edir.

Bir sözlə, qəbirlərin ziyarət olunması, onları öpmək, əl çəkmək, onların müqabilində tə`zim etməyi əsla şirk hesab etmək olmaz. Əgər bu kimi işləri şirk adlandırarıqsa, gərək hər bir insanın ehtiram əlaməti olaraq başqa birisinin müqabilində tə`zim etməsini də şirk kimi qələmə verək. Halbuki, İbni Teymiyyə və onun tərəfdarları bunun şirk olduğunu əsla qəbul etmirlər. Bütün bunlarla yanaşı əgər qəbirlərin ziyarət olunmasını şirk adlandırsaq, gərək Peyğəmbəri (s) də (nəuzubillah) müşrik hesab

edək. Çünki bir qədər əvvəl qeyd etdiyimiz kimi, o öz sağlığında bu kimi işlər görərdi.

Bu kimi işləri şirk və bu əməli edən şəxsləri müşrik adlandıran bir şəxs, Peyğəmbərin (s) də şirkə yol verdiyini iddia edə bilərmi? Heç vaxt! Çünki şirk peyğəmbərliyə aid olunmaz bir xüsusiyyətdir. Bunun üçün deməliyik: Ya bə᾽zi şirklərin eyb və nöqsanı yoxdur və ya qəbirlərin ziyarət olunmasını və Allaha aid olan – Qur᾽an, Kə᾽bə, Həcərül-əsvəd və s. kimi şeylərin qarşısında tə᾽zim etməyin şirk ilə heç bir əlaqəsi yoxdur. Və bunları şirk adlandırmaq olmaz. Bə᾽zi şirklərə icazə verən birinci ehtimal [fərziyyə] tamamilə batil və əsassız olduğu üçün qəbirləri ziyarət və onların müqabilində tə᾽zim etməyin şirk olmadığını bildirən ikinci ehtimalı qəbul etməliyik. Çünki qəbirləri ziyarət və qəbir sahiblərinə tə᾽zim etmək heç də şirk deyildir. Və bu kimi işlər Allahın izni ilə həyata keçirilərsə, sözün əsl mə᾽nasında insan Allaha itaət və təqvaya əməl edərək dinin müqəddəs ayinlərini yerinə yetirmiş olur.

Qur᾽ani-Kərimdə bu haqda buyurulur:

وَمَن يُعَظِّمْ شَعَائِرَ اللَّهِ فَإِنَّهَا مِن تَقْوَى الْقُلُوبِ

***«Və hər kəs Allahın mərasiminə hörmət etsə, bu [hörmət] şübhəsiz ki, qəlblərin təqvasındandır [Allahdan qorxmasındandır]». (22/32).***

Peyğəmbər (s) və əməli-saleh mö᾽min insanların qəbirlərinin ziyarət olunması haqda kifayət qədər hədis və rəvayət nəql olunmuşdur və biz onlardan bir neçəsinə əvvəlki fəsillərdə işarə etdik.

### *ALLAHDAN QEYRİSİ ÜÇÜN EDİLƏN SƏCDƏ*

Dediklərimizdən belə mə᾽lum olur ki, Allahdan qeyrisinə tə᾽zim etmək, əgər Allah tərəfindən yasaq olunarsa şər᾽i nöqteyi-nəzərdən haram hesab olunur. [Məzhəbindən asılı olmayaraq] müsəlman icması arasında bu barədə heç bir ixtilaf və fikir ayrılığı nəzərə çarpmur. Və Allah-taala, Qur᾽ani-Kərimdə bu haqda buyurur:

لَا تَسْجُدُوا لِلشَّمْسِ وَلَا لِلْقَمَرِ وَاسْجُدُوا لِلَّهِ الَّذِي خَلَقَهُنَّ إِن كُنتُمْ إِيَّاهُ تَعْبُدُونَ

***«Günəş və aya səcdə etməyin, onları yaradan Allaha səcdə edin! Əgər Ona ibadət edirsinizsə [heç bir şərik qoşmadan ibadət edin]». (41/37).***

وَأَنَّ الْمَسَاجِدَ لِلَّهِ فَلَا تَدْعُوا مَعَ اللَّهِ أَحَدًا

***«Şübhəsiz ki, [bütün] məscidlər (səcdəgahlar) Allaha məxsusdur. Allahdan başqa heç kəsə ibadət etməyin!» (72/18).***

Ayə dediklərimizə yalnız o zaman dəlalət edə bilər ki, «məsacid» deyildikdə səcdə edərkən yerə qoyulan yeddi bədən üzvü (alın, iki əl, dizlər və baş barmaqların ucu) nəzərdə tutulmuş olsun. Buna dəlalət edəcək bir neçə hədis və rəvayət də nəql olunmuşdur.

Belə ki, ayənin zahiri mə᾿nasından da bu nəticəyə gəlmək olur.[1]

### *İFTİRA VƏ TÖHMƏT*

Şiə məzhəbinə vurulan əsassız töhmətlərdən biri də onların imamların və digər müqəddəs hesab etdikləri şəxslərin qəbirləri qarşısında səcdə etmələridir. Lakin bu bağışlanmaz və heç bir əsası olmayan iftira və töhmətdir. Allah-taala onlara qarşı iftiralar yağdıran şəxsləri qiyamət günü məhşərə toplayacaq və özünün ədalət məhkəməsində mühakimə edəcəkdir. Çünki O, hökm çıxaranların ən ədalətlisidir.

Onlardan bə᾿ziləri həddi aşaraq şiə məzhəbinə olduqca böyük və bağışlanmaz töhmətlər vurur və deyirlər: Şiələr imamlarının qəbirlərindən torpaq götürər və onun üzərinə səcdə edərlər. «İlahi Sən pak və münəzzəhsən, bu isə böyük bir böhtandır.» İlahi Sən özün bütün bunların böhtan və batil olduğunun şahidisən. Şiə məzhəbinin hal-hazırda mövcud olan istər qədim, istərsə də müasir kitablarında insanın Allahdan qeyrisinə səcdə etməsinin haram olduğu göstərilmişdir. Belə bir iftiranı [qəbir torpağına səcdə etməyi] şiə məzhəbinə yaxan şəxslər bu işi bilərəkdən böhtan və iftira yaxmaq üçün edir, ya da şiə məzhəbindən heç bir anlayışı yoxdur. Onlar sadəcə olaraq bir şeyə

---

[1] Vəsail, 3-cü cild, 448-ci səh.

səcdə etməklə bir şey üçün səcdə etməyin arasında olan fərqi dərk etmirlər.

Şiə məzhəbi namaz qılarkən səcdə olunası şeylərin – torpaq, daş, gil və geyilən-yeyilən şeylər istisna olmaqla, yerdən çıxan hər bir şeyin üzərinə səcdə etməyi zəruri hesab edir. Lakin torpağa, xüsusilə İmam Hüseyn (ə)-ın türbətindən hazırlanmış torpağa [möhür daşına] səcdə etməyi daha fəzilətli sayır.

Şiə məzhəbinin torpağa səcdə barədə vəhy sülaləsi olan Əhli-beyt xanədanından əldə etdiyi mə'lumatların xülasəsi bundan ibarət idi.[1] Bütün bunları nəzərə alaraq şiə məzhəbini şirkdə və Allahdan qeyrisinə səcdə etməkdə ittiham etmək olarmı? Məgər bütün bunlar iftira və böhtan deyilmi?[2] Bütün bu iftiraların müqabilində onları bağışlamaq olarmı?

***İMAM HÜSEYN (Ə)-IN TÜRBƏTİ***

Şiə məzhəbi belə bir əqidədədir ki, digər torpaqlar da səcdə üçün pak olsa da, İmam Hüseyn (ə)-ın türbəti Peyğəmbərin (s) sevib əzizlədiyi cənnət cavanlarının ağası [imam Hüseyn (ə)] bu torpaqda dəfn olunduğu üçün öz müqəddəsliyi ilə digər torpaqlardan fərqlənir və fəzilətli hesab olunur.[3]

Bu torpaq elə bir şəxsi öz qoynuna almışdır ki, o, cəddi həzrət Məhəmmədin (s) dinini qorumaq, zülm və ədalətsizliyə son qoymaq və azadlıq naminə öz qohum-əqrəbası ilə zəmanəsinin zülmkar xəlifəsinə qarşı üsyan etmiş və bu yolda şəhidlik şərbətini içməyə nail olmuşdur.

Bu türbət bəşəriyyətə Allah yolunda fədakarlıq və rəşadət dərsi verir və insanların zehnində, tarixdə misli görünməyən təkanverici xatirələr canlandırır.

Şiələr bu türbətə böyük ehtiramla yanaşırlar. Onlarda yaranmış bu münasibət ona sitayiş etmək üçün deyil, sözün əsl mə'nasında insaniyyətə, azadlığa, Allah yolunda fədakarlığa, zülm və ədalətsizliklə mübarizəyə verdikləri əhəmiyyətdən irəli gəlir. Bütün bunlarla yanaşı qeyd etmək lazımdır ki, istər sünnü,

---

[1] Vəsailuş-şiə, 1-ci cild, 323-326-cı səh.

[2] Kitabın 17-ci fəslinin 13-cü bölümünə nəzər salın.

[3] Sünəni Beyhəqi, 1-ci cild, 212-213-cü səh.

istərsə də şiə məzhəbinin mö᾽təbər mənbələrində İmam Hüseyn (ə)-ın türbətinin fəziləti haqda bir çox hədis və rəvayət nəql olunmuşdur.[1]

Fərz edək Peyğəmbərdən (s) bu barədə bir rəvayət də nəql olmamışdır. Yaxşı olmazdımı ki, [səcdə edərkən] bu türbətdən digər torpaqlara qarışdırılaraq onun üzərinə səcdə olunsun? Çünki İmam Hüseyn (ə)-ın türbəti [üzərinə səcdə olunması düzgün olan] digər torpaqlarla yanaşı onu özündə gəzdirən şəxs üçün böyük həyat dərsidir. Belə ki, onun yolunu davam edən şəxslər fədakar, şücaətli olar. Züml və ədalətsizliklərə qarşı mübarizə aparar və özünün müqəddəs hədəfinə çatmaq üçün canından, malından hətta övladından belə keçməyə razı olar. Bəşəriyyətə azadlıq və dərin mə᾽nəviyyat dərsi verən belə bir müqəddəs hərəkatı şirk adlandırmaq insanda təəssüf hissi doğurmazmı?

### *ADƏM (Ə)-IN SƏCDƏ ETMƏSİ BARƏDƏ İRƏLİ SÜRÜLMÜŞ NƏZƏRİYYƏLƏR*

Maraq doğuran suallardan biri də budur ki, əgər Allahdan qeyrisinə səcdə etmək olmazsa, mələklər nə üçün Adəmə səcdə etmiş və ümumiyyətlə onlar yaradılmış bu ilk insana [və eyni zamanda Peyğəmbərə] necə səcdə etmişlər? Kəlam və təfsir alimləri bu suala müxtəlif cavablar vermişlər və biz onlardan bir neçəsinə işarə edirik:

***1. Deyirlər:*** Mələklər Adəmə şöhrətinə və tutduğu mövqeiyyətə görə deyil, ehtiram əlaməti olaraq tə᾽zim və səcdə etmişlər.

***Cavab:*** Mənim fikrimcə bunun heç bir əsası yoxdur. Çünki səcdə ayəsində onların Adəmə səcdə etmələrinin səbəbi bəyan olunmuşdur və verilən bu fərziyyə ilə tamamilə fərqlidir. Əsaslı dəlil olmadan ayəyə belə bir təfsir vermək heç də düzgün olmazdı. Bunu da qeyd etmək lazımdır ki, nəql olmuş bir çox rəvayətlərdə Adəm övladlarının Allaha səcdə etmələri və Şeytanın bundan çox narahat olaraq və uca səslə nalə etdiyi göstərilir. Allahın,

---

[1] Vəsail, 1-ci cild, 326-cı səh.

mələklərə səcdə etmələrini əmr etməsi və Şeytanın bundan boyun qaçırması səcdənin öz həqiqi mə᾽nasını çatdırır. Belə ki, Şeytan insanların Allaha səcdə etməklə Ona daha da yaxınlaşdıqlarını və eyni zamanda səcdə etməkdən boyun qaçırdığı üçün Allahın dərgahından qovulmasını xatırlayıb sarsılır və uca səslə nalə çəkməkdən savayı əlindən bir şey gəlmir.

2. ***Deyirlər:*** Mələklər Allaha səcdə etmişlər. Lakin namazda üz qibləyə tərəf tutulduğu kimi, mələklər də Allahın əmri ilə tə᾽zim əlaməti olaraq üzlərini Adəmə doğru tutmuş və Allahın qarşısında səcdə etmişlər.

***Cavab:*** Bu anlam da ayənin zahiri mə᾽nası və bu barədə nəql olmuş bir çox hədis və rəvayətlərin məzmunu ilə ziddiyyət təşkil edir. Çünki ayənin məzmunundan mə᾽lum olur ki, Şeytan özünü Adəmdən (ə) üstün tutduğu üçün onun qarşısında səcdə etməkdən boyun qaçırmışdır. Əgər səcdə deyildikdə, yalnız Allahın qarşısında səcdə etmək və Adəm (ə)-in qiblə xarakteri daşıması nəzərdə tutulsaydı, Şeytanın e᾽tiraz edərək (Ətəscudu limən xələqtə min tinin – Torpaqdan yaratdığın bir varlığın qarşısında səcdəmi edim) deməsi heç bir mə᾽na və məfhum daşımazdı. Çünki səcdə edənin Allaha ibadət etmək üçün qərar verdiyi qiblədən daha üstün olması tamamilə mümkün və təbii bir haldır.

3. ***Bə᾽ziləri deyirlər:*** Adəmə səcdə, Allahın hökmü olduğu üçün onu yerinə yetirmək də Allaha xatir və Onun əmrinə tabe olmaq deməkdir. Bu səbəbdən də bunu Allahdan qeyrisinə səcdə etmək kimi qəbul edə bilmərik.

***İzah:*** Səcdə, insanın Allah qarşısında bildirdiyi sonsuz tə᾽zim, itaət əlamətidir. Bu səbəbdən də Allah-taala səcdəni Öz zatına aid etmiş və insanları özündən qeyrisinin qarşısında, hətta itaət məqsədi ilə olsa belə səcdə etməkdən çəkindirmişdir. Allahın əmri ilə Allahdan qeyrisinin qarşısında səcdə etmək də Allaha səcdə və itaət etmək deməkdir. Çünki əsas məqsəd Allahın əmrinə tabe olmaq və Onun göstərişinə əməl etməkdir.[1]

---

[1] Kitabın 17-ci fəslinin 15-ci bölümünə müraciət edin.

Bizim fikrimizcə, bu irəli sürülmüş ən kamil və doğru nəzəriyyədir. Çünki insan yalnız öz Allahına tabe olmalı və Onun istək və tələblərinə əməl etməlidir; bir an da olsun özündə müstəqillik hissi taparaq Onun əmrinə tabe olmaqdan boyun qaçırmamalıdır.

O daim özünü Allahının qarşısında kiçik və aciz görməlidir. Lakin bu hiss yalnız Allahın hüzurunda olmalıdır. Çünki insan Allahın əmrinə Onun əzəmətini dərk etdiyi üçün tabe olur.

***NƏTİCƏ***

Deyilənlərdən bu nəticəyə gəlmək olur ki, Allaha xatir görülən bütün işlərə dair Allah tərəfindən ümumi və ya xüsusi [həmən işin görülməsi üçün] icazə və icra hökmü olmalıdır. Əgər hökmün verilməsi barəsində şəkk və tərəddüd olunarsa «dörd qəti dəlilə» [Qurʾan, sünnət, əql və icma] əsasən, ona əməl etmək haram və dində bidʾətə yol vermək sayılır.

Lakin qəbirlərin ziyarət olunması, onlara əl çəkmək, öpmək, ehtiram əlaməti olaraq qəbir sahiblərinin və əməli-saleh insanların qarşısında təʾzim etməyin həm əqli dəlillər, həm də nəql olmuş rəvayətlərlə haram olmadığı sabit olmuşdur. Əhli-beyt (ə)-dan bu məzmunda nəql olmuş rəvayətlər mətləbin açıqlanmasında bizə daha çox kömək edir. Çünki Peyğəmbər (s) özü onların cəmiyyət arasında Qurʾan kimi əhəmiyyət kəsb etdiklərinə dəfələrlə işarə etmişdir. Bu rəvayətlərin birində deyilir:

***«Mən sizin aranızda iki ağır şey əmanət qoyuram; Allahın kitabını [Qurʾanı] və Əhli-beytimi.»***

Ümumi dəlillər və Əhli-beyt tərəfindən nəql olmuş rəvayətlərlə yanaşı, əhli-sünnə mənbələrində nəql olmuş rəvayətlər və müsəlmanların istər keçmişdə, istərsə də bu günlərdəki qəbirlərin ziyarətinə olan münasibətləri də bunun haram olmadığını bir daha sübuta yetirir.

***ŞİRK NƏYƏ DEYİLİR***

Fitr və qurban orucu, qadınların heyz halında namaz qılması, həcc mərasimini digər aylarda yerinə yetirmək və s. şərʾi nöqteyi-nəzərdən haramdır və onları [bilərəkdən] yerinə yetirməklə insan günaha batildir. Lakin bütün bunları yerinə yetirməklə insan nə

kafir olur, nə də müşrik. Demək insanın hər hansı bir günah iş görməsi onun heç də küfr və şirkə yol verməsinə səbəb olmur. Çünki bir qədər əvvəl qeyd etdik ki, şirk insanın başqa birisinin və ya ayrı bir varlığın qarşısında özünü aciz və kiçik sayması, eyni zamanda mə`bud sanaraq onun qarşısında tə`zim etməsidir. Lakin insan özünü Allah bəndəsi və tə`zim etdiyi varlığın da «Allah» olmadığını bilsə, bunu əsla şirklə əlaqələndirmək olmaz.

Demək insan itaət məqsədi olmadan Allahdan qeyrisinə səcdə edərsə, bu iş haram olsa belə, heç vaxt onun küfr etməsinə və dindən çıxmasına səbəb olmur. Çünki İslam dinində əsas me`yar Allahın birliyinə və həzrət Məhəmmədin (s) peyğəmbərliyinə şəhadət verməkdir. Şər`i nöqteyi-nəzərdən insan şəhadət verməklə özünün can və malını bütün təcavüzlərdən qorumuş olur. Bu bir həqiqətdir ki, sünnü və şiə məzhəbində nəql olmuş mütəvatir rəvayətlərdə öz əksini taparaq sübuta yetirilmişdir.

Bütün bunları nəzərə alaraq, şəhadət verən şəxsləri Allaha yaxınlaşmaq məqsədi ilə Peyğəmbər (s) və əməli-saleh insanların qəbirlərini ziyarət etmələrinə görə küfr və şirkdə ittiham etmək olarmı?!

Halbuki Qur`anda bu haqda belə buyurulur:

وَلاَ تَقُولُواْ لِمَنْ أَلْقَى إِلَيْكُمُ السَّلاَمَ لَسْتَ مُؤْمِنًا

***«Sizə salam verən bir şəxsə, dünya həyatının puç mənfəətinə tamahsılanaraq «sən mö`min deyilsən!» – deməyin». (4/97).***

Bəli! Budur təkallahlılığın həqiqi mahiyyəti! Amma qoy iftira yaxan və əməli-saleh insanları küfr və şirkdə ittiham edən şəxslər öz qərəzli niyyətlərini davam etdirsinlər. Gün gələr, Allahın haqq dərgahında mühakimə olunar və özlərinin layiqli cəzalarına çatarlar. Odur hər şeyi bilən və ədalətli hökm çıxaran!

### *İBADƏT NƏDİR?*

İbadət ixtiyari və insanın istək və iradəsi ilə həyata keçən bir iş olduğu üçün insanın daxilində onu bu işə sövq və vadar edən müəyyən məqsəd və hədəfi olmalıdır. O, öz-özlüyündə bir neçə qismə bölünür:

1. Bə᾽zən insan daxildə hiss etdiyi Allah məhəbbətinə və xeyirxah işlər müqabilində Allahın verdiyi cənnət və᾽dəsinə görə ibadət edir.

وَمَن يُطِعِ اللَّهَ وَرَسُولَهُ يُدْخِلْهُ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الْأَنْهَارُ

***«Hər kəs Allaha və peyğəmbərinə itaət edərsə, Allah onu ağacları atlından çaylar axan cənnətlərə əbədi olaraq daxil edər». (4/13).***

وَعَدَ اللّهُ الَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ لَهُم مَّغْفِرَةٌ وَأَجْرٌ عَظِيمٌ

***«Allaha iman gətirib yaxşı işlər görənlərə və᾽d etmişdir ki, onları bağışlanma və böyük mükafat gözləyir». (Maidə-9).***

2) Bə᾽zən isə insanı ibadətə vardar edən amil, onun daxilində ilahi xof və cəhənnəm əzabından olan qorxu hissidir.

إِنِّي أَخَافُ إِنْ عَصَيْتُ رَبِّي عَذَابَ يَوْمٍ عَظِيمٍ

***«Əgər Rəbbimə asi olsam, [müsibəti] böyük günün [qiyamət gününün] əzabından qorxuram». (10/15).***

إِنَّا نَخَافُ مِن رَّبِّنَا يَوْمًا عَبُوسًا قَمْطَرِيرًا

***«Həqiqətən, biz Rəbbimizdən, çox sərt, müdhiş və çətin gündən [üzlərin dəhşətdən eybəcər kökə düşəcəyi, çöhrələrin tutulub qaralacağı qiyamət günündən] qorxuruq!» (79/10).***

Bə᾽zi ayələrdə də hər iki məqsədə işarə olunmuşdur:

تَتَجَافَى جُنُوبُهُمْ عَنِ الْمَضَاجِعِ يَدْعُونَ رَبَّهُمْ خَوْفًا وَطَمَعًا

***«Onlar ibadət üçün yataqlarından qalxar [gecələr az yatar], qorxu və ümid içində [Allahın əzabından qorxaraq, mərhəmətinə ümid bəsləyərək] Rəbbinə dua edərlər». (32/16).***

وَادْعُوهُ خَوْفًا وَطَمَعًا إِنَّ رَحْمَتَ اللّهِ قَرِيبٌ مِّنَ الْمُحْسِنِينَ

***«Allaha həm qorxu, həm də istəklə [ümidlə] dua edin. Həqiqətən, Allahın mərhəməti yaxşılıq edənlərə çox yaxındır». (7/56).***

يَبْتَغُونَ إِلَى رَبِّهِمُ الْوَسِيلَةَ أَيُّهُمْ أَقْرَبُ وَيَرْجُونَ رَحْمَتَهُ وَيَخَافُونَ عَذَابَهُ

***«Onların hər hansı biri [Allah dərgahına] daha yaxın olsun deyə, Rəbbinə vəsilə axtarır, Onun rəhmətini umur, əzabından qorxur».***

3) Bə᾽zən də insan, Allahın bütün kamil sifət və xüsusiyyətlərə malik olduğunu görüb Onu özünə tanrı bilir, Ona

iman gətirib ibadət və xeyirxah işləri ilə razılığını qazanmaq istəyir.

Bu, ibadətin ən yüksək mərhələsidir. Bu mərhələyə yalnız o kəslər nail ola bilər ki, Allahı hər şeydə görmüş və özləri Onun müqəddəs zatında məhv və fani olmuş olsunlar. Onlar artıq özlərini Allahın qarşısında bir varlıq hesab etmirlər. Bütün vücudları ilə hər şeydən ayrılaraq Onun rəhmətinə göz dikirlər.

Yalnız bu mərhələyə nail olanlar sidq ürəklə və xalisanə ibadət edə bilərlər. Peyğəmbər (s) və Mə᾿sum imamlardan başqa hələ ki, bu mərhələyə nail olan ikinci bir şəxs olmamışdır. İxlasa yalnız onlar nail olmuşlar və şeytanın nüfuz edə bilmədiyi və sözün həqiqi mə᾿nasında ayənin real nümunəsi onlar olmuşlar.

وَلأُغْوِيَنَّهُمْ أَجْمَعِينَ إِلاَّ عِبَادَكَ مِنْهُمُ الْمُخْلَصِينَ

***«İblis dedi: «Ey Rəbbim! Məni azdırmağına [rəhmətindən kənar etməyinə] görə and içirəm ki, mən də insanlara [pis əməllərini, günahlarını] yer üzündə yaxşı göstərib onların hamısını yoldan çıxaracağam! Yalnız Sənin sadiq bəndələrindən başqa!» (15/39-40).***

Əmirəl-mö᾿minin Əli (ə) bu barədə belə buyurur: ***«İlahi Sənə cənnət ne᾿mətlərinin ümidi və ya cəhənnəm əzabının qorxusundan ibadət etmirəm. Səni ibadətə layiq bilib Sənə ibadət edirəm.»***[1]

Bu mərhələyə yalnız Əli (ə) və onun simasında olan qəlbləri imanla dolu əməli-saleh şəxslər nail ola bilərlər. Çünki onlar Allah dərgahında qərq olmuş və Ondan başqa ayrı bir varlıq görməyən və Allahı, Onun Özünə xatir ibadət edən şəxslərdirlər. Sair insanların ibadəti isə birinci iki qismə aiddir. Belə ki, onlar bu İlahi məqama çatmadan, ya Allaha olan qorxu üzündən və ya cənnət ne᾿mətlərinə nail olmaq üçün Ona ibadət edirlər.

Beləliklə, bir çoxlarının irəli sürdükləri nəzəriyyələrin batil və əsassız olduğu bəlli olur. Onlar deyirlər: «İnsanın qorxu üzündən və cənnət ne᾿mətlərinə xatir ibadət etməsini, həqiqi ibadət hesab etmək olmaz. Həqiqi ibadət odur ki, insan Allaha, Ona xatir ibadət etmiş olsun.»

---

[1] Miratul-uqul, 2-ci cild, 101-ci səh.

Bu nəzəriyyə ona görə batil hesab olunur ki, mə᾽sum imamlar istisna olmaqla ümumi kütlənin etdiyi ibadət məhz belə bir xüsusiyyətə malikdir. Onlar Allaha yalnız bu həddə qədər ibadət etməyə qadir olduqları üçün mə᾽sum imamların nail olduqları məqama çatmaları imkanlarından xaricdir.

Bütün bunlarla yanaşı, belə bir qənaətə gəlmək olur ki, insanın qorxu üzündən və cənnət ne᾽mətlərinə xatir etdiyi ibadətlər tamamilə düzgün və məqbuldur. Belə ki, yuxarıda qeyd olunan ayələrdə bu növ ibadətlər Allah tərəfindən bəyənildiyi və ibadət edən şəxslərin gözəl ibadətlərlə vəsf olunduğu göstərilir. Bütün bunlar isə ibadətlərin məqbul olduğuna dəlalət edir. Bunu da qeyd edək ki, imamlardan nəql olunmuş onlarla hədis və rəvayətlərdə bu kimi ibadətlərin məqbul olduğuna işarə olunmuşdur.

Bir qədər əvvəl qeyd etdik ki, Həmd surəsinin ilk ayələri Allah-taalanın rəhmət, mütləq malikiyyət, qüdrət və s. xüsusiyyətlərə malik və axirət gününün sahibi olduğu üçün həmd və şükrün məhz Ona aid olduğuna dəlalət edir. Bu səbəbdən də həmən ayələrdə ibadətin müxtəlif səbəb və mə᾽nalarına işarə olunmuşdur.

***Nəticə:***

Deyilənlərdən belə bir nəticəyə gəlirik ki, ibadət ya heç bir təmənna olmadan, yalnız Allaha xatir olmalıdır – bu əməli-saleh və mö᾽min insanların ibadətidir – ya mənfəət əldə etməyə can atan tacirlər kimi, Allahın cənnət ne᾽mətlərindən bəhrələnmək üçün olmalıdır, ya da ağasından qorxan qullar tək, Allaha cəhənnəm əzabından qorxduğu üçün ibadət edən şəxslərin ibadəti.

### *ŞƏFAƏT VƏ KÖMƏK DİLƏMƏK*

Həmd surəsinin 4-cü ayəsinin — ***«Yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik»*** — təfsirində qeyd etdik ki, ayədə iki mühüm mətləbə (ibadət və kömək diləməyə) işarə olunmuşdur. Bir qədər əvvəl «ibadət» haqda ətraflı söhbət açdıq. İndi isə «kömək diləməyin» nədən ibarət olduğu və onun mahiyyəti haqda söhbət açmaq istəyirik.

İnsan gündəlik həyatında gördüyü müxtəlif işlərdə həmçinin qarşısına qoyduğu məqsədə çatmaq üçün Allahdan qeyrisinin köməyindən istifadə edir və bir çox hallarda özü onlara kömək əlini uzadır. İstər əql, istərsə də şəriət bunun üçün heç bir yasaq və qadağa tə᾽yin etməmişdir.

Allah-taala Qur᾽ani-Kərimdə bu haqda belə buyurur:

وَاسْتَعِينُواْ بِالصَّبْرِ وَالصَّلاَةِ

***«Səbir etmək və namaz qılmaqla kömək diləyin». (2/45).***

وَتَعَاوَنُواْ عَلَى الْبرِّ وَالتَّقْوَى

***«Yaxşılıq etməkdə və pis əməllərdən çəkinməkdə əlbir olun». (5/12).***

قَالَ مَا مَكَّنِّي فِيهِ رَبِّي خَيْرٌ فَأَعِينُونِي بِقُوَّةٍ

***«Zülqərneyin dedi: Rəbbimin mənə verdiyi [qüdrət və sərvət sizin mənə verəcəyiniz məbləğdən] daha yaxşıdır». (18/95).***

Yuxarıda qeyd olunan ayələrdən belə bir nəticəyə gəlmək olur ki, insan yalnız Allahdan deyil, başqalarından yardım və kömək ala bilər. Demək (İyyakə nəstəin) ayəsində – yalnız Səndən kömək diləyirik – deyildikdə bütün köməklər deyil, yalnız insanın Allahdan ixlas və daha layiqli ibadət etməsi üçün kömək diləməsi nəzərdə tutulur.

İnsanın bütün işlərinin Onun iradə və ixtiyarı ilə yerinə yetirildiyini göstərmək üçün belə bir yardım yalnız Allaha aid edilmişdir. Bu səbəbdən də «iyyakə nə᾽budu» cümləsində ibadətin yerinə yetirilməsinin yalnız Allahın kömək və yardımından asılı olduğu göstərilir. Belə ki, Allah, belə bir köməyi insana etmədikdə, o, öhdəsinə düşən dini məs᾽uliyyəti (ibadəti) sona çatdıra biləcəkdir.

Bu, insanın gördüyü bütün işlərə şahid olan ən kamil cəbr və ixtiyar nəzəriyyəsidir. Allaha olan ixlas da (saf iman da) məhz bunu tələb edir. Belə ki, cəbr (icbar) nəzəriyyəsinə əsasən, Allah-taala insanlara məcburi olaraq gördükləri işlərə görə əzab və işgəncə verməlidir. Halbuki qeyri-ixtiyari işlərin müqabilində Allahın insanlara əzab verməsi ədalətə ziddir. Allah isə belə bir təsəvvürdən uzaq və münəzzəhdir.

سُبْحَانَهُ وَتَعَالَى عَمَّا يَقُولُونَ عُلُوًّا كَبِيرًا

***«Allah onların dediklərindən çox uca və yüksəkdir».*** (İsra-43).

İxtiyar nəzəriyyəsi isə Allahdan başqa digər bir varlığın mövcud olmasını qəbul etməyimizi tələb edir. Çünki belə bir əqidəyə əsasən, insan bütün işlərin müstəqil səbəbkarı və (heç bir kənar amil müəssir olmadan) onun icraçısıdır. Bu isə şirk ilə nəticələnən, olduqca yanlış bir təfəkkürdür.

Bunun üçün də deməliyik ki, həm cəbr, həm də ixtiyar nəzəriyyəsinin hər ikisi batil və əsassız nəzəriyyələrdir. Lakin onların arasında münasib olan üçüncü nəzəriyyə də vardır. O da bundan ibarətdir ki, insan gördüyü bütün işləri ixtiyari olaraq həyata keçirir və bunun müqabilində Allah tərəfindən ya cəzalandırılır, ya da mükafatlandırılır. Lakin eyni zamanda Allah-taala ona bu işləri görmək qüdrəti verdiyi və lazımı şərait yaratdığı üçün həyata keçirdikləri bütün işlərdə dəxalət edir.

DeməK, insan tam məʾnada muxtar (ixtiyarı öz əlində olan) bir varlıq deyildir. Cəbr və ixtiyar məsələsi haqda «Eʾcaz» (möʾcüzə) fəslində ətraflı söhbət açıdığımız üçün bir daha bu mövzuya qayıtmaq istəmirik.

Ayədən əldə olunan məʾna, yəʾni, köməyin Allahın müqəddəs zatına aid olmasının səbəbləri bundan ibarətdir.

Demək, Allah insanların ixtiyarına qüdrət, düşüncə və lazımı şərait qoymadıqda onların hər hansı bir iş görməsi sadəcə olaraq qeyri-mümkündür. Onlara bu işdə bütün varlıqlar, hətta cinlər belə köməklik etsələr heç bir nəticə verməyəcəkdir. Çünki hər bir mümkün (yaradılışında başqa birisindən asılı olan) varlıq mövcud olmasında başqa birisinə möhtac olduğu kimi, gördüyü işlərdə də heç bir müstəqilliyə malik olmayacaqdır.

Belə bir anlamdan (izahdan) sonra (iyyakə nəstəin – yalnız Səndən kömək diləyirik) cümləsinin nə üçün (iyyakə nəʾbudu – yalnız Sənə ibadət edirik) cümləsindən sonra gəldiyi artıq bəlli olur.

Belə ki, ilk növbədə ibadətin yalnız Allaha aid olduğu və daha sonra möʾminlərə ibadətlərinin Allahın istək və iradəsi, onların ixtiyarına qoyduğu qüdrət və lazımı şəraitin Allah tərəfindən olduğu göstərilir. Demək, insan Allahın iradəsindən

asılı olan bir varlıqdır. Gördüyü xeyirxah işlərdə Allah onun özündən daha yaxın və daha tə`sirlidir. Çünki onu bu işləri görməyə qadir edən və lazımı şərait yaradan məhz Allahın Özüdür. Gördüyü günah və xoşagəlməz işlərdə isə insan özü buna daha yaxın və daha layiqdir. Çünki o bu işləri öz ixtiyarı ilə görür.

***ŞƏFAƏT***

Qur՝anın bə՝zi ayələrində insanların gördüyü işlərə Allahın nəzarət etdiyi, onların qüdrət, istək və iradələrinin Onun ixtiyarında olduğu göstərilir. Allah, insanları kamala çatmaq üçün haqq yola istiqamətləndirir. O, insanlara özlərindən daha yaxındır; istəklərini eşidir, bütün əməllərini görür, arzu və diləklərini həyata keçirir.

أَلَيْسَ اللَّهُ بِكَافٍ عَبْدَهُ

***«Məgər Allah Öz bəndəsinə kifayət etməzmi?» (39/34).***

وَإِذَا سَأَلَكَ عِبَادِي عَنِّي فَإِنِّي قَرِيبٌ أُجِيبُ دَعْوَةَ الدَّاعِ إِذَا دَعَانِ فَلْيَسْتَجِيبُواْ لِي وَلْيُؤْمِنُواْ بِي لَعَلَّهُمْ يَرْشُدُونَ

***«[Ya Məhəmməd!] Bəndələrim Məni səndən soruşduqda söylə ki, Mən onlara yaxınam. Dua edib Məni çağıranın duasını qəbul edirəm. Gərək onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər. Bununla da, ola bilsin ki, doğru yola yetişsinlər». (2/186).***

Belə bir Allahı olan insan nə üçün özü kimi bir insandan kömək və şəfaət istəməlidir? O beləliklə yaradanla [Allah], yaradılmış (özü) arasında vasitə qərar vermiş və qarşısına qoyduğu məqsədin yolunu özü öz əli ilə uzatmış olur. Günahkar bir şəxs özü kimi bir insandan şəfaət istəməklə nəyə nail ola bilər? Onun şəfaət istəyəcək yeganə ümid qapısı Allahın rəhmət dərgahıdır. O Allah ki, hər şeyə qadir və hakimdir.

Bəli, insan Allahın izni olmadan başqa birisindən şəfaət istəyə bilməz. Lakin ona bu izn verilərsə, həmən şəxsdən şəfaət istəsə də, bu, Allahın rəhmət dərgahına üz tutub Onun Özündən şəfaət istəmək sayılır.

Qur՝anın bə՝zi ayələrində Allahın belə bir icazəsinin yalnız bə՝zi insanlara verildiyi göstərilir. Bunu da qeyd etmək lazımdır

ki, izn verilmiş şəxslərin ümumi deyil, müəyyən şəxslər olduğu göstərilir.

Qur᾽ani-Kərimdə bu haqda deyilir:

لَا يَمْلِكُونَ الشَّفَاعَةَ إِلَّا مَنِ اتَّخَذَ عِندَ الرَّحْمَنِ عَهْدًا

***«Allahdan əhd edilmiş kəslər müstəsna olmaqla, qalanları şəfaət etməyə qadir olmazlar. [Yalnız iman gətirib yaxşı işlər görənlər qiyamət günü Allahın izni ilə şəfaət etməyə layiqdirlər]». (19/87).***

يَوْمَئِذٍ لَّا تَنفَعُ الشَّفَاعَةُ إِلَّا مَنْ أَذِنَ لَهُ الرَّحْمَنُ

***«O gün Rəhmanın izn verdiyi və söz danışmağına razı olduğu kəslərdən başqa heç kimin şəfaəti fayda verməz». (20/109)***

وَلَا تَنفَعُ الشَّفَاعَةُ عِندَهُ إِلَّا لِمَنْ أَذِنَ لَهُ

***«Onun hüzurunda, izn verdiyi kimsələr istisna olmaqla, heç kəsin şəfaəti fayda verməz». (34/23).***

وَلَوْ أَنَّهُمْ إِذ ظَّلَمُواْ أَنفُسَهُمْ جَآؤُوكَ فَاسْتَغْفَرُواْ اللّهَ وَاسْتَغْفَرَ لَهُمُ الرَّسُولُ لَوَجَدُواْ اللّهَ تَوَّابًا رَّحِيمًا

***« Onlar özlərinə zülm etdikləri zaman dərhal sənin yanına gəlib Allahdan bağışlanmaq diləsəydilər və Peyğəmbər də onlar üçün əfv istəsəydi, əlbəttə Allahın tövbələri qəbul edən və mərhəmətli olduğunu bilərdilər». (4/64).***

Bu barədə bir neçə mütəvatir rəvayət də nəql olunmuşdur.

### *ŞİƏ MƏNBƏLƏRİNDƏ NƏQL OLUNMUŞ ŞƏFAƏT RƏVAYƏTLƏRİ*

Şəfaətin «imamiyyə» (şiə) məzhəbində özünün xüsusi yeri vardır. Bu barədə kifayət qədər hədis və rəvayət nəql olunduğu üçün artıq heç bir şəkk-şübhəyə yer qalmır və biz onlardan bir neçəsini nəql etməklə kifayətlənirik:

Bərqi özünün «Məhasin» kitabında Müaviyə ibni Vəhəbə istinad edərək nəql etdiyi rəvayətdə belə deyir: «İmam Sadiq (ə)-dan — ***«Rəhmanın izin verdiyi kimsələrdən başqa heç kəs danışmayacaq, danışan da doğru deyəcək!»*** — ayəsinin təfsirini soruşdum.

İmam (ə) buyurdu: «Allaha and olsun ki, biz həmin icazə verilmiş və haqqı söyləyən kəslərik.»

Müaviyə dedi: Danışacağınız vaxt nə deyəcəksiniz?

İmam (ə) buyurdu: «Allaha şükür və səna edəcək, Peyğəmbərə (s) salam və salavat göndərəcək və öz şiələrimizə (tərəfdarlarımıza) şəfaət edəcəyik. Allah da bizim dediklərimizi rədd etməyəcəkdir.»

Kuleyni də «Üsuli-kafi»də Məhəmməd ibni Füzeyldən və o da İmam Musa ibni Cə՝fərdən (ə) bu məzmunda rəvayət nəql etmişdir.[1]

### *ƏHLİ-SÜNNƏ MƏNBƏLƏRİNDƏ ŞƏFAƏT HAQDA NƏQL OLUNMUŞ RƏVAYƏTLƏR*

Əhli-sünnə mənbələrində də mütəvatir olaraq bu məzmunda kifayət qədər hədis və rəvayət nəql olmuşdur.[2]

Misal olaraq onlardan bir neçəsinə işarə edirik:

1. Yəzid ibni Fəqirin, Cabir ibni Əbdullahdan nəql etdiyi hədisdə belə deyilir: Peyğəmbər (s) buyurur: «Mənə heç kimə verilməyən beş böyük ne՝mət verilmişdir: Qəlblərində mənə qarşı qorxu olan düşmənlərimlə dostluq əlaqələri qurdum, yer mənim üçün səcdəgah və pakedici oldu... Məndən əvvəlki peyğəmbərlərə halal olmayan döyüş qənimətləri mənə halal edildi və mənə şəfaət məqamı bəxş olundu.»[3]

2. Ənəs ibni Malik Peyğəmbərdən (s) nəql etdiyi rəvayətdə deyir: Mən cənnətdə ilk şəfaət edən şəxs olacağam.[4]

3. Əbu Hüreyrə, Peyğəmbərdən (s) nəql etdiyi rəvayətdə belə deyir: Hər bir peyğəmbərin özünün duası vardır. Mən də öz duamı Allahın izni ilə ümmətimin şəfaəti üçün axirət gününə saxladım.

4. Əbu Hüreyrə, Peyğəmbərdən (s) nəql etdiyi digər bir rəvayətdə deyir: Qiyamət günü mən Adəm övladlarının ağası olacağam. Hamıdan əvvəl [Məhşərə qalxmaq üçün] mənim qəbrim açılacaq və orada ilk şəfaət edən şəxs olacağam və mənim şəfaətim başqalarının şəfaətindən tez qəbul olunar.

---

[1] "Biharul-ənvar", 30-cu cild, səh-301.

[2] "Kənzul-ummal" kitabında bu barədə 280-dan çox hədis və rəvayət nəql olunmuşdur.

[3] "Səhihi-Buxari", 1-ci cild, 86-cı səh.

[4] "Səhihi-Müslüm", 1-ci cild, 130-cu səh.

5. Yenə də Əbu Hüreyrədən nəql olmuş rəvayətdə deyilir: Peyğəmbər (s) buyurur: Bu beş şey insana şəfaət edər: Qur᾽an, qohum-əqrəba ilə yaxşı ünsiyyətdə olmaq, əmanəti öz sahibinə qaytarmaq, sizin peyğəmbəriniz və onun Əhli-beyti.

6. Abdulla ibni Əbi Cüdəy Peyğəmbərdən (s) nəql etdiyi rəvayətdə deyir: «Bəni-Təmim qəbiləsinin bir çoxu həmin qəbilədən olan bir nəfər şəxsin şəfaət etməsi ilə cənnətə daxil olacaq.» Bu hədisi Tirmizi və Hakim də öz kitablarında nəql etmişdir.

Nəql olmuş rəvayətlərdən belə bir nəticəyə gəlmək olur ki, Peyğəmbər (s) və onun Əhli-beytindən şəfaət istəmək nəinki şirk deyil, əksinə olduqca bəyənilən və şər᾽i nöqteyi-nəzərdən savabı olan dini əməllərdən biridir. Lakin şəfaətin şirk, şəfaət istəyənlərin isə müşrik olmasını iddia edən bə᾽zi «müsəlman» qardaşların iddiaları insanda sual və təəccüb doğurur. Görəsən, əldə kifayət qədər sənəd və dəlil olmasına baxmayaraq onları belə bir qənaətə gəlməyə vadar edən nə olmuşdur? Allahdan diləyimiz budur ki, bizə dinimizdə sabitqədəm olmaqda və haqq yoldan sapınmamaqda kömək olsun.

Bura qədər «Həmd» surəsinin ayələrinin bir neçəsinin təfsiri ilə yaxından tanış oldunuz. Növbəti fəsildə Allahın köməyi ilə son iki ayə haqda söhbət açacağıq.

***HƏMD SURƏSİNİN TƏFSİRİ***

***SONUNCU HİSSƏ***

اهدِنَـــا الصِّرَاطَ الُمستَقِيمَ صِرَاطَ الَّذِينَ أَنعَمتَ عَلَيهِمْ غَيرِ المَغضُوبِ عَلَيهِمْ وَلاَ الضَّالِّينَ

***«Bizi doğru yola yönəlt! Ne՚mət verdiyin kəslərin yoluna! Qəzəbə düçar olanların və [haqdan] azanların yoluna yox!» (1/6-7).***

***OXUNUŞ QAYDASI***

Məşhur qarilərin bir çoxu «ğəyr» sözünün axırıncı hərfini «i» saiti (kəsrə) ilə qiraət etmişlər. Lakin Zəməxşəri nəql edir ki, Peyğəmbər (s) və Ömər onu «ə» saiti (fəthə) ilə qiraət edərdi.

Lakin bu kəlmənin sonuncu hərfinin «i» saiti ilə qiraət olunması daha düzgün nəzərə çarpır. Çünki Peyğəmbərin (s) bu kəlməni «ə» saiti ilə oxuması sübuta yetirilməyib. Əgər Peyğəmbər (s) bu qayda ilə qiraət etmiş olsaydı, təbii ki, bir çoxları bunu nəql edər və hamıya bəlli olardı. Mö՚təbər qarilərdən bir çoxu bu qiraəti Peyğəmbərin (s) özündən nəql etmişlər. Ömərin qiraətinə gəldikdə isə onu dəlil hesab edə bilmərik. Çünki bir qədər əvvəl qeyd etdik ki, mə՚sum olmayan bir şəxsin qiraətini yalnız o zaman e՚tibarlı hesab etmək olar ki, həmin oxunuş qaydası məşhur qiraətlərdən biri olmuş olsun. Əks təqdirdə insanın üzərindən heç bir vəzifə götürülmir.

Məşhur qiraətlərdən biri də budur:

(Siratəlləzinə ən`əmtə ələyhim ğəyril məğzubi ələyhim vələzzallin). Bunula yanaşı Əli (ə)-la Ömərin ayəni bir qədər fərqli qiraət etmələri göstərilmişdir.

(Siratə mən ən`əmtə ələyhim ğəyril məğzubi ələhyim ğəyrizzallin). Lakin bu qiraətin Əli (ə)-a aid olmaması sübuta yetirilib. Çünki əgər ayə bu qayda ilə qiraət olunsaydı, ondan sonrakı imamlar tərəfindən də bu qayda ilə qiraət olunar və həmin oxunuş təsdiqlənərdi. Həmçinin, bu qiraət üsulu onların davamçıları tərəfindən riayət olunar və mö՚təbər qiraət üsulu kimi tanınardı. Halbuki, belə bir qiraətin e՚timad olunası bir nəfərdən

belə nəql olunduğu qeydə alınmamışdır. Və Ömərin qiraəti bir qədər əvvəl qeyd etdiyimiz dəlilə əsasən, əsaslı hesab oluna bilməz.

### *LÜĞƏT VƏ TƏRKİB HİSSƏLƏRİ*

«Sirat» – insanı məqsədə çatdıran yola deyilir. Sirat deyildikdə məʾnəvi yol nəzərdə tutulur. Belə ki, el arasında deyilir: «Ehtiyat nicat yoludur», «Allaha itaət cənnət yolunun yolçusu olmaq deməkdir».

Göründüyü kimi burada «ehtiyac» və «itaət» məcazi olaraq yol adlandırılmışdır. Bununla yanaşı daha geniş məʾna daşıyan «təriq» kəlməsi məʾnəvi yol məʾnasında da işlənmişdir.

***İstiqamət:***

«Siratəl müstəqim – düz yol». İnsanın doğru və düz yol boyu hərəkət etməsinə və yoldan sapınmamasına deyilir. «Siratəl müstəqim» o yola deyilir ki, o yolun yolçusu özünün son hədəfinə –yəʾni, əbədi neʾmətə və Allahın razılığını qazanmağa nail olmuş olsun. Yol boyu insan öz Allahına itaət edir və bir an da olsun Onun əmrindən boyun qaçırmır. Ondan başqa heç bir varlığı ibadətə layiq görmür və yalnız Ona ibadət edir.

Allah-taala Qurʾani-Kərimdə buyurur:

وَإِنَّكَ لَتَهْدِي إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ صِرَاطِ اللَّهِ الَّذِي لَهُ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الْأَرْضِ

***«Sən [Qurʾanla insanları] düz yola yönəldirsən [İslam dininə dəʾvət edib haqqa qovuşdurursan]. O Allahın yoluna ki, göylərdə və yerdə nə varsa, hamısı Onundur». (42/52-53).***

وَهَــذَا صِرَاطُ رَبِّكَ مُسْتَقِيمًا

***«Bu, Rəbbinin doğru olan yoludur». (4/126).***

إِنَّ اللَّهَ رَبِّي وَرَبُّكُمْ فَاعْبُدُوهُ هَذَا صِرَاطٌ مُّسْتَقِيمٌ

***«Şübhə yoxdur ki, Allah mənim də Rəbbim, sizin də Rəbbinizdir. Elə isə Ona ibadət edin! Budur doğru yol!» (3/51).***

وَأَنْ اعْبُدُونِي هَذَا صِرَاطٌ مُّسْتَقِيمٌ

***«Və: «Mənə ibadət edin, bu, doğru yoldur!» (36/61).***

وَبِعَهْدِ اللّهِ أَوْفُواْ ذَلِكُمْ وَصَّاكُم بِهِ لَعَلَّكُمْ تَذَكَّرُونَ وَأَنَّ هَــذَا صِرَاطِي مُسْتَقِيمًا فَاتَّبِعُوهُ وَلاَ تَتَّبِعُواْ السُّبُلَ فَتَفَرَّقَ بِكُمْ عَن سَبِيلِهِ

***«Allah qarşısındakı əhdi [dini vəzifələrinizi, andlarınızı] yerinə yetirin. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə düşünüb öyüd-nəsihət qəbul edəsiniz! Bu, şübhəsiz ki, mənim doğru yolumdur. Onu tutub gedin. Sizi Allahın yolundan sapındıracaq yollara uymayın». (6/15 2-153).***

İbadət insanın gördüyü bütün xeyirxah işlərinə və bütün saf niyyətlərinə şamil olunur. Bunun da özünəməxsus müəyyən növü vardır. Bu səbəbdən də bəʾzən «sirat» kəlməsi ibadətin bütün (zahiri, batini, cismi, qəlbi) növlərinə [tək halda] və bəʾzən də Allaha, Peyğəmbərə, axirət gününə inam, namaz, oruc, həcc və s. şərʾi məsələlərə ayrı-ayrılıqda şamil olunur. Belə olduqda tək halda işlənən «sirat» kəlməsinin yerinə «səbil» kəlməsinin cəm halı yəʾni, «subul» kəlməsi işlənilir.

Qurʾani-Kərimdə bir neçə yerdə bu mətləbə işarə olunur.

قَدْ جَاءكُم مِّنَ اللّهِ نُورٌ وَكِتَابٌ مُّبِينٌ يَهْدِي بِهِ اللّهُ مَنِ اتَّبَعَ رِضْوَانَهُ سُبُلَ السَّلاَمِ

***«Allah tərəfindən sizə bir nur və açıq-aydın bir Kitab [Qurʾan] gəldi. Allah öz lütfünə sığınanları onunla [Peyğəmbər və Qurʾan vasitəsilə] əmin-amanlıq [sülh] yollarına yönəldər». (5/15-16).***

وَمَا لَنَا أَلاَّ نَتَوَكَّلَ عَلَى اللّهِ وَقَدْ هَدَانَا سُبُلَنَا

***«Allah bizə yollarımızı [iman, nicat, səadət yollarını göstərdiyi halda, biz nə üçün Ona təvəkkül etməməliyik». (14/12).***

وَالَّذِينَ جَاهَدُوا فِينَا لَنَهْدِيَنَّهُمْ سُبُلَنَا

***«Bizim uğrumuzda cihad edənləri öz yollarımıza [Bizə tərəf gətirib çıxaran behişt yollarına] qovuşduracağıq». (29/69).***

«İnʾam» – ehsan və [birinə] bolluca neʾmət vermək məʾnasını daşıyır. Allahın tükənməz neʾmətlərindən bəhrələnənlər o kəslərdirlər ki, nəfslərinə qalib gəlmiş və Şeytana itaət etməkdən boyun qaçırmışlar. Bu səbəbdən də onlar daimi axirət dünyası, əbədi səadət və sonsuz məʾnəvi neʾmətlərə nail olmuşlar. Hər şeydən daha önəmli olan isə onların Allahın razılığını qazana bilmələridir.

وَعَدَ اللّهُ الْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ خَالِدِينَ فِيهَا وَمَسَاكِنَ طَيِّبَةً فِي جَنَّاتِ عَدْنٍ وَرِضْوَانٌ مِّنَ اللّهِ أَكْبَرُ ذَلِكَ هُوَ الْفَوْزُ الْعَظِيمُ

***«Allah möʾmin kişilərə və qadınlara [ağacları] altından çaylar axan cənnətlər və Ədn cənnətlərində gözəl məskənlər vəʾd buyurmuşdur. Onlar orada əbədi qalacaqlar. Allahdan olan bir razılıq isə [bunların hamısından] daha böyükdür. Bu ən böyük qurtuluş və uğurdur». (9/12).***

***«Qəzə*b»** – (Azəri türkcəsində olduğu kimi) qəzəb hirs məʾnasını daşıyır və «rəhmət» onun əks məʾnasını verir. Ayədə «əl-məğzubi ələyhim» deyildikdə bütünlüklə kafirlər deyil, küfrə aludə olan və inadkarlıq edərək haqdan üz çevirən şəxslər nəzərdə tutulurlar. Qurʾani-Kərimdə bu barədə belə deyilir:

وَلَـــكِن مَّن شَرَحَ بِالْكُفْرِ صَدْرًا فَعَلَيْهِمْ غَضَبٌ مِّنَ اللّهِ وَلَهُمْ عَذَابٌ عَظِيمٌ

***«Lakin qəlbən küfrə razı olanlara [qəlbində könüllü surətdə küfrə yol verənlərə] Allahın qəzəbi tutar və onlar şiddətli bir əzaba düçar olacaqlar». (16/106).***

***«Zəl*al»** yolu azmaq, haqq yoldan sapınmaq məʾnasını verir və «hidayət» onun əks məʾnasını daşıyır. Yolunu azmışlar o kəslərdirlər ki, haqq olan hidayət yolundan uzaq düşmüş və qət etdikləri yol, onları bədbəxtliyə və əbədi əzaba sürükləmiş olsun. Lakin yolunu azmış şəxslər küfrdə qərq olaraq qəzəbə gəlmiş «məğzubi ələyhim» təbəqədən bir qədər yüngül mərhələdə yerləşirlər. Çünki süstlük göstərərək haqq yoldan sapınmalarına baxmayaraq, əgər həqiqət onlara əyan olunsaydı, öz inadkarlıqlarından əl çəkərdilər. Lakin «qəzəbə gəlmişlər» həqiqət günəş kimi aydın olsa belə inadkarlıq edərək ondan üz çevirərlər.

Bəʾzi rəvayətlərdə «məğzubi ələyhim – qəzəbə gəlmiş» deyildikdə yəhudilərin, «zallin – yolunu azmışlar» deyildikdə isə məsihilərin nəzərdə tutulduğu göstərilir.

Biz kitabın əvvəlində qeyd etdik ki, Qurʾan ayələri xüsusi olaraq müəyyən mətləbə dəlalət etmir və əksər hallarda hər hansı bir ayənin xüsusi məʾna daşıdığını söyləmək, ümumi məʾnanın xüsusi nümunələrə tətbiq olunmasından irəli gəlir.

Buna «xarici nümunənin təfsiri» deyilir.

«Məğzubi əleyhim» və «zallin» barədə nəql olunmuş rəvayətlər də bu qəbildəndir və ayənin həqiqi təfsiri deyil, misdaq və nümunə təfsiridir.

***HƏRƏKƏLƏR***

«Ğəyril məğzubi ələyhim» cümləsi «əlləzinə ən`əmtə ələyhim» cümləsinin yerinə işlənmiş və ya «əlləzinə – o kəslər ki,» üçün sifət rolunu oynayır. Onun sifət olmasını bu əsasla qəbul edə bilərik ki, Allahın ne᾽mətləri hamıya şamil olduğu kimi, Onun rəhməti də eyni qaydada hamıya şamil olunur. Lakin insanlardan bə᾽ziləri Onun ne᾽mətlərinin müqabilində şükür edir, bə᾽ziləri də bu şükrü əsla yerinə yetirmirlər.

أَلَمْ تَرَوْا أَنَّ اللَّهَ سَخَّرَ لَكُم مَّا فِي السَّمَاوَاتِ وَمَا فِي الْأَرْضِ وَأَسْبَغَ عَلَيْكُمْ نِعَمَهُ ظَاهِرَةً وَبَاطِنَةً وَمِنَ النَّاسِ مَن يُجَادِلُ فِي اللَّهِ بِغَيْرِ عِلْمٍ وَلَا هُدًى وَلَا كِتَابٍ مُّنِيرٍ

***«[Ey insanlar!] Məgər Allahın göylərdə və yerdə olanları [günəşi, ayı, ulduzları və buludları, meyvələri, bitkiləri, dənizləri, çayları və gölləri] sizə ram etdiyini [sizin istifadənizə verdiyini], aşkar [görmə, eşitmə, sağlamlıq] və gizli [əql, şüur, fəhm, elm, və s.] ne᾽mətləri sizə bolluca ehsan etdiyini görmürsünüzmü? İnsanlar içərisində eləsi də vardır ki, nə bir elmə, nə bir doğru yol göstərən rəhbərə, nə də bir nurani [ilahi] kitaba əsaslanmadan Allah barəsində mübahisə edir». (31/20).***

Deməli, ilahi ne᾽mətlər hamıya bərabər bəxş olunmuşdur. Lakin insanlardan bə᾽ziləri bu ne᾽mətlərin qədrini bilib şükür, bə᾽ziləri isə heç nəyin qədrini bilmədən naşükürlik edir.

Burada «ğəyril məğzubi ələyhim» cümləsinin vəsfinin nəticəsi bəlli olur. O da «ən`əmtə ələyhim» cümləsinin bütün ne᾽mət verilmiş şəxslərə şamil olmasından ibarətdir. Lakin ikinci sifət onun hədəf və məfhumunu müəyyən edir və birinci dəstəyə yə᾽ni, ne᾽mət verilmiş şəxslərə ilahi ne᾽mətlərin şükrünü yerinə yetirmələrinin müqabilində şamil edilir.

Beləliklə ayənin ümumi mə᾽na və məfhumu bundan ibarət olacaqdır: Namaz qılan şəxs, Allahdan onu əməli-saleh insanların yoluna hidayət etməsini istəyir. Allahın əməli-saleh bəndələri iki xüsusiyyətə malikdirlər:

1. Allah-taala onlara bol-bol ne᾽mətlər bəxş etmişdir. İkinci xüsusiyyəti isə bundan ibarətdir ki, onlar Allah tərəfindən bəxş olunmuş ne᾽mətlərdən sui-istifadə etmir və azğın kəslərin yolunu seçmirlər. «Ğəyril məğzubi ələyhim vələzzallin» – onlar dünya

ne᾽mətlərindən bəhrələnərək Allaha itaət edir və daim xeyirxah işlər görməyə can atırlar. Bunun nəticəsində, onlar axirət ne᾽mətlərinə də, yə᾽ni, həm dünya, həm də axirətdə səadət və xoşbəxtliyə nail olurlar. Bə᾽zilərinin fikrincə, «ğəyr» kəlməsi sual doğuran və mə᾽nası asanlıqla dərk olunmayan kəlmələrdəndir və başqa kəlmə ilə birləşməklə heç də müəyyənlik xüsusiyyətinə malik ola bilməz. Belə olduqda müəyyənlik olan «əlləzinə – o kəslər ki» kəlməsini də vəsf edə bilməz. Bütün bunları nəzərə alaraq deməliyik ki, bu cümlə tərkib baxımından «əlləzinə»nin sifəti deyil, onun əvəzedici bir cümləsidir.

Bir sözlə, cümlədə qeyd olunan hər hansı bir hadisə – istər xəbər, istərsə də inşa və qeyri-xəbər – hamıya ümumilikdə şamil olunarsa, onu başqa bir cümlə ilə həm bəyan edə bilərik, həm də kimə və ya nəyəsə aid olduğunu göstərə bilərik.

Məsələn deyə bilərik:

«Caəni cəmiu əhlil bələd – Şəhərin bütün əhalisi yanıma gəldi» və ya (Əkrim cəmiə əhlil bələdi ğəyrəl fasiqin – Fasiqlərdən başqa bütün şəhər əhalisinə hörmət et və onlara məhəbbət göstər.) Göründüyü kimi hər iki cümlədə «ğəyr» kəlməsi «əhli bələd» şəhər əhalisi haqda işlənmişdir.

«Zallin» – kəlməsi «ğəyril məğzubi» cümləsinə aiddir. Və inkar əlaməti olan «la» «inkar və istisna olunanlar» mə᾽nasını verməsin deyə – inkarın tə᾽kid olunması üçün «ğəyr» kəlməsindən sonra gəlmişdir.

Ayədə hər iki dəstə ayrı-ayrılıqda inkar və istisna olunur. Çünki «ğəyr» kəlməsi də «la» kimi inkaredici xarakter daşıyır və əksər hallarda amil və ədatların inkarı kimi işlənir.

Aşağıdakı cümlələrə diqqət yetirin:

(Calis rəculən ğəyri fasiqin və la səyyiul xuluq – Elə bir şəxs ilə ünsiyyətdə ol ki, fasiq və pis əxlaqa malik olmasın.)

(U᾽budullahə biğəyri kəsəlin və la mələl – Allaha yorulmadan və süstlük göstərmədən ibadət et!)

Göründüyü kimi, hər iki cümlədə «ğəyr» inkar mə᾽nasında işlənmişdir. Lakin bə᾽zi müasir dilçilər bu kəlmənin inkar mə᾽nasında işlənməsinin qəti əleyhinə olduqlarını bildirmişlər. Bu

səbəbdən də onu bir qədər fərqli olaraq mə᾽nalandırmağa məcbur olmuşlar. Özlərini böyük bir çətinliyə düçar etmiş və nəticədə qənaətbəxş bir söz deyə bilməyəcəklərini gördükdə öz səhvlərinə e᾽tiraf etmişlər.

***Təfsir:***

İnsanların iman gətirərək Allaha tabe və təslim olmaları və yalnız Ondan kömək diləmələrinə əmr olunduqdan sonra bu son iki ayədə onların Allah tərəfindən haqq yola hidayət olunmalarına işarə olunur.

Surə Allaha şükür və səna etmək və Onun layiq olduğu adlarla vəsf olunması ilə başlayır. Son ayələrdə isə insanların Allahdan onları haqq yola hidayət etməsi haqda söhbət açılır. Və bu ayələrin arasında Allah-taala (İyyakə nə᾽budu və iyyakə nəstəyin ***– yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik)*** ayəsini nazil edir. Bu cümlə əslində Allahı vəsf edən ilk ayələrin nəticəsi, ibadətin yalnız Allaha aid olduğunu bəyan edən əsas me᾽yar və Allahdan kömək və yardım istəməyin müqəddiməsini təşkil edir. Çünki ibadətə layiq olan yeganə varlıq Allahın Özüdür və bütün üstün xüsusiyyətlərə malik olduğu üçün hər növ şükür və sənaya layiq olan Onun müqəddəs zatıdır. Allahdan başqa bütün varlıqlar isə nə ibadətə, nə də şükür və sənaya layiqdirlər. Kömək və ibadətin yalnız Allaha aid olduğuna görə insan hidayət tapmaq üçün məhz Onun dərgahına üz tutur və Ondan başqa heç kimdən kömək gözləmir. Sünnü və şiə mənbələrində nəql olunmuş rəvayətlərdə göstərilir ki, Allah-taala bu surəni Özü ilə insanlar arasında iki hissəyə bölmüşdür. İnsan (Əlhəmdu lillahi Rəbbil=aləmin – Həmd olsun aləmlərin Rəbbinə***)*** dedikdə Allah-taala buyarar: Bəndəm mənə şükür və səna edir (İhdinəssiratəl mustəqim – ***bizi doğru yola yönəlt)*** dedikdə isə Allah-taala buyurar: Bu, Mənim bəndəm üçündür. Hər nə istəsə ona verəcəyəm.[1]

Bir qədər əvvəl bizə mə᾽lum oldu ki, insan hər hansı bir fikri və ya işi həyata keçirmək üçün bu üç yoldan birini seçir:

---

[1] Uyunu-Əxbarur-Rza, 1317 h.ş.

1. Allahın bəşəriyyətin ixtiyarına qoyduğu haqq yolu. Bu yolu Allahın hidayət etdiyi şəxslər seçərlər.

2. Yolunu azan və haqdan uzaq düşən şəxslərin yolu.

3. Allahın qəzəbinə gələnlərin (məğzubi ələyhim) yolu.

Birinci yol bəşəriyyəti səadətə, əbədi və xoşbəxt həyata hidayət edən haqq yoludur. Bu ayələrdə haqq yolunun yolçularının başqalarından nə kimi xüsusiyyətlərlə fərqləndikləri və onların hər birinin hansı müsbət və mənfi sifətlərə malik olduqları göstərilir.

Ayələrdə işarə olunan, bəşəriyyətin öz həyatında seçdiyi yolların xülasəsi bundan ibarətdir. Allah-taala bu ayələri nazil etməklə bəşəriyyəti qarşısında yalnız iki yolun – haqla-batilin – olmasından agah etmək istəmişdir. Belə ki, haqq yoldan uzaq düşənlər ya yolunu azar, ya da Allahın qəzəbinə gələrlər.

Allahdan diləyimiz budur ki, bizi haqqa hidayət edib Özünün əməli-saleh bəndələrindən qərar versin.

***HİDAYƏT***

Sual: «İhdinəssiratəl mustəqim» ayəsinin təfsirində deyirlər.

Hidayət olmasını istəyən hər bir şəxs bunu Allahdan diləmək üçün haqq yolda olmalıdır. Təkallahlı və özü hidayət olmuş bir müsəlman haqq yola qədəm qoyduğu bir halda nə üçün namaz qılarkən (İhdinəssiratəl mustəqim) ayəsini dəfələrlə təkrar etməklə Allahdan haqqa hidayət olmasını diləməlidir? İnsanın arzu etdiyi bir şeyə malik olduğu halda onu bir daha Allahdan diləməsi nə qədər düzgündür?!

Cavablar:

Haqqa hidayət olmuş namaz qılan [və dinin digər göstərişlərini yerinə yetirən] hər bir şəxs Allahdan bu yolda sabitqədəm qalmasını və gələcəkdə də bu yoldan uzaq düşməməsini diləyir. Başqa sözlə desək, o, Allahdan ona bəxş etdiyi bu ne`mətin həmişəlik olaraq ixtiyarında qalmasını və təkallahlı haqq yolundan bir an da olsun sapınmamağı istəyir.

2. Burada məqsəd insanın gördüyü xeyirxah işlərin müqabilində qazandığı savab və mükafatlardır. Buna əsasən, ayənin təfsirində deyə bilərik ki, namaz qılan şəxs Allaha müraciət

edərək deyir: İlahi! Xeyirxah işlərimin müqabilində – insanları behiştə aparan yolu – mənə bəxş et.

3. Bəlkə də burada məqsəd hidayətin daha da artırılmasıdır. Belə ki, insan hidayət olduqdan sonra bu yolda irəliləyə də bilər, geriləyə də bilər. Bu səbəbdən də, o, Allahdan hidayətinin daha da artırılmasını və daha kamil mərhələyə ucalmağını diləyir.

4. [Müəllifin cavabı]: Verilən cavablarla ayənin hətta zahiri məˈnası arasında heç bir oxşarlıq nəzərə çarpmır. Çünki ayənin zahiri məˈnası Allahdan hidayət olunmasını istəməyə dəlalət edir. Və bu ayə də hidayətin müxtəlif mərhələlərinə şamildir.

***HİDAYƏTİN MƏRHƏLƏ VƏ DƏRƏCƏLƏRİ***

Bu barədə verilən ən doğru və düzgün cavab bundan ibarətdir: Namaz qılan şəxs, ibadətdə ikən Allahdan ona nəsib olmayan hidayət yolunu bəxş etməsini diləyir.

İzah:

İlahi hidayət iki hissəyə bölünür: Ümumiyyətə və müəyyən şəxslərə şamil olan hidayət. Ümumiyyətə şamil olan hidayət bəˈzən təkvini və bəˈzən də təşrii olur.

1. Ümumiyyətə şamil olan təkvini hidayət;

Allah-taala bütün varlıqların – istər canlılar [nəbatat və heyvanlar aləmi], istərsə də cansızlar – təbiətində elə bir hiss yaratmışdır ki, onlar öz meyl və ixtiyarları ilə inkişafa, daha dəqiq desək, kamala doğru hərəkət edirlər.

Nəbatat aləminə diqqət yetirsək görərik ki, onlar elə bir istiqamətdə inkişafa doğru hərəkət edirlər ki, qarşılarında heç bir mane olmur. Nəbatat aləmi ilə yanaşı, heyvanat aləmi də təkvini hidayətə malikdirlər. Belə ki, onlar hətta öz düşmənlərini ayırır və onlardan qorunmaq üçün müxtəlif üsullardan istifadə edirlər. Məsələn, siçan pişikdən qorxur, qoyundan isə yox. Bal arısı və qarışqalar təkvini hidayət hissi ilə ictimai həyat tərzi qurur, yuvanın qurulmasında və azuqə ehtiyatının ödənilməsində müştərək həyat tərzi sürürlər.

Məhz təkvini hidayət hissi ilə yeni doğulmuş uşaq süd əmmək üçün ananın döşünü axtarır.

Taha surəsinin 50-ci ayəsində Allah-taala Musa (ə)-ın dilindən təkvini hidayətə işarə edərək buyurur:

قَالَ رَبُّنَا الَّذِي أَعْطَى كُلَّ شَيْءٍ خَلْقَهُ ثُمَّ هَدَى

***«Musa belə cavab verdi: «Rəbbimiz hər şeyə öz surətini və şəklini verən, sonra da ona doğru yol göstərən Allahdır». (20/50).***

2. Ümumiyyətə şamil olan təşrii hidayət.

Təşrii hidayət Allahın bəşəriyyətə peyğəmbər və onların vasitəsilə səmavi kitabları göndərməsinə deyilir. Peyğəmbərlər bəşəriyyəti haqq yola hidayət edir və həqiqətən Allah tərəfindən peyğəmbərliyə tə`yin olunduqlarını gətirdikləri kitablar və Allahın onlara bəxş etdiyi mö`cüzələrlə sübut etməyə çalışırlar. Əql və şüura malik olan insan isə haqla batili ayırd etməkdə və hansı yolu seçməkdə öz ixtiyarına buraxılmışdır. Onlardan bə`ziləri haqq yolunu seçir, bə`ziləri isə peyğəmbərlərin öyüd-nəsihətlərindən üz çevirərək haqq yolundan uzaq düşürlər. Dəhr surəsinin 3-cü ayəsində bu barədə deyilir:

إِنَّا هَدَيْنَاهُ السَّبِيلَ إِمَّا شَاكِرًا وَإِمَّا كَفُورًا

***«Biz ona haqq yolu göstərdik, istər [ne`mətlərimizə] minnətdar olsun, istər nankor [bu onun öz işidir]». (16/3).***

Bə`zən də fitri hidayət ümumiyyətə deyil, yalnız müəyyən şəxslərə şamil olur. Allah-taala onları insaniyyətin son mərhələsi olan kamala çatmaları üçün batinən saflaşdırır və qarşılarında olan mərhələləri qət etmək üçün ilk lazımi şəraitlər yaradır. Və əgər Allah tərəfindən onlara qarşı belə bir diqqət olunmasaydı, sözsüz ki, haqq yoldan uzaq düşər və böyük bədbəxtçiliklərlə üzləşərdirlər. Qur`ani-Kərimdə bu mətləbə dəfələrlə işarə olunmuşdur:

فَرِيقًا هَدَى وَفَرِيقًا حَقَّ عَلَيْهِمُ الضَّلاَلَةُ

***«Allah insanların bir qismini doğru yola yönəltdi, onlardan bir qismi isə [haqq yoldan] azmağa layiq görüldü». (7/130).***

قُلْ فَلِلّهِ الْحُجَّةُ الْبَالِغَةُ فَلَوْ شَاء لَهَدَاكُمْ أَجْمَعِينَ

***«De ki: Tutarlı dəlil ancaq Allaha məxsusdur. Əgər O istəsəydi, sizin hamınızı doğru yola yönəldərdi». (6/149).***

لَّيْسَ عَلَيْكَ هُدَاهُمْ وَلَـكِنَّ اللّهَ يَهْدِي مَن يَشَاء

***«[Ya Məhəmməd!] İnsanları doğru yola yönəltmək sənin vəzifən deyildir. [Sənin vəzifən ancaq onları haqq yola də᾿vət etməkdir]. Allah kimi istərsə, onu doğru yola istiqamətləndirər». (2/272).***

إِنَّ اللّهَ لاَ يَهْدِي الْقَوْمَ الظَّالِمِينَ

***«Həqiqətən Allah zalim tayfanı doğru yola salmaz!) (4/144).***

وَاللَّهُ يَهْدِي مَن يَشَاء إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ

***"Allah istədiyini düz yola yönəldər». (2/213).***

إِنَّكَ لَا تَهْدِي مَنْ أَحْبَبْتَ وَلَكِنَّ اللَّهَ يَهْدِي مَن يَشَاء

***«[Ya Məhəmməd!] Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Lakin Allah dilədiyini doğru yola salar». (27/56).***

وَالَّذِينَ جَاهَدُوا فِينَا لَنَهْدِيَنَّهُمْ سُبُلَنَا وَإِنَّ اللَّهَ لَمَعَ الْمُحْسِنِينَ

***«Bizim uğrumuzda cihad edənləri Öz yollarımıza [Bizə tərəf gətirib çıxaran behişt yollarına] qovuşduracağıq». (29/69).***

فَيُضِلُّ اللّهُ مَن يَشَاء وَيَهْدِي مَن يَشَاء وَهُوَ الْعَزِيزُ الْحَكِيمُ

***«Allah istədiyini yolundan döndərər, istədiyini də doğru yola yönəldər. O, yenilməz qüvvət və hikmət sahibidir». (14/4).***

### *NƏTİCƏ*

Hidayətin mə᾿nası və neçə hissədən ibarət olduğu bəlli olmaqla, ayənin hansı mə᾿na daşıdığı da artıq mə᾿lum olur. Belə ki, namaz qılarkən insan ilk növbədə Allahın ona fitri və şər᾿i hidayət ne᾿mətini bəxş etdiyinə iqrar və e᾿tiraf edir və daha sonra Allahdan, bəndələrinin çox az bir hissəsinə bəxş etdiyi xas fitri hidayəti ona bəxş etməsini diləyir.

Demək, insanın təbiətində itaətsizlik və üsyankarlıq kimi mənfi xüsusiyyətlər olduğu üçün, o, bir an da olsun özünə arxayın olmamalı və daim Allaha sığınaraq Ondan onu haqq yola yönəltməsini diləməlidir ki, qarşısına maneələr çıxmadan son hədəfə, yə᾿ni, kamala çata bilsin.

## *ON YEDDİNCİ FƏSİL*

### *ƏLAVƏ VƏ HAŞİYƏLƏR*

***1. Müt᾿ə hədisinin təhrifi;***

***2. Məhəmməd Əbduhun üç dəfə təlaq vermə barəsində irəli sürdüyü nəzəriyyə;***

***3. Razinin «Şiə» məzhəbinə qarşı yaxdığı iftira;***

***4. Allahın, məxluqatı yaratmaq istəməsinə dair nəql olunmuş hədislər;***

***5. Tale və aqibət üçün edilən duaların tə᾿siri haqda nəql olunmuş hədislər;***

***6. Bismillah... ayəsi ətrafında aparılan fikir mübadilələri;***

***7. Yaradılışın başlanması haqda nəql olunmuş hədis və rəvayətlər;***

***8. Bismillah... ayəsinin Qur᾿anın bir hissəsi olub-olmadığı haqda nəql olunmuş hədislər;***

***9. Müaviyənin namaz qılarkən Bismillah... ayəsini deməyi unutması;***

***10. Namazda Bismillah... ayəsinin oxunması;***

***11. Qəbirlərin ziyarət olunması haqda nəql olunmuş hədislər;***

***12. Alusinin «Şiə» məzhəbinə vurduğu töhmət;***

***13. Müəllifin, Hicaz alimlərinin biri ilə apardığı elmi mübahisə;***

***14. İmam Hüseyn (ə)-ın türbətinin fəziləti;***

***15. Səcdə ayəsinin anlamı (izahı);***

***16. İblisin, Allah-taala ilə söhbəti;***

***17. İslam, iki şəhadət verməklə qəbul olunur;***

***18. İbadətdən məqsəd və onun növləri;***

***19. "Əmrun bəynəl-əmreyn" məsələsi;***

***20. Şəfaət hədisini nəql edən mənbələr.***

## *MÜT`Ə HƏDİSİNİN TƏHRİFİ*

Müt`ə hədisi Peyğəmbərdən (s), İbni Məs`ud tərəfindən bu məzmunda nəql olunmuşdur.

Döyüşlərdən birində Peyğəmbərin (s) yanında idik. Qadınlarımız bizimlə olmadığı üçün Peyğəmbərin (s) yanına gəlib dedik: Ya Rəsuləllah! İcazə verirsinizmi özümüzü axta edək? O bunu bizə qadağan edib ətraf məntəqələrdəki dul qadınlara mehriyyə olaraq paltar verərək müvəqqəti evlənməyimizi əmr etdi.

Sonra Abdullah ibni Məs`ud müsəlmanların qərərgahına gəlib Peyğəmbərin (s) verdiyi yeni hökmü onlara e`lan etdi: Ey mö`min qardaşlarım! Allahın sizə halal etdiyi şeyləri özünüzə haram etməyin və başqalarının namusuna təcavüz etməyin. Çünki Allah təcavüz edənləri sevməz.

Alim, mühəddis və müfəssirlərin bir çoxu bu hədisi "Səhihi-Buxari"dən yuxarıdakı ifadələrlə nəql etmişlər. Lakin, "Səhihi-Buxari"nin hal-hazırkı nüsxələrində bu rəvayət bir qədər fərqli ifadələrlə nəql olunmuşdur.

1) Müt`ə ilə müxalif olan şəxslər ibni Məs`udu Buxarinin istinad etdiyi mühəddislər sırasından ixtisara salmışlar. Çünki onlar çox gözəl bilirlər ki, ibni Məs`ud müt`əni qəbul etmiş və bu hökmün tərəfdarlarından biri olmuşdur. Belə ki, rəvayətin nəql olunmasında onun adının çəkilməsi, rəvayətdə nəql olunan nikahdan «müvəqqəti evlənmənin» nəzərdə tutulduğunu və bunun tamamilə qanuni olduğunu sübuta yetirir.

2) Onlar rəvayətin sonunda istifadə olunan «ila əcəlin musəmma» ifadəsini ixtisara salmaqla rəvayətin məzmununda dəyişiklik aparmağı belə özlərinə rəva bilmişlər. Çünki məhz bu ifadəylə nikahın müvəqqəti olduğu oxucuya bəlli olur. Belə ki, hədisi şərh edən mühəddislər «ila əcəlin» ifadəsini bu mə`nada təfsir etmişlər. Onların fikrincə, döyüş zamanı Peyğəmbər (s) müsəlmanlara nikah əmrini verdiyi zaman daimi evlənməni deyil, məhz müt`əni nəzərdə tutmuşdur. Və müsəlmanların «ləysə mə`əna nisa – qadınlar bizimlə deyildirlər» deməleri bir daha bu mətləbi sübuta yetirir. Çünki «qadınlar» dedikdə onlar hər hansı

bir qadını deyil, öz daimi qadınlarını nəzərdə tutmuşlar. Və əgər orada heç bir qadın olmasaydı, Peyğəmbərin (s) müsəlmanların evlənmələrinə icazə verməsi heç bir məfhum kəsb etməzdi.

Bunu da qeyd etmək lazımdır ki, bu ifadə bə᾿zi rəvayətlərdə «ləysə ləna nisaən» mənsubiyyət bildirən «lə» şəkilçisi ilə qeyd olunmuşdur. (Yə᾿ni qadınlarımız bizimlə deyildirlər).

Apardığımız kiçik araşdırmadan belə mə᾿lum olur ki, müsəlmanlar daimi nikahla olan qadınlarını özləri ilə döyüşə aparmamış və Peyğəmbər (s) günaha düçar olmamaları üçün müvəqqəti evlənməni onlara əmr etmişdir.

Müt᾿ə hökmünə dəlalət edən rəvayətlər olduqca çox və mö᾿təbər olduğu üçün bu hökmə qarşı müxalif mövqe tutanlar belə, onu qətiyyətlə inkar edə bilməmişlər. Bu səbəbdən də başqa bir bəhanəyə əl ataraq bu hökmün sonralar nəql olunmuş digər rəvayətlərdə verilən yeni hökmlərlə nəsx olunduğunu iddia etmişlər. Lakin irəli sürüdükləri bu nəzəriyyə onlar üçün bir o qədər də səmərəli olmamışdır. Belə ki, irəli sürülən yeni nəzəriyyə sübuta yetirilməməklə yanaşı, «müt᾿ə» hökmünə də heç bir xələl gətirə bilməmişdir.

Bu səbəbdən də rəvayətlərin məzmununda təhrif və dəyişikliklər aparmaq onların son ümidinə çevrilmişdir. Allah-taaladan diləyimiz budur ki, qərəzli niyyətlərinin kökünü kəsib onları bu işdə uğur qazanmaqdan məhrum etsin.

Lakin bə᾿zi mühəddis və müfəssirlər «müt᾿ə» hədisini “Səhihi-Buxari”dən təhrifə yol vermədən öz kitablarında olduğu kimi nəql etmişlər.

1. Beyyhəqi – «Sünən Beyhəqi», 8-ci cild, 200-ci səh. Heydərabad çapı.

2. Süyuti – «Süyutinin təfsiri», 3-cü cild, 207-ci səh. Misrin Məyməniyyə çapxansı.

3. Zeyləi – «Nəsburrayə», 3-cü cild, 180-cı səh. Darut-təlif çapxanası.

4. İbni Teymiyyə – «Muntəqa», 2-ci cild, 517-ci səh. Hicaz çapı.

5. İbni Qəyyim – «Zadul məʾad», 2-ci cild, 16-cı səh. Məhəmmədəli çapxanası.

6. Qənuçi – (Rovzətul nədiyyə), 2-ci cild, 16-cı səh. Muniriyyə çapxanası.

7. Məhəmməd ibni Süleyman – «Cəm`ul fəvaid», 1-ci cild, 589-cu səh. Darut təʾlif çapxanası.

8. Əhməd ibni Hənbəl – «Musnəd», 1-ci cild, 430-cu səh.

9. Qurtubinin təfsiri, 5-ci cild, 130-cu səh.

10. İbni Kəsirin təfsiri, 2-ci cild, 87-ci səh.

11. Əhkamul-Qurʾan, 2-ci cild, 184-cü səh.

12. Hazəmi – «Əl-eʾtibar», 179-cu səh.

Mütʾə hədisi yuxarıda qeyd olunan mənbələrlə yanaşı, ibni Hatəm Bəstinin «Səhih ibni Hatəm» adlı kitabında və digər mənbələrdə də nəql olunmuşdur.

### *MƏHƏMMƏD ƏBDUHUN ÜÇ DƏFƏ TƏLAQ VERİLMƏSİNƏ DAİR İRƏLİ SÜRDÜYÜ NƏZƏRİYYƏ*

Şeyx Məhəmməd Əbduh deyir: Əgər qadına bir dəfə, ya üç dəfə talaq verilərsə, daha dəqiq desək, bir dəfəyə üç dəfə talaq hökmü oxunarsa və ya talaq üç dəfə verməklə müəyyənləşdirilərsə, onların hamısı yalnız bir talaq hesab olunur. Əbduh şiə məzhəbinin bu əqidəsini qəbul etməklə onu əsaslı dəlillərlə sübuta yetirməyə çalışır. O deyir: Bundan məqsəd heç də nəzər sahibi olmayan və başqalarından təqlid edən şəxslərlə mübahisə etmək və onların haqsız olduqlarını üzə çıxarmaq deyildir. Və eyni zamanda qaziləri öz fikirlərindən döndərib üç talaq hökmünə fətva vermələrini vadar etmək istəmirik. Çünki onlar həqiqətin nədən ibarət olduğunu və hədis kitablarında bu məzmunda nəql olunmuş rəvayətlərin onların irəli sürdükləri nəzəriyyələrlə tamamilə ziddiyyət təşkil etdiyini çox gözəl dərk edirlər. Lakin bütün bunlarla yanaşı lazımı araşdırmalar aparmadan Qurʾan və Peyğəmbərin (s) buyruqlarına deyil, öz yazdıqları kitablara istinad etmişlər.

***Müəllif:***

Kaş Məhəmməd Əbduh müvəqqəti evlənmə barəsində də bu sözləri deyib həqiqəti bəyan edəydi. Çünki müt᾽ə də «üç təlaq» hökmü kimi sabitdir və onun nəsx olunması tamamilə əsassızdır.

Bir sözlə müt᾽ənin haram olduğunu iddia edən şəxslər Qur᾽ana qarşı e᾽tinasızlıq və özlərinin tə᾽lif etdikləri qərəzli kitablara istinad etməkdən savayı heç bir məqsəd güdmürlər.

### ***RAZİNİN ŞİƏ MƏZHƏBİNƏ QARŞI YAXDIĞI İFTİRA***

Heç bir araşdırma aparmadan şiə məzhəbi haqda fikir irəli sürən şəxslərdən biri də Fəxri Razidir. O, ***«Yəmhullahu ma yəşa və yusbitu...»*** ayəsini təfsir edərkən yazır: Rafizilər (şiələr) «Bədanı» Allah-taala üçün mümkün hesab edirlər. Bəda isə ilahi elminin hər şeyə əhatəli olmasına, lakin bütün işlərin bunun əksinə olaraq həyata keçməsinə deyilir.

Razinin fikrincə şiələr «Bəda» məsələsini qəbul etməklə cəhalət kimi mənfi xüsusiyyəti Allah-taalaya aid etmişlər.

İlahi! Sən Özün şahidsən ki, şiələr haqda deyilən bu əsassız sözlər iftiradan savayı bir şey deyildir!

O, kitablarının birində Süleyman ibni Cərirdən nəql etdiyi rəvayətdə şiə məzhəbinə qarşı nalayiq ifadələrdən istifadə etmiş və heç bir əsası olmayan böhtan və iftiralara əl atmışdır. Onun şiə məzhəbinə vurduğu töhmətlər bir növ bə᾽zi məsihilərin Peyğəmbər (s) haqda söylədikləri təhqiramiz iftiralara bənzəyir. Lakin tezliklə haqq-ədalət öz yerini tapacaq və haqqa don geydirən və qərəzli mövqe tutan təəssübkeş insanlar öz layiqli cəzalarına çatacaqlar.

### ***ALLAHIN MƏXLUQATI YARATMAQ İSTƏMƏSİNƏ DAİR NƏQL OLUNMUŞ HƏDİSLƏR***

Mərhum Şeyx Səduq özünün «Tohid və məanil əxbar» adlı kitabında İmam Sadiq (ə)-dan nəql etdiyi hədisdə deyir: «Və qalətil-yəhudu yədullahi məğlulətun – ***Yəhudilər dedilər: «Allahın əli bağlıdır».*** Yəhudilər belə bir yanlış əqidəyə malik olduqları üçün Allah-taala yaratdığı məxluqata nə bir şeyi əlavə edir, nə də ondan nə isə azaldaraq ixtisara salır.

Allah-taala bu ayəni nazil etməklə onların söylədiklərini tamamilə alt-üst etdi.

وَلُعِنُواْ بِمَا قَالُواْ بَلْ يَدَاهُ مَبْسُوطَتَانِ يُنفِقُ كَيْفَ يَشَاء

***«Bu dedikləri sözə görə onların öz əlləri bağlandı və lə᾽nətə gəldilər. [Və ya bu dedikləri sözə görə onların öz əlləri bağlansın və lə᾽nətə gəlsinlər!] Xeyr! Allahın əlləri açıqdır [O, kərim və səxavətlidir], istədiyi kimi lütf və ehsan edər». (Maidə-64).***

Məgər Allah-taalanın bu barədə buyurduğunu eşitməmisinizmi?

يَمْحُو اللّهُ مَا يَشَاء وَيُثْبِتُ وَعِندَهُ أُمُّ الْكِتَابِ

***«Allah [həmin kitabdan] istədiyi şeyi məhv edər, istədiyini də sabit saxlayar. [Bəndələrinə aid olan hər hansı bir hökmü ləğv edib başqası ilə dəyişər və ya onu olduğu kimi saxlayar]. Kitabın əsli [Lövhi-məhfuz] Onun yanındadır». (***Rə᾽d-39).

Bu rəvayəti Əyyaşi də Yə᾽qub ibni Şueybdən və o da Həmaddan nəql etmişdir. Əllamə Məclisi bu məzmunda nəql olunmuş bütün rəvayətləri özünün «Biharul Ənvar» adlı kitabında nəql etmişdir.

## *TALE VƏ AQİBƏT ÜÇÜN EDİLƏN DUALARIN TƏ᾽SİRİ HAQQINDA NƏQL OLUNMUŞ HƏDİSLƏR*

Süleyman adlı ravilərdən biri deyir: Peyğəmbər (s) buyurur: ***«İlahi qəza və qədəri əvəz edəcək yeganə şey varsa, o da duadır. İnsan ömrünü də uzadan yeganə şey varsa, o da başqalarına əl tutub xeyirxahlıq etməkdir.»***

Termizi bu rəvayəti özünün «Sünən» kitabında nəql edib.

Səuban, Peyğəmbərdən (s) nəql etdiyi hədisdə deyir: «İnsan ömrünü uzadan yeganə şey varsa, başqalarına xeyirxahlıq edib əl tutmaqdır və İlahi qəza və qədəri əvəz edəcək yeganə şey varsa, o da duadır. İnsanı İlahi ne᾽mətlərdən məhrum edən onun günahları və xoşagəlməz əməlləridir.»

Bu rəvayəti İbni Macə özünün «Sünən» və Hakim «Mustədrək» və Əhməd ibni Hənbəl «Müsnəd» adlı kitablarında nəql etmişlər.

Hakim və Zəhəbi hədisi nəql etdikdən sonra onun mö᾽təbər olduğuna dair öz nəzərlərini bildirmişlər. Bu haqda ətraflı mə᾽lumat əldə etmək üçün tə᾽lif olunmuş digər hədis kitablarına da müraciət edə bilərsiniz.

***BİSMİLLAH AYƏSİ ƏTRAFINDA APARILAN FİKİR MÜBADİLƏLƏRİ***

Bismillah... ayəsini ədəbi baxımdan izah edərkən qeyd etdik ki, «ism» kəlməsinin «Allah» kəlməsinə əlavə olunması mə̕nəvi xarakter daşıyır. Və «Allah» kəlməsi ayədə özünün əsl mə̕nasında işlənmişdir. Belə bir halda deməliyik ki, «ism» kəlməsi ayədə bütün İlahi adlara şamil olmaq mə̕nasında işlənmişdir. Demək, «Bismillah» kəlməsi dedikdə, İlahi adların ümumi məfhumunu nəzərdə tutmalıyıq və belə olduqda adın xarici misdaqına da işarə etmiş oluruq. Çünki «Allah» adı Onun adlarının ən böyük xarici misdaqıdır. Demək, ümumi məfhum ilə Allahın adını daha tez və daha yaxşı tətbiq etmək olur və «ism» kəlməsini deməklə bu ad onu iqrar edən və dinləyən şəxsin zehnində Allah-taalanın digər adlarından daha tez canlanır. Beləliklə Peyğəmbərdən (s) nəql olunmuş hədisin mə̕nası daha da açıqlanır. Hədisdə deyilir:

***«Bismillah, Allah-taalanın böyük adlarına (ismi-ə̕əzəm) bəbəyin gözün ağına yaxın olmasından daha yaxındır.»***

Bismillahın, ismi-ə̕zəmə olan yaxınlığı kamil və zati yaxınlıqdır. Bəbəyin gözün ağına olan yaxınlığı isə məsafə baxımından olan yaxınlıqdır. Və təbii ki, zati yaxınlıq, məsafə və məkan baxımından olan yaxınlıqlardan daha əhəmiyyətli və daha güclüdür.

***YARADILIŞIN BAŞLANMASI HAQDA NƏQL OLUNMUŞ HƏDİS VƏ RƏVAYƏTLƏR***

Peyğəmbər (s) buyurur: ***"Allah-taala məxluqatı yaradarkən hər şeydən əvvəl mənim nurumu xəlq etdi".***[1]

Məhəmməd ibni Sənam deyir: İmam Cavad (ə)-ın yanında idik, üzünü mənə tutub dedi: «Ey Məhəmməd, bil ki, Allah hər zaman tək olmuş və heç vaxt Onun şəriki [Onun kimi başqa bir varlıq] olmamışdır. Sonra O, Məhəmmədin (s), Əli və Fatimənin (ə) nurunu xəlq etdi və onlar min il beləcə (nur olaraq) qaldılar.[2]

[1] "Biharul-ənvar", 1-ci cild, 33-cü səh.

[2] Üsuli-Kafi, 1-ci cild, 239-cu səh. Vafi, 2-ci cild, 155-ci səh.

### *BISMILLAH AYƏSİNİN QURʾANIN BİR HİSSƏSİ OLUB-OLMAMASI HAQDA NƏQL OLUNMUŞ HƏDİSLƏR*

Beyhəqi Ummi Sələmədən nəql etdiyi hədisdə deyir: «Peyğəmbər (s) namaz qılarkən Bismillah... ayəsini oxuyar və onu müstəqil ayə hesab edərdi.»

Hakim bu rəvayəti özünün «Mustədrək» adlı kitabında nəql etdikdən sonra yazır: Buxari və Müslüm bu rəvayəti səhih hədislər sırasında nəql etmişlər.

Beyhəqi Əbdül-Xəyrdən nəql etdiyi hədisdə deyir: «Əli (ə), Peyğəmbərdən (s) «Səbʾul-Məsani» haqda soruşduqda cavabında buyurur: «Səbʾul-Məsani» «Fatihə» surəsinə deyilir. Dedilər: Ya Rəsuləllah! Fatihə surəsi yeddi yox, altı ayədən ibarətdir. Peyğəmbər (s) buyurdu: "Bismillah... ayəsi də onun ayələrindən biridir." Bu rəvayəti Beyhəqi, Əbu Hüreyrədən də nəql etmişdir. O, Əbu Hüreyrədən nəql etdiyi başqa bir hədisdə deyir: Peyğəmbər (s) buyurur: «Həmd» surəsi altı ayədən ibarətdir və onun ayələrindən biri də Bismillah... ayəsidir.

Beyhəqi İbni Abbasdan nəql etdiyi hədisdə deyir: Peyğəmbər (s) Həmd surəsini hər zaman Bismillah ayəsi ilə başlayardı. Bu rəvayəti Termizi də özünün «Səhih» adlı hədis kitabında nəql edir.

Beyhəqi İbni Ömərdən nəql edir ki, o hər zaman namaza başlayarkən təkbir dedikdən sonra (yəʾni niyyət edib Allahu Əkbər dedikdən sonra) Həmd surəsini Bismillah... ayəsi ilə başlayar və onu sona kimi oxuyardı. Həmd surəsindən sonra yenidən «Bismillah...» deyərdi. Və bunu belə izah edərdi ki, əgər «Bismillah...» demək lazım olmasaydı, Qurʾanda yazılmazdı.

Bu məzmunda nəql olunmuş digər hədislər Beyhəqinin «Sünən» və bir çox başqa hədis kitablarında da nəql olunmuşdur. Əlavə məʾlumat əldə etmək istəyənlər bu kitablara müraciət edə bilərlər.

Həmçinin «Kənzul-ummal»da Səʾləbi nəql etdiyi hədisdə deyir: Əli (ə) namaz qılarkən oxuduğu bütün surələri «Bismillah...» ayəsi ilə başlayardı (oxuyardı). Bu haqda soruşduqda buyurardı: «Bu ayəni bütün surələrin əvvəlində oxumayan şəxslər həmən surəni ixtisara salmış olur.»

«Bismillah...» ayəsi «Səbˈul-Məsani»ni daha da mükəmməl edir. Yəˈni, «Bismillah...» ayəsi ilə yeddi ayədən ibarət olan "Həmd" surəsi daha da mükəmməl olaraq «Səbˈul-Məsani» adlanmağa başlayır.[1]

***MÜAVİYƏNİN NAMAZ QILARKƏN BISMILLAH AYƏSİNİ UNUTMASI***

Beyhəqi, Malik ibni Ənəsdən nəql etdiyi hədisdə deyir: «Müaviyə Mədinədə namaz qılarkən Həmd surəsini «Bismillah...» ayəsi ilə oxudu, sonrakı surələrdə «Bismillah...» ayəsini qiraət etmədi. Surəni oxuduqdan sonra təkbir deməyib səcdə etdi və beləliklə namazı başa vurdu. Namaz sona çatdıqdan sonra onun arxasında namaz qılan onlarla mühacir Müaviyəyə eˈtiraz edərək dedilər: «Bismillah...» deməyi unutdun, yoxsa namazı ixtisara saldın?! Müsəlmanların bu eˈtirazından sonra Müaviyə sonrakı namazlarda oxuduğu hər surədən əvvəl «Bismillah...» ayəsini oxuyur və səcdəyə gedərkən təkbir (Allahu Əkbər) deyirdi.[2]

Bu rəvayəti Beyhəqi başqa bir yerdə bir qədər fərqli olaraq nəql edir. Rəvayətdə deyilir: «Müaviyə nə "Həmd", nə də sonrakı surələri «Bismillah...» ayəsi ilə oxumadı. Mühacirlərlə yanaşı namazda iştirak edən Ənsar da Müaviyəyə eˈtiraz etdi». Bu rəvayəti Hakim də öz kitabında nəql edir və sonra deyir: «Buxari və Müslüm bu rəvayəti səhih hədislər sırasına daxil etmişlər».

***BISMILLAH AYƏSİNİN NAMAZDA OXUNMASI***

Bu məzmunda nəql olunmuş bir çox rəvayətlərdən belə məˈlum olur ki, Peyğəmbər (s) «Bismillah...» ayəsini Qurˈanın bütün surələrindən əvvəl oxumuş və buna böyük əhəmiyyət vermişdir. Biz bu rəvayətlərdən bir neçəsinə bir qədər əvvəl işarə etdik. Qətadə Malik ibni Ənəsdən nəql etdiyi hədisdə deyir: Peyğəmbər (s) "Həmd" surəsini mədd ilə (bir qədər uzadaraq) «Bismillahir-Rəhmanir-Rəhim» ayəsi ilə başlayardı. O, həm «Bismillah», həm «Rəhman», həm də «Rəhim» kəlmələrini bir qədər uzadaraq (məd ilə) oxuyardı.

---

[1] Kənzul-ummal, 2-ci cild, 190-cı səh

[2] Sünəni Beyhəqi, 2-ci cild, 49-cu səh.

Şərik, Ənəsdən nəql etdiyi hədisdə deyir: Peyğəmbər (s) «Bismillah...» ayəsini ucadan oxyardı.

Hakim bu rəvayəti nəql etdikdən sonra deyir: Bu hədisi nəql edən ravilər tamamilə e᾽timad olunası kəslərdir.

Əsqəlani deyir: Muəmmər ibni Süleymanın arxasında sübh və məğrib namazlarını qılardım. O, "Həmd" surəsindən əvvəl və sonra «Bismillah...» ayəsini ucadan oxuyar və deyərdi: Namaz qılarkən hər zaman atama iqtida edərdim. Atam da deyərdi ki, əksər hallarda Ənəsin camaat namazlarında iştirak edərdim. Və o da daim Peyğəmbərin (s) camaat namazlarında iştirak etdiyini deyərdi. Onlar hamılıqla namaz qılarkən bütün surələrdən əvvəl «Bismillah...» ayəsini oxuyardılar.

Hakim deyir: Bu hədisi nəql edən ravilər tamamilə e᾽timad olunası kəslərdilər.

Əbu Nəamə, Ənəsdən nəql etdiyi hədisdə deyir: İstər Peyğəmbər (s), istər Əbu Bəkr, istərsə də Ömər «Bismillah...» ayəsini ucadan oxumazdılar.

***Müəllif:***

Nəql olunmuş rəvayətlərdən belə mə᾽lum olur ki, Peyğəmbər (s) qıldığı bütün gündəlik namazlarında «Bismillah...» ayəsini oxumuş və bu məsələyə xüsusi diqqət yetirmişdir. Lakin Ənəsin «Peyğəmbər (s) namaz qılarkən «Bismillah...» ayəsini oxumazdı» nəql etdiyi rəvayətdən başqa bir mə᾽na əldə etməliyik. Bəlkə də o bunu deməkdə Peyğəmbərin (s) «Bismillah...» ayəsini ucadan oxumamasını nəzərdə tutmuşdur.

Belə ki, nəql olunmuş sonuncu rəvayəti bunun üçün dəlil hesab edə bilərik. O deyir: Peyğəmbər (s), «Bismillah...» ayəsini ucadan oxumazdı...

Ənəsin nəql etdiyi rəvayətdə «Peyğəmbər (s) Bismillah... ayəsini oxumazdı yox, Peyğəmbər (s), Bismillah... ayəsini ucadan oxumazdı» deməsini bu məsələyə dair ikinci bir dəlil hesab edə bilərik.

Onun özündən nəql olunmuş başqa bir rəvayətdə deyilir: «Peyğəmbər (s) bizimlə namaz qılarkən onun Bismillah... deməsini eşitməzdik.»

Bütün bunları nəzərə alaraq deyə bilərik ki, Ənəsin nəql etdiyi rəvayətlər arasında heç bir ziddiyyət mövcud deyildir.

Müslimin nəql etdiyi: İstər «Peyğəmbər (s), istər Əbu Bəkr, istərsə də Ömər namaz qılarkən Həmd surəsinin nə əvvəlində və nə də sonunda Bismillah... ayəsini oxumazdı» rəvayətinə gəldikdə isə, qeyd etməliyik ki, rəvayət Vəlid ibni Müslim Təriş tərəfindən nəql olunmuşdur. Və onun kimliyi və e᾽timad olunub-olunmaması mühəddislər arasında sual doğuran məsələlərdən birinə çevrilmişdir. Belə ki, «Təhzibut-təhzibdə» deyilir: Alimlərin bə᾽zilərinin fikrincə Vəlid ibni Müslim səhvə çox yol verər və hədis nəql edərkən hədisin kimlər tərəfindən olduğunu qeyd etməzdi.

Qeyd olunan rəvayətlə ziddiyyət təşkil edən üçüncü rəvayət, Qətadənin Ənəsdən nəql etdiyi rəvayətdir. Orada deyilir: Peyğəmbər (s), Əbu Bəkr, Ömər və Osman namazı «Əlhəmdu lillahi Rəbbil aləmin» ayəsi ilə başlayırdılar.

Bəlkə də bu rəvayət başqa bir mə᾽na daşıyır. Deyə bilərik ki, «Əlhəmdu lillahi Rəbbil aləmin» deyildikdə, ayənin özü deyil, ümumilikdə Həmd surəsi nəzərdə tutulur. Çünki Həmd surəsi bə᾽zən «Fatihətul-kitab» da adlandırılmışdır.

Belə bir təfsirə əsasən, deyə bilərik ki, Peyğəmbər (s), Əbu Bəkr, Ömər və Osman namazı Bismillahsız deyil, «Fatihətul-kitab» surəsi ilə başlamışlar.

Bu məzmunda digər rəvayətlər də nəql olunmuşdur və Şafei onların məhz belə bir mə᾽na daşıdığını qeyd etmişdir.

Apardığımız araşdırmalardan belə mə᾽lum olur ki, nəql olunmuş rəvayətlər bir-biri ilə heç bir ziddiyyət təşkil etmir və Peyğəmbərin (s) namaz qılarkən oxuduğu surələrdən əvvəl «Bismillah...» ayəsini oxuması tamamilə düzgündür.

### *QƏBİRLƏRİN ZİYARƏT OLUNMASI HAQDA NƏQL OLUNMUŞ HƏDİSLƏR*

Bu məzmunda kifayət qədər hədis və rəvayət nəql olunmuşdur. Biz isə yalnız İbni Teymiyyə adı ilə məşhur olan Əhməd ibni Əbdül-həkimin babası Əbdüssəlam ibni Abdullahdan nəql olunmuş hədislərə işarə etmək istəyirik. İlk növbədə onun

«Əl-muntəqa» adlı kitabında nəql etdiyi hədislər haqda söhbət açacaq və sonra başqalarından nəql olunmuş digər hədislərə də işarə edəcəyik.

1. Əbdüssəlam ibni Abdullah ibni Əbdül-həkim ibni Teymiyyə, Bəridədən nəql etdiyi hədisdə deyir: Peyğəmbər (s) buyurmuşdur: «Mən sizə qəbirləri ziyarət etməyi qadağan etmişdim. Lakin Allah-taala ananın qəbrini ziyarət etməyi Məhəmmədə icazə verdi. Siz də qəbirləri ziyarət edin və bilin ki, onları ziyarət etməklə axirət gününü xatırlamış olursunuz.

2. Əbu Hüreyrədən nəql etdiyi hədisdə deyir: Peyğəmbər (s) anasının qəbrini ziyarət edib ağladı. Əshab da onun ağladığını görüb ağladı. Sonra üzünü onlara tutub buyurdu: Allah-taaladan anamın bağışlanması üçün dua etməyimi istədim. Lakin o mənə buna icazə vermədi. Sonra Ondan anamın qəbrini ziyarət etməyə icazə istədim. O mənim bu istəyimi qəbul etdi və anamın qəbrini ziyarət etməyə icazə verdi. Siz də qəbirləri ziyarət edin. Çünki qəbirləri ziyarət etmək insana ölümü xatırladır.

3. Abdullah ibni Əbi Məleykədən nəql etdiyi rəvayətdə deyir: Günlərin bir günündə Ayişə qəbiristanlıq tərəfdən gəlirdi. Onu görcək dedim: Ey mö᾿minlərin anası! Haradan gəlirsən?

Dedi: Qardaşım Əbdürrəhmanın qəbrinin ziyarətindən.

Dedim: Məgər Peyğəmbər (s) qəbirləri ziyarət etməyi haram etməmişdirmi?

Dedi: Bəli, bir vaxtlar Peyğəmbər (s) qəbirləri ziyarət etməyi haram etmişdi, lakin sonra bu qadağanı aradan götürüb qəbirləri ziyarət etməyi tövsiyə edərdi.

İbni Teymiyyə rəvayəti nəql etdikdən sonra deyir: Bu rəvayəti Əsrəm də özünün «Sünən» adlı kitabında nəql etmişdir.

***Müəllif:***

Bu rəvayəti təkcə İbni Teymiyyə və Əsrəm deyil, Şeyx Məhəmməd Hamid Fəqinin «Muntəq»aya yazdığı haşiyədə dediyi kimi, İbni Macə, Hakim və Bəğəvi tərəfindən «Şərhus-sünən»də də nəql olunmuşdur.

4. Əbu Hüreyrədən nəql etdiyi hədisdə deyir: Peyğəmbər (s) qəbiristanlığa gəldi, üzünü qəbirlərə tutub buyurdu: «Salam olsun

sizə ey mö᾿minlər! Biz də sizə qovuşacağıq». İbni Teymiyyə rəvayəti nəql etdikdən sonra deyir: Bu rəvayəti Əhməd ibni Hənbəl, Müslüm və Nəsai də nəql etmişdir. Lakin Əhməd ibni Hənbəlin Aişədən nəql etdiyi bu sözlər əlavə olunmuşdur. Peyğəmbər (s) sonra buyurdu: İlahi! Bizi onların savabından məhrum etmə və onlardan sonra bizi sınağa çəkmə (ki, biz bunun öhdəsindən gələ bilməyək).

5. Bəridədən nəql etdiyi rəvayətdə deyir: Peyğəmbər (s) əshaba etdiyi tövsiyələrin birində buyurdu: Qəbirləri ziyarət edərkən sizdən biriniz desin: Salam olsun sizə ey ölülər, salam olsun sizə ey dünyasını dəyişmiş mö᾿min və müsəlmanlar! Biz də Allahın istək və iradəsi ilə sizə qovuşacağıq. Allah-taaladan bizim və sizin bağışlanmasını diləyirik.

İbni Teymiyyə hədisi nəql etdikdən sonra deyir: Əhməd ibni Hənbəl, Müslüm, İbni Macə də bu rəvayəti öz kitablarında nəql etmişlər.[1]

6. İbni Ömər Peyğəmbərdən (s) nəql etdiyi hədisdə deyir: «Kim Allahın evini ziyarət etdikdən sonra mənim qəbrimin ziyarətinə gələrsə, sanki məni sağlığımda ziyarət etmiş olur.» Bu rəvayəti Təbərani özünün «Əvasit» və Beyhəqi «Sünən» adlı kitablarında nəql etmişlər.

7. Başqa bir rəvayətdə deyilir: Peyğəmbər (s) buyurmuşdur: «Kim mənim qəbrimi ziyarət etsə, ona hökmən şəfaət edərəm.»

Bu rəvayəti İbni Udən özünün «Kamil» və Beyhəqi «Sünən» adlı kitabında nəql etmişlər.

8. Ənəs Peyğəmbərdən (s) nəql etdiyi hədisdə deyir: «Kim məni vəfat etdikdən sonra Mədinədə ziyarət edərsə, mən də qiyamət günü ona şəfaət edəcək və gördüyü işlərə şəhadət verəcəyəm.[2]

9. Əbu Hüreyrə, Peyğəmbərdən (s) nəql etdiyi hədisdə deyir: «Qohum-əqrəbasının qəbrini ziyarət edən, mərhuma salam verən şəxs oradan qalxmazdan əvvəl, ziyarətinə gəldiyi şəxsin salamını

---

[1] Ibni Teymiyyə bu beş rəvayətin hamısını özünün «Əl-müntəqa» adlı kitabında nəql etmişdir, 2-ci cild, 116-cı səh.

[2] Kənzul-ummal, 8-ci cild, 99 və digər səhifələr.

alar və onunla ünsiyyətdə olar. Bu rəvayəti Əbu Şeyx və Deyləmi də öz kitablarında nəql etmişlər.

10. Əbu Hüreyrə, Peyğəmbərdən (s) nəql etdiyi başqa bir hədisdə deyir: «Tanış qəbrin kənarından keçib ona salam verən şəxslər dərhal salamının cavabını alarlar.»

Bu rəvayəti Xətib Bağdadi, İbni Əsakir, İbni Nəccar və başqaları da nəql etmişlər. «Kənzul-ummalda» rəvayət nəql olunduqdan sonra müəllif deyir: Hədis sənəd və nəql edən şəxslər baxımından mö᾽təbər və e᾽tibarlıdır.

Müəllif «Kənzul-ummalda» qəbirləri ziyarət etmək və onları öpmək barədə səksənə yaxın hədis və rəvayət nəql etmişdir. Maraqlananlar bu kitaba müraciət edə bilərlər.[1]

11. Əbu Hüreyrə Peyğəmbərdən (s) nəql etdiyi hədisdə deyir: «Mənə salam göndərən hər bir kəsin salamını Allah-taala mənə çatdırır və mən də cavab olaraq ona öz salamımı göndərirəm.[2]

12. İbni Ömər Kə᾽bə evindəki «qara daşı» (həcərül-əsvəd) təbərrük məqsədi ilə öpüb əl çəkmək barəsində deyir: “Peyğəmbər (s) qara daşı öpər və ona əl çəkərdi.” Biri onun sözünü kəsib soruşdu: “Ehtimal vermirsənmi ki, ziyarət zamanı izdiham olduğuna görə bu iş bizim üçün çətin və ya qeyri-mümkün olsun?!” Cavabında dedi: “Ehtimalını, “belə ola bilsin”ləri kənara qoy! Çünki mən Peyğəmbərin (s) Həcərül-əsvədi öpüb ona əl çəkdiyini öz gözlərimlə gördüm.»

Bu rəvayəti Buxari də öz kitabında Əhməd ibni Hənbəlin «Müsnəd» kitabından nəql etmişdir.

13. İbni Abbas deyir: Ömərin qara daşı öpüb ona əl çəkdiyini öz gözlərimlə gördüm. Bu işi Peyğəmbərdən (s) də görərdik. Bu rəvayəti Təyalisi və başqaları da nəql etmişlər.

14. Əbu Cəfər deyir: İbni Abbas Kə᾽bə evinin divarını öpüb alnını oraya qoydu və bu işi üç dəfə təkrar etdi.

---

[1] Kənzul-ummal, 8-ci cild, 99 və digər səhifələr.

[2] Sünəni-Beyhəqi, 5-ci cild, 245-ci səh.

15. Əkrəmə İbni Abbasdan nəql etdiyi rəvayətdə deyir: «Peyğəmbərin (s) alnını «qara daşın» üzərinə qoyduğunu dəfələrlə öz gözlərimlə gördüm.[1]

16. Davud ibni Saleh deyir: Günlərin bir günündə Mərvan üzünü Peyğəmbərin (s) qəbrinə qoyan bir şəxsi görüb bərk qəzəbləndi. Boynundan yapışıb möhkəm sıxaraq ondan soruşdu: «Heç bilirsənmi nə edirsən?!» Çətinliklə də olsa deyir: «Bəli, bilirəm nə edirəm». Mərvan onun üzünə diqqətlə baxdıqda görür ki, o Əbu Əyyub Ənsaridir. Əyyub ona deyir: «Günlərin bir günündə Peyğəmbərin (s) yanında idim. Bir qədər söhbət etdikdən sonra buyurdu: Layiq və əməli-saleh insanlar sizə dini rəhbər olduqları zaman din üçün ağlayıb, qəm-qüssə çəkməyin. Din üçün o zaman ağlayıb kədərlənin ki, dininiz naşı və nalayiq insanların əlinə düşmüş olsun».

Bu rəvayəti Hakim də özünün «Mustədrək» adlı kitabında nəql etdikdən sonra onun möˀtəbər olduğunu təsdiq edir.

«Qara daşı» öpmək, əl çəkmək, onun üzərinə üz qoymağa dair nəql olunmuş rəvayətləri İbni Teymiyyə də özünün «Əl-muntəqa» adlı kitabında nəql etmişdir.

17. İbni Əsakir nəql etdiyi rəvayətdə deyir: «Bir çöl ərəbi Peyğəmbərin (s) qəbri üzərinə gəldi, bir ovuc torpaq götürdüb üz-gözünə sürtdü və dedi: Ya Rəsuləllah! Qurˀanda deyilir ki, «Onlar [möˀminlər] bir-birlərinə qarşı durduqları zaman sənə pənah gətirsinlər». Mən də özümə zülm edib [günaha düçar olub] sənə pənah gətirmişəm. Mənim Allah-taaladan bağışlanmağımı istə.»

Qəbirdən belə bir səs eşidildi: «Ey insan! Sən artıq bağışlandın.» İbni Əsakir deyir: Bu əhvalat Əli (ə)-ın hüzurunda baş vermişdir.

20. İbni Əsakir nəql etdiyi sonuncu rəvayətdə deyir: «Bilal Peyğəmbərin (s) qəbri üzərinə gəldi, üzünü qəbrin üzərinə qoyub həzin-həzin ağladı. Həsən və Hüseyn də onun yanına gəlib həsrətlə qəbrə baxdılar. Bilal onları görcək ayağa qalxdı, məhəbbət göstərərək üz-gözlərindən öpdü və şirin dillə söhbətə tutdu.

---

[1] Sünəni Beyhəqi, 5-ci cild, 74-cü səh.

### *ALUSİNİN ŞİƏ MƏZHƏBİNƏ VURDUĞU TÖHMƏT*

Bir qədər əvvəl Razinin şiə məzhəbi haqda irəli sürdüyü təhqiramiz nəzəriyyə ilə tanış oldunuz. Təəssüflər olsun ki, belə bir xəstəliyə Alusi də mübtəla olmuşdur.

***«Ağ sap qara sapdan fərqlənincəyə qədər yeyib için»***[1] ayəsini təfsir edərkən deyir: Şiələr gün çıxdığı zaman oruc tutmağa başlayırlar. Onların əqidəsinə əsasən, oruc tutan hər bir şəxs gün çıxana qədər yeyib-içməkdə tamamilə azaddır.

Qəribədir, görəsən Alusi bu mə`lumatları hansı mənbədən əldə edib və hansı dəlil və sübutlara əsasən, belə bir nəticəyə gələ bilmişdir?! O, şiələrin hələ qədimdən məskun olduğu və əhalinin əksəriyyətini təşkil etdiyi Bağdad şəhərində yaşamış və ilk təhsilini orada almışdır. Belə bir şəraitdə, o əhalinin hətta yaşayış tərzinə nəzər salıb düzgün nəticəyə gələ bilərdi.

Bütün bunlarla yanaşı, o, şiə alimlərinin tə`lif etdikləri mö`təbər şəriət kitablarından da xəbərsiz deyildir. Lakin təəccüb doğuran budur ki, görəsən belə bir şəraitdə onu bu nəticəyə gəlməyə və heç bir əsası olmayan və eyni zamanda müsəlman məzhəbləri arasında ixtilafa səbəb olacaq belə bir nəzəriyyə irəli sürməyə vadar edən nə olmuşdur?

Bəli, müsəlmanlar arasında ixtilafların yaranmasına və fikir ayrılıqlarının meydana gəlməsinə səbəb olan məhz bu kimi qərəzli nəzəriyyə və şər`i fətvalar olmuşdur. Kim bilir, bəlkə də bütün bunlara səbəb gözə görünməyən, lakin pərdə arxasında fəaliyyət edən başqa mənfi ünsürlərdir? Bəlkə də ədavət toxumunu səpməklə müsəlmanlar özləri balta sapına çevrilir və bir-birlərinin qatı düşməni olurlar?!

### *MÜƏLLİFİN HİCAZ ALİMLƏRİNİN BİRİ İLƏ APARDIĞI ELMİ MÜBAHİSƏ*

Hicri-qəməri 1353-cü (Miladi 1932-ci) ildə Kə`bə evini ziyarətə getdik. Peyğəmbər (s) məscidində Zeynulabidin adlı olduqca savadlı bir qoca məscidə nəzarət edir, möhürlə namaz

---

[1] Bəqərə-187

qılan şəxslərdən möhürlərini alır və onları möhürlə namaz qılmağa qoymurdu.

Ona yaxınlaşıb dedim: Peyğəmbərin (s) hərəmində müsəlmanların icazəsi olmadan onların şəxsi əşyalarına toxunmaq və ona sahib olmaq olarmı?

Dedi: Xeyr.

Dedim: Belə isə hansı haqla müsəlmanların mallarını qarət edirsən? Halbuki, onlar Allahın birliyinə və həzrəti Məhəmmədin (s) haqq olaraq peyğəmbərliyə göndərildiyinə şəhadət verirlər.

Dedi: Onlar müsəlman deyil, müşrikdirlər. Möhürü özləri üçün büt edib onlara səcdə edirlər.

Dedim: İstəyirsənmi bu barədə bir qədər ətraflı söhbət edək?

Dedi: Bu lap yerinə düşərdi!

Onunla saatlarla söhbət etdim, nəhayət tutduğu işdən peşman olub üzr istəməli oldu. Allah-taaladan bağışlanmasını istəyib dedi: Mən təəssübkeş və inadkar insan deyiləm. Bu günə qədər həqiqət bəlli olmadığı üçün səhvə yol vermişəm.

Sonra o məndən başqa mövzular ətrafında da müzakirə etməyimizi xahiş etdi. Biz gecələr Peyğəmbər (s) məscidinə gəlir, orada müxtəlif mövzular ətrafında bəhs edir və fikir mübadilələri aparırdıq. Oraya müxtəlif məzhəblərdən olan şəxslər gəlir və bizim məclislərimizdə iştirak edirdilər. Mədinədə olduğum on gün ərzində hər gün Peyğəmbər məscidinə gəlir və oraya toplaşanları maraqlandıran suallara cavab verirdik. Nəticədə həmən şəxs şiə məzhəbinə qarşı tutduğu qərəzli mövqedən əl çəkib bu məzhəbə ehtiramla yanaşmağa başladı.

Şeyx Zeynulabidin müzakirələrimizin nəticəsini «Ummul Qura» jurnalında çap etdirəcəyinə söz verdi. Onun fikrincə söhbətlərimiz haqsevər və təəssübsüz insanlar üçün olduqca xeyirli ola bilərdi. Bu səbəbdən də söhbətlərimizin məqalələr şəklində çap olunmasına böyük əhəmiyyət verirdi. Hətta jurnalın bir nüsxəsini mənə göndərəcəyinə söz verdi. Lakin verdiyi sözə əməl etmədi. Bəlkə də mövcud şəraiti nəzərə alıb fikrindən dönmüş və ya qarşısına çıxan maneələr onu verdiyi sözə əməl etməməyə vadar etmişdir.

### *İMAM HÜSEYN (Ə)-IN TÜRBƏTİNİN FƏZİLƏTİ*

Əbu Yə҆la öz kitabında və İbni Əbi Şəybə və Səid, Mənsurun «Musnəd» adlı kitabında Əmirəl-mö҆minin Əli ibni Əbu Talib (ə)-dan nəql etdiyi hədisdə deyir: «Günlərin bir günündə Peyğəmbərin (s) yanına getdim. Onun gözlərini yaşlı görüb təəccüb etdim. Soruşdum: Ya Rəsuləllah! Sizi narahat edən bir kəsmi vardır? Ağlamağınızın səbəbi nədir?

Buyurdu: Ya Əli, bir qədər əvvəl Cəbrail mənim yanımda idi. O deyir ki, Hüseyn Fərat çayının yaxınlığındakı səhrada amansızcasına qətlə yetiriləcəkdir. Onun türbətinin ətrini duymaq istəyirsənmi? Dedim: “Bəli, ya Rəsuləllah.” Əlində tutduğu torpağı ovucuma töküb dedi: “Al iylə.” Torpağa bir qədər baxdıqdan sonra ixtiyarsız olaraq ağladım.»

Təbərani özünün «Böyük tarix» adlı kitabında Ümmi Sələmədən nəql edərək deyir: Gecə yarısı Peyğəmbər (s) yuxudan ayılıb ibadətlə məşğul idi. Yuxudan ayılıb onun olduqca qəmgin və mə҆yus olduğunu gördüm. O, həsrətlə əlindəki qırmızıya çalan torpağa baxır və sanki nəyinsə həsrətini çəkirdi.

Soruşdum: Ya Rəsuləllah! Bu nə torpaqdır belə?

Buyurdu: “Cəbrail deyir ki, Hüseyn İraq torpağında qətlə yetiriləcəkdir. Mən ondan Hüseynin qətlə yetiriləcək torpaqdan bir qədər gətirməsini istədim. Əlimdə gördüyün torpaq oranın torpağındandır.”

İbni Əbi Şəybə, İbni Macə Təyalisi və Əbu Nəim bu rəvayəti Ümmi Sələmədən və Malik ibni Ənəsdən nəql etmişlər.

### *SƏCDƏ AYƏSİNİN TƏFSİRİ*

Həsən ibni Mənsur deyir: İblis, Adəm (ə)-a səcdə etməyə əmr olunduqda dedi: İlahi! Adəmə yalnız o zaman səcdə edərəm ki, səcdənin əzəmət və şəfaətini ondan götürmüş olasan. Və mənim Sənə səcdə etməyim yalnız Sənin böyüklüyünə bir nişanə olsun. Bir tərəfdən mənə Adəmə səcdə etməyimi əmr edirsən, digər tərəfdən isə Özündən savayı başqa bir varlığa səcdə etməyi qadağan edirsən. Allah-taala buyurur: “Əgər Adəmə səcdə etməsən səni əbədi əzaba düçar edəcəyəm.”

İblis dedi: “İlahi! Məni əzab və işgəncə içindəmi görmək istəyirsən?”

Allah-taala buyurur: “Bəli!”

İblis dedi: “Nəzər salaraq məni əzab və işgəncə içində görməyin mənim üçün hər şeydən şirin və əzizdir. Elə bu da məni əbədi olaraq əzab içində qalmağıma vadar edir. Nə istəyirsən, onu da et!”[1]

***Müəllif:***

Daim yenilik axtaran Ruzbəha və onun tərəfdarlarının gözləri aydın olsun ki, o öz təfsirində əql, məntiq, Qur`an və dini əsaslara müvafiq olmayan belə bir iftiraya nail ola bilmişdir. ***(İstehza və təəssüf hissi ilə deyilir= Red.)***

### *ALLAH-TAALA İLƏ İBLİSİN SÖHBƏTİ*

İmam Sadiq (ə)-dan nəql olunmuş rəvayətdə deyilir: İblis Allah-taalaya deyir: Əgər məni Adəmə səcdə etməkdən azad etsən, Sənə elə ibadət edərəm ki, nə yaxın olan mələklərin, nə də göndərdiyin peyğəmbərlər buna qadir olmazlar.

Allah-taala buyurdu: Mənim sənin ibadətinə heç bir ehtiyacım yoxdur. Sən Mənə öz istədiyin kimi yox, Mənim istək və əmrimə əsasən, ibadət etməlisən.

Başqa bir rəvayətdə deyilir: Dindən çıxmış bir şəxs İmam Sadiq (ə)-dan soruşur: Allah-taala mələklərə Adəmə səcdə etməyi əmr etmişdir?

İmam Sadiq (ə) sualın cavabında buyurur: Hər kəs Allahın əmrilə səcdə edərsə, Allaha səcdə etmiş olur. Demək mələklər Adəmə səcdə etsələr də, Allahın əmri ilə səcdə etdikləri üçün Allaha səcdə etmiş olurlar.

### *İSLAM İKİ ŞƏHADƏT VERMƏKLƏ QƏBUL OLUNUR*

Səmai, İmam Sadiq (ə)-dan nəql etdiyi hədisdə deyir: İslam, Allahın birliyinə şəhadət verməkdən ibarətdir.

«Əşhədu əlla ilahə illəllah və əşhədu ənnə Muhəmmədən rəsulullah».

---

[1] Ibni Ruzbəhanın təfsiri, 21-ci Hind çapı.

Bu iki şəhadəti verməklə insanların can və malları toxunulmaz qalır, vərəsəlik, nikah qanunları və digər şeylər qüvvəyə minir və icra olunur.

Əbu Hüreyrənin Peyğəmbərdən (s) nəql etdiyi hədisdə deyilir: Mən bu camaatla Allahın vəhdaniyyətinə, mənim nübüvvətimə və mənə nazil olanlara şəhadət verib iman gətirmələri üçün mübarizə aparıram. Əgər onlar bu iki şeyə iman gətirib qəbul etsələr,+ amanda olarlar və xalqın hüquq və işlərinə dəxalət etməyincə heç kəsin onların can və malına təcavüz etmək haqqı olmaz.

Bu hədisi Cabir və Əbdullah ibni Ömər azacıq fərqlə nəql etmiş və onu əhli-sünnə mühəddisləri öz mö᾿təbər kitablarında gətirmişlər: Səhihi Buxari, 1/39, Səhihi Termizi, 1/68, Sünəni Nəsai, 2/224 və 161, Əhməd ibni Hənbəl, 2/528 və 346 (Əbu Hüreyrədən 3/24 və 199, Ənəsdən, 5/246, Mə᾿az ibni Cəbəldən, 5/433,).

Yenə də Əbu Hüreyrə həzrət Rəsuli-əkrəmdən (s) nəql edərək deyir: Mən camaatla «la ilahə illəllah» kəlməsinə görə mübarizə aparıram. Hər kəs bu sözü qəbul edib desə, xalqın hüququna təcavüz etməyincə canı və malı amandadır, əməllərinin hesabı da Allahın Öz öhdəsinədir.

Bu rəvayəti Müslüm, Əbu Davud, İbni Macə, Termezi, Nəsai, Əhməd, Təyalisi və Buxari də nəql etmişlər.

Ovs ibni Səqəfi deyir: Biz Mədinə məscidində idik. Bu zaman həzrət Rəsuli-əkrəm (s) oraya varid oldu, bir kişi ona yaxınlaşıb nə isə bir söz dedi və Peyğəmbər də (s) onun cavabında buyurdu: Get de onu öldürsünlər! O kişi gedib yenidən qayıtdı. Həzrət Peyğəmbər (s) onu yanına çağırıb buyurdu: O, Allahın birliyinə və mənim peyğəmbərliyimin həqqaniyyətinə şəhadət verirmi?

Dedi: Bəli!

Peyğəmbər buyurdu: İndi ki, belədir, get onlara de ki, onu öldürməyib azad etsinlər. Çünki mən Allah tərəfindən insanların Onun birliyinə və mənim peyğəmbərliyimin həqqaniyyətinə şəhadət vermələrinə əmr olunmuşam. Bu iki həqiqətə e᾿tiraf etdikləri zaman can və malları amanda qalacaq və gördükləri

bütün işlərin müqabilində ilahi qanunlara müvafiq olaraq cəzalandırılıb-mükafatlandırılacaqlar.

Bu rəvayəti Əbu Davud, Təyalisi, Əhməd Darmi və Təhavi də nəql etmişlər.

### *İBADƏTDƏN MƏQSƏD VƏ ONUN NÖVLƏRİ*

Koleyni İmam Sadiq (ə)-dan nəql etdiyi rəvayətdə deyir: İbadət üç qismə bölünür: Bə`ziləri Allahdan qorxduqları üçün Ona ibadət edərlər. Bu, qul və kölələrin ibadətinə bənzəyir. Bə`ziləri Allaha savab və qazanmaq üçün, muzdurlar kimi nə isə əldə etmək məqsədi ilə ibadət edərlər. Bə`ziləri də Allaha saf niyyətlə, eşq və məhəbbətlə ibadət edərlər. Bu isə azad insanların ibadətidir.

Bu mətləbi bir qədər fərqli bəyanla İmam Əli (ə) belə buyurmuşdur: «Bə`ziləri Allaha tacirlər kimi nəyinsə müqabilində (maddi maraq olmaqla), bə`ziləri kölələr kimi qorxu üzündən, bə`ziləri də azad insanlar kimi, onlara nəsib olan ne`mətlərin şükrünü yerinə yetirmək üçün ibadət edərlər.[1]

### *ƏMRUN BƏYNƏL-ƏMREYN MƏSƏLƏSİ*

Həsən və Şami deyir: İmam Rza (ə)-dan soruşdum: Allah-taala bütün işləri insanların öz öhdələrinə buraxmışdır? Buyurdu: Xeyr. O, təsəvvür olunandan daha uca və daha tədbirlidir və bütün işləri heç də insanların öz öhdələrinə buraxmamışdır.

Dedim: Demək, Allah-taala insanların bütün işlərinə dəxalət edərək onları günah etməyə məcbur edir.

İmam Riza (ə) cavab verdi: Xeyr. Allah-taala bütün bu yanlış təsəvvürdən uca və münəzzəhdir. Sonra sözlərinə davam etdi: «Ey Adəm övladları, Mən sənin xeyirxah işlərinə, sənin özündən daha yaxınam (agaham). Çünki gördüyün bütün işləri ixtiyarına qoyduğum güc və qüvvə və bacarıqla həyata keçirirsən və tutduğun günah işlərə sən Məndən daha çox yaxınsan. Çünki insan bütün günah işləri Allahın ona bəxş etdiyi güc və bacarıqla əncam verir.»

---

[1] Nəhcül-bəlağə, 229-cu hikmət.

***ŞƏFAƏT HƏDİSİNİ NƏQL EDƏN MƏNBƏLƏR***

Şəfaət haqda bir çox hədis və rəvayətlər nəql olunmuşdur. Biz nümunə olaraq onlardan bir neçəsinə işarə etdik. Bu məzmunda nəql olunmuş rəvayətlərdən biri də Peyğəmbərin (s) buyurduğu — «Hər bir peyğəmbərin [ümmətin şəfaət olunması üçün] dua etmə haqqı olmuş və etdikləri dualar Allah-taalanın dərgahında qəbul olunmuşdur. Lakin mən ümmətimin şəfaət olunmasında edəcəyim duanı qiyamət gününə saxladım»— hədisidirş

Bu hədis aşağıdakı mənbələrdə nəql olunmuşdur:

"Səhihi-Buxari" (dua fəsli), 1-ci cild, 145-ci səh. "Səhihi-Müslüm", 1-ci cild, 130-cu səh. (Cabir və Ənəsə istinad olunmadan).

Malik ibni Ənəs «Muvəttə», 1-ci cild, 166-cı səh (Əbu Hüreyrədən). Əhməd ibni Hənbəlin «Müsnəd» kitabı, 2-ci cild, 215-313, 181, 396, 109, 426, 486-cı səh.

MÜƏLLİFDƏN ....................................................................................9
ON İKİNCİ FƏSİL ..........................................................................13
QUR`ANDA NƏSX............................................................................13
NƏSXİN MƏ`NASI..........................................................................15
NƏSXİN LÜĞƏVİ MƏ`NASI ..........................................................15
NƏSXİN İSTİLAHİ MƏ`NALARI ....................................................16
İLAHİ HÖKMLƏRİN NƏSXİ ..........................................................17
NƏSXİN QEYRİ-MÜMKÜNLÜYÜ ..................................................18
TÖVRAT VƏ İNCİLDƏ NƏSX ........................................................20
İSLAMDA NƏSX............................................................................22
NƏSX ..............................................................................................24
NƏSX EDƏN VƏ NƏSX OLUNMUŞ AYƏLƏRİN ARAŞDIRILMASI..........................................................................26
1. KİTAB ƏHLİNİN ƏFV OLUNDUĞUNU BƏYAN EDƏN AYƏNİN NƏSXİ..........................................................................26
2. QİBLƏ AYƏSİNİN NƏSXİ..........................................................29
3. QİSAS AYƏSİNİN NƏSXİ ..........................................................31
QULUN İNTİQAMININ ALINMASI ÜÇÜN AZAD BİR ŞƏXSİN ÖLDÜRÜLMƏSİ.....................................................................33
KİŞİNİN QADININ QİSASI OLARAQ ÖLDÜRÜLMƏSİ (QADIN ÖLDÜRMÜŞ KİŞİNİN QİSASI)..............................35
4. VƏSİYYƏT AYƏSİNİN NƏSXİ..................................................37
PEYĞƏMBƏRİN (S) BUYURDUQLARI İLƏ ŞƏR`İ HÖKMLƏRİN NƏSX OLMA HALLARI...............................39
5. ORUCLUQ AYƏSİNİN NƏSXİ....................................................40
6. FİDYƏ AYƏSİNİN NƏSXİ..........................................................42
7. CİHAD AYƏSİNİN NƏSXİ ..........................................................45
8. HARAM [MÜQƏDDƏS] AYLARDA MÜHARİBƏNİN HARAM OLDUĞUNU BƏYAN EDƏN AYƏNİN NƏSXİ ....46
9. ƏHLİ KİTAB QADINLARI İLƏ EVLƏNMƏYİ BƏYAN EDƏN AYƏLƏRİN NƏSXİ ....................................................48
10. ƏQİDƏ AZADLIĞI AYƏSİNİN NƏSXİ ..........................50
11. ZİNAYA DAİR VERİLƏN ŞƏHADƏT AYƏLƏRİNİN NƏSXİ..........................................................................55
HALAL QADINLAR HAQDA NAZİL OLMUŞ AYƏNİN NƏSXİ..........................................................................58

13. MÜT`Ə AYƏSİNİN NƏSXİ ....................................................59
İRƏLİ SÜRÜLƏN NƏZƏRİYYƏLƏR VƏ CAVABLAR ...........62
TƏLAQ AYƏSİ İLƏ MÜT`Ə HÖKMÜNÜN NƏSXİ .................62
MÜT`Ə AYƏSİNİN İRS AYƏSİ İLƏ NƏSXİ.........................63
2. MÜT`Ə AYƏSİNİN İRS [VƏRƏSƏLİK] AYƏSİ İLƏ NƏSXİ....................................................................................63
3. PEYĞƏMBƏRDƏN (S) NƏQL OLUNMUŞ RƏVAYƏTLƏ MÜT`Ə AYƏSİNİN NƏSXİ....................................................64
MÜT`ƏNİN HARAMLIĞINA DAİR NƏQL OLUNMUŞ RƏVAYƏTLƏRİN TƏHLİLİ ..................................................68
MÜT`Ə AYƏSİNİN ALİMLƏR İCMASI TƏRƏFİNDƏN NƏSX OLUNMASI ................................................................73
MÜT`ƏDƏ DAŞQALAQ .......................................................75
MÜT`Ə BARƏDƏ YANLIŞ TƏSƏVVÜRLƏR ......................77
NƏTİCƏ ..................................................................................82
İRS AYƏSİNİN NƏSXİ .........................................................82
SƏRXOŞLUQ AYƏSİNİN NƏSXİ .........................................87
FƏRZİYYƏ VƏ CAVAB ........................................................90
KAFİRLƏRİN TOXUNULMAZLIĞI HAQDA NAZİL OLMUŞ AYƏNİN NƏSXİ...................................................................91
MÜHAKİMƏ AYƏSİNİN NƏSXİ .........................................95
ŞƏHADƏT [ŞAHİDLİK VERMƏK] AYƏSİNİN NƏSXİ.......97
AYƏNİN NƏSX OLUNMADIĞINI SÜBUTA YETİRƏN DƏLİLLƏR ............................................................................98
NƏSX NƏZƏRİYYƏSİ TƏRƏFDARLARININ İSTİNAD ETDİKLƏRİ DƏLİLLƏR.......................................................99
ZƏKAT AYƏSİNİN NƏSXİ .................................................102
ƏTİ HARAM OLAN HEYVANLARIN YEYİLMƏSİNƏ DAİR NAZİL OLMUŞ AYƏNİN NƏSXİ........................................106
DÖYÜŞDƏN FƏRARİLİK AYƏSİNİN NƏSXİ ...................107
SÜLH AYƏSİNİN NƏSXİ ....................................................110
DÖYÜŞ ZAMANİ [DÜŞMƏNƏ QARŞI] MÜQAVİMƏT GÖSTƏRMƏK AYƏSİNİN NƏSXİ......................................111
CİHAD AYƏSİNİN NƏSXİ ..................................................114
AYƏNİN NƏSX OLUNMASINA DAİR İRƏLİ SÜRÜLMÜŞ BAŞQA BİR FƏRZİYYƏ......................................................115
İZN AYƏSİNİN NƏSXİ ........................................................116

MÜHARİBƏDƏN BOYUN QAÇİRMAQ HAQDA NAZİL OLMUŞ AYƏNİN NƏSXİ ....117
SƏBIR AYƏSİNİN NƏSXİ ....118
BAĞIŞLAMA VƏ KAFİRLƏRDƏN ÜZ DÖNDƏRMƏ AYƏSİNİN NƏSXİ ....119
ŞƏRABIN HALALLIĞINA DAİR NAZİL OLMUŞ AYƏNİN NƏSXİ ....120
ZİNAKAR KİŞİ VƏ QADININ EVLƏNMƏSİNƏ DAİR NAZİL OLMUŞ AYƏNİN NƏSXİ ....123
GÜZƏŞT AYƏSİNİN NƏSXİ ....124
DÖYÜŞDƏ ƏSİR GÖTÜRÜLƏNLƏR HAQDA NAZİL OLMUŞ AYƏNİN NƏSXİ ....126
DÖYÜŞDƏ İŞTİRAK EDƏN KAFİRLƏRİN HÖKMÜ ....127
AYƏ HAQDA İRƏLİ SÜRÜLMÜŞ DİGƏR NƏZƏRİYYƏLƏR ....130
DİLƏNÇİLƏRİN HAQLARINI BƏYAN EDƏN AYƏNİN NƏSXİ ....134
NƏCVA AYƏSİNİN NƏSXİ ....137
PEYĞƏMBƏRLƏ (S) GÖRÜŞÜB SÖHBƏT APARMAĞA NƏ ÜÇÜN SƏDƏQƏ VERİLMƏLİDİR? ....139
HÖKM NƏ ÜÇÜN NƏSX OLUNMUŞDUR? ....140
SUAL VƏ CAVAB ....141
AÇIQ-AŞKAR TƏƏSSÜB VƏ QƏRƏZÇILİK ....144
AYƏSİNİN NƏSXİ ....147
*ON ÜÇÜNCÜ FƏSİL* ....149
YARADILIŞDA BƏDA ....149
*İLAHİ İRADƏ VƏ TƏQDİR ARASINDA OLAN RABİTƏ* ....151
NƏ ÜÇÜN BƏDA HAQDA SÖHBƏT AÇIRIQ? ....151
MÜQƏDDİMƏ ....151
BƏDANIN HƏQİQİ MƏ᾿NA VƏ MƏFHUMU ....152
YƏHUDİLƏRİN ALLAHIN QÜDRƏTİNƏ OLAN BAXIŞI ....152
ŞİƏ NÖQTEYİ-NƏZƏRİNDƏN BƏDAYA BAXIŞ ....153
BƏDA VƏ QƏZA-QƏDƏRİN NÖVLƏRİ ....153
QƏTİ QƏZA VƏ QƏDƏR ....154
QƏTİ OLMAYAN QƏZA VƏ QƏDƏR ....155
BƏDANI SÜBUTA YETİRƏCƏK DƏLİLLƏR ....155
BƏDANIN İSTİFADƏ OLUNMADIĞI HALLAR ....157
BƏDAYA OLAN ƏQİDƏNİN YARANMASI ....158
ŞİƏ MƏZHƏBİNİN BƏDAYA OLAN BAXIŞI ....161
*ON DÖRDÜNCÜ FƏSİL* ....165

QUR`ANIN TƏFSİRİNƏ DAİR ÜMUMİ QANUNLAR...........165
*TƏFSİRİN MƏ'NASI* ....................................................................167
QUR`ANIN TƏFSİRİ ÜÇÜN MÖ`TƏBƏR SAYILAN SƏNƏDLƏR..........................................................................167
QUR`ANIN VAHİD XƏBƏRLƏ TƏFSİRİ ...........................168
QUR`AN AYƏLƏRİNİN VAHİD XƏBƏRLƏ MÜƏYYƏN VƏ XÜSUSİ HAL TAPMASI .....................................................171
MÜƏLLİFİN NƏZƏRİ .........................................................172
SUAL VƏ CAVABLAR........................................................172
*ON BEŞİNCİ FƏSİL* ....................................................................177
QUR`ANIN QƏDİM VƏ YA HADİS OLMASI ....................177
*QUR'ANIN QƏDİMLİYİNƏ VƏ NƏFSİ [MƏ'NƏVİ] KƏLAMA ƏSASLANAN ƏQİDƏNİN YARANMASI*.........................................179
ALLAHIN ZATİ VƏ FE`Lİ SİFƏTLƏRİ ..............................180
ZATİ VƏ FE`Lİ SİFƏTLƏR ARASINDAKI FƏRQ .................180
NƏFSİ [MƏ`NƏVİ] KƏLAM NƏDİR? ................................181
NƏFSİ KƏLAMDA APARILAN ARAŞDIRMALAR...........182
NƏFSİ KƏLAM NƏYİ TƏLƏB EDİR .................................185
ƏŞAİRƏNİN NƏFSİ KƏLAMA DAİR GƏTİRDİKLƏRİ DƏLİLLƏRİN ARAŞDIRILMASI ........................................186
*ON ALTINCI FƏSİL* .....................................................................191
HƏMD SURƏSİNİN TƏFSİRİ..................................................191
*HƏMD SURƏSİ HAQDA ÜMUMİ MƏ'LUMATLAR*......................194
HƏMD SURƏSİNİN FƏZİLƏTİ ...........................................195
HƏMD SURƏSİNİN AYƏLƏRİNİN SAYI ..........................196
HƏMD SURƏSİNİN HƏDƏFİ..............................................196
BİSMİLLAH AYƏSİNİN TƏFSİRİ......................................200
ƏDƏBİ İZAH ..........................................................................209
SURƏLƏRİN BİSMİLLAH AYƏSİ İLƏ BAŞLANMASI.....211
BƏSMƏLƏ AYƏSİ HAQDA MÜXTƏLİF MƏSƏLƏLƏR ......212
QUR`AN RƏHMƏT VƏ BAĞIŞLANMA KİTABIDIR ........212
RƏHİM KƏLMƏSİNİN RƏHMANDAN SONRA GƏLMƏSİNİN SƏBƏBİ .......................................................213
BİSMİLLAH AYƏSİ QUR`ANIN BİR HİSSƏSİNİ TƏŞKİL EDİRMİ? ................................................................................214
DÜZGÜN NƏZƏRİYYƏ VƏ BUNU SÜBUTA YETİRƏCƏK DƏLİLLƏR ...........................................................................216
ƏHLİ-BEYT RƏVAYƏTLƏRİ .............................................216

ƏHLİ-SÜNNƏ RƏVAYƏTLƏRİ ....................................... 217
ZİDDİYYƏTLİ RƏVAYƏTLƏR ....................................... 219
BİRİNCİ RƏVAYƏTƏ VERİLƏN CAVAB ....................................... 219
İKİNCİ RƏVAYƏTƏ VERİLƏN CAVAB ....................................... 220
MÜSƏLMANLAR ....................................... 221
BİSMİLLAH AYƏSİ BÜTÜN NÜSXƏLƏRDƏ YAZILMIŞDIR ....................................... 221
MÜXTƏLİF DƏLİLLƏR ....................................... 222
HƏMD SURƏSİNİN BİRİNCİ HİSSƏSİNİN TƏFSİRİ ....................................... 226
OXUNUŞ QAYDASI ....................................... 226
BU İKİ QİRAƏTİN HANSI BİRİ DÜZGÜNDÜR? ....................................... 226
DIGƏRLƏRİN VERDİYİ CAVAB ....................................... 228
BİZİM CAVAB ....................................... 229
AYƏDƏ İŞLƏNƏN SÖZLƏR ....................................... 231
HƏMD-ŞÜKÜR ALLAHA MƏXSUSDUR ....................................... 232
HƏMD SURƏSİNİN TƏFSİRİ ....................................... 236
İKİNCİ HİSSƏ ....................................... 236
İBADƏT ....................................... 239
İSLAMDA İTAƏT HÖKMÜ ....................................... 244
ALLAHA İTAƏT ....................................... 244
ALLAHDAN QEYRİSİNƏ İTAƏT ....................................... 244
PƏRƏSTİŞ VƏ TƏ`ZİM ARASINDA OLAN FƏRQ ....................................... 246
ALLAHDAN QEYRİSİ ÜÇÜN EDİLƏN SƏCDƏ ....................................... 250
İFTİRA VƏ TÖHMƏT ....................................... 251
İMAM HÜSEYN (Ə)-IN TÜRBƏTİ ....................................... 252
ADƏM (Ə)-IN SƏCDƏ ETMƏSİ BARƏDƏ İRƏLİ SÜRÜLMÜŞ NƏZƏRİYYƏLƏR ....................................... 253
NƏTİCƏ ....................................... 255
ŞİRK NƏYƏ DEYİLİR ....................................... 255
İBADƏT NƏDİR? ....................................... 256
ŞƏFAƏT VƏ KÖMƏK DİLƏMƏK ....................................... 259
ŞƏFAƏT ....................................... 262
ŞİƏ MƏNBƏLƏRİNDƏ NƏQL OLUNMUŞ ŞƏFAƏT RƏVAYƏTLƏRİ ....................................... 263
ƏHLİ-SÜNNƏ MƏNBƏLƏRİNDƏ ŞƏFAƏT HAQDA NƏQL OLUNMUŞ RƏVAYƏTLƏR ....................................... 264
HƏMD SURƏSİNİN TƏFSİRİ ....................................... 266
SONUNCU HİSSƏ ....................................... 266
OXUNUŞ QAYDASI ....................................... 266
LÜĞƏT VƏ TƏRKİB HİSSƏLƏRİ ....................................... 267

HƏRƏKƏLƏR........................................................................270
HİDAYƏT ...........................................................................273
HİDAYƏTİN MƏRHƏLƏ VƏ DƏRƏCƏLƏRİ ...................274
NƏTİCƏ ...............................................................................276
*ON YEDDİNCİ FƏSİL* ...................................................................277
ƏLAVƏ VƏ HAŞİYƏLƏR .......................................................277
*MÜT`Ə HƏDİSİNİN TƏHRİFİ* .......................................................279
MƏHƏMMƏD ƏBDUHUN ÜÇ DƏFƏ TƏLAQ VERİLMƏSİNƏ DAİR İRƏLİ SÜRDÜYÜ NƏZƏRİYYƏ ...281
RAZİNİN ŞİƏ MƏZHƏBİNƏ QARŞI YAXDIĞI İFTİRA ....282
ALLAHIN MƏXLUQATI YARATMAQ İSTƏMƏSİNƏ DAİR NƏQL OLUNMUŞ HƏDİSLƏR..........................................282
TALE VƏ AQİBƏT ÜÇÜN EDİLƏN DUALARIN TƏ`SİRİ HAQQINDA NƏQL OLUNMUŞ HƏDİSLƏR .....................283
BİSMİLLAH AYƏSİ ƏTRAFINDA APARILAN FİKİR MÜBADİLƏLƏRİ ...............................................................284
YARADILIŞIN BAŞLANMASI HAQDA NƏQL OLUNMUŞ HƏDİS VƏ RƏVAYƏTLƏR ................................................284
BISMILLAH AYƏSİNİN QUR`ANIN BİR HİSSƏSİ OLUB-OLMAMASI HAQDA NƏQL OLUNMUŞ HƏDİSLƏR .......285
MÜAVİYƏNİN NAMAZ QILARKƏN BISMILLAH AYƏSİNİ UNUTMASI ..........................................................................286
BISMILLAH AYƏSİNİN NAMAZDA OXUNMASI ............286
QƏBİRLƏRİN ZİYARƏT OLUNMASI HAQDA NƏQL OLUNMUŞ HƏDİSLƏR .......................................................288
ALUSİNİN ŞİƏ MƏZHƏBİNƏ VURDUĞU TÖHMƏT .......293
MÜƏLLİFİN HİCAZ ALİMLƏRİNİN BİRİ İLƏ APARDIĞI ELMİ MÜBAHİSƏ...............................................................293
İMAM HÜSEYN (Ə)-IN TÜRBƏTİNİN FƏZİLƏTİ............295
SƏCDƏ AYƏSİNİN TƏFSİRİ..............................................295
ALLAH-TAALA İLƏ İBLİSİN SÖHBƏTİ............................296
İSLAM İKİ ŞƏHADƏT VERMƏKLƏ QƏBUL OLUNUR ...296
İBADƏTDƏN MƏQSƏD VƏ ONUN NÖVLƏRİ .................298
ƏMRUN BƏYNƏL-ƏMREYN MƏSƏLƏSİ .........................298
ŞƏFAƏT HƏDİSİNİ NƏQL EDƏN MƏNBƏLƏR ...............299